# Azad Kəlbəcər

## (Xronika AZƏRTAC-ın materialları əsasında tərtib edilir)

***2024, 19 aprel***
- Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb - VİDEO

***2024, 18 aprel***
- Tariximizin qanlı səhifələrindən biri olan Başlıbel faciəsindən 31 il ötür

***2024, 15 aprel***
- ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO

***2024, 12 aprel***
- Kəlbəcərdə əl qumbaraları və sursat aşkarlanıb
- "Azərişıq": Kəlbəcərdə 35 kV-luq elektrik xətlərinin çəkilişi sürətlə aparılır

***2024, 9 aprel***
- Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun inşasına başlanılıb
- Ermənistan müxtəlif təxribatlar törətməklə Azərbaycanı cavab tədbirləri görməyə təhrik etməyə çalışır

***2024, 8 aprel***
- Ağdaban faciəsindən 32 il ötür

***2024, 7 aprel***
- Ağdaban ictimaiyyəti və Azərbaycanın QHT təmsilçiləri beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb
- Azərbaycan Ordusunun mövqeləri 16 dəfə atəşə tutulub

***2024, 6 aprel***
- Azad olunmuş rayonlarda quduzluğa qarşı peyvəndləmə tədbirləri görülüb
- Müdafiə Nazirliyi: Ötən sutka ərzində mövqelərimiz 30 dəfə atəşə tutulub – VİDEO

***2024, 5 aprel***
- İtaliya saytı Azərbaycanın işğaldan azad etdiyi ərazilərdəki mina problemindən yazıb
- Ağdaban kəndinin qəbiristanlığında minalanmış sahə aşkarlanıb – VİDEO

***2024, 4 aprel***
- İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur

***2024, 2 aprel***
- Kəlbəcərin müdafiəsi zamanı hərbçilərin, helikopterçilərin və kəlbəcərli igidlərin qəhrəmanlığı mülki əhalini soyqırımı təhlükəsindən xilas etmişdi

***2024, 30 mart***
- DİN: Kəlbəcərdə artilleriya qurğuları və sursat aşkar edilib
- Kəlbəcər və Ağdərədə ermənilərin tərk etdiyi mövqelərdə 8 ədəd zenit topu aşkarlanıb – VİDEO

***2024, 28 mart***
- Kəlbəcərdə əl qumbaraları aşkarlanıb

***2024, 21 mart***
- Kəlbəcərdə silah-sursat aşkarlanıb

***2024, 13 mart***
- Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu

***2024, 24 fevral***
- Kəlbəcər istiqamətində mövqelərimiz yenidən atəşə tutulub - VİDEO

***2024, 21 fevral***
- Direktor müavini: Azad edilən ərazilərdə 218 kilometr su xətti çəkilib
- İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub

***2024, 14 fevral***
- Ermənistan silahlı qüvvələrinin pilotsuz uçuş aparatı geri qayıtmağa məcbur edilib - VİDEO

***2024, 13 fevral***
- Laçın və Kəlbəcərdə üç yaşayış məntəqəsinin yenidən qurulmasına başlanılır

***2024, 6 fevral***
- Kəlbəcər rayon məktəbinin şagirdlərinə mina və partlamamış hərbi sursatların təhlükəsi barədə məlumat verilib

***2024, 30 yanvar***
- Kəlbəcərdə yollar qardan təmizlənib

***2024, 29 yanvar***
- Kəlbəcər, Laçın və Qubadlıda kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var

***2024, 26 yanvar***
- Kəlbəcərdə silah-sursat tapılıb
- “Azərişiq” Kəlbəcərdə yenidənqurma işlərini davam etdirir

***2024, 23 yanvar***
- Toğanalı-Kəlbəcər avtomobil yolu qardan təmizlənir

***2024, 14 yanvar***
- Kəlbəcər - qarlı və şaxtalı havaya baxmayaraq tikinti işləri davam edir - VİDEO

***2024, 12 yanvar***
- UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Kəlbəcər məktəbində olub

***2024, 10 yanvar***
- “Azərişıq” Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir

***2023, 27 dekabr***
- Kəlbəcər və Laçında 5 KSES-in bərpası üçün Türkiyənin iki şirkəti ilə müqavilə imzalanıb

***2023, 21 dekabr***
- Türk şirkəti Kəlbəcər və Laçında 5 KSES-in yenidən qurulmasını həyata keçirəcək

***2023, 4 dekabr***
- Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolunun yenidən qurulmasına 17 milyon manat ayrılıb – SƏRƏNCAM

***2023, 29 noyabr***
- Suqovuşan–Kəlbəcər–Ağdərə–Ağdam avtomobil yolunun yenidən qurulmasına 4,5 milyon manat ayrılıb – SƏRƏNCAM

***2023, 25 noyabr***
- Qarabağ Zəfərinin əbədiləşən tarixi: noyabrın 25-i Kəlbəcər Şəhəri Günüdür
- 25 Noyabr – Kəlbəcər Şəhəri Günü münasibətilə tədbir keçirilib
- Böyük Qayıdış konsepsiyası Kəlbəcərdə də tezliklə uğurla yerinə yetiriləcək - RƏY
- “Azərişıq” ASC Kəlbəcərdə gördüyü işləri açıqlayıb
- Adil Əliyev: Bu gün Kəlbəcərə yeni nəfəs gəlir, insanların doğma yurda qayıtmaq arzusu reallaşır
- Otuz bir il sonra doğma Kəlbəcərə qayıdan üç nəsil, yarım qalmış xatirələrlə “tanışlıq” - VİDEOREPORTAJ
- Vətən müharibəsi iştirakçısı: Sevinirəm ki, Kəlbəcərdə yaşamaq mənə də nəsib olacaq
- “AzərEnerji”: Kəlbəcərdə 6 SES yenidən qurularaq istismara verilib
- Kəlbəcərə qayıdış arzusu

***2023, 24 noyabr***
- BDU-da Kəlbəcər Şəhəri Günü qeyd edilib

***2023, 7 noyabr***
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunun Vəngli kəndində olublar**

***2023, 5 noyabr***
- Beynəlxalq səyyahlar Kəlbəcər və Laçın rayonlarında olublar

*2023, 18 oktyabr*

- Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub

*2023, 25 avqust*

- **Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub**
- **Kəlbəcər rayonunda "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışı olub**
- **"İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanışlıq**
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər: Kəlbəcərdə "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışı olub**

*2023, 19 avqust*

- Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

*2023, 31 iyul*

- Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub

*2023, 29 iyun*

- Müdafiə Nazirliyi: Mövqelərimiz atəşə tutulub

*2023, 28 may*

- Azərbaycan Prezidenti: Laçın və Kəlbəcərin Ermənistanın əlində həmişəlik qalması ilə heç vaxt razılaşa bilməzdik

*2023, 27 may*

- **Prezident İlham Əliyev Kəlbəcər şəhərində məktəb binasının təməlini qoyub**
- **Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub**
- **Prezident İlham Əliyev Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak edib**
- **Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərlə tanışlıq**
- **Prezident İlham Əliyev Kəlbəcər rayonunda "Meydan" Kiçik Su Elektrik Stansiyasının açılışını edib**
- **Kəlbəcər rayonunda "Qamışlı" Kiçik Su Elektrik Stansiyası istifadəyə verilib**
- **Kəlbəcər rayonunun Zallar kəndinin təməli qoyulub**
- **Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri: Prezident İlham Əliyev Kəlbəcər rayonunun Yanşaq kəndinin təməlini qoyub**

*2023, 28 mart*

- Prezident: Biz Laçın və Kəlbəcərin su ehtiyatları hesabına böyük enerji mənbəyi yaradacağıq

*2022, 15 dekabr*

- Fergus Ould: Kəlbəcərdə 8 nəfərin minaya düşməsi xəbərindən kədərləndim

*2022, 4 dekabr*

- Kəlbəcərdə mövqelərimiz atəşə tutulub

*2022, 25 noyabr*

- Çingiz Qənizadə: Kəlbəcər yeni inkişaf dövrünə qədəm qoyub
- Bu gün Kəlbəcər rayonu yeni inkişaf dövrünü yaşayır, yenidən qurulur, bərpa edilir

*2022, 24 noyabr*

- Adil Əliyev: Kəlbəcər Böyük Qayıdışın əsas inşaat meydanlarından biridir

*2022, 12 iyul*

- Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

*2022, 6 iyul*

- Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

*2022, 1 iyul*

- Azər Badamov: Dövlətimizin başçısının Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çox zəngin və əhəmiyyətli oldu

***2022, 29 iyun***

- Prezident İlham Əliyevin Silahlı Qüvvələr Günündə Kəlbəcərdəki çıxışı mühüm siyasi-hərbi və tarixi hadisədir

***2022, 28 iyun***

- Yaponiya portalı Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri barədə məlumatlar yayıb

***2022, 27 iyun***

- Prezident İlham Əliyev: 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qürurla qeyd edirik
- Prezident İlham Əliyev: İstisu qəsəbəsinin inkişafı ilə bağlı konkret addımlar atılır
- Prezident: Təbii şəraitin çətinliyinə baxmayaraq, Kəlbəcər-Laçın zonasında bütün infrastruktur layihələri uğurla icra edilir
- **Prezident İlham Əliyev Kəlbəcərdə "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib: Prezident İlham Əliyevin çıxışı**
- **Prezident İlham Əliyev Kəlbəcərdə "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub**
- **Kəlbəcərdə "İstisu" mineral su zavodunun təməli qoyulub**
- **Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub**
- **Kəlbəcər şəhərinin Baş planı təqdim edilib, İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyulub**
- **Prezident İlham Əliyev Laçında "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olub**
- **Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunun inşası ilə tanış olub**
- **Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcər rayonunda hərbi hissənin açılışında iştirak edib: Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı**
- **Prezident İlham Əliyev "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak edib**
- **Prezident İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib**

***2022, 31 may***

- Corc Dik: Kəlbəcərdə Azərbaycan hökuməti tərəfindən görülən mükəmməl işlərin şahidi oldum
- Əşrəf Adəm: Kəlbəcərdə qısa müddət ərzində çox böyük işlər görülüb
- Fələstin səfiri: Kəlbəcər rayonu turistik gələcək vəd edir

***2022, 21 may***

- Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub

***2022, 12 aprel***

- Prezident: Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı, Hadrut və Suqovuşanın Baş planları hazırlanmalıdır

***2021, 31 yanvar***

- Azərbaycan Prezidenti: Gəncə Kəlbəcər rayonunun inkişafı ilə də bağlı öz sözünü deyir və deməlidir

***2021, 25 noyabr***

- Deputat: Kəlbəcərin hərbi-siyasi yolla işğaldan azad olunması Azərbaycanın böyük diplomatik qələbəsidir
- Deputat: Kəlbəcərin azad olunması Azərbaycanın düşməndən hərbi və mənəvi cəhətlərdən qat-qat güclü olduğunu bir daha göstərdi
- Deputat: Kəlbəcərin bərpası regionun inkişafında yeni imkanlar yaradacaq

*2021, 24 noyabr*
- Adil Əliyev: Kəlbəcərin azad olunması erməni diasporuna vurulan psixoloji zərbədir
- Deputat: Kəlbəcər rayonu xarici turistlər üçün ən cəlbedici bölgələrimizdən biri olacaq
- Politoloq: Kəlbəcərin qaytarılması Ermənistan məğlubiyyətinin və işğalçı dövlət kimi tanınmasının təsdiqi idi

*2021, 22 noyabr*
- Deputat: Kəlbəcərdə sürətlə həyata keçirilən layihələr rayonun işıqlı gələcəyindən xəbər verir

*2021, 10 noyabr*
- Politoloq: Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz azad edilməsi hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir

*2021, 17 oktyabr*
- Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır

*2021, 26 avqust*
- Ahlat bələdiyyəsinin sədri: Azərbaycanlı qardaşlarımızın Şuşada, Kəlbəcərdə yaşadıqlarını biz də hiss edir və paylaşırıq

*2021, 19 avqust*
- Qırğızıstan və Özbəkistan portalları Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfəri haqqında materiallar verib

*2021, 18 avqust*
- Sədaqət Vəliyeva: Müzəffər Ali Baş Komandanın Kəlbəcər və Laçın səfəri tarixi hadisədir
- Türkiyə mediası Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfərini geniş işıqlandırıb
- Deputat: Prezidentin və birinci xanımın Kəlbəcərə və Laçına səfərləri erməni təxribatlarının arxasında dayananlara cəhdlərinin əbəs olduğuna dair mesajdır

*2021, 17 avqust*
- **Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar: Prezdent İlham Əliyevin çıxışı**
- Azərbaycan Prezidenti: Kəlbəcərin işğal altına düşməsi xalqımızın böyük faciəsi idi
- Azərbaycan Prezidenti: Kəlbəcər işğal altına düşəndən sonra digər torpaqların işğalı da labüd idi
- Səttar Möhbalıyev: Azərbaycan Prezidentinin səfəri göstərdi ki, Kəlbəcər və Laçının parlaq gələcəyi uzaqda deyil
- Deputat: Prezident İlham Əliyevin qalib Lider kimi Kəlbəcər və Laçın rayonlarına səfəri mühüm tarixi və strateji əhəmiyyətə malikdir
- Misir portalı Prezident İlham Əliyevin Kəlbəcərdə çıxışının əsas məqamlarını işıqlandırıb

*2021, 28 iyul*
- Müdafiə Nazirliyi: Kəlbəcər istiqamətində gərginlik davam edir

*2021, 23 iyul*
- XİN: Ermənistanın davamlı təxribatlara əl atması, bölgədəki vəziyyəti gərginləşdirmək cəhdləri qəbuledilməzdir

*2021, 14 iyun*
- Kəlbəcərdə xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş jurnalistlər və yerli icra hakimiyyətinin nümayəndəsi təltif edilib - SƏRƏNCAM

*2021, 11 iyun*
- Beynəlxalq Mətbuat İnstitutu Kəlbəcərdə həlak olan azərbaycanlı jurnalistlərlə bağlı bəyanat yayıb

*2021, 8 iyun*

- Alman siyasətçi Azərbaycanın Kəlbəcər rayonunda mülki vətəndaşların həlak olması ilə əlaqədar başsağlığı verib
  ***2021, 7 iyun***
- Kəlbəcərdəki terror aktı Ermənistanın beynəlxalq hüquq normalarını kobud surətdə pozmasının növbəti sübutudur
- UNESCO-nun baş direktoru Kəlbəcərdə azərbaycanlı jurnalistlərin ölümündən dəhşətə gəldiyini bildirib
  ***2021, 6 iyun***
- Serbiya mətbuatında Kəlbəcər bölgəsindəki mina teraktı barədə məlumat yayımlanıb
- Nizami Gəncəvi Beynəlxalq Mərkəzi azərbaycanlı jurnalistlərin minaya düşərək həlak olmaları ilə bağlı bəyanat yayıb
- Azərbaycan Yaponiya Dostluq Mərkəzi Kəlbəcərdə mülki əhalinin minalardan həlak olması ilə əlaqədar müraciət yayıb
- Macarıstanın "Magyar Nemzet" nəşri azərbaycanlı jurnalistlərin Kəlbəcərdə minaya düşmələri barədə məlumat dərc edib
  ***2021, 5 iyun***
- "The USA Tribune" qəzeti: İki azərbaycanlı jurnalist minaya düşərək həlak olub
- Deputat: Kəlbəcərdə baş verən hadisə erməni terrorunun növbəti təzahürüdür
- İspaniya Azərbaycanlıları Birliyi Kəlbəcərdə baş vermiş dəhşətli hadisə ilə əlaqədar dünya ictimaiyyətinə müraciət edib
  ***2021, 4 iyun***
- AZƏRTAC-ın və AZTV-nin əməkdaşları Kəlbəcər rayonunda minaya düşərək həlak olublar
- Avropa Şurasının komissarı Kəlbəcərdə jurnalistlərin minaya düşərək həlak olması ilə bağlı paylaşım edib
- Azərbaycanlı jurnalistlərin ermənilərin basdırdığı minanın partlaması nəticəsində həlak olmaları ilə bağlı məlumatlar dünya KİV-lərinin diqqət mərkəzindədir
  ***2021, 27 may***
- XİN Ermənistan silahlı qüvvələrinin sərhədin Kəlbəcər rayonu istiqamətində növbəti təxribatı barədə məlumat yayıb
  ***2021, 11 may***
- Kəlbəcərdə qar əriyəndən sonra Ermənistanın basdırdığı minlərlə mina üzə çıxıb - ombudsman beynəlxalq təşkilatlara müraciət etdi
  ***2021, 3 aprel***
- Aqil Məmmədov: Dövlətimizin gücü və qüdrəti sayəsində tezliklə Kəlbəcərdə də həyat öz axarına düşəcək
- Deputat: Bundan sonra rayonlarımızın işğal gününü deyil, azad olunduğu tarixləri qeyd edəcəyik
- Deputat: 2 aprelin sızıltılarını 25 noyabr qüruru unutdurdu
  ***2021, 2 aprel***
- Könül Nurullayeva: Kəlbəcərin azad edilməsi Azərbaycan Prezidentinin cəsarətli, prinsipial və düşünülmüş siyasətinin nəticəsidir
- Deputat: 27 ildən sonra biz Kəlbəcərdə qətlə yetirilən günahsız soydaşlarımızın qisasını aldıq
  ***2021, 20 mart***
- İordaniyalı tarixçi Xudavəng monastır kompleksi haqqında məqalə yazıb
  ***2021, 1 fevral***
- İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Qaraxançallı kəndinin videogörüntüləri yayımlanıb
  ***2021, 28 yanvar***

- İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Alıbəyli kəndinin videogörüntüləri yayımlanıb

***2021, 23 yanvar***
- İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Qamışlı kəndinin videogörüntüləri yayımlanıb

***2021, 21 yanvar***
- İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Kəndyeri kəndinin videogörüntüləri yayımlanıb

***2021, 19 yanvar***
- İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Çopurlu kəndinin videogörüntüləri yayımlanıb

***2021, 18 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Alolar kəndinin videogörüntülərini paylaşıb

***2021, 16 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Hacıkənd kəndinin videogörüntülərini paylaşıb

***2021, 13 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Aşağı Şurtan kəndinin videogörüntülərini paylaşıb

***2021, 12 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Şaplar kəndinin videogörüntülərini paylaşıb

***2021, 11 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Keşdək kəndinin videogörüntülərini paylaşıb

***2021, 8 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndinin videogörüntülərini paylaşıb
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Aşağı Ayrım kəndinin videogörüntülərini paylaşıb

***2021, 7 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Otaqlı kəndinin videogörüntülərini paylaşıb
- Prezident İlham Əliyev: Laçın, yaxud Kəlbəcər rayonunda yeni beynəlxalq hava limanı tikiləcək

***2021, 5 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Allıkənd kəndinin videogörüntülərini paylaşıb

***2021, 4 yanvar***
- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Zivel kəndinin videogörüntülərini yayıb

***2020, 9 dekabr***
- Kəlbəcər rayonuna komendant təyin olunub, rayonda polis postları qurulub

***2020, 8 dekabr***
- AZƏRTAC-ın Xudavəng məbəd kompleksi ilə bağlı məqaləsi Rumıniyanın "News24hours" portalında dərc edilib

***2020, 7 dekabr***
- İsrailin "Jerusalem online.com" saytı: Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində sistematik olaraq əsl ekoloji terror törədib

***2020, 6 dekabr***
- Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən videogörüntülər yayılıb

***2020, 5 dekabr***
- Daşlarda elə informasiyalar var ki, onları silmək mümkün deyil - Xudavəng monastır kompleksi
- Belarus portalında Azərbaycanın Vətən müharibəsində Zəfər qazanması barədə məqalə dərc edilib
- Azərbaycan Alban-udi dini icmasının nümayəndələri Kəlbəcərdəki Xudavəng monastır kompleksini ziyarət ediblər

***2020, 4 dekabr***
- Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Yanşaq kəndinin videogörüntülərini paylaşıb

***2020, 3 dekabr***

- Laçın və Kəlbəcər rayonlarına komendantlar təyin olunub

***2020, 2 dekabr***

- Anadolu agentliyi Azərbaycanın qazandığı zəfərin bölgədə yaratdığı yeni reallıqlardan yazır
- Kəlbəcər rayonu Söyüdlü qızıl yatağı
- Tarixi zəfərimiz Azərbaycan Prezidentinin müdrik siyasətinin nəticəsidir

***2020, 1 dekabr***

- "Associated Press" Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən yazır
- "Associated Press"in məlumatında Azərbaycan Prezidentinin azad edilmiş ərazilərimizin dirçəldiləcəyi ilə bağlı fikirləri yer alıb
- Türkiyə Milli Müdafiə Nazirliyi: Qəhrəman Azərbaycan Ordusu Laçına daxil olub
- Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib: Prezident İlham Əliyevin xalqa müraciəti
- İspaniya portalı: Kəlbəcərdəki tarixi abidələr - məscidlər, kilsələr Azərbaycanın böyük sərvətidir

***2020, 29 noyabr***

- Kəlbəcər rayonunun kəndlərinin videogörüntüləri

***2020, 28 noyabr***

- Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Vəng kəndindən videogörüntülər yayıb
- Kəlbəcər rayonunun İstisu qəsəbəsindən videogörüntülər

***2020, 26 noyabr***

- Rumıniya portalı Kəlbəcərin işğaldan azad olunmasından yazıb
- "Kuwait Times" qəzetində Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması barədə məqalə dərc edilib
- Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi
- Ukrayna KİV-ləri Kəlbəcər rayonunun işğaldan azad olunması və Prezident İlham Əliyevin müraciətinə dair xəbərlər yayıb

***2020, 25 noyabr***

- Kəlbəcər rayonuna doğru irəliləyən bölmələrimizin videogörüntüsü yayılıb
- İranın XİN başçısı Kəlbəcərin işğaldan azad olması münasibətilə Ceyhun Bayramovu təbrik edib
- Gürcüstan KİV-ləri Prezident İlham Əliyevin Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələrlə bağlı fikirlərinə geniş yer verib
- "France-24" kanalı Kəlbəcərin azad edilməsi haqqında reportaj yayımlayıb
- Misirin ən nüfuzlu qəzeti Azərbaycan Ordusunun Kəlbəcərə daxil olmasından yazıb
- Müdafiə Nazirliyi bölmələrimizin Kəlbəcər rayonuna daxil olmasına dair yeni videogörüntülər yayıb
- Bakı sakinləri Kəlbəcərin işğaldan azad olunmasını avtoyürüşlə qeyd ediblər – Fotosessiya
- Rəcəb Tayyib Ərdoğan: Qarabağdakı 30 illik ədalətsizliyə son qoyuldu
- Çin saytı Azərbaycan Ordusunun Kəlbəcərə daxil olmasından yazır
- Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin Azərbaycan dövləti tərəfindən icrasının təmin edilməsi deməkdir
- Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcərin isğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib
- Türkiyənin Milli Müdafiə Nazirliyi Kəlbəcərin azad olunması ilə bağlı paylaşım edib
- Azərbaycan Prezidenti: İşğaldan azad olunmuş rayonların bərpası ilə bağlı böyük planlarımız var, artıq bu planlar reallaşır
- Prezident İlham Əliyev: Kəlbəcərin tarixi abidələri - həm məscidlər, həm kilsələr bizim böyük sərvətimizdir

- Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib
- Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib: Prezident İlham Əliyevin xalqa
- müraciəti
- ABŞ azərbaycanlılar şəbəkəsi Amerika ictimaiyyətini ermənilərin ekoloji terrorizmi haqqında məlumatlandırma kampaniyası keçirir
- Kəlbəcərdən olan özünüməşğulluq proqramının iştirakçıları öz ailə bizneslərini doğma rayona aparacaqlar
- İndoneziya saytı Azərbaycan Ordusunun Kəlbəcər rayonuna daxil olmasından yazır
- Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələrinin Kəlbəcər rayonuna daxil olmasının yeni videogörüntülərini yayıb
- İşğaldan azad olunan Kəlbəcər rayonundan ilk görüntülər
- Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması Türkiyə mediasının baş xəbəridir
- Azərbaycan Ordusunun bölmələri Kəlbəcər rayonuna daxil olub

***2020, 24 noyabr***

- Prezident İlham Əliyev: Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları azad etdik

***2020, 22 noyabr***

- “Arabnews” qəzeti : Azərbaycanlılar öz evlərinə qayıdırlar
- “Kuwait Times” qəzetində Ağdamın işğaldan azad olunması barədə məqalə dərc edilib

***2020, 20 noyabr***

- “Le Monde” Ağdamın işğaldan azad olunmasından yazır
- Argentinanın “Clarin” nəşri: Azərbaycan Ordusu Ağdama daxil olub
- İspaniyanın dövlət telekanalında ermənilərin Kəlbəcərdə törətdiyi ekoloji cinayətlər barədə süjet yayımlanıb

***2020, 19 noyabr***

- Moldova saytı ermənilərin Qarabağda ekoloji terror törətməsindən yazıb

***2020, 18 noyabr***

- Kəlbəcərin erməni vandalizminə məruz qalması İspaniyanın “LA VANGUARDIA” və “EL MUNDO” qəzetlərində geniş işıqlandırılıb

***2020, 17 noyabr***

- “Le Temps”: Kəlbəcərdə onlarla ev yanır

***2020, 16 noyabr***

- CGTN: Kəlbəcəri tərk edən ermənilər yaşadıqları evləri yandırırlar
- Kəlbəcərdə beynəlxalq hüquq və BMT qətnamələri tətbiq olunur
- Yaponiya saytı: Kəlbəcəri tərk edən ermənilər öz evlərini və sosial obyektləri yandırırlar

***2020, 15 noyabr***

- Ermənistan Kəlbəcərin boşaldılması üçün vaxt istədi: Azərbaycan növbəti dəfə humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirdi
- CGTN ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlardan yazır
- Vüqar Kərimov: Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulmalıdır
- General-mayor Hüseyn Mahmudov: Azərbaycan Ordusunun qüvvələri Kəlbəcərə hərəkət etmək üçün tam hazır vəziyyətdədir
- Hikmət Hacıyev: Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunur
- Prezidentin köməkçisi: Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib
- Türkiyə mediası: Kəlbəcəri tərk edən ermənilər evləri və meşələri yandırırlar

- Avstraliya portalı Kəlbəcəri tərk edən ermənilərin azərbaycanlılara məxsus evləri yandırmasından yazıb

***2020, 14 noyabr***
- Bu gün Kəlbəcəri təhlükəsiz şəkildə tərk edən ermənilərdən fərqli olaraq, 1993-cü ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub
- Rusiyalı ekspert: Ermənilərdən fərqli olaraq, azərbaycanlılar Kəlbəcərdən ayaqyalın köçürdü
- Rusiyalı ekspert: Ermənilərin tərk etdikləri ərazilərdə yalnız azərbaycanlılar yaşayırdı

***2020, 13 noyabr***
- BBC Kəlbəcərdən reportaj hazırlayıb: ermənilər hətta pəncərə çərçivələrini, unitazları belə söküb özləri ilə aparırlar

***2020, 11 noyabr***
- Erməni politoloq: Bu, rüsvayçı razılaşmadır, bu, tam təslim olmaq deməkdir
- Ombudsman: Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz böyük Qələbə sevincini bizə yaşatdı

***2020, 10 noyabr***
- Azərbaycan Prezidenti: Hər kəs bizim gücümüzü gördü,hər kəs bizim dəmir yumruğumuz nədir, anladı

***2020, 9 noyabr***
- Rəcəb Tayyib Ərdoğan: Şuşanın işğaldan azad edilməsi sevincimizi və ümidimizi artırıb

***2020, 8 noyabr***
- Üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda qürurla, vüqarla dalğalanır

***2020, 5 noyabr***
- Hikmət Hacıyev “Sərhədsiz reportyorlar”ın 80 jurnalistin Xankəndidən təhlükəsiz çıxa bilməməsinə dair açıqlamasına münasibət bildirib
- Prezident İlham Əliyev: Ermənistanın baş naziri vaxt qazanmaq, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir

***2020, 4 noyabr***
- Azərbaycan Prezidenti: Ermənistanın kompromisi işğal edilmiş bütün ərazilərin boşaldılması olmalıdır

***2020, 30 oktyabr***
- “FranckMuller” saatlarının banisi Kəlbəcər rayonunda və Vecnəli kəndində qanunsuz qızıl axtarışı ilə məşğul olub - Hikmət Hacıyev

***2020, 29 oktyabr***
- Dövlət terrorizmi və soyqırımı siyasəti yürüdən Ermənistanın dinc azərbaycanlılara qarşı cinayətlərinə dünya birliyi 30 ildir göz yumur

***2020, 28 oktyabr***
- Prezident: Baza prinsiplərində beş rayonun qaytarılmasını nəzərdə tutan birinci mərhələ aktuallığını itirib

***2020, 24 oktyabr***
- Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir

***2020, 22 oktyabr***
- Prezident İlham Əliyev: Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın gələcəyi yoxdur

***2020, 20 oktyabr***
- Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir

***2020, 19 oktyabr***
- Azərbaycan MN: Göygöldə mövqelərimiz atəşə tutulur

***2020, 16 oktyabr***

- Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir
- Ermənistana qarşı hansı sanksiyalar tətbiq edilə bilər

***2020, 14 oktyabr***

- Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirləri arasında telefon danışığı olub
- Müdafiə Nazirliyi: Mülki əhalimizi və yaşayış məntəqələrimizi hədəfə alan düşmənin bütün legitim hərbi hədəfləri məhv ediləcək
- Ermənistan silahlı qüvvələrinin növbəti əməliyyat-taktiki ballistik raket kompleksi dəqiq zərbə ilə sıradan çıxarılıb
- Azərbaycanın mülki əhalisini hədəfə almış legitim hərbi hədəflər zərərsizləşdirilib

***2020, 3 oktyabr***

- Suqovuşanda Azərbaycan bayrağı dalğalanır: Prezident İlham Əliyev qələbəni, Paşinyan isə məğlubiyyəti elan edir

***2020. 27 sentyabr***

- Anar Eyvazov: Murov zirvəsinin azad edilməsi ilə hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu atəş nəzarətinə götürülüb
- Müdafiə Nazirliyi: Murov dağı silsiləsindəki Murov zirvəsi azad olunub

## Müdafiə Nazirliyi: Murov dağı silsiləsindəki Murov zirvəsi azad olunub

[18:33] 27.09.2020

Cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsi azad olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əməliyyat nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb. Əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.

Döyüş əməliyyatları davam edir.

**AZƏRTAC**

**Anar Eyvazov: Murov zirvəsinin azad edilməsi ilə hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu atəş nəzarətinə götürülüb**

[20:01] 27.09.2020

Ordumuzun cəbhənin Goranboy rayonu istiqamətində keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsinin azad olunması ilə Azərbaycanın işğal altındakı ərazilərini Ermənistanla birləşdirən hərbi əhəmiyyətli Vardenis-Ağdərə avtomobil yolu vizual, eləcə də atıcı silahların və artilleriya vasitələrinin atəş nəzarətinə götürülüb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 27-də keçirilən brifinqdə deyib.

Polkovnik-leytenant Anar Eyvazov bildirib ki, əldə edilən hərbi üstünlük Ermənistandan əlavə hərbi yüklərin işğal altında olan Kəlbəcər və Ağdərə istiqamətindəki marşrutla daşınmasının qarşısını almağa imkan verir.

**AZƏRTAC**

**Suqovuşanda Azərbaycan bayrağı dalğalanır: Prezident İlham Əliyev qələbəni, Paşinyan isə məğlubiyyəti elan edir**

[21:40] 03.10.2020

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Madagizin erməni işğalından azad olunduğunu elan etdi. “Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!”.

Dövlətimizin başçısının Tvitter səhifəsində etdiyi bu paylaşımdan bir qədər sonra isə Madagizin tarixi adını bərpa etdiyini bildirdi: “2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır”.

AZƏRTAC xəbər verir ki, xalqımız bu tarixi anları yaşamazdan bir qədər əvvəl Ermənistanın baş naziri diaspor təşkilatlarına müraciət edərək çarəsiz halda yardım dilənirdi. Şanlı tariximizə qızıl hərflərlə yazılan bu gün həm də tarixə Paşinyanın məğlubiyyətlərinin etirafı kimi yazılacaq. Ermənistanın baş naziri müraciətində çoxlu sayda qüvvə və hərbi texnika itirdiklərini dilə gətirdi və erməni diasporundan imdad dilədi.

Bəli, artıq bütün sahələrdə böyük uğurlara imza atan Silahlı Qüvvələrimiz tarixi ədaləti, öz ərazi bütövlüyümüzü təmin edir. Azərbaycan xalqı qələbələrə sevinir, ermənilər isə məğlubiyyətə düçar olurlar.

Bu gün şanlı Ordumuzun düşmənə endirdiyi zərbələrdən qorxuya düşən ermənilər artıq Xankəndidən Yerevana köç edirlər. Bütün cəbhə boyunca ağır itkilər verən düşmən geri çəkilir.

Qeyd edək ki, Tərtər rayonunun strateji əhəmiyyətli ərazisi olan Suqovuşan 1994-cü ildə düşmən tərəfindən işğal edilmişdi. Bu ərazinin işğaldan azad olunması ilə Ordumuz mühüm yüksəkliklərə yiyələnmiş oldu. Bu yaşayış məntəqəsi keçmiş Ağdərə rayonu ilə Kəlbəcər rayonu arasındakı şimal yolunun üzərində yerləşir. Buraya yaxın ərazidə ermənilərin əsas hərbi bazalarından biri də yerləşirdi. Suqovuşanın azad edilməsi Ordumuzun əks-hücum əməliyyatlarını daha da genişləndirməyə imkan verəcək.

**AZƏRTAC**

**Azərbaycanın mülki əhalisini hədəfə almış legitim hərbi hədəflər zərərsizləşdirilib**

[03:28] 14.10.2020

Oktyabrın 14-də saat 01:00 radələrində Ermənistan Respublikası tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ilə yaxın sərhəd zonasında bir-neçə əməliyyat-taktiki ballistik raket kompleksinin start mövqeyində yerləşdirilməsi müşahidə olunub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu ərazidəki raket kompleksləri Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərindəki dinc əhali və infrastruktura doğru hədəflənmişdir.

Oktyabrın 11-də Ermənistan tərəfindən Gəncə şəhərində törədilmiş hərbi cinayətə bənzər növbəti hadisənin təkrarlanmaması və raket hücumunun qarşısının alınması məqsədlilə Azərbaycan Ordusu tərəfindən qabaqlayıcı tədbirlər görülüb.

Nəticədə atəş üçün hazırlıq vəziyyətinə gətirilən əməliyyat-taktiki raket kompleksləri legitim hərbi hədəf kimi zərərsizləşdirilib.

Bildirilir ki, vəziyyətin gərginləşdirilməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rejiminin üzərinə düşür.

**AZƏRTAC**

**Ermənistan silahlı qüvvələrinin növbəti əməliyyat-taktiki ballistik raket kompleksi dəqiq zərbə ilə sıradan çıxarılıb**

[09:30] 14.10.2020

Oktyabrın 14-ü saat 08:36 radələrində Ermənistan Respublikasının Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonuna yaxın sərhədyanı ərazilərində Ermənistan silahlı qüvvələri növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi müşahidə edilmişdir.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, mülki insanlar arasında tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə operativ-taktiki raket kompleksi Gəncə, Mingəçevir və digər şəhərlərə doğru hədəflənmişdi.

Mülki insanların təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəf kimi start vəziyyətində olan raketlər qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarılmışdır.

Bundan əvvəl saat 01:00 radələrində həmin istiqamət üzrə start vəziyyətinə gətirilmiş əməliyyat-taktiki raket kompleksi də dəqiq zərbə ilə məhv edilmişdi.

Raketlərin atəş vəziyyətinə gətirildiyi məntəqələrdə hər hansı mülki infrastruktur və obyektlər olmamışdır.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi: Mülki əhalimizi və yaşayış məntəqələrimizi hədəfə alan düşmənin bütün legitim hərbi hədəfləri məhv ediləcək**

[12:24] 14.10.2020

Ermənistan müdafiə nazirliyi etiraf etdi ki, atəş zərbəsi ilə sıradan çıxarılan əməliyyat-taktiki raket kompleksləri (ƏTRK) Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda, mülki obyekt və infrastrukturun olmadığı ərazidə tam döyüş növbəsində və tətbiqə hazır vəziyyətdə olub. Həmin ƏTRK-lar Azərbaycan ərazisindəki mülki obyektləri və infrastrukturu hədəfə almışdı. Ermənistan müdafiə nazirliyinin guya Ermənistan ərazisindən Azərbaycanın yaşayış məntəqələrinə atəş açılmaması barədə bəyanatları isə açıq-aşkar yalandır.

AZƏRTAC xəbər verir ki, bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətinin açıqlamasında bildirilib.

Məlumatda qeyd olunub ki, Gəncə, Mingəçevir və digər yaşayış məntəqələrimizin məhz Ermənistan ərazisindən atəşə tutulması danılmaz faktdır.

Azərbaycanın Ermənistan ərazisində hər hansı hərbi hədəf və maraqları yoxdur. Əksinə, Ermənistan öz ərazisindən Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmaqla qəsdən münaqişənin coğrafiyasını genişləndirmək məqsədini güdür.

Müdafiə Nazirliyi bildirib ki, mülki əhalimiz və yaşayış məntəqələrimizin təhlükəsizliyini təmin etmək məqsədilə legitim hərbi hədəflərin zərərsizləşdirilməsi hüququnu Azərbaycan bundan sonra da özündə saxlayır.

**AZƏRTAC**

**Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirləri arasında telefon danışığı olub**

[14:47] 14.10.2020

Oktyabrın 14-də Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramov ilə Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon söhbəti zamanı nazir Ceyhun Bayramov rusiyalı həmkarına regionda son gərginliklə bağlı məlumat verib. Qarşı tərəfin diqqətinə çatdırılıb ki, oktyabrın 14-ü gecə saat 1-də Ermənistanın silahlı qüvvələri azərbaycanlı mülki əhaliyə və mühüm əhəmiyyət kəsb edən infrastruktura hücum etmək məqsədilə Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərini raket atəşinə tutmaq üçün hazırlıq vəziyyətinə gətirilmişdi. C.Bayramov vurğulayıb ki, Azərbaycanın Silahlı Qüvvələri özünümüdafiə hüququ çərçivəsində və öz mülki əhalisini qorumaq məqsədilə işğal altında olan Kəlbəcər rayonunun Azərbaycan-Ermənistan sərhəd ərazisində hərbi legitim hədəf kimi bu raket sistemlərini hazırlıq vəziyyətində məhv edib və bununla növbəti insan faciəsinin qarşısını alaraq, çox sayda azərbaycanlı mülki şəxsin həyatını xilas edib.

Nazir vəziyyətin gərginləşməsi ilə bağlı məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov mülki şəxslərin tələfatı ilə bağlı ciddi narahatlığını ifadə edib. O, Moskva görüşü zamanı razılaşdırılmış humanitar atəşkəsə riayət edilməsinin vacibliyini vurğulayıb.

**AZƏRTAC**

**Ermənistana qarşı hansı sanksiyalar tətbiq edilə bilər**

[08:42] 16.10.2020

Bu günlərdə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncəyə, Tərtərə, Bərdəyə, Mingəçevirə, Naftalana və Azərbaycanın mülki əhalinin yaşadığı digər regionlara atılan kaset bombalarına və ballistik raketlərə görə bu dövlətə qarşı BMT Nizamnaməsinin VII Fəslinə ("Sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlər") əsasən xüsusi sanksiyalar qəbul edilə bilər.

Bunu AZƏRTAC-a açıqlamasında hüquq üzrə fəlsəfə doktoru, beynəlxalq hüquq üzrə ekspert Elgün Səfərov söyləyib. O bildirib ki, bunun üçün beynəlxalq təhlükəsizliyin və sülhün qorunması məqsədilə BMT Təhlükəsizlik Şurasının Cənubi Afrikaya, keçmiş Yuqoslaviyaya, İraqa, Ruandaya, Somaliyə, Syere-Lionaya, Liviyaya və digər ölkələrə qarşı qəbul edilən sanksiyalarını qeyd etmək olar.

"Sanksiyalardan danışanda biz daha çox BMT Nizamnaməsinin 39-51 maddələrini qeyd etməliyik. Həmin sanksiyalar dövlətlərə hökumətlərin və ya hərbi qüvvələrin beynəlxalq hüquq və humanitar normaların pozulmasına, insanlığa qarşı cinayətlər törədilməsinə (soyqırımı) yönələn qərarlar verdiyinə görə tətbiq edilir. BMT Təhlükəsizlik Şurası ədalətin bərqərar olunması məqsədilə iqtisadi və diplomatik əlaqələrin pozulması, dəmiryol və nəqliyyat əlaqələrinin dayandırılması, xaricdə bank hesablarının dondurulması, beynəlxalq məhkəmənin (tribunal) yaradılması və digər sanksiyaları qəbul edib.

Ümumiyyətlə, Yuqoslaviya, Ruanda və digər tribunallar BMT Təhlükəsizlik Şurasının qərarı ilə yaradılıb. Tribunal – beynəlxalq statusa malik müstəqil məhkəmə orqanıdır.

1992-1994-cü illərdə Ermənistan silahlı qüvvələrinin Kəlbəcər, Laçın və Ağdam rayonlarının mülki əhalisinə qarşı bakterioloji və zəhərli silahlardan istifadə etməsi faktına görə dəfələrlə Azərbaycan hökuməti tərəfindən BMT Təhlükəsizlik Şurasına müraciət edilib. Bu günlərdə də Gəncənin və digər rayonların mülki əhalisinə kaset bombalar və raketlər atılması beynəlxalq humanitar normaları və 1949-cu ildə qəbul edilmiş Cenevrə konvensiyalarının müəyyənləşdirdiyi əsasları pozur.

Ermənistan hökumətini və silahlı qüvvələrini idarə edən şəxslərin məsuliyyətə cəlb edilməsi, Ermənistana qarşı iqtisadi və diplomatik məhdudiyyətlərin qəbul edilməsi BMT Təhlükəsizlik Şurasının gündəliyində baxılması məqsədilə ətraflı hesabatlar hazırlanaraq təqdim edilə bilər.

Eyni zamanda, Avropa Şurasının Ermənistana qarşı siyasi və iqtisadi xarakterli məhdudiyyətlərin qəbul edilməsi mümkündür. Məsələn, Ermənistanla Avropa Şurasının ölkələri arasında nəqliyyat, rabitə, maliyyə əlaqələrinin pozulması, Ermənistan hökuməti rəhbərlərinin xarici ölkələrdə olan bank hesabların dondurulması, Avropa Şurası Parlament Assambleyasında iştirakının dayandırılması və s.

Beynəlxalq təşkilatların Ermənistana qarşı müvafiq qərarlar qəbul etməsi üçün Azərbaycan hökuməti tərəfindən vacib dəlillər və faktlar toplanılıb. Beynəlxalq hüquq prinsiplərinin, humanitar hüquq normalarının və insan hüquqlarının qorunması məqsədilə Azərbaycan Respublikası tərəfindən tədbirlər görülür. Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlərə BMT, Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar tərəfindən hüquqi qiymət verilməlidir.

Biz əminik ki, yaxın zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa ediləcək və mülki əhaliyə qarşı cinayətlər törədən şəxslər məsuliyyətə cəlb ediləcəklər. Bunun üçün bütün hüquqi və siyasi əsaslar var.

**AZƏRTAC**

**Prezident: Fərq ondadır ki, bu müharibə Azərbaycan xalqı üçün azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir**

[00:33] 16.10.2020

Bilirsiniz, hər bir müharibə qəddarlıq, qurbanlar, insanların iztirabları, yaxın adamların itirilməsi deməkdir. Fərq ondadır ki, Azərbaycan xalqı üçün bu müharibə azadlıq müharibəsi, Ermənistan üçün isə işğalçılıq müharibəsidir. Heç kəs üçün gizli deyil və bu faktı artıq beynəlxalq vasitəçilər də bilir ki, qondarma “Dağlıq Qarabağ ordusu” yoxdur. Bu gün erməni tərəfin belə adlandırdığı birləşmədəki hərbi qulluqçuların 90 faizi Ermənistan vətəndaşıdır. Onlar hərbi xidmətə Ermənistanın hərbi komissarlıqları tərəfindən çağırılır və Azərbaycanın işğal edilmiş ərazilərinə - Ağdama, Füzuliyə, Cəbrayıla, Kəlbəcərə, Qubadlıya, Laçına, Zəngilana göndərilir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Rusiyanın Ria Novosti agentliyi üçün “Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi” media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibəsində bildirib.

“Bu gün Ermənistanın işğalçı qüvvələri Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərindədir. Buna heç nə ilə haqq qazandırmaq olmaz - istər beynəlxalq hüquq baxımından, istərsə də bəşəri əxlaq baxımından. Başa düşürsünüzmü, 30 il ərzində azərbaycanlıların öz əzəli torpaqlarına buraxılmaması siyasətini yürütmək mümkün deyil. Axı, erməni əhalisi bu ərazilərdə heç vaxt yaşamayıb. Başqa bir məsələ də var ki, orada hər şey dağıdılıb, oraya qayıtmaq üçün çox böyük qüvvə və vaxt sərf etmək lazımdır. Ermənilərin bu siyasətinə heç cür haqq qazandırmaq olmaz. Ona görə ki, bizim hərbi qulluqçular Azərbaycan torpağında döyüşür və həlak olur. Erməni hərbi qulluqçular isə onların hökumətinin işğal altında saxlamaq istədiyi torpaqda həlak olurlar”, - deyə dövlətimizin başçısı əlavə edib.

Tarixdə rol məsələsinə münasibət bildirən Prezident İlham Əliyev deyib: “Mən əvvəllər heç vaxt, indi isə xüsusən bu barədə düşünməmişəm. Mənim əsas amalım Azərbaycan xalqının etimadını doğrultmaq, bu vəzifədə olduğum bütün illər ərzində verdiyim vədləri yerinə yetirmək və ölkəni inkişaf yolu ilə aparmaq, onun ərazi bütövlüyünü təmin etməkdir. Mənim rolumun gələcəkdə necə qiymətləndiriləcəyi isə artıq bizim nəyə nail olacağımızdan, Azərbaycan xalqının iradəsindən asılı olaraq müəyyən ediləcək”.

**AZƏRTAC**

**Azərbaycan MN: Göygöldə mövqelərimiz atəşə tutulur**

[13:10] 19.10.2020

Ermənistan silahlı qüvvələrinin bölmələri ərazilərimizi atəşə tutmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmən oktyabrın 19-u saat 12.00-dan başlayaraq işğal olunmuş Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini 82 və 120 millimetrlik minaatanlardan və iriçaplı atıcı silahlardan atəşə tutur.

**AZƏRTAC**

**Anar Eyvazov: Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir**

[19:33] 20.10.2020

Ötən müddət ərzində cəbhədə və dövlət sərhədi boyu müdafiə mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi atıcı silahlarla və artilleriya vasitələri ilə atəşə tutan düşmən qüvvələri ordumuz tərəfindən darmadağın edilib. Ermənistan ordusu Kəlbəcər rayonu istiqamətindən Göygöl rayonu, Berd rayonu istiqamətindən Tovuz rayonu, Vardenis rayonu istiqamətindən isə Daşkəsən rayonu ərazisindəki döyüş mövqelərimizi, o cümlədən Goranboy, Tərtər və Ağdam rayonlarında yaşayış məntəqələrimizi artilleriya və iriçaplı silahlarla atəşə tutub. Atəş nəticəsində mülki şəxslərdən iki nəfər həlak olub, bir nəfər ağır yaralanıb. Ordumuz tərəfindən adekvat cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 20-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Bildirilib ki, cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində itirdiyi mövqeləri bərpa etməyə cəhd edən düşmənə qarşı bölmələrimiz uğurlu əməliyyatlar yerinə yetirib. Artilleriya atəşləri ilə gücləndirilmiş bölmələrimizin xüsusi əməliyyatları nəticəsində düşmənin 1-ci, 2-ci, 5-ci və 246-cı alaylarının, eləcə də 10-cu dağatıcı, 18-ci motoatıcı diviziyalarının komandir heyəti və muzdlu döyüşçülər daxil olmaqla xeyli sayda canlı qüvvəsi məhv edilib və yaralanıb. Ümumilikdə düşmənin xeyli sayda canlı qüvvəsi, döyüş və avtomobil texnikası, artilleriya və zenit-raket qurğuları, silah və döyüş sursatları, əməliyyat-taktiki və ballistik raket qurğuları, yaylım atəşli, radioelektron mübarizə və tank əleyhinə vasitələri, o cümlədən S-300 tipli zenit-raket kompleksləri məhv edilib. Xeyli sayda silah-sursat, tank və artilleriya qurğuları ələ keçirilib.

Polkovnik-leytenant Anar Eyvazov qeyd edib ki, aparılan əməliyyatlar nəticəsində böyük itkilər verən düşmən bölmələri döyüşə girməkdən imtina edir, tutduqları mövqeləri tərk edib geriyə çəkilməyə məcbur olub. Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarında bir neçə kənd və Zəngilan şəhəri uzunmüddətli işğaldan azad edilib. Hazırda qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir. Düşmən qüvvələri itkilər verərək döyüş meydanından fərarilik edir, geriyə çəkilir.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, erməni mətbuatında düşmənin guya Xudafərin ərazisində əməliyyat keçirdiyi iddia edilir. Bildiririk ki, bu məlumatların hamısı yalandır. Ermənistan ordusu Xudafərin ərazisində əməliyyat keçirmək iqtidarında deyil və Xudafərini birdəfəlik unutmaları daha yaxşı olar.

Əməliyyatların gedişində Azərbaycan Ordusunun müasir silahları və döyüş texnikası yalnız düşmənin hərbi hədəflərinin məhv edilməsinə və preventiv tədbirlər çərçivəsində mülki əhalini hədəfə almış legitim hədəflərin dəqiq atəşlə məhv edilməsinə yönəldilib.

Brifinqdə media nümayəndələrinin diqqətinə çatdırılıb ki, bəzi sosial şəbəkə istifadəçilərinin əməliyyatlarla bağlı paylaşdığı şəxsi fikirlər məxfilik rejiminin pozulmasına və ən əsası hərbi qulluqçularımızın həyatına təhlükə yarada bilər. Bu məsələni nəzərə alaraq, bir daha sosial şəbəkə istifadəçilərini və KİV nümayəndələrini yalnız Ali Baş Komandanımızın ictimaiyyətə çatdırdığı məlumatlara və Müdafiə Nazirliyinin rəsmi məlumatlarına istinad etməyə çağırırıq.

“Sonda yeni uğurlar münasibətilə ordu rəhbərliyi adından xalqımızı bir daha təbrik edirik. Əmin edirik ki, ordumuz işğal altında qalan digər torpaqlarımızı da tezliklə və mütləq şəkildə azad edəcək. Qələbə bizimlədir”, - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın gələcəyi yoxdur**

[19:03] 22.10.2020

Əgər Ermənistan konstruktiv addımlar atsa və əraziləri boşaltsa, biz bütün kommunikasiyaları açacağıq. Mən bilirəm, həmçinin Türkiyə hökumətinin mövqeyi barədə də eşitmişəm ki, onlar da Ermənistanın əraziləri boşaltdığı təqdirdə kommunikasiyaları açacaqlar. Onda Cənubi Qafqazda vəziyyət tamamilə dəyişəcək.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, Ermənistan-Türkiyə sərhədi işğala görə bağlıdır. İşğala son qoyulsa, sərhəd açılacaq. Bu, Türkiyə hökumətinin rəsmi mövqeyidir və ermənilər bunu bilirlər. Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın gələcəyi yoxdur. Çünki bazar kiçikdir və daha da kiçilir, əhali azalır, miqrasiya çox yüksəkdir.

"Bizdə olan məlumata görə, bu gün Ermənistanda real əhalinin sayı iki milyondan azdır, iki milyondan az və o, daha da azalacaq, çünki iş yoxdur, xüsusilə indi, onlar, necə deyərlər, işğal olunmuş çox məhsuldar torpaqlardan məhrum olduqda. Siz səmadan çəkilmiş təsvirlərə baxsanız, onların bizim torpaqlardan qeyri-qanuni məhsullar üçün necə istifadə etdiklərini görərsiniz. Onlar nəinki bizim torpağımızdan, Kəlbəcərdə bizim qızıl mədənlərindən istifadə edirlər. Fəaliyyətlərini dayandırmadığı təqdirdə, orada bizim məhkəməyə verəcəyimiz əcnəbi şirkətlər var. Yeri gəlmişkən, onlar istənilən halda tezliklə fəaliyyətlərini dayandıracaqlar. Beləliklə, bu mühüm kənd təsərrüfatı seqmentindən məhrum olduqlarına görə onlar hətta daha çox problemlərdən əziyyət çəkəcəklər və tənəzzülə uğrayacaqlar, biz isə inkişaf edəcəyik", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Türkiyənin əhalisinin 83 milyon, Azərbaycan əhalisinin 10 milyon, Ermənistanın əhalisinin isə iki milyondan az olduğuna diqqət çəkən Prezident deyib: "Onlar məntiqli olmadığı təqdirdə, işğala son qoymadığı təqdirdə burada 10 il, 20 il, 50 ildən sonra necə yaşayacaqları haqqında düşünməlidirlər. Onlar artıq bu təcavüzə son qoymalıdırlar. Biz döyüş meydanında onlara kimin kim olduğunu göstərdik. Onların "cəsur ordusu" haqqında bütün mifləri, sadəcə, bir növ feyk idi. Onların ordusu qaçır. Biz onları məğlub edirik. Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik".

**AZƏRTAC**

**Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir**

[07:58] 24.10.2020

Təcavüzkar Ermənistan Azərbaycana son 30 ildə vurduğu maddi və mənəvi ziyana görə reparasiya ödəməlidir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Əməkdar jurnalist Rəşad Nəsirov söyləyib. O bildirib ki, reparasiya bir ölkənin digər ölkəyə vurduğu ziyana görə maddi məsuliyyət formasıdır.

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli, 292 ölkə əhəmiyyətli və 330 yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi, 40 mindən çox eksponatın toplandığı 22 muzey, 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi dağıdılıb. Ağdam Çörək muzeyi yerlə-yeksan edilib, dünya şöhrətli Kəlbəcər tarix-diyarşünaslıq muzeyinin 13 minədək, Laçın tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli və nadir eksponatı Ermənistana daşınıb. Şuşanın işğalı nəticəsində 8 muzey, 31 kitabxana, 17 klub, 8 mədəniyyət evi viran edilib. Şuşa şəhərinin tarixi muzeyinin 5 minədək eksponatı, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyinin Şuşa filialının, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək eksponatı, dahi bəstəkar Üzeyir Hacıbəylinin, böyük müğənni Bülbülün, görkəmli musiqiçi və rəssam Mir Mövsüm Navabın xatirə muzeylərinin, Ağdam, Qubadlı və Zəngilan tarix-diyarşünaslıq muzeylərinin fondları qarət edilib. Görkəmli Azərbaycan musiqiçisi Qurban Pirimovun Ağdam rayonundakı xatirə muzeyi, Cəbrayıl, Füzuli və Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri də dağıdılıb. Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında qeyri-qanuni arxeoloji qazıntılar aparıb, məzarlar, qəbirüstü abidələr dağıdılıb.

Otuz ilə yaxındır ki, işğal altında qalan ərazilərdə ekoloji cinayətlər törədilib. Bölgədəki biomüxtəliflik məhv edilib, meşələr qırılıb, faydalı qazıntı yataqları talan edilib, su anbarları və ətraf mühit qəsdən çirkləndirilib. Ən əsası isə təcavüz nəticəsində on minlərlə Azərbaycan vətəndaşı həlak olub və yaralanıb, bir milyondan çox insan isə doğma yurdundan didərgin düşüb. Törətdiyi bu bəşəri cinayətlərə görə Ermənistanın keçmiş və indiki rəhbərliyi məsuliyyət daşıyır. Azərbaycana vurulan maddi-mənəvi ziyanın ödənilməsi beynəlxalq hüquq və beynəlxalq təşkilatlar səviyyəsində gündəmə gətirilməlidir.

**AZƏRTAC**

**Prezident: Baza prinsiplərində beş rayonun qaytarılmasını nəzərdə tutan birinci mərhələ aktuallığını itirib**

[22:06] 28.10.2020

Bilirsiniz ki, sabah Cenevrədə Azərbaycanın və Ermənistanın Xarici İşlər nazirləri arasında danışıqlar olmalıdır. Erməni tərəfin baza prinsiplərinə nə dərəcədə sadiq olduğunu orada görəcəyik. Bundan sonra biz həmin prinsiplərin hazırda nə dərəcədə aktual olub-olmadığını artıq özümüz qiymətləndirəcəyik.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bunu Rusiyanın İnterfaks agentliyinə müsahibəsində baza prinsiplərinin bu gün nə dərəcə aktual olmasına münasibət bildirərkən deyib.

"Birinci mərhələdə beş rayonun qaytarılmasının nəzərdə tutulmasına gəldikdə isə, əlbəttə, indi bu, artıq aktual deyil. Ona görə ki, baza prinsiplərində ərazilərin qaytarılmasının növbəliliyi müəyyən edilmişdi. Birinci mərhələdə beş rayon, Kəlbəcər və Laçın rayonları ikinci mərhələdə. Sonra isə artıq azərbaycanlıların Dağlıq Qarabağ ərazisinə qaytarılması. Prinsip etibarilə, bütün məcburi köçkünlərin əvvəlki yaşayış yerlərinə qaytarılması. Buna görə də biz birinci mərhələni praktiki olaraq başa çatdırmışıq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Prezident deyib ki, əgər indi erməni tərəfi baza prinsiplərinə sadiq olduğunu bildirərsə, biz dərhal hazırda işğal altında olan Laçın, Kəlbəcər rayonlarının və Ağdam rayonunun bir hissəsinin Azərbaycanın nəzarətinə verilməsi barədə danışacağıq: "Beləliklə, biz müəyyən dərəcədə vasitəçilərin də işlərini asanlaşdıracağıq. Ona görə ki, mühüm bəndlərdən biri artıq həyata keçiriləcək və bizim hansısa ikinci mərhələni gözləməyimiz lazım olmayacaq. O mərhələ dərhal başlamalıdır. Əgər biz siyasi nizamlama barədə razılığa gəlsək, erməni qoşunları Kəlbəcər və Laçın rayonlarından, habelə Ağdam rayonunun bir hissəsindən dərhal çıxarılmalıdır".

**AZƏRTAC**

**Dövlət terrorizmi və soyqırımı siyasəti yürüdən Ermənistanın dinc azərbaycanlılara qarşı cinayətlərinə dünya birliyi 30 ildir göz yumur**

[10:50] 29.10.2020

Ermənistanın hərbi təcavüzü nəticəsində 2020-ci il sentyabrın 27-dən keçən bir ay ərzində dinc əhaliyə qarşı törədilmiş beynəlxalq cinayətlər onu təsdiq edir ki, Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə, soyqırımı və dövlət terrorizmi siyasəti 30 ildən artıqdır ki, bütün dünyanın gözü qarşısında davam edir. Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 60 nəfərə yaxın insan həlak olub, 300-dən çox mülki insan yaralanıb. Bundan başqa, sentyabrın 11-də Ermənistan silahlı qüvvələrinin cəbhə zonasından xeyli kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binasını gecə saatlarında raket atəşinə tutması nəticəsində 5-i qadın olmaqla 10 nəfər həlak olub, 16 qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb (onlardan 10 nəfəri məktəblidir). Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn bütün prinsiplərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc azərbaycanlı mülki əhaliyə qarşı cinayət əməllərini törətməkdə davam edir. Oktyabrın 15-də təcavüzkar Ermənistanın silahlı qüvvələrinin Tərtərdə dəfn mərasimi zamanı qəbiristanlığı atəşə tutması nəticəsində 4 nəfər həlak olub, 4 nəfər xəsarət alıb. Oktyabrın 17-də gecə saat 1-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində 52 dinc sakin xəsarət alıb, 13 nəfər həlak olub ki, onların arasında 4-ü qadın, 3-ü azyaşlı uşaqdır. Ümumilikdə, Ermənistan ordusunun Gəncəyə oktyabrın 4-də, 11-də və 17-də raket və ağır artilleriya hücumları nəticəsində 10-u qadın, 6-sı uşaq olmaqla 26 nəfər həlak olub, 138 nəfər yaralanıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov deyib.

E.Əhmədov deyib ki, beynəlxalq birliyin cəzasızlığından istifadə edərək faşist ideologiyası yürüdən işğalçı Ermənistanın hərbi təcavüzü nəticəsində oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 5 nəfər mülki şəxs, o cümlədən azyaşlı uşaq həlak olub, uşaqlar və qadınlar da olmaqla 13 nəfər ciddi yaralanıb. Bunun ardınca oktyabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx olduğu əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr endirilməsi nəticəsində 21 nəfər həlak olub, 70-dən çox insan isə yaralanıb. Ümumilikdə, Ermənistan ordusunun Bərdəyə 2 gün ərzində "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 26 nəfər həlak olub, 80-dən çoxu yaralanıb.

Bütün dünyanın gözü qarşısında dövlət terrorizmi siyasəti həyata keçirən Ermənistanın hərbi təcavüzü nəticəsində sentyabrın 27-dən keçən bir ay ərzində mülki insanlardan 90 nəfərdən çoxu həlak olub, onlardan 30 nəfərdən çoxu uşaqlar və qadınlardır, 400 nəfərə yaxın, o cümlədən 100-dən çox qadın və 30-dan çox uşaq yaralanıb.

Ancaq biz nəyin şahidi oluruq? Otuz ildən artıqdır ki, erməni vandalizmi davam edir. Təcavüzkara qarşı heç bir təzyiq nəinki yoxdur, dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətini bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşır.

Otuz ilin tarixinə qısaca nəzər salaq: Hələ Dağlıq Qarabağ işğal edilməmişdən əvvəl Ermənistan ilk cinayətkar əməllərini 1990-cı il yanvar ayının 15-dən başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına qarşı həyata keçirib. 1990-cı il yanvarın 18-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Kərki kəndinin işğalı XX əsrin sonlarında ermənilərin ilk işğalçılıq aktı kimi tarixə düşüb. Kənd hazırda işğal altındadır, dinc əhali öz doğma yurdlarından məcburən köçkün düşmüşdür.

Bunun ardınca 1990-cı il martın 24-də Ermənistanla sərhəd rayonu olan Qazax rayonunun Bağanis Ayrım kəndi erməni terrorçu dəstələrinin silahlı hücumuna məruz qalmış, ermənilər tərəfindən kəndin günahsız mülki əhalisinə qarşı görünməmiş vəhşiliklər edilmişdir. Erməni silahlı qruplarının bu genişmiqyaslı hücumu nəticəsində kənd işğal olunmuşdur. İşğal zamanı Bağanis Ayrım kəndində 100-dən çox ev talan edilmiş və yandırılmış, nəticədə 10 nəfər həlak olmuş, 15 nəfərdən çox insan yaralanmışdır. Xüsusi strateji əhəmiyyətli Bağanis Ayrım kəndi İcevan-Noyamberyan avtomobil yolu üzərində yerləşdiyindən ermənilər tərəfindən bu kəndin işğalı xüsusi plan əsasında həyata keçirilmişdir. Bununla da

600 nəfərdən çox əhalisi və Qazax rayonunun Aşağı Əskipara, Quşçu Ayrım, Xeyrimli və Məzəm kəndləri ilə həmsərhəd, eləcə də Dağlıq Qarabağdan xeyli kənarda yerləşən Bağanis Ayrım kəndi ermənilərin işğalçılıq siyasəti nəticəsində zəbt olunmuşdur.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, BMT-nin Baş Assambleyasının 44-cü sessiyasında 1989-cu il noyabrın 20-də qəbul edilmiş BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyanı Ermənistan ratifikasiya edib. Lakin buna baxmayaraq, uşaqlara qarşı zorakılıq əməlləri törətməkdən çəkinmir, istər müharibə, istərsə də atəşkəs zamanı öz çirkin niyyətlərini həyata keçirir. Ermənistanın Azərbaycanın mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqları və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında konvensiyaların ciddi şəkildə pozulmasıdır. Buna dünya ictimaiyyəti və BMT-nin üzv dövlətləri tərəfindən layiqli qiymət verilməlidir.

Qeyd etmək lazımdır ki, XX əsrin sonundan başlayaraq keçən dövr ərzində, xüsusilə 1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanda uşaqların qətlə yetirilməsi ilə bağlı kifayət qədər faktlar vardır.

1989-cu ildə Kərkicahanda 9 yaşlı Nicat və 11 yaşlı Nadir İbrahimov ermənilər tərəfindən güllələnmişdir. Müharibənin ilk illərində Kəlbəcərdə 8 uşaq - Sahil Məmmədov (10 yaş), Razim Salmanov (8 yaş), Anar Valehov (7 yaş), Cahid İbişov (10 yaş), Səxavət Dəmiroğlu (14 yaş), Natiq Əsgərov (14 yaş), Bəxtiyar Xəlilov (11 yaş) və Azər Orucov (7 yaş) vəhşicəsinə qətlə yetirilmişdir. Ermənistan ordusu tərəfindən 2011-ci ildə Ağdamda 9 yaşlı Fariz Bədəlov, Tovuzda isə 13 yaşlı Aygün Şahmalıyeva qətlə yetirilmişdir.

1991-ci il iyunun 27-28-də Xocavənd rayonunda ermənilərin “Qarabağ” terror təşkilatının üzvləri Qaradağlı kəndinə hücum edərək Vərəndəli fermasında 6 nəfər kənd sakinini (3 nəfər qadın olmaqla) diri-diri yandırmışdılar. Bunun ardınca isə, sentyabrın 8-də ermənilər Qaradağlı kəndində 3 nəfər kənd sakininin üzərinə dizel yanacağı tökərək yandırmış, 2 nəfərin isə başını kəsmişlər. 1992-ci il fevralın 13-17-də isə erməni silahlı dəstələrinin Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı hücumu zamanı 118 nəfər (uşaq, qadın, qoca) əsir götürülmüş, kəndin Bəylik bağı adlanan yerində 33 nəfər ermənilər tərəfindən güllələnmiş, eyni zamanda, öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək basdırmışlar. Əsirlərin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülmüş və hamının gözü qarşısında güllələnmişdi. Daha sonra isə 2 nəfər Zəki bulağında, 2 nəfər Cəmiyyət kəndində öldürüldü. Əsirlikdə olan 68 nəfər kənd sakininə ermənilər əzab və işgəncələr verərək onları amansızlıqla qətlə yetirdilər. Ümumilikdə, Qaradağlı kəndində qətlə yetirilənlərdən 20 nəfəri 10-12 yaşına qədər uşaq, yarıya qədəri isə qadınlar olmuşdur.

1992-ci il aprel ayının 7-dən 8-ə keçən gecə Ermənistan silahlı birləşmələri Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndini tamamilə yandırmış, 779 nəfər dinc sakininə amansız işgəncələr vermişdir. Ağdaban kəndində ermənilərin həyata keçirdikləri soyqırımı nəticəsində 39 nəfər xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onların arasında 8 nəfər 90-100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir.

Füzuli rayonunun işğalı zamanı Horadiz yolunda tutulmuş 40 nəfər mülki şəxsin 29 nəfəri, Gorazıllı kəndindən götürülmüş girovların 40 nəfəri, Kəlbəcər rayonunun Başlıbel kəndindən girov götürülmüş qoca, qadın və uşağın 29 nəfəri yerindəcə öldürülmüş, meyitlərə qarşı əxlaqsızlıq və vandalizm hərəkətlərinə yol verilmiş, Kəlbəcər rayonunun "Tunel" adlanan yerində güllələnən dinc sakinlər iz itirmək məqsədi ilə yük avtomobilinin üstünə yığılaraq maşınla birlikdə yandırılmışdır. Bu günahsız soyqırımı qurbanlarının az qala yarısı qadınlar və uşaqlar idi.

Qeyd etmək lazımdır ki, Xocalıda öldürülən 613 nəfərdən 63-ü uşaq idi. Bu kütləvi qırğın, vandalizm aktı zamanı 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmiş, başları kəsilmiş, yaxud başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, hamilə qadınlar süngü ilə deşik-deşik edilmişdir. Xəsarət alanlardan 487 nəfəri şikəst olmuşdur ki, onlardan 76 nəfəri azyaşlıdır. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. 56 nəfər diri-diri yandırılmışdır. Günahsız mülki əhalini özünə hədəf seçən Ermənistanın insanlıq əleyhinə törətdiyi bu cinayət əməli təsadüfi xarakter daşımır, belə əməllərin törədilməsi sistemli xarakter daşıyır və cinayətkar Ermənistan həm işğal zamanı, həm də işğalın davam etdiyi 30 ilə yaxın müddət ərzində mütəmadi olaraq cəbhəyanı ərazilərdə Azərbaycan vətəndaşı olan mülki əhalini, əsasən də qadınları və azyaşlı uşaqları xüsusi qəddarlıqla qətlə yetirmişdir.

1988-ci ildə azərbaycanlılar Ermənistan SSR-dəki doğma yurd yerlərindən zorla qovulan zaman 217 soydaşımız qətlə yetirilmişdir ki, onların da 57-si qadın, 23-ü uşaqdır. Ancaq şahidlərin sözlərinə görə

öldürülən uşaqların sayının daha çox olması haqqında faktlar da vardır. Belə ki, 1988-ci il dekabrın 5-də ermənilər Hamamlı şəhərində (Spitak) 17 azyaşlı uşağı iri diametrli boruya dolduraraq hər iki tərəfini qaynaq ediblər. Borunu hündür uçurumdan dərəyə ataraq uşaqları qətlə yetirmişlər. Həmin ilin noyabrında Quqarkda (Qarakilsə-Pəmbək mahalı) 70-ə yaxın 5-12 yaşlarındakı uşağı yenə boruya dolduraraq hər iki tərəfini bağlamışlar. Qətliamın üstü yalnız 1988-ci ilin dekabrında baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər tərəfindən açılmışdır.

Ümumilikdə, XX əsrin sonunda monoetnik Ermənistan yaratmağa nail olan ermənilər tərəfin-dən 217 azərbaycanlı qətlə yetirilmişdir. Bunlardan 49 nəfəri ermənilərin əlindən qaçarkən dağlar-da donmuş, 41 nəfər qəddarlıqla döyülərək qətlə yetirilmiş, 35 nəfər işgəncələrlə qətlə yetirilmiş, 115 nəfər yandırılmış, 16-sı güllələnmiş, 10 nəfər əzab və işgəncələrə dözməyərək infarktdan ölmüş, 2 nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, digərləri isə suda boğularaq, asılaraq, elektrik cərəyanına verilərək, başları kəsilərək qətlə yetirilmişdir. Bu illərdə 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncələr verildi.

Ermənistanın mülki əhalini, xüsusilə qadınları və körpə uşaqları qəddarcasına qətlə yetirməsinin qısa statistikası rəsmi İrəvanın cinayətkar hakimiyyətinin və ümumi ictimai həyatın faşizm ideologiyasına büründüyünü, terrorun dövlət siyasəti səviyyəsinə yüksəldiyini bütün qabarıqlığı ilə bir daha aşkara çıxarır. Ermənilərin qətlə yetirdiyi uşaqlar haqqında onu qeyd etmək vacibdir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində 193 azərbaycanlı körpə erməni vandalları tərəfindən qətlə yetirilmiş, 61 uşaq itkin düşmüş, 27-si isə hələ də əsirlikdədir. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, son dövrdə də 32 uşaq erməni terrorunun qurbanı olmuşdur ki, onlardan 13-ü həlak olmuş, 19-u isə yaralanmışdır.

Ermənistan işğalla bağlı beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərin icra edilməməsini və onların kağız üzərində qalmasını görərək, beynəlxalq təşkilatlarda işğalçı ilə işğala məruz qalan arasında fərq qoyulmamasından və işğalçı siyasətinə görə ona qarşı heç bir sanksiyanın tətbiq edilməməsindən ruhlanaraq qanlı cinayətlər törətməkdə davam edir. Belə ki, 2017-ci il iyulun 4-də Ermənistan silahlı qüvvələri Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndini 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutmuş və bu təcavüz nəticəsində 2 yaşlı Quliyeva Zəhra və nənəsi həlak olmuşlar. 24 oktyabr 2017-ci ilə olan məlumata görə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müddətində 1440 nəfər əsir və girovluqdan azad edilmişdir ki, onların 278 nəfəri qadındır. Münaqişə nəticəsində 265 qadın itkin düşmüş, 98 qadın isə hələ girov kimi qeydiyyatdadır.

Qeyd etmək vacibdir ki, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının qəbul edilməsindən 30 ildən çox, BMT Təhlükəsizlik Şurasının 1325 saylı Qadınlar, Sülh və Təhlükəsizlik qətnaməsinin qəbul olunmasından 20 il keçir. Ancaq dünya birliyi, xüsusilə böyük güclər təcavüzkar Ermənistanı sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxması tələbini qoymurlar.

Bu baxımdan, dövlətimiz BMT-nin Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququ var və bundan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirir və BMT Təhlükəsizlik Şurasının 27 il yerinə yetirilməmiş qalan qətnamələrini özü icra edir.

Azərbaycan əks-hücum əməliyyatı həyata keçirərək işğal altında olan ərazilərini bir-birinin ardınca azad edir. Hərbi baxımdan məğlub olduğunu dərk edən Ermənistan və havadarları isə beynəlxalq hüquqdan, insan haqlarından, sülh danışıqlarının mühümlüyündən dəm vurmağa başlayıblar. Onu da qeyd etmək lazımdır ki, münaqişə ilə bağlı vasitəçilik edən dövlətlərin mövqeyi birmənalı şəkildə bəllidir. Xüsusilə tərəfsiz vasitəçilik missiyasını öz üzərinə götürmüş ATƏT-in Minsk qrupunun mücərrəd və ənənəvi bəyanatları elə status-kvonu qoruyub saxlamağa çalışan Ermənistanı hər dəfə bir az daha da şirnikləndirir.

Bununla yanaşı, "azadlıq carçısı" olan bəzi beynəlxalq təşkilatların, xüsusilə beynəlxalq QHT-lərin, o cümlədən "Freedom House", "Amnesty International", "Human Rights Watch", "Trensparency International", "Free Press", "Mercy Corps", "Beynəlxalq Böhran Qrupu", "Sərhədsiz Reportyorlar", OCCRP və digər bu kimi qurumlar və bir sıra Qərb təşkilatlarının səssizliyi acı təəssüf doğurur.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev sentyabrın 27-dən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulduğunu qeyd edərək demişdir: "...Biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Bu, yəni sərbəst

vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır?".

Azərbaycan Prezidenti demişdir: "Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq".

Dövlətimizin başçısı birmənalı olaraq bildirib ki, Azərbaycanın işi haqq işidir və Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**“FranckMuller” saatlarının banisi Kəlbəcər rayonunda və Vecnəli kəndində qanunsuz qızıl axtarışı ilə məşğul olub - Hikmət Hacıyev**

[23:36] 30.10.2020

“FranckMuller" saatlarının banisi Vartan Sermakes Azərbaycanın işğal olnumuş Kəlbəcər rayonunda və Vecnəli kəndində qanunsuz qızıl axtarışı ilə məşğul olub.

AZƏRTAC xəbər verir ki, bu barədə özünün "Twitter" səhifəsində Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev yazıb.

Hikmət Hacıyev bildirib: “FranckMuller” saatlarının banisi Vartan Sermakes Azərbaycanın işğal olnumuş Kəlbəcər rayonunda və Vecnəli kəndində qanunsuz qızıl axtarışı ilə məşğul olub. Bizdə Sermakesə qarşı cinayət işinin başladılması üçün yerlərdə daha çox fakt olacaq”.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti: Ermənistanın kompromisi işğal edilmiş bütün ərazilərin boşaldılması olmalıdır

[11:25] 04.11.2020

Mən düşünürəm ki, müharibə nə qədər tez qurtarsa, bir o qədər də yaxşı olar. Biz belə bir təklif irəli sürdük və bizim təklifimiz çox konstruktiv idi. Bu bir aydan çox müddətdə mən dəfələrlə demişəm və bir daha təkrar edə bilərəm ki, Ermənistanın baş naziri yerdə qalan ərazilərin boşaldılacağına dair üzərinə öhdəlik götürsə, biz bu gün dayanmağa hazırıq. Hələ ki, o, üzərinə belə bir öhdəlik götürməyib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsində bildirib.

Paşinyana kompromislər haqqında sual verildikdə onun həmişə müqəddəratı təyinetmədən danışdığına diqqət çəkən dövlətimizin başçısı deyib: "Lakin öz müqəddəratını təyinetmə onların getməli olduğu kompromis deyil. Onların kompromisi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və əsas prinsiplərin icrasına müvafiq olaraq işğal olunmuş bütün ərazilərin boşaldılması olmalıdır. Əsas prinsiplərdə deyilir ki, əvvəlcə beş rayon, sonra da iki rayon boşaldılmalıdır. Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o, deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu, onu göstərir ki, o, müharibənin dayanmasını istəmir".

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Ermənistanın baş naziri vaxt qazanmaq, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir**

[14:15] 05.11.2020

Ermənistanın baş naziri Kəlbəcər, Laçın və Ağdamın qalan hissəsini boşaldacaqlarını açıq şəkildə deməlidir. Əgər belə olmasa, hərb yolundan başqa variant qalmır.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu fikri İspaniyanın EFE agentliyinə müsahibəsində səsləndirib.

"Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir", - deyə dövlətimizin başçısı qeyd edib.

**AZƏRTAC**

**Hikmət Hacıyev "Sərhədsiz reportyorlar"ın 80 jurnalistin Xankəndidən təhlükəsiz çıxa bilməməsinə dair açıqlamasına münasibət bildirib**

[16:18] 05.11.2020

"Sərhədsiz reportyorlar" təşkilatının 80 nəfər yerli və xarici jurnalistin Xankəndidən təhlükəsiz çıxa bilməməsinə dair açıqlaması ilə əlaqədar bildiririk ki, Laçın dəhlizi vasitəsilə Xankəndi ilə Ermənistan arasında yolu bağlayan məhz Ermənistandır. Dünən Ermənistan tərəfi açıqlama verərək yolu bağladığını bildirmişdi.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bildirib.

Prezidentin köməkçisi deyib ki, ümumiyyətlə, Xankəndidən Ermənistana iki yol var. Biri Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ərazisindən keçərək Ermənistanın Vardenis rayonuna doğru gedir. Digər yol isə Laçın dəhlizi vasitəsi ilədir. Bu günə olan məlumata görə, hər iki yol Ermənistan silahlı qüvvələrinin nəzarətindədir.

**AZƏRTAC**

**Üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda qürurla, vüqarla dalğalanır**

[09:59] 08.11.2020

Suverenliyimizin rəmzi, qürur və güvənc yerimiz üçrəngli bayrağımız bu gün qürurla illərdən bəri düşmən tapdağı altında qalan torpaqlarımızda dalğalanır, xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideyalara sadiqliyini nümayiş etdirir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Millət vəkili qeyd edib ki, 30 ilə yaxındır, üçrəngli bayrağımızın təcavüzkar qonşularımızın işğal etdiyi torpaqlarda dalğalanacağı günü gözləyirdik. İllərlə arzuladığımız, həsrətlə gözlədiyimiz bu gün artıq reallığa çevrilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda müzəffər yürüşünü inamla davam etdirir, özünütəsdiqin simvolu kimi bayrağımızı tarixi torpaqlarımıza sancır.

Deputat əlavə edib ki, ümummilli lider Heydər Əliyevin, Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin uğurla həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində dövlət bayrağımız dünyanın ən mötəbər təşkilatlarının qarşısında, ən mühüm beynəlxalq tədbirlərdə dalğalanır. Bu bayraq indi işğaldan azad edilmiş, Zəngilanda, Qubadlıda, Füzulidə, Cəbrayılda qürurla, vüqarla dalğalanır. Üçrəngli bayrağımızının Laçında, Kəlbəcərdə, Şuşada, Xocalıda, Xacavənddə, Xankəndində dalğalanacığı günə isə az qalıb.

**AZƏRTAC**

## Rəcəb Tayyib Ərdoğan: Şuşanın işğaldan azad edilməsi sevincimizi və ümidimizi artırıb

[17:50] 09.11.2020

Bir millət, iki dövlət olduğumuz Azərbaycan torpaqlarının işğalına səssiz qala bilməzdik və qalmadıq. Şuşanın işğaldan azad edilməsi sevincimizi və ümidimizi artırıb. Qarabağdakı işğal bitənə qədər mübarizə bayrağı enməyəcək.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada keçirilən 12-ci səfirlər konfransındakı çıxışında ifadə edib.

Azərbaycanın apardığı mübarizədə haqlı olduğunu, 28 ildir qaçqın həyatı yaşayan soydaşlarımızın öz yurdlarına dönmək hüququna malik olduqlarını bir daha xatırladan Prezident Rəcəb Tayyib Ərdoğan əminliklə ifadə edib ki, Azərbaycan Kəlbəcər və Laçın başda olmaqla, qalan bütün ərazilərini işğaldan azad edəcək.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

## Azərbaycan Prezidenti: Hər kəs bizim gücümüzü gördü,hər kəs bizim dəmir yumruğumuz nədir, anladı

[06:20] 10.11.2020

Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcək. Necə başlayıb, onu hesab edirəm ki, bir çoxları bilir.

AZƏRTAC xəbər verir ki, bunu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirib.

Dövlətimizin başçısı deyib: "Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik".

**AZƏRTAC**

**Ombudsman: Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz böyük Qələbə sevincini bizə yaşatdı**

[12:18] 11.11.2020

10 noyabr 2020-ci il müstəqil Azərbaycanın tarixində ən parlaq səhifələrdən biridir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi istiqamətində uğurlara imza ataraq 30 ilə yaxındır ki, dərin həsrətlə gözlədiyimiz böyük Qələbə sevincini bizə yaşatdı.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ombudsman Səbinə Əliyeva bildirib.

Ombudsman qeyd edib ki, Ermənistanın ölkəmizə təcavüzünün qarşısını almaq, işğal altındakı torpaqlarımızı azad etmək məqsədilə 2020-ci ilin 27 sentyabr tarixindən etibarən sülhə məcburetmə əməliyyatı adlandırılan zəfər yürüşünə başlayan Azərbaycan Ordusu qısa bir dövr ərzində həyata keçirdiyi uğurlu əks-hücum nəticəsində qarşı tərəfin 30 il ərzində böyük məbləğdə vəsait sərf edərək qurmuş olduğu çoxsaylı müdafiə istehkamlarını vurub dağıtdı və onun "yenilməz" hesab etdiyi ordusunu məğlubiyyətə düçar etdi.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə cəmi 44 gün ərzində Azərbaycanın uzun illərdir işğal altında qalan 5 şəhərini, 4 qəsəbəsini, 286 kəndini, çoxsaylı strateji yüksəkliklərini, xüsusilə də Qarabağın incisi, mədəniyyət beşiyi, ölkəmizin qədim tarixə malik şəhərlərindən olan Şuşanı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusu tarixi ədaləti bərpa etməklə öz möhtəşəm gücünü və hərbi qüdrətini bütün dünyaya nümayiş etdirdi. Artıq müstəqil dövlətimizin üçrəngli, ay-ulduzlu dövlət bayrağı respublikamızın bütün guşələrində olduğu kimi, Şuşada və işğaldan azad edilmiş digər torpaqlarımızda əzəmətlə dalğalanmaqdadır.

"Bu gün bir daha böyük qürur və sevinc hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Prezidentinin, Ermənistanın baş nazirinin və Rusiya Prezidentinin 2020-ci ilin 10 noyabr tarixində imzaladıqları birgə Bəyanata əsasən artıq Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə xalqımızın tarixi qələbəsi ilə son qoyulur.

Əldə olunan qələbələr Ermənistanı Ağdam, Laçın və Kəlbəcəri siyasi yolla qaytarmağa məcbur edir. Ali Baş Komandan eyni zamanda bir milyondan artıq qaçqın və məcburi köçkün soydaşlarımızın 30 ildən artıq müddətdə pozulan hüquq və azadlıqlarını bərpa etdi.

Bütün bunlar qəlbi Vətən eşqi ilə döyünən hər bir azərbaycanlıya sevinc və sonsuz qürur hissi yaşadan möhtərəm Prezidentimizin daxili və xarici siyasəti, Müzəffər Ali Baş Komandan kimi rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tərəfindən həyata keçirilən uğurlu həmlələr, Birinci vitse-prezident Mehriban Əliyevanın müdrik siyasəti və öz mənəvi dəstəyini xalqımızdan əsirgəməyən dost və qardaş ölkələrin prinsipial mövqeyi nəticəsində mümkün olmuşdur.

Şəhidlərimizin qanı bahasına əldə olunmuş möhtəşəm qələbə münasibətilə xalqımızı ürəkdən təbrik edir, torpaqlarımızı Ermənistanın işğalından azad edən bütün əsgərlərimizə bu şərəfli yolda möhkəm cansağlığı, güc-qüvvət diləyirəm!

Müstəqil Azərbaycanımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş bütün hərbi qulluqçularımıza Allah rəhmət eləsin, yaralılar tezliklə şəfa tapıb öz sağlamlıqlarına qovuşsunlar.

Yaşasın müstəqil Azərbaycan Respublikası! Yaşasın müzəffər Ali Baş Komandan, Birinci vitse-prezident və qüdrətli Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!", - deyə S.Əliyeva qeyd edib.

**AZƏRTAC**

**Erməni politoloq: Bu, rüsvayçı razılaşmadır, bu, tam təslim olmaq deməkdir**

[21:03] 11.11.2020

Bu, rüsvayçı razılaşmadır, bu, tam təslim olmaq deməkdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Moskovskiy komsomolets" qəzetinə müsahibəsində erməni politoloq Andranik Miqranyan Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladıqları birgə bəyanatı şərh edərkən deyib. O, Laçın dəhlizinin gediş-gəliş üçün saxlanması məsələsinə toxunaraq bildirib ki, dəhliz Ermənistanın nəzarəti altında qalmır. Razılaşmaya əsasən, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi elan olduğunu xatırladan politoloq qeyd edib ki, Kəlbəcər, Laçın, Şuşa, Ağdam da Azərbaycana qaytarılır, üstəlik, Qarabağ Hadrutu da itirib. "Hər yer qaytarılır. Rusiya sülhməramlıları Ermənistanla Qarabağı birləşdirən beş kilometrlik zolağa müvəqqəti olaraq nəzarət edəcəklər. Sonradan Şuşa kənarından yeni yol çəkiləcək, ancaq bu yol da de-yure Azərbaycanın tərkibində olacaq. Erməni tərəfinin nəzarətində heç nə qalmır - 5 kilometrlik zolaq, o da hüquqi cəhətdən Azərbaycanın ərazidir", - deyə o bildirib.

Erməni politoloqu qeyd edib ki, imzalanan bəyanat razılaşma deyil, Ermənistanın total təslim olmasını əks etdirən aşağılayıcı sənəddir. Naxçıvana Ermənistandan keçən quru yolunun razılaşmaya daxil edilməsini isə politoloq "ümumiyyətlə fəlakət" adlandırıb.

Andranik Miqranyan Paşinyanın harada gizləndiyinin hələlik məlum olmadığını vurğulayıb.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**

# BBC Kəlbəcərdən reportaj hazırlayıb: ermənilər hətta pəncərə çərçivələrini, unitazları belə söküb özləri ilə aparırlar

[13:39] 13.11.2020

Əldə edilən razılaşmaya uyğun olaraq ermənilər Kəlbəcər rayonunu tərk edirlər.

AZƏRTAC xəbər verir ki, razılaşmanın icra olunduğunu "BBC News" kanalının Kəlbəcərdən hazırladığı reportaj da təsdiq edir.

Reportajda ermənilərin Kəlbəcəri tərk etmələri əks olunub. Reportajdan da görünür ki, ermənilər aparılması mümkün olan hər şeyi özləri ilə götürürlər, hətta pəncərə çərçivələrini, unitazları belə aparırlar. Apara bilmədikləri hər şeyi isə yandırır, məhv edirlər. Onlar xüsusən də Kəlbəcərdə meşələri və evləri yandırmaqla daha çox ziyan vurmaq istəyirlər.

Bütün bu faktlar ermənilərin Azərbaycana aid ərazilərdə maddi-mədəni sərvətlərimizin dağıdılması və qarət olunmasını indi də davam etdirdiklərini bir daha sübut edir.

Xatırladaq ki, hələ oktyabrın 28-də Prezident İlham Əliyev "İnterfaks" agentliyinə müsahibəsində bu faktı bildirib. Dövlətimizin başçısı müsahibəsində deyib: "Biz Füzuli şəhərini işğaldan azad edəndə orada bircə salamat bina tapa bilmədik. Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər. Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb. Elə bil buradan vəhşilər keçiblər. Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi söküb-dağıdıblar. Evlərin damlarını, pəncərə çərçivələrini, hətta unitazları da. Bu, sadəcə, quldurluqdur".

Beləliklə, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi sahədəki möhtəşəm uğurlarımızı məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail oldu. BBC-nin reportajından da göründüyü kimi, torpaqlarımız müharibəsiz, qansız, şəhidsiz geri qaytarılır.

**AZƏRTAC**

**Rusiyalı ekspert: Ermənilərin tərk etdikləri ərazilərdə yalnız azərbaycanlılar yaşayırdı**

[06:37] 14.11.2020

Rusiya mətbuatında Qarabağdan çıxarılan ermənilərin evlərini yandırmağa başladıqları barədə məlumat yayılır. Bu məlumatda yalnız bir həqiqət var - həqiqətən ermənilər son 25 ildə yaşadıqları evləri yandırırlar. Lakin doğrudanmı fakt olaraq, özlərinə məxsus evləri yandırırlar?

AZƏRTAC xəbər verir ki, bu barədə "Facebook" səhifəsində Q.V.Plexanov adına Rusiya İqtisadiyyat Universitetinin politologiya və sosiologiya kafedrasının dosenti, hərbi ekspert Aleksandr Perenciyev yazıb.

"Mən diqqəti ona cəlb edirəm ki, ermənilər tərk etdikləri rayonlarda 90-cı illərin ortalarına qədər yaşamırdılar. Orada demək olar ki, azərbaycanlılar yaşayırdılar və Ermənistan tərəfindən başlanmış soyqırımı nəticəsində ya öldürülmüş ya da öz evlərini atıb qaçmağa macal tapmışdılar. Sonradan orada ermənilər məskunlaşmışlar. İndi ermənilər Laçın, Kəlbəcər, Ağdam rayonlarında əvvəllər azərbaycanlılara məxsus olan özlərinin 25 il yaşadıqları evləri yandırırlar", - deyə, ekspert yazır.

A.Perenciyevin sözlərinə görə, indi şikayətlənən erməni qaçqınlarını mediada göstərən zaman 1990-cı illərin əvvəllərində bu torpaqlarda öldürülən və ya sağ qalan, tələsik kiçik vətənlərini tərk etməyə məcbur olan azərbaycanlıları xatırlamaq lazımdır. "Ədalət ikili standartlar üzərində qurula bilməz! Xüsusilə tarixi ədalət. Azərbaycan Qarabağda sülh tərəfdarıdır, Qarabağ isə Azərbaycandır!", - deyə, o, yazıb.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri, Moskva**

**AZƏRTAC**

**Rusiyalı ekspert: Ermənilərdən fərqli olaraq, azərbaycanlılar Kəlbəcərdən ayaqyalın köçürdü**

[14:15] 14.11.2020

Ermənilərdən fərqli olaraq, azərbaycanlılar Kəlbəcərdən ayaqyalın qaçırdılar. Aradan çox illər keçsə də, bunu unutmaq olmaz.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın "Rossiya 1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov Kəlbəcəri tərk edən ermənilərin oradakı evlərini və digər tikililəri yandırmasını əks etdirən videogörüntüləri şərh edərkən bildirib.

Qarabağın beynəlxalq hüquqa əsasən Azərbaycan torpağı olduğunu, onun öz ərazilərini geri qaytarmaq üçün mübarizə apardığını vurğulayan ekspert deyib: "Ən əsası isə rəsmi Bakı Şuşa şəhərini aldığı zaman alicənablıq göstərərək razılıq verdi ki, sülhməramlılar əraziyə buraxılsın, rayonlar mərhələ-mərhələ, tədricən Azərbaycana qaytarılsın. Azərbaycanın özünü bu vəziyyətdə bundan da artıq necə alicənablıqla apara biləcəyini təsəvvür edə bilmirəm. Ermənilərə bu rayonlardan çıxmaları üçün vaxt verildi".

Aleksey Naumov 1993-cü ildə azərbaycanlıların Kəlbəcərdən çılpaq, ayaqyalın qaçmasını da xatırladıb: "Bu tamamilə faciəli vəziyyət idi və onu bu gün də unutmaq olmaz. Bəli, bu, çoxdan olub, amma biz bunu unuda bilmərik".

Ekspert Ermənistan hakimiyyətinin bu vəziyyətdə belə, özünü qeyri-adekvat aparmasından danışaraq deyib: "Aydındır ki, hərbi məğlubiyyətdən sonra qisas almağı, yumruğunu sıxaraq, onların hesab etdiyi kimi - "özününkünü" qaytarmaq istəyirsən. Lakin biz qisasçılığın nəyə gətirib çıxardığını bilirik. Biz bunu Avropada XX əsrdə çox yaxşı görmüşük".

Rusiyalı ekspert çıxışının sonunda Ermənistanın baş naziri Nikol Paşinyanın öz qürurunu udaraq İlham Əliyevə zəng etməli olduğunu bildirib.

"Azərbaycan bu gün belə bir vəziyyətdə özünü maksimum alicənab aparır, çünki 1993-cü ili unuda bilmərik", - deyə o, əlavə edib.

**AZƏRTAC**

**Bu gün Kəlbəcəri təhlükəsiz şəkildə tərk edən ermənilərdən fərqli olaraq, 1993-cü ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub**

[18:21] 14.11.2020

Məlum olduğu kimi, Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər, Laçın və Ağdam rayonlarının ərazilərini qeyd-şərtsiz tərk etməlidir. Kəlbəcər rayonu noyabrın 15-də Azərbaycanın nəzarətinə verilməlidir.

AZƏRTAC xəbər verir ki, Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnamənin yerinə yetirilməsi deməkdir. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcərdən və Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılması tələb olunsa da, indiyədək bu öhdəliklər yerinə yetirilməmişdi.

Bu gün Kəlbəcəri tərk edən erməni əhalisi rayonun 1993-cü ildə işğalından sonra orada qeyri-qanuni məskunlaşmışdı. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən işğalçı Ermənistan Kəlbəcər ərazisində ermənilərin fəal məskunlaşdırılmasına başlamışdı.

Qeyri-qanuni yaşadıqları əraziləri - Azərbaycan torpaqlarını tərk edən ermənilər təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla əşyalarını götürür, hətta evlərin dam örtüyü, pəncərə çərçivələri və unitazlarına qədər çıxarıb aparırlar. Üstəlik, yaşadıqları və yaşamadıqları evləri yandırır, meşələrə od vurur, vandallıq edirlər - 27 il əvvəl buradan qovulmuş azərbaycanlıların evlərində yaşayan ermənilər indi həmin evlərə od vuraraq gedirlər.

Azərbaycan tərəfi Kəlbəcərdəki erməni hərbi birləşmələrinin ərazidən çıxması üçün humanitar qaydalara tam uyğun olaraq, qabaqcadan razılaşdırılmış müddət ayırdı. Lakin erməni tərəfi işğal zamanı bunların heç birini etməmişdi.

Bu gün təhlükəsiz şəkildə və öz seçimi ilə ərazini tərk edən erməni əhalidən fərqli olaraq, 1993-cü ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub, dağ yolları ilə, ayaqyalın, piyada şəkildə erməni təcavüzkarlarından qaçıb xilas olublar. Onların bir çoxu qırğına məruz qalıb, atəşə tutulub, cəsədləri belə təhqir edilib. Nəticədə Kəlbəcərdə 500-dən çox dinc sakin həlak olub, yüzlərlə insan girov və ya itkin düşüb. Azərbaycan əhalisi özü ilə heç nə götürə bilməyib, sakinlərin bütün əmlakı erməni ordusu tərəfindən qarət olunub. Bu gün baş verənlər həm də Azərbaycan və Ermənistan arasındakı fərqi anlamaq üçün mühümdür.

Ermənilərin Kəlbəcəri tərk etmələri:
https://www.youtube.com/watch?v=OUUe8TiABEU&fbclid=IwAR0lzNY8qSOf1V;
Azərbaycanlıların Kəlbəcəri tərk etmələri;
https://www.youtube.com/watch?v=vD-JrkOJh1s.

**AZƏRTAC**

**Avstraliya portalı Kəlbəcəri tərk edən ermənilərin azərbaycanlılara məxsus evləri yandırmasından yazıb**

[09:21] 15.11.2020

Qarabağı tərk edən ermənilər həmin ərazilərdəki evləri yandırırlar.

AZƏRTAC xəbər verir ki, bu barədə Avstraliyanın nüfuzlu “SBS news” portalı məlumat yayıb. Bildirilir ki, ermənilər 30 ilə yaxın bir müddətdə işğal altında saxladıqları ərazilərdə yerləşən evlərə od vururlar. Burada yaşayan ermənilərə ərazini tərk etmələri üçün noyabrın 15-dək vaxt verilib.

Qeyd edilir ki, tərəflər arasında əldə edilən sülh razılaşmasına əsasən ermənilər istirahət günlərinədək həmin əraziləri Azərbaycana təhvil verməlidirlər. Xüsusən Kəlbəcər rayonunda yerləşən və separatçılar tərəfindən uzun müddət işğal altında saxlanan kəndlərdə yaşamış ermənilərin Ermənistana qaçmazdan əvvəl evlərə və sosial obyektlərə məhz azərbaycanlılara qalmaması üçün od vurduqları vurğulanır. Bildirilir ki, bu evlərin əksəriyyəti ötən əsrin 90-cı illərində bu ərazilərdən qovulan azərbaycanlılara məxsus olub. Azərbaycan Prezidenti İlham Əliyevin azad edilmiş ərazilərin 99 faizinin, evlərlə yanaşı, xəstəxanaların, məktəblərin, tarixi abidələrin ermənilər tərəfindən dağıdıldığını bildirdiyi və buna görə Ermənistanın kompensasiya ödəyəcəyini vurğuladığı qeyd edilir.

Ermənistan-Azərbaycan münaqişəsinin tarixinə toxunularaq, Ermənistan ordusu ilə Azərbaycan Silahlı Qüvvələri arasında döyüşlərin sentyabrın 27-də qızışdığı və altı həftə davam etdiyi qeyd edilir.

Ermənistan rəsmi mənbələrinin noyabrın 14-də bildirdiyinə görə müharibə zamanı 2317 nəfərin həlak olduğu və bu rəqəmin əvvəlki rəsmi məlumatdan təqribən iki dəfə çox olduğu vurğulanır. Rusiya Prezidenti Vladimir Putinə istinadla isə bu rəqəmin 4 mindən artıq olduğu bildirilir.

Yazıda tərəflər arasında razılaşmadan sonra Ermənistanda baş verən etirazlar, baş nazir Nikol Paşinyanın istefasını tələb edən mitinqlərin keçirilməsi barədə də məlumat verilir. Noyabrın 14-də Ermənistanın keçmiş Milli Təhlükəsizlik naziri Artur Tanesyanın və digərlərinin N.Paşinyana qarşı sui-qəsd hazırlamaq cəhdi ilə əlaqədar həbs olunduğu da bildirilir.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kanberra**

**AZƏRTAC**

**Türkiyə mediası: Kəlbəcəri tərk edən ermənilər evləri və meşələri yandırırlar**

[12:56] 15.11.2020

Azərbaycanın işğalçı Ermənistan üzərində rəşadətli hərbi-siyasi qələbəsi, eləcə də təcavüzkar tərəfin məğlubiyyət öhdəliklərinə münasibəti Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş şəkildə işıqlandırılmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, Ermənistanın işğalçılıq siyasəti əsasında Kəlbəcərdə qanunsuz məskunlaşan ermənilərin rayonu tərk edərkən zəbt etdikləri evləri və meşələri yandırması KİV-lər tərəfindən insanlığa yaraşmayan vəhşilik kimi dəyərləndirilir. Vurğulanır ki, bu torpaqlar və evlər ermənilərə məxsus olmadığından və onlar geri qayıda bilməyəcəklərini dərk etdiklərindən Azərbaycana qarşı sonuncu düşmənçilik imkanlarını bu yolla həyata keçirirlər. Baş verənlər təcavüzkar Ermənistanın hərbi-siyasi məğlubiyyətini həzm edə bilməməsinin nəticəsi olmaqla bərabər, insanlıq cinayəti və ekoloji terrordur.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Prezidentin köməkçisi: Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib**

[15:10] 15.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin noyabrın 10-da imzaladığı birgə bəyanatın icrası istiqamətində işlər davam etdirilir. Ermənistan Kəlbəcərin tam boşaldılması üçün noyabrın 25-dək vaxt istəyib.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə bildirib.

Ermənilərin bəyanatda göstərilən rayonlardan çıxarılması işlərinin davam etdiyini bildirən Hikmət Hacıyev deyib: "Bəyanatın tələblərindən biri ermənilərin noyabrın 15-dək Kəlbəcərdən çxarılması idi. Lakin Ermənistan tərəfi Rusiya vasitəsilə bu vaxtın uzadılması üçün müraciət edib. Hava şəraiti çətinləşir, o istiqamətdən yalnız bir yol var və yolun ötürücülük qabiliyyəti aşağıdır. Azərbaycan bunu nəzərə alaraq, humanistlik nümayiş etdirib və Kəlbəcərdə yerləşdirilmiş mülki əhalinin noyabrın 25-dək çıxarılmasına razılıq verib. Öhdəliklər qüvvədə qalır, vaxtın uzadılması ilə bağlı xüsusi bəyanat imzalanmasına ehtiyac yoxdur"

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin noyabrın 20-də Ağdamdan, dekabrın 1-dək isə Laçından çıxarılması nəzərdə tutulur.

**AZƏRTAC**

**Hikmət Hacıyev: Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunur**

[15:25] 15.11.2020

Ermənistanın Kəlbəcərdən çıxması da vandalizm aktları ilə müşahidə olunmaqdadır. Ərazilərimizin işğaldan azad edilməsi prosesində son məqamda da maddi mədəniyyət abidələrinə zərərlərin vurulması həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev noyabrın 15-də keçirilən brifinqdə söyləyib.

“Ağdamda Tiqranakert adlandırdıqları ərazidə qanunsuz arxeoloji qazıntılar aparırdılar. Bu qazıntılar zamanı əldə edilənlərin Ermənistana aparılması cəhdləri də var. Bu, beynəlxalq qanunların pozulmasıdır. Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəni irsi talan edən də Ermənistan olub. Biz işğal olunmuş ərazilərdə maddi mədəniyyət abidələrinə, xüsusən məscidlərinə vurulan zərərləri görürük, hətta məscidlərdə donuzlar saxlanılıb. Daha ətraflı araşdırmalardan sonra Ermənistanın barbar əməllərinin nəticələri bir daha özünü büruzə verəcək”, - deyə Prezidentin köməkçisi qeyd edib.

**AZƏRTAC**

## General-mayor Hüseyn Mahmudov: Azərbaycan Ordusunun qüvvələri Kəlbəcərə hərəkət etmək üçün tam hazır vəziyyətdədir

[15:44] 15.11.2020

Noyabrın 15-nə planlaşdırılmış və üç ölkənin rəhbərləri tərəfindən imzalanmış bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin və Kəlbəcərdə qeyri-qanuni məskunlaşdırılmış əhalinin çıxarılmasına paralel olaraq, oraya yerləşdiriləcək Azərbaycan Ordusunun hissələri və qüvvələri rayon ərazisinə hərəkət etmək üçün tam hazır vəziyyətdədir.

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 15-də keçirilər brifinqdə Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov deyib.

General-mayor bildirib ki, Azərbaycan Ordusunun mühəndis qoşunları tərəfindən Kəlbəcərə bitişik olan və bu günədək Ordumuzun nəzarətindəki ərazilər minalardan təmizlənib.

Kəlbəcər rayonunun ərazisinə və əvvəlcədən müəyyənləşdirilmiş post və məntəqələrə hərəkət əsasən iki istiqamətdən - Göygöl və Daşkəsəndən həyata keçiriləcək. Kəlbəcərə daxil olacaq qüvvələrimiz, ilk növbədə, Azərbaycan-Ermənistan dövlət sərhədi və Qarabağ ərazisində sülhməramlılar tərəfindən yaradılmış nəzarət məntəqələri boyunca yerləşdiriləcək.

Hüseyn Mahmudov vurğulayıb ki, Azərbaycanın işğal olunmuş ərazilərindən erməni silahlı qüvvələrinin və qeyri-qanuni məskunlaşdırılmış əhalinin çıxarılması prosesi davam edir. Azərbaycan Müdafiə Nazirliyi yüksək texnologiyaya malikdir və biz bu prosesi diqqətlə izləyirik. Heç bir təxribata yol verilmir. Brifinqdə göstərilən videodan göründüyü kimi, bir neçə kilometr uzunluğunda avtomobil karvanları hərəkət edir. Yol çox dar olduğu üçün bu proses ləngiyir. Əsas məqsədimiz prosesi diqqətlə izləmək və yaranmış vəziyyət barədə tam dəqiq məlumatı ictimaiyyətə çatdırmaqdır.

O bildirib ki, ermənilər işğal altındakı əraziləri tərk edərkən binaları, meşələri yandırır, öz postlarını dağıdır. Bu, bir daha onların əsl iç üzünü dünya ictimaiyyətinə göstərir. Biz bu proseslərə nəzarət edirik.

**AZƏRTAC**

**Vüqar Kərimov: Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulmalıdır**

[17:10] 15.11.2020

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ekoloji qeyri-hökumət təşkilatları, Azərbaycan ictimaiyyəti dünən sosial şəbəkələrdə və televiziyalarda Kəlbəcər ərazisində ermənilərin barbarlığını nümayiş etdirən foto və videolarda əks olunanları qətiyyətlə pisləyir və bu hərəkətləri insanlığa, təbiətə qarşı əsil düşmənçilik kimi qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, bunu ekologiya təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov jurnalistlərə açıqlamasında bildirib.

Nazirlik rəsmisinin sözlərinə görə, təcavüzkar Ermənistan tərəfindən işğal altındakı ərazilərdəki flora və faunanın məhvi, xüsusən də Cəbrayıl, Zəngilan, Qubadlı və işğaldan azad olunmuş digər ərazilərimizdə yaşı iki min ildən artıq olan təbiət abidələrinin - çinarların kəsilməsi, Şuşa ətrafındakı Topxana meşəsinin qadağan olunmuş ağ fosforla yandırılması, indi də Kəlbəcərdə ağacların kəsilməsi, meşələrin yandırılması və ətraf mühitə qəsdən zərər verilməsi təbiətə qarşı ən ağır cinayətdir: "Bu barbarlığa biz dünən yayılan foto və videolarda bir daha şahid olduq. Həmin ekoloji cinayətlər illərlə Azərkosmosdan alınmış foto faktlarda da təsdiq olunub. Eyni zamanda, yaşıllıqlara, meşə sahələrinə, bölgənin biomüxtəlifliyinə qarşı törədilən soyqırımı, yaradılmış əməliyyat qrupunda təmsil olunan nazirliyimizin əməkdaşlarının keçirdiyi monitorinqlərin ilkin nəticələrində də öz əksini tapıb".

Nazir müavini qeyd edib ki, mövcud faktlar müvafiq beynəlxalq konvensiyaların katibliklərinə təqdim edilib: "Təbiətin məhv edilməsinə, qonşu xalqa nifrət və düşmənçiliyin bu cür vəhşi formada ifadəsinə son qoyulması, talançılığın qeydə alınması və ziyanların hesablanması üçün beynəlxalq müşahidə və qiymətləndirmə qrupları Azərbaycana dəvət olunacaq.

Ekoloji terror faktlarına qiymət verilməsi üçün səylərimizi davam etdirməklə yanaşı, işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində işlərə artıq başlamışıq. İşğaldan azad olunmuş ərazilərdə noyabrın 11-dən başlayaraq müxtəlif növ ağac tingləri əkilir, meşə örtüyünün və yaşıllıqların bərpası istiqamətində tədbirlər görülür. Qarabağ ərazisində fəaliyyətimiz bundan sonra daha da intensivliklə davam etdiriləcək".

**AZƏRTAC**

**CGTN ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlardan yazır**

[17:38] 15.11.2020

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vandallıqlar barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan, Rusiya və Ermənistanın rəhbərləri tərəfindən imzalanmış bəyanatın şərtlərinə uyğun olaraq Azərbaycana qaytarılmalı olan Kəlbəcər rayonunda sonradan məskunlaşmış ermənilərin yaşadıqları evləri yandırmalarından, dam örtüyü də daxil olmaqla tikinti materiallarını söküb aparmalarından söz açılıb.

Qeyd olunub ki, Azərbaycanın hüquqi ərazisi olan Kəlbəcər 1994-cü ildə başa çatan müharibə nəticəsində ermənilərin nəzarətinə keçib. Amma bu il sentyabrın sonunda başlayan döyüşlərin gedişində Azərbaycan davamlı hərbi uğurlar əldə edib ki, bunların da kulminasiyası strateji vacib mövqeyi və Azərbaycan mədəniyyətində həssas yeri olan Şuşa şəhərinin azad edilməsidir. Bundan sonra Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri atəşkəs barədə bəyanat imzalayıblar. Bəyanata əsasən, Ermənistanın işğalı altında olan ərazilər Azərbaycana qaytarılacaq. Artıq Kəlbəcərdən Ermənistana gedən yolda kilometrlərlə uzanan avtomobil karvanı yaranıb.

Məqalədə 1994-cü ildə başa çatmış döyüşlər nəticəsində yüz minlərlə azərbaycanlının öz yurdlarından didərgin düşdükləri bildirilib. Kəlbəcərin Azərbaycanın nəzarətinə qaytarılması ilə öz evlərinə qayıdacaq sakinlər yanmış, xarabalığa çevrilmiş evlərlə qarşılaşacaqlar. Qarşıdakı günlərdə Azərbaycana qaytarılmalı olan və vaxtilə minlərlə sakinin yaşadığı Ağdam birinci müharibədə dağılması və ya sonradan qarətçilərin binaların tikinti materiallarını söküb aparması nəticəsində xarabalığa çevrilib.

Məqalədə Azərbaycanın Baş Prokurorluğuna istinadla qeyd olunub ki, Füzuli rayonunda mina partlaması nəticəsində bir nəfər ölüb, digəri isə ağır dərəcəli bədən xəsarəti alıb.

**Şahin Cəfərov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Pekin**

**AZƏRTAC**

**Ermənistan Kəlbəcərin boşaldılması üçün vaxt istədi: Azərbaycan növbəti dəfə humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirdi**

[19:00] 15.11.2020

Azərbaycan, Rusiya və Ermənistan rəhbərliyinin imzaladığı Bəyanata əsasən, işğalçı qüvvələr Kəlbəcər rayonunu noyabrın 15-dək boşaltmalı idi. Amma Ermənistan tərəfi rayonun təhvil verilməsi üçün əlavə 10 gün vaxt istəyib. Azərbaycan dövləti öz humanist xarakterini bir daha nümayiş etdirərək, Rusiya Prezidenti Vladimir Putinin xahişini nəzərə alaraq, bu müddətin noyabrın 25-dək uzadılmasına razılıq verib.

Bu qərarı qəbul edərkən Azərbaycan tərəfi Kəlbəcər rayonunun coğrafi baxımdan böyük bir ərazini əhatə etməsini, relyefin mürəkkəbliyini, hava şəraitinin ağırlaşmasını və rayondan çıxış üçün cəmi bir yolun olduğunu nəzərə alıb. Dövlətimizin yürütdüyü siyasətdə daim humanizm prinsiplərini rəhbər tutduğunu nəzərə alsaq, Azərbaycanın bu məsələyə razılıq verməsini də bu qəbildən olan növbəti addım hesab etmək olar.

Lakin gecə evlərində yatan insanları raket atəşinə məruz qoyan, Xocalı faciəsini törədən Ermənistan 1993-cü ildə Kəlbəcəri işğal edərkən əhaliyə rayonu tərk etmək üçün cəmi 10 saat vaxt vermişdi. Buna baxmayaraq, Azərbaycan humanistlik göstərərək daha 10 gün gözləməyə razılaşıb. Odur ki, ermənilər Azərbaycanın növbəti bu humanist addımını heç vaxt unutmamalıdırlar.

Qeyd edək ki, Ermənistan KİV-lərinin, həmçinin xarici media orqanlarının yaydıqları informasiyalardan da görünür ki, artıq Azərbaycanın Kəlbəcər rayonunun təhvil verilməsi istiqamətində işlərə başlanılıb. Eyni zamanda, noyabrın 20-də Azərbaycana təhvil veriləcək Ağdam rayonu ərazisinin də boşaldılması bu yoldan həyata keçirilir. Digər tərəfdən, bu yolun texniki imkanları da kütləvi hərəkətə imkan vermir və beləliklə, ləngimələr yaranır. KİV-lərdə gedən reportajlardan da yolda yaranmış tıxacları müşahidə etmək olur. Həmçinin Müdafiə Nazirliyinin bu gün təqdim etdiyi videogörüntülərdən də prosesin həyata keçirildiyi faktları görmək mümkündür. Azərbaycan isə prosesi təmkinlə izləyir və müddətin uzadılması ilə bağlı qərarın qəbulu bir daha sübut edir ki, Ermənistandan fərqli olaraq, Azərbaycan həm müharibə, həm də sülh dövrünün qaydalarına tam əməl edir. Hərbi əməliyyatlar zamanı mülki şəxsləri və yaşayış məntəqələrini hədəf seçməyən Ordumuz hazırda rayonun sakit və təhlükəsiz şəkildə boşaldılmasını təmin edir.

Digər maraqlı məqam isə Azərbaycanın tarixi torpaqlarına köçürülən ermənilərin Kəlbəcərdə evlərə və meşələrə od vurmaqda davam etməsidir. İşğal edilənə qədər Kəlbəcərdə heç bir erməni yaşamayıb, buradakı evlər, tarixi abidələr bizə məxsusdur. Meşələrə od vurmaq, ağacları kəsmək isə əsl ekoloji terrordur. Bu barbarlıq xarici KİV-in və dünya ictimaiyyətinin gözü qarşısında baş verir.

1993-cü ildə Kəlbəcərin əsl sakinləri dağları, meşələri, keçilməz yolları ayaqyalın qət edərək canlarını erməni silahlılarından güclə qurtardılar. Yüzlərlə kəlbəcərli qırğına məruz qaldı, cəsədləri belə təhqir edildi. Çoxlu sayda insan girov və ya itkin düşdü. Kəlbəcərlilər özləri ilə heç nə götürə bilmədilər, sakinlərin bütün əmlakı ermənilər tərəfindən qarət olundu.

Bu gün isə Azərbaycan humanist xarakterini bir daha nümayiş etdirərək ermənilərə Kəlbəcəri tam boşaltmağa, hər şeylərini aparmağa imkan yaradır, yetər ki, tarixi, gözəl təbiətə malik torpaqlarımızı qaytarsınlar.

27 il əvvəl baş verənlər və bu gün şahidi olduğumuz mənzərə isə bizim fərqimizi - iki ölkə arasındakı fərqi tam şəkildə təsvir edir.

**Əsəd Məmmədov**
**AZƏRTAC-ın redaksiya müdiri**

**AZƏRTAC**

**Yaponiya saytı: Kəlbəcəri tərk edən ermənilər öz evlərini və sosial obyektləri yandırırlar**

[11:39] 16.11.2020

Yaponiyanın "msn.com" saytı Azərbaycanın işğaldan azad olunmuş Kəlbəcər rayonunu tərk edən ermənilərin buradakı evləri və sosial obyektləri yandırması barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan köçürülmə vaxtını noyabrın 25-dək uzadır" sərlövhəli məqalədə Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanan bəyanata əsasən, Kəlbəcərin noyabrın 15-dək təhvil verilməsinin nəzərdə tutulduğu xatırladılır. Qeyd edilir ki, Ermənistan tərəfi Azərbaycana müraciət edərək ərazinin təhvil verilməsi müddətinin noyabrın 25-dək uzadılmasını xahiş edib. Azərbaycan tərəfi növbəti dəfə humanistlik göstərərək Ermənistan rəhbərliyinin bu xahişini qəbul edib.

Məqalədə bildirilir ki, 1990-cı illərin əvvəllərində keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Kəlbəcəri mühasirəyə alan Ermənistan ordusu və separatçılar burada yaşayan azərbaycanlılara ərazini tərk etmələri üçün cəmi bir neçə saat vaxt vermişdilər. Lakin buna baxmayaraq, Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bəyan edib ki, ölkə rəhbərliyi növbəti dəfə humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirərək və Rusiya Prezidentinin xahişini nəzərə alaraq həmin müddətin noyabrın 25-dək uzadılmasına razılıq verib.

Məlumatda ermənilərin tərk etdikləri evləri və sosial obyektləri yandırmasına da geniş yer ayrılıb. Bildirilib ki, bu evlərin əksəriyyəti ötən əsrin 90-cı illərində bu ərazilərdən qovulan azərbaycanlılara məxsus olub. Azərbaycan Prezidenti İlham Əliyevin azad edilmiş ərazilərin 99 faizinin, evlərlə yanaşı, xəstəxanaların, məktəblərin, tarixi abidələrin ermənilər tərəfindən dağıdıldığını bildirdiyi və buna görə Ermənistanın kompensasiya ödəyəcəyini vurğuladığı diqqətə çatdırılıb.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tokio**

**AZƏRTAC**

## Kəlbəcərdə beynəlxalq hüquq və BMT qətnamələri tətbiq olunur

[16:12] 16.11.2020

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanan birgə bəyanata görə, bütün erməni silahlı qüvvələri Azərbaycan ərazilərini tərk etməlidir. Kəlbəcəri tərk edənlər isə orada qeyri-qanuni məskunlaşmış insanlardır. Bu gün Qarabağda beynəlxalq hüququn prinsip və normaları, eləcə də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələbləri tətbiq olunur.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev “France 24” televiziya kanalının müxbirinin Kəlbəcərdə qeyri-qanuni məskunlaşmış ermənilərin bu rayonu tərk etməsi ilə bağlı sualına cavabında səsləndirib.

Səfir bildirib ki, üç ölkə arasında imzalanan sənədin tətbiqi başlayıb. Kəlbəcər 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal olunub. Həmin vaxtdan torpaqlarımız işğal altında idi və orada insanlar qeyri-qanuni olaraq məskunlaşdırılıb.

Səfir üç ölkə arasında imzalanan sənədi obyektiv hesab etdiyini bildirərək, onun beynəlxalq hüququn prinsipləri, eləcə də BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında hazırlandığını vurğulayıb. Təhlükəsizlik Şurasının 4 qətnaməsinin erməni silahlı qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını tələb etdiyini diqqətə çatdırıb.

Vurğulanıb ki, adıçəkilən qətnamələr 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən qovulmuş 1 milyona yaxın azərbaycanlı məcburi köçkünün doğma yurduna qayıtmasını da tələb edir.

Azərbaycanın mövqeyini səsləndirən səfir diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti Qarabağın gələcəkdə daha da inkişaf edəcəyini vurğulayıb. Ancaq məcburi köçkünlər doğma evlərinə qayıtmalıdırlar.

R. Mustafayev diqqətə çatdırıb ki, Azərbaycan etnik mənşəyindən asılı olmayaraq, bütün vətəndaşlarının hüquqlarını bərabər şəkildə təmin edir.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**

## CGTN: Kəlbəcəri tərk edən ermənilər yaşadıqları evləri yandırırlar

[19:25] 16.11.2020

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində ermənilərin Kəlbəcəri tərk edərkən törətdikləri vəhşiliklər barədə növbəti məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə rəsmi Bakının Ermənistanın xahişi əsasında Kəlbəcərin Azərbaycana təhvil verilməsinin noyabrın 25-dək uzadılmasına razılıq verdiyi bildirilib. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla vurğulanıb ki, Azərbaycan çətin hava şəraitini nəzərə alaraq, Kəlbəcərin təhvil verilməsi üçün əlavə 10 gün möhlət verib.

"Azərbaycan tərəfi ermənilərin Kəlbəcəri tərk edərkən evləri və sosial obyektləri yandırmasını pisləyib, onların ətraf mühitə ziyan vurduğunu bəyan edib", - deyə CGTN-dəki məqalədə bildirilib.

Qeyd olunub ki, 1994-cü ildə başa çatmış müharibədən əvvəl Kəlbəcərdə yalnız azərbaycanlı əhali yaşayıb. Amma Ermənistanın nəzarətinə keçdikdən sonra ermənilər orada qanunsuz olaraq məskunlaşmağa başlayıb.

Məqalədə Azərbaycana qaytarılacaq ərazilərdəki abidələrlə bağlı məsələyə də toxunulub. Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putin ilə telefon danışığı zamanı bütün dini abidələrin mühafizə olunacağını, Azərbaycanda yaşayan xristianların bu məbədlərdən istifadə edə biləcəyini deyib.

CGTN ermənilərin işğalı altında olan ərazilərdə İslam dininə aid abidələrin təhqir edilməsinə, o cümlədən məscidlərdə ev heyvanları saxlanılması məsələsinə toxunub.

Münaqişənin tarixi haqqında məlumat verilən məqalədə yazılır ki, Dağlıq Qarabağ bölgəsi sovet dövründə Azərbaycanın tərkibində olub. SSRİ-nin son illərində bölgədə başlayan müharibə 1994-cü ildə atəşkəs razılaşması isə dayanıb. Bu il sentyabrın 27-də yenidən başlayan müharibədə Azərbaycan əhəmiyyətli üstünlüklər qazanıb, strateji əhəmiyyətli Şuşa şəhərinə nəzarəti ələ keçirib. Bundan 2 gün sonra isə atəşkəs haqqında bəyanat imzalanıb. Ərazilərin Azərbaycana qaytarılmasını nəzərdə tutan bu bəyanat Ermənistanda ciddi etirazlara səbəb olub. Hökumət bəzi müxalifət liderlərini həbs edib.

**Şahin Cəfərov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Pekin**

**AZƏRTAC**

## "Le Temps": Kəlbəcərdə onlarla ev yanır

[09:02] 17.11.2020

Kəlbəcərdə onlarla ev yanır.

AZƏRTAC xəbər verir ki, bu sözlər Fransanın "Le Temps" qəzetində dərc olunan məqalədə yer alıb.

Məqalədə Ermənistan hökumətinin vaxtilə şirnikdirici vədlərlə erməniləri Kəlbəcərdə qanunsuz məskunlaşdırmasından söz açılıb.

Məqalədə Kəlbəcərdə məskunlaşmış və hazırda oranı tərk edən ermənilərlə aparılan söhbətlər zamanı onların müxtəlif vədlərlə buraya gətirildiklərini bildiriblər. Marut adlı erməni yaxınlıqda yanmış evi göstərərək, qonşusu Aleksin əvvəllər İtaliyada yaşadığını və erməni hökumətinin köməyi ilə Kəlbəcərə gəlib məskunlaşdığını deyib. Hacik adlı digər erməni isə əvvəllər Avstraliyada yaşadığını etiraf edib.

"Le Temps"ın jurnalisti Kəlbəcərdə vəziyyəti təsvir edərək, ermənilərin hər şeyi söküb apardığını, evləri yandırdığını və ağacları kəsdiyini yazıb.

Qeyd edilir ki, əldə edilmiş razılaşmaya görə Kəlbəcər Azərbaycana təhvil verilir. Rəsmi Bakı rayonu boşaltmaq üçün Ermənistana noyabrın 25-dək vaxt verib.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**

**Kəlbəcərin erməni vandalizminə məruz qalması İspaniyanın “LA VANGUARDIA” və “EL MUNDO” qəzetlərində geniş işıqlandırılıb**

[10:00] 18.11.2020

İspaniyanın “LA VANGUARDIA” və “EL MUNDO” qəzetlərinin elektron versiyalarında yerləşdirilmiş videolarda Azərbaycan Respublikasının işğal altında olan Kəlbəcər rayonunun erməni vandalizminin daha bir nümunəsinə şahidlik etdiyi qeyd olunur (https://www.youtube.com/watch?v=0bHsMVBSJJE).

AZƏRTAC xəbər verir ki, Kəlbəcər rayonunda qanunsuz olaraq məskunlaşmış erməni əhalisi rayonu vandalizm aktları törədərək boşaldırlar. Videolarda əhalinin özləri ilə apara bilmədiyi əşyaları, yaşayış evlərini, məktəbləri yandırması öz təsdiqini bir daha tapır.

**Nigar Cəfərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**Moldova saytı ermənilərin Qarabağda ekoloji terror törətməsindən yazıb**

[18:36] 19.11.2020

Moldovanın nüfuzlu NOİ.md saytında Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanovun ermənilərin Kəlbəcər, Laçın və Ağdam rayonlarında ekoloji fəlakətlər törətməsinə dair bəyanatı dərc olunub.

AZƏRTAC xəbər verir ki, bəyanatda ermənilərin işğal altındakı rayonlarımızı tərk edərkən törətdikləri vandalizm hərəkətləri qeyd olunub.

Bəyanatda bildirilir ki, son günlərdə Kəlbəcərdən çəkilən görüntülər bütün dünyanı təəccübləndirib, ermənilərin oradan çıxmazdan əvvəl yol boyu evləri, dükanları, məktəbləri, xəstəxanaları yandırdıqlarını göstərir.

"Meşələrin yandırılması və ağacların kütləvi şəkildə kəsilməsi vandalizm, ekoloji terrordur, çünki söhbət canlı təbiətdən gedir. Qarabağın meşələri onun zənginliyidir. Oradakı ağacların orta yaşı 165 ildir. Ağaclar o qədər sıx böyüyür ki, meşə yarı kol kimi görünür", - deyə Q.Osmanov vurğulayıb.

Səfir, həmçinin bu vandalizm hərəkətlərinə dair video və fotoların tanınmış erməni KİV-ləri tərəfindən yayımlandığını, bu hərəkətləri öz nəşrlərində "əsaslandırdıqları"na və məqalələrin altında bir çox üsyankar şərhlərin yer almasına da təəccübləndiyini bildirib.

Bəyanatda Azərbaycanın rəsmi qurumlarının ermənilərin bu vandal hərəkətlərinə dair mövqeyi də yer alıb.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kişineu**

**AZƏRTAC**

## İspaniyanın dövlət telekanalında ermənilərin Kəlbəcərdə törətdiyi ekoloji cinayətlər barədə süjet yayımlanıb

[11:12] 20.11.2020

İspaniyanın dövlət telekanalının (RTVE) "Xəbərlər" proqramında ermənilərin Azərbaycanın Kəlbəcər rayonunda vandalizm aktları, ekoloji cinayətlər törətməsi ilə bağlı süjet efirə gedib.

AZƏRTAC xəbər verir ki, süjetdə Kəlbəcərdə qanunsuz olaraq məskunlaşmış erməni əhalinin rayondan çıxarkən vandalizm aktları törətdikləri diqqətə çatdırılır. Yayımlanan videogörüntülərdə əhalinin özləri ilə apara bilmədiyi əşyaları, yaşayış evlərini, məktəbləri yandırması faktı öz təsdiqini tapır.

Həmçinin Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən qəhrəman Azərbaycan Ordusunun Ermənistanın işğalından azad etdiyi ərazilərimizdə üçrəngli dövlət bayrağımızın ucaldıldığı qeyd olunur.

Bildirilir ki, Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad olunması Azərbaycan xalqı tərəfindən böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Prezident İlham Əliyevin sözlərinə istinadən bildirilir ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən sosial-iqtisadi infrastruktura, tarixi-mədəniyyət və dini abidələrə, ətraf mühitə, fərdi və çoxmənzilli yaşayış evlərinə vurulmuş zərər beynəlxalq ekspertlər tərəfindən qiymətləndiriləcək və Ermənistan tərəfindən təzminatın ödənilməsinin təmin edilməsi məqsədilə beynəlxalq tribunala müraciət olunacaq.

Proqramda, həmçinin Azərbaycan və Rusiyanın prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış birgə bəyanatın Ermənistanda kütləvi etirazlara səbəb olduğu, etirazçıların hökumət və parlament binalarını ələ keçirdiyi, baş nazir N.Paşinyanın istefasının tələb edildiyi diqqətə çatdırılır.

**Nigar Cəfərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**Argentinanın “Clarin” nəşri: Azərbaycan Ordusu Ağdama daxil olub**

[17:33] 20.11.2020

Argentinanın “Clarin” gündəlik qəzetinin saytında “Azərbaycan Ordusu Qarabağ üzrə razılaşma çərçivəsində Ağdama daxil olub” sərlövhəli material dərc olunub.

AZƏRTAC xəbər verir ki, Argentina nəşri döyüş əməliyyatlarının dayandırılması barədə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı razılaşmaya müvafiq olaraq, Azərbaycan Ordusunun bu gün Ağdam rayonuna daxil olmasını diqqətə çatdırır.

Qəzet bildirir ki, Ağdam 1992-1994-cü illərdə Birinci Qarabağ müharibəsindən sonra erməni qüvvələrinin nəzarəti altında qalan Dağlıq Qarabağla həmsərhəd rayonlardan biridir. Bu işğal nəticəsində Ağdamın 120 min sakini öz evlərini tərk etmək məcburiyyətində qalıb.

Argentina nəşri diqqətə çatdırır ki, bundan əvvəl Azərbaycanın hakimiyyət orqanları erməni qoşunlarının Kəlbəcər rayonundan çıxarılması tarixinin 10 gün uzadılmasına razılıq verib, indi həmin tarix noyabrın 25-nə müəyyən edilib.

Qəzetdə, həmçinin qeyd edilir ki, 44 günlük müharibə Ermənistan cəmiyyətində ciddi siyasi böhran əmələ gətirib. Artıq 10 gündür ki, hökumətə qarşı keçirilən etiraz aksiyalarında hökumətin istefası tələb edilir.

**Nigar Cəfərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**"Le Monde" Ağdamın işğaldan azad olunmasından yazır**

[19:10] 20.11.2020

Ağdam - Azərbaycana geri qaytarılmalı olan 3 rayondan biri artıq bu ölkənin nəzarəti altındadır. Otuz ilə yaxın idi Ağdam Ermənistan silahlı qüvvələrinin nəzarətində idi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış bəyanata uyğun olaraq, noyabrın 20-də Azərbaycan Ordusunun bölmələri Ağdama daxil olub.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın "Le Monde" qəzetində dərc olunmuş məqalədə yer alıb.

Məqalədə altı həftəlik döyüşlərdən sonra Azərbaycanın öz rayonlarını azad etdiyi bildirilir. Qeyd edilir ki, bu rayonlardan bəziləri silah gücünə azad olunub, üçü - Ağdam, Kəlbəcər, Laçın isə bəyanata uyğun olaraq qaytarılır. Məqalədə ermənilərin Ağdamı da yandıraraq tərk etdikləri vurğulanır. Ermənilərin evləri yandırdıqları, azərbaycanlılara yalnız xarabalıqlar qoyduğu qeyd edilir.

Diqqətə çatdırılır ki, 1990-cı illərdə müharibə zamanı Azərbaycan əhalisi bu əraziləri tərk etməli olmuşdu. Ermənistan həmin ərazilərdə erməniləri məskunlaşdırmışdı.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə azad olunmuş ərazilərə səfər etməsindən də bəhs olunur.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**

## "Kuwait Times" qəzetində Ağdamın işğaldan azad olunması barədə məqalə dərc edilib

[13:33] 22.11.2020

Küveytin ingilis dilli "Kuwait Times" qəzetində Azərbaycan qoşunlarının Ermənistanın təhvil verdiyi Ağdam rayonuna daxil olması barədə məqalə dərc edilib.

Ölkəmizin Küveyt Dövlətindəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, yazıda Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli razılaşmaya əsasən, Ermənistan Azərbaycanın işğal olunmuş Ağdam rayonunu təhvil verdiyi və hərbi birləşmələrimizin rayona daxil olduğu diqqətə çatdırılıb. Həmçinin qeyd olunub ki, razılaşmaya əsasən, dekabrın 1-dək Kəlbəcər və Laçın rayonları da Azərbaycana təhvil veriləcək. Ağdam rayonunu tərk edən ermənilərin ağaclardakı meyvələri yığıb mikroavtobuslarla qaçdıqları, gedərkən evlərini yandırdıqları da qeyd olunub.

Məqalədə 6 həftəlik döyüşlərdən sonra əldə edilən üçtərəfli atəşkəs razılaşması haqqında məlumat verilib. Vurğulanıb ki, razılaşmaya əsasən, tərəflər döyüşlərə son qoymağı və işğal altındakı əraziləri Azərbaycana qaytarmağı qəbul ediblər.

Eyni zamanda, yazıda münaqişənin tarixinə toxunulub, Qarabağda yaradılmış qondarma rejimin Ermənistanın özü də daxil olmaqla, dünyanın heç bir dövləti tərəfindən tanınmadığı diqqətə çatdırılıb.

Yazıda, həmçinin razılaşmadan sonra Azərbaycan və Ermənistan paytaxtlarındakı vəziyyət müqayisə olunub. Bildirilib ki, Bakıda insanların qələbə sevinci yaşadığı halda, Ermənistanın paytaxtı İrəvan küçələrində əsl xaosdur.

**AZƏRTAC**

**“Arabnews” qəzeti : Azərbaycanlılar öz evlərinə qayıdırlar**

[15:23] 22.11.2020

Səudiyyə Ərəbistanının ingilis dilində nəşr edilən nüfuzlu “Arabnews” qəzetində “Azərbaycanlılar öz evlərinə qayıdırlar” sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Ordusunun 27 il işğal altında qalan torpaqları azad etdiyi və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtdıqları qeyd olunur. Diqqətə çatdırılır ki, ötən əsrin 90-cı illərinin əvvəlində 1 milyona yaxın azərbaycanlı torpaqların Ermənistan tərəfindən işğalı nəticəsində öz evlərini tərk etmək məcburiyyətində qalmışdı. Sentyabrın 27-də başlayan və 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan Ordusu tərəfindən 300-dən çox yaşayış məntəqəsi azad edilib. Noyabrın 10-da Ermənistan baş nazirinin kapitulyasiya bəyanatını imzalamasından sonra Ağdam, Laçın və Kəlbəcər rayonlarının da Azərbaycana təhvil verilməsi prosesinə başlanılıb.

Məqalədə vurğulanıb ki, azərbaycanlılar işğaldan azad edilmiş Ağdam və Füzuli şəhərlərində dəhşətli mənzərə, dağıdılmış binalar, yollar və digər infrastrukturla qarşılaşıblar. Vaxtilə 50 mindən çox sakini olan Ağdam şəhəri xarabalığa çevrilib.

Müəllif Cəbrayıl sakini Adil Şərifovun ailəsinin 27 ildir Bakıda məcburi köçkün həyatı yaşadığını, onun torpaqlarımızın azad edilməsi ilə bağlı sevinc hisslərini də diqqətə çatdırıb. Qeyd edib ki, azərbaycanlı ailə Cəbrayıl şəhərinin erməni işğalçıları tərəfindən dağıdıldığı barədə danışıb. O bildirib ki, ailə üzvləri ilə birlikdə öz doğma yurdundakı evini yenidən tikəcək.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri. Qahirə**

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları azad etdik**

[10:47] 24.11.2020

Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş Ağdam şəhərində olarkən söyləyib.

Ağdam məscidini ziyarət edən, Azərbaycan Bayrağını qaldıran dövlətimizin başçısı deyib: “Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin”.

Prezident qeyd edib ki, biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. “Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**

**Azərbaycan Ordusunun bölmələri Kəlbəcər rayonuna daxil olub**

[01:01] 25.11.2020

Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri noyabrın 25-də Kəlbəcər rayonuna daxil olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimizin bu istiqamətdə hərəkətini təmin etmək məqsədilə mühəndis işləri başa çatdırılıb, qoşunların hərəkət marşrutu üzrə çətin keçilən dağ yolları minalardan təmizlənir və istifadəyə hazır vəziyyətə gətirilir.

Gün ərzində Kəlbəcərdən foto və video materiallar təqdim olunacaq.

**AZƏRTAC**

**Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması Türkiyə mediasının baş xəbəridir**

[03:20] 25.11.2020

Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələrinin noyabrın 25-də Kəlbəcər rayonuna daxil olması barədə məlumat Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən dünyada baş verən ən mühüm hadisə kimi təqdim olunub.

AZƏRTAC xəbər verir ki, televiziya kanalları və xəbər agentlikləri, o cümlədən qəzetlərin elektron versiyaları Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi hərbi zəfərinin növbəti qələbəsi ilə bağlı anındaca məlumat yaymağa başlayıblar.

Ermənilərin bölgəni tərk etmək üçün verilən vaxtdan əlavə möhlət istəyərək güzəşt edilən on gün ərzində Kəlbəcərdə yaşayış binalarına, tarixi yerlərə və təbiətə qarşı törədilən amansız rəftar barədə süjetlər yayan telekanallar baş verənləri vandalizm aktı kimi dəyərləndirir.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

## İşğaldan azad olunan Kəlbəcər rayonundan ilk görüntülər

[08:10] 25.11.2020

Müdafiə Nazirliyi işğaldan azad olunan Kəlbəcər rayonundan ilk görüntüləri yayıb.
AZƏRTAC görüntüləri təqdim edir.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələrinin Kəlbəcər rayonuna daxil olmasının yeni videogörüntülərini yayıb**

[10:00] 25.11.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Ordusunun bölmələrinin Kəlbəcər rayonuna daxil olmasının yeni videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin videogörüntünü təqdim edir.

**AZƏRTAC**

**İndoneziya saytı Azərbaycan Ordusunun Kəlbəcər rayonuna daxil olmasından yazır**

[10:18] 25.11.2020

İndoneziyanın "iNews.id" saytı Azərbaycan Ordusunun Kəlbəcər rayonuna daxil olmasından bəhs edən material yayıb.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, saytın hazırda Azərbaycanda olan müxbiri Əhməd İslami Camilin müəllifi olduğu "Azərbaycan Ermənistanın tərk etdiyi Kəlbəcər rayonuna daxil olur" adlı yazıda qeyd edilir ki, Kəlbəcər hərbi əməliyyatların dayandırılması barədə imzalanan üçtərəfli sənədə əsasən Azərbaycana qaytarılan üç rayondan ikincisidir.

Yazıda Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi məlumatından sitat gətirilərək deyilir: "Azərbaycan Ordusunun bölmələri noyabrın 25-də Kəlbəcər rayonuna daxil olub". Qeyd edilir ki, ilkin olaraq bu rayonun Azərbaycana noyabrın 15-də qaytarılması nəzərdə tutulurdu. Lakin müddət Azərbaycan tərəfinin nümayiş etdirdiyi humanizm nəticəsində 10 gün uzadılıb.

Müdafiə Nazirliyini məlumatından gətirilən növbəti sitatda isə deyilir: "Bu istiqamətdə bölmələrimizin hərəkətinin təmin olunması üçün texniki işlər başa çatdırılıb, qoşunların hərəkət edəcəyi mürəkkəb dağ yolu minalardan təmizlənib və istifadə üçün yararlı vəziyyətə gətirilib".

Bildirilir ki, tərəflər arasında əldə edilən razılaşmaya görə, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana döyüşsüz qaytarır. Azərbaycan Silahlı Qüvvələrinin cəbhədə qazandığı böyük uğurlar nəticəsində Ermənistan hərbi əməliyyatların dayandırılması üçün həmin rayonları Azərbaycana qaytaracağı öhdəliyini götürüb.

Ağdamın noyabrın 20-də, Kəlbəcərin 25-də qaytarıldığı, Laçının isə dekabrın 1-də Azərbaycan tərəfinə təhvil veriləcəyi qeyd edilir.

Məqalədə bildirilir ki, 44 gün davam edən müharibə zamanı Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın edib.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Cakarta**

**AZƏRTAC**

**Kəlbəcərdən olan özünüməşğulluq proqramının iştirakçıları öz ailə bizneslərini doğma rayona aparacaqlar**

[10:31] 25.11.2020

30 ilə yaxındır davam edən Kəlbəcər həsrəti bitdi - ölkəmizin bir parçası olan Kəlbəcər rayonu erməni işğalından azad olundu.

Hər birimizin qəlbində Kəlbəcər sevinci hökm sürür, Kəlbəcər sakinlərinin yaşadıqları sevinc və fərəh hissi isə sonsuzdur. Kəlbəcərdən olan özünüməşğulluq proqramı iştirakçıları nəinki onların, gələcək nəsillərin də bu şanlı zəfəri, doğma yurd yerlərimizin azad edildiyi bu günləri heç zaman unutmayacaqlarını, daim qürurla xatırlayacaqlarını vurğulayırlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, doğma rayona qayıtmağa hazırlaşan həmin vətəndaşlar artıq məcburi köçkün olmadıqlarını fərəhlə qeyd edirlər. Onlar dövlətin daha bir qayğısı kimi özünüməşğulluq proqramının dəstəyi ilə qurduqları ailə bizneslərini də Kəlbəcərə aparacaqlarını bildirirlər.

Təbiətin min bir gözəllik bəxş etdiyi, torpağı barlı-bərəkətli Kəlbəcərdə öz ailə təsərrüfat və müəssisələrini uğurla inkişaf etdirəcəklərini əminliklə söyləyirlər.

**AZƏRTAC**

**ABŞ azərbaycanlılar şəbəkəsi Amerika ictimaiyyətini ermənilərin ekoloji terrorizmi haqqında məlumatlandırma kampaniyası keçirir**

[11:12] 25.11.2020

ABŞ Azərbaycanlılar Şəbəkəsi Amerika ictimaiyyətini və dövlət strukturlarını ermənilərin ekoloji terrorizmi və işğal edilmiş ərazilərin minalanması haqqında məlumatlandırma kampaniyası keçirir.

AZƏRTAC xəbər verir ki, ABŞ Konqresinə, Prezidentə və yerli KİV-lərə göndərilmiş müraciətdə noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən atəşkəs haqqında Birgə Bəyanat imzalanması və bununla Azərbaycanın Dağlıq Qarabağ regionunda 44-günlük müharibəyə son qoyulması bildirilir. Birgə Bəyanata əsasən, erməni qoşunları dekabrın 1-inə qədər Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonlarından çıxarılmalıdır. Əvvəlcə erməni qoşunlarının Kəlbəcər rayonundan çıxarılmasının son müddəti noyabrın 15-inə təyin edilmişdi. Sonradan humanitar mülahizələrə əsasən həmin müddət noyabrın 25-inə qədər uzadıldı. Lakin son günlərdə müxtəlif KİV-lərdə dərc edilən dəhşətli kadrlar erməni qoşunları və başqa silahlı dəstələri tərəfindən həyata keçirilən yandırılmış torpaq siyasətini əks etdirir. Ermənilər noyabrın 9-dan başlayaraq bütün evləri yandırıb, elektrik xətlərini söküb, minlərlə ağacı kəsib, bütün ev heyvanlarını kəsib, onların içalatını tullayaraq virus xəstəliklərinin yayılmasına şərait yaradır, bir sözlə, ekoloji terrorizm törədirlər. Bundan başqa, alınan məlumata görə, erməni hərbi hissələri Kəlbəcər, Ağdam və Laçın rayonlarında öz doğma yerlərinə qayıdan azərbaycanlı köçkünləri məhv etmək üçün həmin rayonlarda yüz minlərlə mina basdırıblar.

Müraciətdə daha sonra deyilir ki, 1992-1993-cü illərdə erməni qoşunları tərəfindən işğal edilmiş Laçın, Kəlbəcər və Ağdam rayonları Azərbaycanın beynəlxalq hüquqla tanınmış əraziləridir. Ermənilərin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycanlı bu rayonları tərk etməyə məcbur olub. Ermənistanın hakimiyyət orqanları diaspordan olan erməniləri bu rayonlarda məskunlaşdırmağa çalışır, bununla da işğalçı dövlət tərəfindən demoqrafik vəziyyətin öz xeyrinə süni surətdə dəyişdirilməsini qadağan edən 1949-cu il Cenevrə Konvensiyasının 49-cu maddəsini pozur.

ABŞ Azərbaycanlılar Şəbəkəsinin müraciətinin sonunda deyilir ki, BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələri bu Azərbaycan ərazilərinin işğalını qətiyyətlə pisləyir, işğalçı erməni qoşunlarının dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Lakin həmin qətnamələr qəbul ediləndən sonra 27 il BMT bu istiqamətdə heç bir fəaliyyət göstərmədi, Ermənistan bu sənədlərə etinasız qaldı. Nəhayət, Azərbaycan bu qətnamələrin icrasını təmin etmək üçün əks-hücuma başladı.

**AZƏRTAC-ın Vaşinqton bürosu**

**AZƏRTAC**

**Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib**

[12:02] 25.11.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.
AZƏRTAC müraciəti təqdim edir.

**Prezident İlham Əliyevin xalqa müraciəti**

-Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmişdir. Günahsız insanlar öz dədə-baba torpağından vəhşicəsinə qovulmuşdur. Kəlbəcərin tarixi abidələrinə, təbiətinə böyük ziyan vurulmuşdur.

Kəlbəcər rayonunun işğal altına düşməsi böyük faciə idi. Hər bir rayonun işğal altına düşməsi böyük faciə idi. 1992-ci ilin may ayında Şuşa və Laçın rayonlarının işğal altına düşməsindən sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı. Hər kəs yaxşı bilir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikası ilə sərhədi yox idi. Ermənistanı Dağlıq Qarabağdan Laçın rayonu ayırırdı, Laçın dəhlizi ayırırdı. Laçın, Şuşa və ondan sonra Kəlbəcər rayonlarının işğal altına düşməsi böyük ərazidə Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı və düşmənin məqsədi məhz bundan ibarət idi. Kəlbəcərin işğal altına düşməsindən sonra demək olar ki, Ermənistanla Dağlıq Qarabağ arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilmişdir. Eyni zamanda, Ermənistanın sonrakı işğalçılıq siyasətinə də bu, böyük üstünlüklər təmin etmişdir.

Kəlbəcər rayonunun işğal altına düşməsi o vaxt hakimiyyətdə olmuş Azərbaycan Xalq Cəbhəsinin birbaşa məsuliyyətidir. Bütövlükdə torpaqlarımızın işğal altına düşməsində əsas günahkar Azərbaycan Xalq Cəbhəsidir. Çünki əgər 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, əgər dövlət çevrilişi etməsəydilər, bəlkə də, torpaqlarımız işğal altına düşməyə bilərdi. Əlbəttə ki, tarixə qayıdıb nə ola bilərdi, nə olmaya bilərdi demək çox çətindir. Ancaq hər halda, torpaqlarımızın işğal altına düşməsində onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyır. Çünki 1992-ci ilin yaz aylarında hakimiyyət uğrunda mübarizə pik həddə çatmışdı. Azərbaycanda daxili çəkişmələr baş alıb gedirdi, xaos, böhran yaranmışdı, siyasi böhran yaranmışdı və hakimiyyət uğrunda mübarizə çox ciddi fəsadlara gətirib çıxarmışdı. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edirdi. Şuşa və Laçının işğal altına düşməsindən sonra vəziyyət kritik həddə çatdı. Bundan istifadə edən Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Ancaq ondan sonra nə oldu? Ondan sonra bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmağa yönəltdi. Torpaqlarımız işğala məruz qalırdı, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı, Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar. Kəlbəcərin işğal altına düşməsi bax, bu çirkin addımların nəticəsi idi. Başqa cür ola da bilməzdi. İndi gənc nəsil xatırlamır, ancaq bilməlidirlər ki, o vaxt Azərbaycana kimlər rəhbərlik edirdi, hansı bilik sahibləri, hansı səriştə sahibləri. O adamların heç bir təcrübəsi yox idi. O adamlar - o vaxt rəhbərlikdə təmsil olunmuş adamlar, yüksək postlar tutmuş adamlar bir gün belə heç bir idarəyə, heç bir kiçik bir müəssisəyə rəhbərlik etməmişdilər. Onlar ölkəni, xüsusilə böhranlı vəziyyətdə olan ölkəni necə idarə edə bilərdilər? Amma onların vəzifə hərisliyi, tamahı, iştahası, görməmişliyi Azərbaycanı bax, bu vəziyyətə gətirib çıxardı. Baxın, görün, Azərbaycanı o vaxt kimlər idarə edirdi?! Parlamentin sədri kiçik elmi işçi idi, özü də uğursuz bir elmi işçi idi. Dövlət katibi - komsomoldan çıxmış karyerist, özü də sonrakı mərhələdə öz liderinə xəyanət etmiş, onun kürsüsünə, kreslosuna göz dikmiş, onun ölümünə hamıdan çox sevinmiş və ondan sonrakı həyatını, sadəcə olaraq, xarici dairələrin idarəsi altında keçirən bir adam. Onlardan hansı idarəçilik gözləmək olardı? Onlardan hansı vətənpərvərlik gözləmək olardı? Hansı peşəkarlıq gözləmək olardı? Xarici işlər naziri. Heç bir dildə danışa bilməyən təsadüfi bir adam, fizika müəllimi. Hansı ki, ümumiyyətlə, başa düşmürdü xarici münasibətlər nədir, beynəlxalq norma, prinsiplər

nədir? Sadəcə olaraq, turist kimi ora-bura gedirdi və ağzına gələni danışırdı. Müdafiə naziri, riyaziyyat müəllimi. Riyaziyyat müəllimi müdafiə naziri ola bilərmi? Məhz bu riyaziyyat müəllimi Şuşanı düşmənə təhvil verdi. Deyirdi ki, Şuşa əldən gedərsə, başıma güllə vuracağam. Bu günə qədər orada-burada sülənir. Şuşanı biz qaytarmışıq, biz. Siz satmısınız onu, xalq xainləri. Daxili işlər naziri. Quldurluq baş alıb gedirdi, jurnalistlər həbs olunurdu, döyülürdü, canlı efirdə maşınların yük yerinə atılırdı. Bu idi Azərbaycan Xalq Cəbhəsinin rəhbərləri. Baş nazir elmi kommunizm üzrə kiçik elmi işçi idi. Baxın, bu təzadlara baxın. Ölkə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qabağa aparmağa məsul olan adam elmi kommunizm üzrə kiçik elmi işçi idi. Hansı idarəçilik, hansı islahatlar, hansı müdafiə qabiliyyəti təmin oluna bilərdi? Bizim dərdimiz və faciəmiz budur ki, təsadüfi adamlar hakimiyyətə gəldilər, hakimiyyəti qanunsuz yollarla qəsb etdilər və ölkəmizi uçuruma apardılar.

Əgər Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə gəlməsəydi, Azərbaycan nəinki öz qalan torpaqlarını itirəcəkdi, ümumiyyətlə, dövlətçilik əldən gedəcəkdi. Öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar. Öz əsgərlərini əsir götürmüşdülər. Gəncəni bombalamışdılar. Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti. Əslində, indi paralel aparsaq, onların obrazı elə bil kollektiv Paşinyandır - savadsız, biliksiz, iradəsiz, qorxaq, fərari, idarəetmədə heç bir təcrübəsi olmayan, xarici dairələrin təsiri altında olan, onların əli ilə idarə olunan və öz ölkəsini məhv edən. Bax, kollektiv Paşinyandır onlar. Onları tanımayanlar, əgər onlar haqqında hər hansı bir təsəvvür yaratmaq istəsələr, Paşinyana baxsınlar. Onun addımlarına baxsınlar və onun simasında o vaxtkı Azərbaycan Xalq Cəbhəsinin və ölkə rəhbərliyinin simasını görəcəklər.

Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqoryan kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq. Mən bu kilsələrdə dəfələrlə olmuşam, Şəki şəhərində, Qəbələ rayonunda, Udi kilsəsində. Bildiyiniz kimi, müharibə dövründə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nic qəsəbəsində qədim Udi Qafqaz Albaniyası kilsəsinin təmir işləri yekunlaşdı və bu kilsənin açılışı oldu. Biz bu kilsələri mədəni sərvətimiz kimi qoruyuruq. Ona görə, heç kim narahat olmasın. Bu kilsələr bundan sonra da dövlət tərəfindən qorunacaq. Azərbaycanın multikulturalizmlə, dinlərarası münasibətlə bağlı apardığı siyasət bütün dünya tərəfindən, dünya liderləri tərəfindən təqdirlə qarşılanır. Narahatlıq ifadə etmək istəyən bəzi Qərb dairələri bizim dağılmış məscidlərə baxsınlar, Ağdam, Şuşa, Zəngilan, Cəbrayıl, Füzuli məscidlərinə və digər məscidlərə. O məscidlər ya dağıdılıb, ya da ki, təhqir edilib, donuzlar saxlanılıb. Niyə bu, narahatlıq doğurmurdu? Otuz il bu barədə niyə heç kim məsələ qaldırmırdı, bizdən başqa? Mən bu məsələni dəfələrlə beynəlxalq tribunalardan, beynəlxalq kürsülərdən, xarici həmkarlarımla təmaslar əsnasında qaldırmışdım. Nə üçün buna heç kim narahatlıq ifadə etmirdi? Nə üçün bu məsələ ilə bağlı heç kim beynəlxalq heyət göndərmək istəmirdi? Bu suallara cavab istəyir Azərbaycan xalqı. Biz bu cavabı bilirik. Ona görə bir daha demək istəyirəm, bizim işimizə qarışmaq istəyən, yaxud da ki, nədəsə ittiham etmək istəyən getsin, ilk növbədə, güzgüyə baxsın.

Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir. Bizim bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay. Onların uzunluğu təqribən 200 kilometrə yaxındır. Bu çaylar böyük ərazini qidalandırır. Ancaq mənfur düşmən bizi bu imkanlardan məhrum etdi. Çünki Tərtər çayı 1970-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarına axıdılır. Sərsəng su anbarı o vaxt o məqsədlə tikilmişdi ki, Qarabağın Aran zonasında yerləşən 6-7 rayonda suvarma işləri təmin edilsin. O vaxt

Sərsəng su anbarı inşa ediləndən sonra heç vaxt suvarılmayan 100 min hektar ərazi artıq suvarılmağa başlamışdır. Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayonlar oradan qaynaqlanırdı. Mənfur düşmən suyumuzu kəsdi. Yayda suyu kəsirdi, qışda buraxırdı və su basırdı bütün torpaqları. Bax, bizə qarşı ekoloji terror təşkil edilirdi. Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri var. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilən soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətlər var. Baxın, Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi, bizə isə su gəlmirdi. Biz Suqovuşan qəsəbəsini alandan sonra indi artıq suyun verilməsi başlamışdır və 100 min hektara suyun verilməsi nəzərdə tutulur.

Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır. Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar. Bu oğrular meşələri qırırlar, aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik.

Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır.

Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan.

Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq, bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır. Şuşaya yeni yolun çəkilişi artıq başlanmışdır. Sovet vaxtında Şuşaya getmək üçün bir yol var idi - Ağdamdan Xankəndiyə, oradan da Şuşaya. İndi biz Füzuli rayonundan yeni yol çəkirik. Bu yol Xocavənd rayonunun bir hissəsindən keçəcək. Göstəriş vermişəm ki, bu, tezliklə təmin edilsin. Halbuki bu, böyük işdir, orada yol olmayıb və meşələrin içi ilə yol salınır, dərələr, təpələr, çox ağır relyef var orada. Amma biz bunu edəcəyik. Dəmir yollarını bərpa edəcəyik. O cümlədən, Naxçıvan Muxtar Respublikasına gedən dəmir yolunun bərpası ilə əlaqədar artıq ilkin göstərişlər verilmişdir. Bərdə-Ağdam dəmir yolunun bərpası ilə əlaqədar artıq praktiki addımlar atılmışdır. Ağdam rayonunun bərpası və gələcəkdə orada yaşayacaq insanların rahatlığı üçün bu yol mütləq olmalıdır. Yəni, bütün bu işlər planlı şəkildə aparılacaq və Azərbaycan vətəndaşları görüləcək işlərlə bağlı müntəzəm olaraq məlumatlandırılacaqdır. Bütün işləri biz planlı şəkildə etməliyik. Bir daha demək istəyirəm, ilk növbədə, dəymiş bütün ziyan beynəlxalq ekspertlərin iştirakı ilə hesablanacaq. Ondan sonra məhkəmə iddiaları. Ondan sonra şəhərlərimizin, kəndlərimizin baş plan əsasında yenidən qurulması, kənd təsərrüfatı, digər infrastruktur layihələri, su, işıq ilə əlaqədar lazımi tədbirlər. Ondan sonra yollar. Biz düşməni Şuşadan qovanda oraya gedən su xəttini sıradan çıxarıb. İndi Şuşada su yoxdur. Bax, budur bu düşmən.

Bizim əsgərlərimiz görəndə ki, Ağdam rayonunun bir kəndində erməni əhalisi vaxtında çıxa bilməyib, onlara çıxmaq üçün şərait yaradıblar. Onlara söz deyən olmayıb. Amma mənfur düşmən bizim meşələrimizi yandırır, evlərimizi yandırır, su xəttini sıradan çıxarıb. Hesab edir ki, bu, bizi dayandıracaq? Biz istənilən yerə su xətti çəkmişik - ucqar dağlara çəkmişik, dağ kəndlərinə çəkmişik. Hamısını bərpa edəcəyik, hamısını. Artıq müvafiq göstərişlər verilibdir və əminəm ki, biz bu işləri vaxtında görəcəyik.

Düşmən Kəlbəcərə yeni eybəcər bir ad verib. Onlar “Dağlıq Qarabağ respublikası”nın xəritələrini düzəltmişdilər. Hanı o xəritələr? Hamısı məhv oldu. O xəritələr, sadəcə olaraq, kağız parçasıdır. Həm

Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün ərazisini, Şuşanı, eyni zamanda, ətrafda yerləşən bütün 7 rayonu da aid etmişlər "Dağlıq Qarabağ respublikası"na. Bu xəritələri dərc edirdilər, dərsliklərə salmışdılar, sərgilərdə nümayiş etdirirdilər. Bu xəritələri onlar elə təqdim edirdilər ki, budur "Dağlıq Qarabağ respublikası". İndi nə qalıb o xəritələrdə? Heç nə. Azərbaycan öz ərazi bütövlüyünün bərpası istiqamətində lazımi addımlar atıbdır.

Mən bir daha danışıqlar dövrünə qayıtmaq istəyirəm. O vaxt dəfələrlə mənə deyilirdi ki, münaqişə yalnız sülh yolu ilə həll olunmalıdır. Deyə bilərəm ki, bütün beynəlxalq təşkilatlar, təmasda olduğum bütün böyük dövlətlərin liderləri dəfələrlə deyirdilər ki, münaqişənin hərbi həlli yoxdur. Bu, ifadələr açıq mətbuatda da var. Mən nə deyirdim? Deyirdim ki, var! Deyirdim ki, lazım olsa torpaqlarımızı hərbi yolla azad edəcəyik. Deyirdim ki, müharibə heç zaman istisna olunmur. Danışıqlar dövründə müxtəlif mərhələlərdə dəfələrlə təklif irəli sürülürdü ki, Azərbaycan tərəfi müharibə yolundan imtina etsin. Mən heç vaxt buna razılıq vermirdim. Ondan sonra məni ittiham etməyə başlayırdılar ki, İlham Əliyev müharibəyə başlamaq istəyir. Mən deyirdim ki, məsələni sülh yolu ilə həll etmək istəyirəm. Amma həll etmək istəyirəm. Ermənistan nə istəyirdi? Status-kvonu saxlamaq, əbədi etmək. Hesab edirdi ki, əgər 26-27 il ərzində buna nail olubsa, deməli, bundan sonra da nail olacaq. Hesab edirdilər ki, onların havadarları daim onları müdafiə edəcəklər, onların arxasında duracaqlar, onların əvəzinə müharibə aparacaqlar. Onlar, ümumiyyətlə, hesab edirlər ki, bütün dünya bunlara borcludur. Onlar bu ziyanlı və xəstə təfəkkürlə öz ölkəsini idarə etmək istəyirlər ki, kimsə gəlməlidir, bunlara mütləq kömək göstərməlidir. Bəs, siz özünüz nəyə qadirsiniz? Əgər hər zaman kiminsə ətəyindən yapışıb hansısa imtiyaz umursunuzsa, bəs, özünüz nəyə qadirsiniz? Bax, bu təfəkkür onların cəmiyyətini də demək olar ki, yanlış istiqamətə aparıb. Bu gün də hamıdan narazıdırlar. Bu gün də hamıya qarşı iddialar irəli sürürlər ki, nə üçün bizi heç kim müdafiə etmir. Sizi kim müdafiə etməlidir? Siz müstəqil ölkəsiniz, - əgər belə demək mümkündürsə, - müstəqil ölkə kimi də yaşayın, bu, birincisi. İkincisi, siz başqasının torpağını zəbt etmisiniz. Bir milyon insanı evsiz-eşiksiz qoymusunuz. Bütün binaları, evləri, şəhərləri dağıtmısınız. Siz özünüzü vəhşilər kimi aparmısınız. Haqq-ədalət sizin tərəfinizdə deyil, beynəlxalq hüquq sizin tərəfinizdə deyil, tarixi həqiqət sizin tərəfinizdə deyil. Amma hesab edirdilər ki, bu torpaqları əbədi saxlayacaqlar. Hesab edirdilər ki, vaxt keçəcək, nəsillər dəyişəcək. Azərbaycan xalqı bunu unudacaq, bu vəziyyətlə barışacaq. Səhv etdilər. Heç vaxt biz bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun. Həm ölkə daxilində vətənpərvərlik, milli qürur, həmrəylik hissləri daha da yüksək səviyyəyə qalxsın. Həm beynəlxalq müstəvidə daim bu məsələ gündəlikdə olsun. Hər kəs bilsin, həqiqət nədən ibarətdir, hər kəs bilsin, təcavüzkar kimdir, zərərçəkmiş tərəf kimdir və biz buna nail olduq. İndi dünyada hər kəs bunu bilir. Əgər Vətən müharibəsi dövründə xarici mətbuata diqqət yetirsək, görərik ki, əlbəttə, qərəzli, islamofob, anti-Azərbaycan, ermənipərəst məqalələr və reportajlar üstünlük təşkil edir. Ancaq, eyni zamanda, əvvəlki dövrdən fərqli olaraq bir çox obyektiv, həqiqəti əks etdirən reportajlar, məqalələr də dərc edildi. Deyə bilərəm ki, biz informasiya müharibəsində qələbə qazandıq. Biz döyüş meydanında qələbə qazandıq, informasiya məkanında qələbə qazandıq, siyasi müstəvidə qələbə qazandıq. Müharibənin nəticələri mən deyən kimi oldu. Mən ilk günlərdən deyirdim ki, bu məsələ öz həllini hərbi, siyasi yollarla tapmalıdır. Deyirdim ki, biz məsələnin hərbi yollarla həllini hər an dayandıra bilərik və buna hazırıq. Bir şərtlə, Paşinyan şəxsən özü deməlidir ki, nə vaxt o, bizim torpaqlarımızdan çıxır. Öhdəlik götürməlidir, tarix verməlidir. Deməlidir ki, nə vaxt bizim torpaqlarımızdan çıxır. Bu olan kimi, mən bizim hücum əməliyyatlarımızı dayandırıram. O, artıq cəzasını alıb. Halbuki o vaxt o, 7 şərti bizə irəli sürəndə demişəm: Mənim bir şərtim var, - sənin yeddi şərtini zibil yeşiyinə atıram, - rədd ol, çıx get torpağımızdan. Öz xoşunla çıx get. Əgər qulaq assaydı, bu rəzil vəziyyətə düşməzdi. Müharibənin nəticələri də mən deyən kimi oldu. Biz Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Murovdağı, Suqovuşanı, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı hərbi yollarla azad etdik. Döyüş meydanında düşmənin belini qırdıq. Şuşanın azad olunmasından bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çökdü, kapitulyasiya aktına imza atdı. Hələ ki, bilmirəm harada. Bunu gizlədirlər. Yəqin ki, nə vaxtsa bizə deyəcəklər. Paşinyan, harada imzalamısan sən bu kapitulyasiya aktını? Ancaq məcbur olub bizim şərtlərimizi qəbul edib.

Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir. Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

**Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib**

[12:07] 25.11.2020

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, xalqa müraciətində bu xoş xəbəri çatdıran dövlətimizin başçısı deyib: "Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi".

Kəlbəcərin, eləcə də hər bir rayonun işğalını böyük faciə adlandıran Prezident qeyd edib ki, 1992-ci ilin may ayında Şuşa və Laçın rayonlarının işğalından sonra Kəlbəcərin də işğal altına düşməsi Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi əlaqə yaratdı.

"Hər kəs yaxşı bilir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikası ilə sərhədi yox idi. Ermənistanı Dağlıq Qarabağdan Laçın rayonu ayırırdı, Laçın dəhlizi ayırırdı. Laçın, Şuşa və ondan sonra Kəlbəcər rayonlarının işğal altına düşməsi böyük ərazidə Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratdı və düşmənin məqsədi məhz bundan ibarət idi. Kəlbəcərin işğal altına düşməsindən sonra demək olar ki, Ermənistanla Dağlıq Qarabağ arasında bir çox yollar vasitəsilə əlaqə yaradıldı və ilk növbədə, silahlar, texnikalar, canlı qüvvə göndərilmişdir. Eyni zamanda, Ermənistanın sonrakı işğalçılıq siyasətinə də bu, böyük üstünlüklər təmin etmişdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**AZƏRTAC**

**Prezident İlham Əliyev: Kəlbəcərin tarixi abidələri - həm məscidlər, həm kilsələr bizim böyük sərvətimizdir**

[12:14] 25.11.2020

Kəlbəcər bizim qədim torpağımızdır. Qədim Azərbaycan torpağıdır. Kəlbəcər ərazi baxımından bizim ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev bu barədə xalqa müraciətində danışıb.

“Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni “tarixçiləri” və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqoryan kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar”, - deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev deyib ki, Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq Ermənistanın başlıca məqsədi idi: “Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır”.

**AZƏRTAC**

**Azərbaycan Prezidenti: İşğaldan azad olunmuş rayonların bərpası ilə bağlı böyük planlarımız var, artıq bu planlar reallaşır**

[12:24] 25.11.2020

Kəlbəcərdə mənfur düşmən digər cinayət də törədib, qanunsuz məskunlaşma aparıb. Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə cavab verəcək.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev xalqa müraciətində bu barədə danışarkən işğaldan azad olunmuş rayonlarda həyata keçiriləcək infrastruktur layihələrindən də söhbət açıb.

Dövlətimizin başçısı deyib: “Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var. Artıq, bu planlar reallaşır, infrastruktur layihələri icra edilməyə başlayır. Şuşaya yeni yolun çəkilişi artıq başlanmışdır. Sovet vaxtında Şuşaya getmək üçün bir yol var idi - Ağdamdan Xankəndiyə, oradan da Şuşaya. İndi biz Füzuli rayonundan yeni yol çəkirik. Bu yol Xocavənd rayonunun bir hissəsindən keçəcək. Göstəriş vermişəm ki, bu, tezliklə təmin edilsin. Halbuki bu, böyük işdir, orada yol olmayıb və meşələrin içi ilə yol salınır, dərələr, təpələr, çox ağır relyef var orada. Amma biz bunu edəcəyik”.

**AZƏRTAC**

**Türkiyənin Milli Müdafiə Nazirliyi Kəlbəcərin azad olunması ilə bağlı paylaşım edib**

[12:38] 25.11.2020

Qəhrəman Azərbaycan Ordusunun qazandığı böyük zəfərlə bağlı əldə olunan razılaşmaya əsasən Ağdamdan sonra Kəlbəcər də azad edildi. Kəlbəcər 27 il sonra sahiblərinə qovuşdu.

AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyə Milli Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində yer alan paylaşımda əksini tapıb. Paylaşımda, həmçinin qeyd olunub: "Şanlı ay-ulduzlu bayrağımız azan sədaları altında Kəlbəcərdə də dalğalanacaq".

Paylaşımda Müzəffər Azərbaycan Ordusunun Kəlbəcərə daxil olmasını əks etdirən fotolar da yer alıb.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcərin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib**

[13:37] 25.11.2020

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Kəlbəcər rayonunun isğaldan azad olunması münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Hörmətli həmvətənlər!

Sizi əlamətdar hadisə - Kəlbəcər rayonunun işğaldan azad olunması münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy Şanlı Qələbəmiz hər evə, hər ailəyə bol sevinc, təbəssüm, səadət, ölkəmizə sülh və əmin-amanlıq gətirsin! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

**AZƏRTAC**

**Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin Azərbaycan dövləti tərəfindən icrasının təmin edilməsi deməkdir**

[13:27] 25.11.2020

Azərbaycanın Kəlbəcər rayonu işğaldan azad olundu.

Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər, Laçın və Ağdam rayonlarının ərazilərini qeyd-şərtsiz tərk etməlidir. Kəlbəcər rayonu noyabrın 15-də Azərbaycana qaytarılmalı idi, lakin Ermənistan tərəfinin müraciəti əsasında Rusiya dövlətinin xahişi ilə sonradan Ermənistana Kəlbəcəri təhvil vermək üçün 10 gün əlavə möhlət verildi.

Beləliklə, 27 illik həsrətə son qoyuldu və Kəlbəcər azad edildi. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu münasibətlə bütün Azərbaycan xalqını təbrik etdi.

AZƏRTAC xəbər verir ki, Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin Azərbaycan dövləti tərəfindən icrasının təmin edilməsi deməkdir.

Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də Ermənistan tərəfindən işğal edilmişdi. Həmin dövrdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsiz və xəyanətkar siyasəti rayonun işğalına şərait yaradıb.

Bu gün Kəlbəcəri tərk edən erməni əhalisi 1993-cü ildə rayonun işğalından sonra orada qeyri-qanuni məskunlaşıb. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən işğalçı Ermənistan Kəlbəcər ərazisində ermənilərin fəal məskunlaşdırılmasına başlayıb. Qeyri-qanuni yaşadıqları əraziləri - Azərbaycan torpaqlarını tərk edən ermənilər təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla bütün əşyalarını götürüblər. Azərbaycan Ordusu onlara ərazini tərk etmək üçün bütün şəraiti yaradıb. Buna baxmayaraq, Kəlbəcər həm də XXI əsrdə erməni vandalizminin əyani nümunəsinə çevrilib. Ermənilər buranı tərk edərkən evləri yandırıb, vandallıq edib, meşələrə od vuraraq, suları çirkləndirərək ekoloji fəlakət törədiblər.

Bu gün təhlükəsiz şəkildə və öz seçimi ilə ərazini tərk edən erməni əhalisindən fərqli olaraq, 1993-cü ildə rayonun azərbaycanlı əhalisi oradan zorakılıqla qovulub, dağ yolları ilə, ayaqyalın, piyada şəkildə erməni təcavüzkarlarından qaçıb xilas olub. Onların bir çoxu qırğına məruz qalıb, atəşə tutulub, meyitləri belə təhqir edilib. Nəticədə Kəlbəcərdə 500-dən artıq dinc sakin həlak olub, yüzlərlə insan girov və ya itkin düşüb. Azərbaycan əhalisi özü ilə heç nə götürə bilməyib, sakinlərin bütün əmlakı Ermənistan ordusu tərəfindən qarət olunub. Bu gün baş verənlər həm də Azərbaycan və Ermənistan arasındakı fərqi anlamaq üçün mühümdür.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, hərbi qələbəni həm də siyasi qələbəyə çevirən diplomatik məharəti nəticəsində Ağdam kimi, Kəlbəcər də qan tökülmədən, şəhid verilmədən geri qaytarıldı. Azərbaycan Ordusu olduqca çətin relyefə, sərt iqlimə malik olan Kəlbəcərə şəhid vermədən, bir güllə atmadan daxil olub.

Kəlbəcər Ermənistanla sərhəd rayondur. Şimalda Daşkəsən, Göygöl, Goranboy, şimali-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə əhatə olunub. Kəlbəcər Azərbaycanın yüksək dağlıq rayonlarından biridir. Ən hündür zirvələri Camışdağ (3724 m) və Dəlidağda (3616 m) yerləşir. Əhalisi 1 yanvar 2020-ci il tarixə olan məlumata əsasən, 77 min nəfərdir. Hazırda rayondan məcburi köçkün düşənlərin 22%-i Gəncədə, 14%-i Bakıda, 12%-i Goranboyda, qalan hissəsi ölkənin müxtəlif şəhər və rayonlarında məskunlaşıb.

"Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) "çay üstündə qala" deməkdir.

Kəlbəcər ən qədim insan məskənlərindən biri kimi tanınır. Kəlbəcərdəki mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri həm də bu yerlərdə yaradılıb.

Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöp şəkilli qədim türk əlifbası nümunələri aşkar edilib.

Kəlbəcərdə "türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Tirkeşəvənd, Zar və digər kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir. Kəlbəcər qədimliyinə görə həm də "Azərbaycanın ikinci Qobustanı" adlandırılır. Kəlbəcər ərazisindəki

qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarı - “əkiz”ləridir. “Soltan Heydər”, “Qurbağalı çay”, “Turşsu”, “Ayçınqıllı”, “Gəlinqayası”, “Böyükdəvəgözü”, “Sərçəli” və s. yerlərdəki qayaüstü təsvirlər təkcə Kəlbəcərin deyil, bütövlükdə Azərbaycan torpağının qədim insan məskəni olduğunu sübut edir. Bazalt daşına həkk edilmiş keçələrdən, ov səhnələrindən, yallıyabənzər oyunlardan, göy cisimlərindən, qədim heyvanlardan və s. ibarət bu daş kitabələr Kəlbəcərin tarixinin, mədəniyyətinin qədimliyini aydın şəkildə əks etdirir.





**Lex qalası**

Kəlbəcər rayonunda olan dağ qalaları içərisində ən əzəmətlisi Lex qalasıdır. Qala Qanlıkənd kəndi ərazisində Lev çayının sağ sahilindən 600 metrə yaxın məsafədə, meşəli uca dağ belində salınıb. Üç tərəfdən sıldırım qaya və uçurumlarla əhatə olunmuş qalanın uzunsov, dağ relyefinə uyğun mürəkkəb plan quruluşu var. Yalnız şimal-qərb tərəfdəki dar cığırla qalanın şimal-şərq ucundakı tək giriş qapısına qalxmaq olur. Qalanın içərisinin uzunluğu 90 metrə yaxın, eni 35-40 metr arasındadır. Qalanın Lev çayı istiqamətində iki mağara aşkar olunmuşdur ki, bura ən qədim insan məskənləri hesab olunur. Lex qalası çevrəsindəki dağlarda mövcud olan gözətçi qüllə və kiçik peyk qalalar sisteminə daxil idi. Bu dağlardan biri onun zirvəsində olan qalanın funksiyasına uyğun adını saxlamışdır - Qaravul dağı. Qaravuldan isə başqa bir qala - Comərd qalası görünür. Lex qalası XIII–XIV yüzilliklərin abidəsidir.

Kəlbəcər dünya əhəmiyyətli 2 tarix-mədəniyyət abidəsi vardır, onlar Gəncəsər və Xudavəng monastrlarıdır.



**Gəncəsər monastırı (məbəd)**

Gəncəsər monastrı (məbədi) Qafqaz Albaniyası xristian memarlığının ən görkəmli abidələrindən biridir. Vəngli kəndi uzun müddət Alban Xaçın Knyazlığının mərkəzi olub. Monastrın divarında daş üzərindəki epiqrafik yazıdan məlum olur ki, bu abidə Həsən Calal Dövlə və anası Xorişə xatun tərəfindən 1216-1238-ci illərdə inşa edilib. Bu monastr 1511-ci ildən 1836-cı ilədək, yəni Rusiya sinodunun rəsmi qərarı ilə Alban kilsəsi ləğv edilənədək diofizit alban xristianlarının iqamətgahı olub. Qafqaz Albaniyasının tarixi və memarlıq nöqteyi-nəzərindən ən möhtəşəm və məşhur xristian kompleksi - Gəncəsər monastırı Ermənistan tərəfindən "təmir-bərpa" işləri adı altında saxtalaşdırılıb, erməni abidəsi kimi təqdim edilib. İşğaldan sonra abidənin daşları üzərində olan yazılar dəyişdirilib, bu alban incisinin erməni tarixi abidəsi olması barəsində materiallar yayılıb. Gəncəsər kompleksinin xarici divarlarında da Alban patriarxiyası zamanı həkk olunmuş çoxsaylı qədim yazılar da interyerində olan yazılar kimi, erməni vandalizminə məruz qalıb.



**Xudavəng monastrı (məbəd kompleksi)**

Xudavəng monastrı (məbəd kompleksi) də dünya əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb. Xudavəng və ya Dədəvəng monastrı Azərbaycan ərazisində ən böyük və gözəl monastırlardan biridir. Artıq b.e. ilk əsrlərində burada kiçik kilsə yaranmış, onun yerində isə sonralar – ilk orta əsrlərdə monastırın ən qədim tikililərindən biri olan birnefli bazilika ucaldılıb. Arxeoloji tədqiqatlar göstərir ki, monastrın əsası VI-VII əsrlərdə qoyulub. Kompleks Qafqaz Albaniyası dövlətinin süqutundan bir əsr sonra – IX əsrdə də Qarabağın dağlıq hissəsində yaranmış Alban Xaçın Knyazlığının dini mərkəzi olmaqda davam edib. Kompleksdə alban yepiskopunun iqamətgahı və dini maarif mərkəzi fəaliyyət göstərib. XIII əsrdə Mehranilər sülaləsindən olan Xaçın knyazı Böyük Həsənin oğlu Bəhramın (Vaxtanqın) ailəsi tərəfindən monastır yenilənib və orada əlavə tikililər inşa edilib. Həmçinin kompleksə sonradan əlavə edilmiş Müqəddəs Qriqoris məbədi və Həsən Cəlal kilsəsi də diqqətəlayiq memarlıq nümunələridir.

Tarixi Qafqaz Albaniyasının məbəd və digər mədəni irsi nümunələri erməni kitablarında, "qədim erməni" mədəni irsi, tarixi Ermənistan və erməni kilsəsinin tərkib hissəsi kimi qələmə verilir. Kəlbəcər rayonunun işğalından sonra Xudavəng monastrında da qanunsuz bərpa işləri başlanılıb. Bərpa adı altında saxtakarlaşdırma işləri Erməni Apostol Kilsəsinin nəzarəti altında 1997-2011-ci illərdə - 14 il davam etdirilib.

Xudavəng monastrı Azərbaycan ərazisində vaxtilə mövcud olan Qafqaz Albaniyası dövlətinin gücündən və alban memarlığının zənginliyindən xəbər verir.

Rayon ərazisi mədəniyyət abidələri və dini məbədlərlə zəngindir. Qaraçanlı kəndinə Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədulla ziyarətgahı uzun illər işğal altında qalaraq Ermənistan Silahlı Qüvvələri tərəfindən dağıdılıb.

Kəlbəcərdə ümumilikdə 51 tarix-memarlıq abidəsi, 82 mədəniyyət evi və klub, 80 kitabxana, 1 musiqi məktəbi, 1 muzey fəaliyyət göstərib.

Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi 1982-ci ildə fəaliyyətə başlayıb. Muzeyin fondu 25 mindən çox eksponat təşkil edib. Muzeyin həyətində qədim qəbirüstü qoç və at fiqurları nümayiş etdirilirdi. Kəlbəcər rayonunun erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinin fondu tamamilə məhv edilmişdir.

Kəlbəcərdə bitən 4 min adda bitkinin təxminən 200-ü dərman bitkiləridir. Kəlbəcərdə 76 növ mineral, 36 süxur növü olduğu məlumdur. Buna görə də Kəlbəcər həm də geoloqlar tərəfindən "daş xəzinəsi" kimi qəbul edilir.

Kəlbəcərdəki geoloji (paleontoloji) obyektlərdəki yarğan və qobularda 40 metrədək hündürlüyü olan sütunvari vulkanik çıxışlar mövcuddur. Bunlar vulkanik süxurlar üçün xarakterikdir. İstisu kəndində "Bazaltın sütunvari aralanması" adlı geoloji abidə yerləşir.

Kəlbəcərin uzun müddət işğal altında saxlanılması nəticəsində həmin ərazidə bioloji müxtəlifliyə, o cümlədən flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulub, ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, qiymətli ağac növləri ilə zəngin meşələr, eləcə də təbiət abidələrinin, ümumilikdə yeraltı və yerüstü təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub.

Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı kitab"a daxil edilmiş ayıfındığı ağacları da kütləvi şəkildə qırılıb. Ayı fındığına Azərbaycanın başqa meşələrində nadir hallarda təsadüf olunur. Kəlbəcər rayonunda dəniz səviyyəsindən 1500-2100 m hündürlükdə bitir. Meşənin tərkibində ayı fındığı, palıd, vələs, cökə, fındıq, fısdıq ağacları vardır. Bəzi ayı fındığı ağaclarının hündürlüyü 25 m-ə, diametri 48-120 sm-ə çatır. Məhdud dairədə yayıldığı üçün qiymətlidir.

Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göl, o cümlədən Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl ciddi antropogen təsirə məruz qalıb.

Kəlbəcər rayonu ərazisi zəngin faydalı qazıntılarla, o cümlədən qızıl, gümüş, mis, xrom civə, tellur, selen və s. kimi yataqları ilə zəngindir. Burada sənaye əhəmiyyətli Söyüdlü, Ağduzdağ və Qızılbulaq qızıl, Şorbulaq və Ağyataq civə və Mehmana polimetal yataqları xüsusilə əhəmiyyətlidir. Rayon ərazisində böyük ehtiyatlara malik əlvan və üzlük daşlar, inşaat materialları yataqları mövcuddur.

Kəlbəcərin Söyüdlü – Zod qızıl yatağı qədim tarixə malikdir. Söyüdlü sahəsində 1970 – 80 ci illərdə aparılan geoloji kəşfiyyat işləri vaxtı qədim dağ qazmaları, mağara¬lar, quyular, qədim süxur çöküntüləri və qədim filiz qırıntılarından ibarət ayrı-ayrı təpəciklər və qızıl istehsal edən alətlər onu sübut edir ki, insanlar 4-5 min il əvvəl buralarda qızıl istehsal ediblər. Zar kəndi isə tarixdə "Şəhrizər", yəni "qızıl şəhəri" adı ilə məşhur olub.

İşğal altında qalmış Kəlbəcər rayonunun təbii sərvətləri Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları uzun illər Ermənistan tərəfindən talan edilib.

Kəlbəcər rayonu ərazisində yerləşən İstisu və Tutqun termal-mineral suları əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. İstisu bulağı üstündə 80-ci illərdə iri kurort-sanatoriyalar və mineral sudoldurma zavodu tikilib. Zavod sutkada 800 min litr su istehsal edirdi. İstisu sanatoriyalarında hər il xeyli sayda insan müalicə olunur və istirahət edirdi.

Kəlbəcər rayonu üzrə mineral xammal ehtiyatları haqqında məlumat

| S/s | Yataqların adı | Yatağın növü | Təsdiq edilmiş ehtiyatı |
|---|---|---|---|
| 1 | Kilsəli | mişar daşı | 10927 min $m^3$ |
| 2 | Keşdək | gil | 1312 min $m^3$ |
| 3 | Keçəldağ I | sement xammalı | 4473 min $m^3$ |
| 4 | Çaplı | qum-çınqıl | 2540 min $m^3$ |
| 5 | Keçəldağ | əlvan daş | 2337,6 ton |
| 6 | Levçay | civə | Filiz - 152 min ton |

| | | | |
|---|---|---|---|
| | | | Hg - 503 ton |
| 7 | Ağyataq | civə | Filiz - 28 min ton |
| | | | Hg - 190 ton |
| 8 | Söyüdlü (Zod) | qızıl-sulfid | Filiz - 8767,9 min ton |
| | | | Au - 112,5 ton |
| | | | Ag - 190,33 ton |
| | | | Se - 248,89 ton |
| | | | Te - 45,82 ton |
| 9 | Tutqun yatağı, Mozçay sahəsi | mineral su | 150 $m^3$/gün |
| 10 | Tutqun yatağı, Qarasu sahəsi | mineral su | 700 $m^3$/gün |
| 11 | Tutqun yatağı, Qoturlu sahəsi | mineral su | 70 $m^3$/gün |
| 12 | Tutqun yatağı, Tutqun sahəsi | mineral su | 600 $m^3$/gün |
| 13 | İstisu yatağı, yuxarı istisu sahəsi (balneoloji) | mineral su | 825 $m^3$/gün |
| 14 | İstisu yatağı, aşağı istisu sahəsi (balneoloji) | mineral su | 640 $m^3$/gün |
| 15 | İstisu yatağı Geşdək sahəsi (balneoloji) | mineral su | 108 $m^3$/gün |

| | | | |
|---|---|---|---|
| 16 | Söyüdlüçay | üzlük daşı | 1822 min $m^3$ |
| 17 | Pirağqaya | üzlük daşı | 78,75 min $m^3$ |
| 18 | Yanşaq | üzlük daşı | 288,75 min $m^3$ |
| 19 | Levçay I | tikinti daşı | 8438 min $m^3$ |
| 20 | Cəmilli (Pelitomorf) | tikinti daşı | 3900 min $m^3$ |
| 21 | Qışlaq I | tikinti daşı | 90 min $m^3$ |
| 22 | ABŞullauşağı | əlvan daş | 34 ton |
| 23 | Zülfüqarlı | əlvan daş | 427 ton |
| 24 | Qılınclı | əlvan daş | 1,1 min $m^3$ |
| 25 | Lev | əlvan daş | 248 ton |
| 26 | Tərtər I | əlvan daş | 750 ton |
| 27 | Konqur | əlvan daş | 555 ton |
| 28 | Kilsəli I | əlvan daş | 538 ton |
| 29 | Qamışlı | civə | Filiz - 30 min ton |
| | | | Hg - 45 ton |
| 30 | Şorbulaq | civə | Filiz -63528 ton |
| | | | Hg - 228 ton |
| 31 | Çıldıran | əlvan daş | 1094,6 ton |
| 32 | Mehmana | polimetal | Filiz - 571 min ton |
| | | | Pb - 37,3 min ton |
| | | | Zn - 40,4 min ton |
| | | | Ag - 29,2 ton |
| | | | Cd - 211,2 ton |

| | | | |
|---|---|---|---|
| 33 | Qızılbulaq | qızıl-mis-kolçed | Filiz - 3466 min ton |
| | | | Au - 13,7 ton |
| | | | Ag - 18,9 ton |
| | | | Cu - 47,9 min ton |
| | | | S - 274,4 min ton |
| | | | Se - 18,03 ton |
| | | | Te - 0,85 ton |
| 34 | Ağdüzdağ | qızıl nəcib metallar | 17.5 ton |

Kəlbəcərin kənd təsərrüfatında isə heyvandarlıq əsas yer tutub. 1980-ci illərdə Kəlbəcərdə 130 min baş iribuynuzlu və xırdabuynuzlu heyvanlar saxlanıb. Kəlbəcər həm də iri tütünçülük rayonlarından biri olub. 1980-ci illərin statistikasına görə, burada ildə 660 hektar sahədə tütün əkilib.

Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır. Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb.

Azərbaycanın bir neçə böyük çayının mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay. Onların uzunluğu təqribən 200 kilometrə yaxındır. Bu çaylar böyük ərazini qidalandırırdı. İşğal dövründə Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi. Suqovuşan qəsəbəsi azad edildikdən sonra artıq 100 min hektara suyun verilməsi nəzərdə tutulur.

**AZƏRTAC**

## Çin saytı Azərbaycan Ordusunun Kəlbəcərə daxil olmasından yazır

[14:13] 25.11.2020

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Kəlbəcər rayonunun azad olunması barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Müdafiə Nazirliyinin açıqlamasına istinadla Azərbaycan, Rusiya və Ermənistan liderlərinin birgə bəyanatına uyğun olaraq, Azərbaycan Ordusunun bölmələrinin noyabrın 25-də Kəlbəcər rayonuna daxil olduğu bildirilib.

Qeyd edilib ki, bəyanata əsasən, Kəlbəcər noyabrın 15-də təhvil verilməli idi, amma Azərbaycan humanitar səbəblərdən bu tarixi 10 gün təxirə salmışdı.

Məqalədə 1990-cı illərin əvvəllərində baş verən müharibə zamanı azərbaycanlıların digər yaşayış məntəqələri kimi, Kəlbəcəri də tərk etmək məcburiyyətində qaldığı, sonradan burada məskunlaşmış ermənilərin üçtərəfli bəyanata uyğun olaraq rayonun Azərbaycana təhvil verilməsi ərəfəsində yaşadıqları evləri tərk edərkən aparılması mümkün olmayan əşyaları, binaları yandırdıqları, hətta ağacları kəsib doğradıqları barədə faktlar əksini tapıb.

Bildirilib ki, sentyabrın sonundan başlayan döyüşlərdə Azərbaycan Ordusunun qazandığı qələbələrin nəticəsində əldə olunan razılaşmaya əsasən, Ermənistan artıq Ağdam rayonunu Azərbaycana qaytarıb, Laçın rayonu isə dekabrın 1-dək ölkəmizə təhvil veriləcək.

**Şahin Cəfərov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Pekin**

**AZƏRTAC**

**Rəcəb Tayyib Ərdoğan: Qarabağdakı 30 illik ədalətsizliyə son qoyuldu**

[14:30] 25.11.2020

Qarabağdakı 30 illik ədalətsizliyə son qoyuldu. Ölkəmizin dəstəyi sayəsində Azərbaycan torpağı olan Qarabağda erməni işğalı sona çatıb, uzunmüddətli sülhə ümidlər ilk dəfə olaraq artıb. Qarabağda Azərbaycan bayrağı dalğalanmağa başlayıb.

AZƏRTAC xəbər verir ki, bu fikirləri hakim Ədalət və İnkişaf Partiyasının sədri, Prezident Rəcəb Tayyib Ərdoğan partiyasının Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında ifadə edib.

Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli barədə mövqeyinin dəyişməz olduğunu, bu məsələ ilə bağlı həyata keçirilən tədbirlərdən, bu istiqamətdə dövlət başçıları ilə davamlı təmaslarından bəhs edən Prezident Rəcəb Tayyib Ərdoğan təəssüflə bildirib ki, Minsk qrupunun bəzi həmsədr ölkələri açıq şəkildə Ermənistanın işğalçılıq siyasətinə dəstək verib. Qazanılan hərbi zəfər sayəsində artıq Kəlbəcər rayonunun da Azərbaycana qaytarıldığını vurğulayan dövlət başçısı bildirib ki, azərbaycanlı məcburi köçkünlərin öz yurdlarına dönməsi ədalətin bərpasıdır.

Türkiyə Prezidenti çıxışında gündəlikdəki digər məsələlər, o cümlədən ölkədə həyata keçirilən islahatlar, koronavirus pandemiyası ilə mübarizə tədbirləri, infeksiyaya qarşı yerli istehsal olan peyvəndin hazırlanması işləri barədə geniş məlumat verib.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Bakı sakinləri Kəlbəcərin işğaldan azad olunmasını avtoyürüşlə qeyd ediblər – Fotosessiya**

[16:06] 25.11.2020

Noyabrın 25-də Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunması müjdəsini verdikdən sonra Bakı şəhərində avtomobil yürüşü keçirilib. Heydər Əliyev Mərkəzindən start götürən yürüş iştirakçıları paytaxtın küçə və prospektlərindən keçərək Şəhidlər xiyabanına doğru hərəkət ediblər.

Əllərində Azərbaycan, Türkiyə və Rusiya bayraqları tutan insanlar "Kəlbəcər azaddır", "Yaşasın Ali Baş Komandan, Yaşasın Azərbaycan Ordusu!", "Qarabağ Azərbaycandır!" şüarları səsləndirib, Müzəffər Ali Baş Komandanın portretini başları üzərinə qaldırıblar.

AZƏRTAC xəbər verir ki, daha bir yürüş Yasamal rayonundakı 20 nömrəli məktəb-liseyin qarşısından başlayaraq Şəhidlər xiyabanına, oradan da Azneft meydanına istiqamət götürüb. Şəhidlər xiyabanını ziyarət edən paytaxt sakinləri və kəlbəcərlilər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıblar.

Yürüş iştirakçılarından bir neçəsi sevinc hisslərini AZƏRTAC-la bölüşüb.

Paytaxt sakini Reyman Ağrılı deyib: "Bu gün Azərbaycanımızın qələbəsini qeyd edirik. Qarabağın dilbər guşələrindən biri olan Kəlbəcər artıq azaddır. Müzəffər Ali Baş Komandanın böyük sərkərdəlik məharəti, güclü iradəsi, qətiyyəti, rəşadətli Ordumuzun şücaəti, xalqın öz lideri ətrafında yumruq kimi birləşməsi Qələbəmizi təmin etdi. Ordumuz qısa müddətdə mənfur düşməni diz çökdürtdü. Dünya Azərbaycan Ordusunun gücünü bir daha gördü".

Digər müsahibimiz Kənan Əsgərov qüdrətli Azərbaycan dövləti və ordusu ilə fəxr etdiyini bildirib. O, işğal altındakı ərazilərimizin azad edilməsinin tarixi hadisə olduğunu vurğulayaraq deyib: "Prezidentimiz və Ordumuz müasir Azərbaycan tarixinin ən şanlı səhifələrindən birini yazdılar. Əsgər və zabitlərimiz yeni qəhrəmanlıq dastanına imza atdılar. Bu gün hər kəs dövlətimiz və ordumuzla qürur duyur. Yaşasın, Azərbaycan".

Yürüş iştirakçılarından Elvin Buruzov və Şikar Əzimov deyiblər ki, Kəlbəcərin işğaldan azad olunmasını görmək böyük xoşbəxtlikdir.

"Bu gün çox sevincliyik. Hər dəfə torpaqlarımız işğaldan azad olunanda hədsiz sevinc və qürur duyuram. Xalqımıza qələbə yaraşır. Qoy bu sevincli günlərimiz daha da çox olsun", - deyə avtoyürüşdə iştirak edən Ramilə Vəliyeva bildirib.

Digər həmsöhbətlərimiz də Kəlbəcərin azad olunmasını daha bir şanlı zəfər kimi qiymətləndirib, Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, nəhayət, Azərbaycanın dilbər guşələrindən biri olan Kəlbəcərdə üçrəngli bayrağımızın dalğalanmasından keçirdikləri qürur hissələrini dilə gətiriblər.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi bölmələrimizin Kəlbəcər rayonuna daxil olmasına dair yeni videogörüntülər yayıb**

[16:08] 25.11.2020

Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli Bəyanata əsasən, Azərbaycan Ordusunun bölmələri noyabrın 25-də Kəlbəcər rayonuna daxil olub.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla bölmələrimizin Daşkəsən istiqamətindən Kəlbəcər rayonuna daxil olmasının videogörüntülərini təqdim edir.

**AZƏRTAC**

## Misirin ən nüfuzlu qəzeti Azərbaycan Ordusunun Kəlbəcərə daxil olmasından yazıb

[18:02] 25.11.2020

Misirin ən nüfuzlu qəzeti olan "Əl-Əhram" Müzəffər Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması haqqında geniş xəbər yayıb.

AZƏRTAC xəbər verir ki, qəzetin saytında yerləşdirilmiş xəbərdə 30 ilə yaxın Ermənistanın işğalı altında qalan Kəlbəcər rayonunun əsl sahibinə - Azərbaycana qaytarıldığı qeyd olunur. Bildirilir ki, noyabrın 10-da imzalanmış bəyanatın şərtlərinə əsasən, Azərbaycan Ordusu noyabrın 15-də bu əraziyə daxil olmalı idi, lakin humanizm prinsipindən çıxış edən rəsmi Bakı ermənilərə işğal etdikləri rayonu boşaltmaq üçün daha 10 gün vaxt verib.

Xəbərdə Azərbaycan Müdafiə Nazirliyinin işğaldan azad olunan Kəlbəcər rayonundan ilk görüntüləri yaydığı qeyd edilir. Vurğulanır ki, bundan əvvəl Azərbaycan Ordusu ermənilərin kapitulyasiyasının şərtlərinə əsasən boşaldılan Ağdam rayonuna da daxil olub. Həmçinin vurğulanıb ki, ermənilər tərk etdikləri Kəlbəcərdə evləri və meşələri yandırıblar.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**

**“France-24” kanalı Kəlbəcərin azad edilməsi haqqında reportaj yayımlayıb**

[19:18] 25.11.2020

“France-24” kanalı Kəlbəcər rayonunun işğaldan azad edilməsi haqqında reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda Kəlbəcərin rəsmi Bakı ilə əldə edilmiş razılaşmaya əsasən Ermənistanın Azərbaycana təhvil verməli olduğu üç rayondan ikincisi olduğu bildirilir. Altı həftəlik döyüşlərdən sonra Azərbaycanın öz mövqelərini möhkəmləndirdiyi vurğulanır.

Kanalın Azərbaycandakı çəkiliş heyəti Azərbaycan Ordusunun ermənilərin işğalı altında olmuş Kəlbəcər rayonuna girməsi ilə bağlı məlumat verir. Qeyd edilir ki, 27 ildən sonra ilk dəfədir Azərbaycan Ordusu rayona daxil olur və bu, əldə edilmiş razılaşmaya uyğun olaraq həyata keçirilir.

Reportajda Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlının fikirlərinə də yer verilib. O bildirir ki, bu gün bütün Azərbaycan xalqı, Azərbaycan Ordusu üçün sevindirici gündür. Düşmən qüvvələrinin Kəlbəcərdən çıxarılması üçtərəfli Bəyanata əsasən həyata keçirilir.

Kəlbəcər sakini Aslan Kərimoğlu deyir: “Kəlbəcərdə keçirdiyim günləri heç vaxt unuda bilmərəm. Bu gün mənim həyatımda ən xoşbəxt gündür. Çünki mən 43 il yaşadığım torpağa yenidən qayıtmaq ümidindəyəm. Ümid edirəm ki, tezliklə oraya qayıdacağıq”.

Reportajda qeyd edilir ki, 1993-cü ildə Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu işğal edib. Nəticədə 10 minlərlə azərbaycanlı rayonu tərk etməyə məcbur olub. Bu gün həmin məcburi köçkünlər Kəlbəcərə qayıtmağa və orada yaşamağa ümid edirlər.

**AZƏRTAC**

**Gürcüstan KİV-ləri Prezident İlham Əliyevin Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələrlə bağlı fikirlərinə geniş yer verib**

[20:14] 25.11.2020

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Kəlbəcər rayonunun işğaldan azad edilməsi ilə bağlı xalqa müraciəti Gürcüstan KİV-lərinin diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, report.ge, gaxa.ge, dalgatv.ge, 24news.ge informasiya agentlikləri, eləcə də yerli televiziyalar Prezident İlham Əliyevin xalqa müraciətində söylədiyi nitqdən xəbərlər yayıblar.

Materiallarda Qarabağda əldə olunan qələbənin təkcə Ermənistan üzərində deyil, erməni faşizmi üzərində də bir qələbə olması, Kəlbəcərin yenidən qurulması ilə əlaqədar baş planın hazırlanması, eləcə də Qafqaz Albaniyasına aid olan tarixi abidələrin, kilsələrin tarixi-mədəni sərvət olması ilə bağlı Prezidentin fikirləri diqqətə çatdırılır.

Dövlət başçısının bu fikirləri oxuculara təqdim edilib: “Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni “tarixçiləri” və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər. Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir”.

Materiallarda ermənilərin tərk etdikləri ərazilərdəki vəhşiliklərdən də bəhs olunur: “Onlar evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün, biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik”.

**Xətayi Əzizov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tbilisi**

**AZƏRTAC**

## İranın XİN başçısı Kəlbəcərin işğaldan azad olması münasibətilə Ceyhun Bayramovu təbrik edib

[21:55] 25.11.2020

Noyabrın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və İran İslam Respublikasının xarici işləri naziri Məhəmməd Cavad Zərif arasında videokonfrans formatında görüş keçirilib.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, naziri Ceyhun Bayramov qarşı tərəfi salamlayaraq, ölkəmizin İranla faydalı əməkdaşlığını məmnunluqla qeyd edib.

Nazir bu görüşün Azərbaycan Ordusunun bölmələrinin Kəlbəcərə daxil olduğu əlamətdar bir gündə keçirildiyini vurğulayıb. O, Azərbaycan tarixinin xüsusi dövründə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə verdiyi dəstəyə və səsləndirilən bəyanatlara görə İran tərəfinə təşəkkürünü ifadə edib.

Ceyhun Bayramov Azərbaycan-İran sərhədinin tam bərpa edildiyini həmsöhbətinin diqqətinə çatdırıb. Nazir Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad olunmasının qonşu və dost İran İslam Respublikası ilə daha da geniş əməkdaşlıq üçün yeni fürsətlər və perspektivlər yaratdığını bildirib.

İran Xarici İşləri naziri Məhəmməd Cavad Zərif işğal altında olan ərazilərimizin azad edilməsi, eləcə də bu gün Azərbaycan Ordusunun bölmələrinin Kəlbəcərə daxil olması münasibətilə öz təbriklərini çatdırıb. Nazir münaqişənin həlli ilə bağlı irəliləyişin əldə edilməsi üçün yardımçı olmağa ölkəsinin hər zaman hazır olduğunu qeyd edib.

Tərəflər əməkdaşlığın Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyası çərçivəsində davam etdirməsinin vacibliyini vurğulayıblar. Həmçinin Azərbaycan və İran arasında ikitərəfli qaydada olduğu kimi, çoxtərəfli regional formatlarda da əməkdaşlığın davam etdirməyin zəruriliyini qeyd ediblər.

Görüşdə nazirlər Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi, Araz çayı üzərində bir sıra birgə layihələr və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

**AZƏRTAC**

**Kəlbəcər rayonuna doğru irəliləyən bölmələrimizin videogörüntüsü yayılıb**

[22:22] 25.11.2020

Müdafiə Nazirliyi işğaldan azad olunmuş Kəlbəcər rayonuna doğru irəliləyən bölmələrimizin videogörüntüsünü yayıb.
AZƏRTAC həmin görüntünü təqdim edir.

**AZƏRTAC**

**Ukrayna KİV-ləri Kəlbəcər rayonunun işğaldan azad olunması və Prezident İlham Əliyevin müraciətinə dair xəbərlər yayıb**

[05:21] 26.11.2020

Ukraynanın aparıcı KİV-ləri Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad olunmasına və Prezident İlham Əliyevin bununla bağlı xalqa müraciətinə dair xəbərləri geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Ukrinform, UNİAN, "RBK-Ukrayna" informasiya agentlikləri, "Segodnya", "Gordon", "Dialog" və digər portalların yaydıqları informasiyalarda Azərbaycan Silahlı Qüvvələrinin ordu birləşmələrinin Kəlbəcər rayonuna daxil olması barədə məlumat verilib.

Qeyd edilib ki, Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri noyabrın 25-də Kəlbəcər rayonuna daxil olub.

Bundan başqa məqalələrdə Prezident İlham Əliyevin Kəlbəcər rayonunun işğalçılardan azad olunması ilə bağlı xalqa müraciətində Ermənistanın ünvanına səsləndirdiyi sərt fikirlər də işıqlandırılıb.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Kiyev**

**AZƏRTAC**

**Azərbaycan hərbi-diplomatik uğurları ilə BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi**

[13:47] 26.11.2020

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə yanaşı, xalqımız bütünlüklə Müzəffər Ali Baş Komandanın ətrafında səfərbər oldu. Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də bir sıra mühüm əhəmiyyətli şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı.

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın baş tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

İyirmi yeddi il ərzində təcavüzkara qarşı nəinki heç bir təzyiq edilməyib, hətta dünya birliyi Ermənistanın yürütdüyü faşist ideologiyası, Azərbaycana qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinə, bütün dünyanın gözü qarşısında baş verən bu qanlı terror hadisələrinə seyrçi mövqedən yanaşaraq, xüsusilə onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etməyib.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi.

Ağdamın işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsidir. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi.

Qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Ermənistan təkcə Qarabağın dağlıq hissəsini tutmaqla kifayətlənmədi və təcavüzkarlığını daha da genişləndirdi. 1993-cü il martın 27-dən aprelin 2-dək Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Kəlbəcər rayonu işğal edilmişdi. Azərbaycan Kəlbəcər rayonuna erməni təcavüzü başlayandan dərhal sonra bölgədə yaranmış vəziyyət haqqında BMT-nin Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə məlumat verdi. Azərbaycanın bu tələbi Türkiyə tərəfindən müdafiə olundu. Məhz Kəlbəcərin işğalından sonra Türkiyə dövləti Ermənistanla sərhədini bağladı.

1993-cü il aprelin 30-da BMT TŞ-nın 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edildi. Qətnamədə Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilirdi. Sənəddə bütün hərbi əməliyyat-ların dərhal dayandırılması, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılması tələb edilirdi. Bundan əlavə, sənəddə ərazi bütövlüyünə hörmət, eləcə də beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi təsdiq olunurdu.

Kəlbəcər rayonu Azərbaycanın qərbində, Tərtər çayı vadisində, Böyük Qafqaz dağlarında, dəniz səviyyəsindən 1500-3800 metr hündürlükdə yerləşir. Ən uca nöqtəsi dəniz səviyyəsindən 3724 metr yüksəkdəki Camışdağ zirvəsidir (Murovdağ). Rayonun ərazisindən axan əsas çaylar Tərtər, Bazarçay və onların qollarıdır. Ərazisinin çox hissəsində qışı quraq keçən soyuq və dağlıq tundra iqlim tipləri hakimdir. Kəlbəcər rayonu qərbdə Ermənistan Respublikası, şərqdə Ağdam və Tərtər, şimalda Daşkəsən, Göygöl və Goranboy rayonları ilə, cənubda isə Laçın rayonu və Xocalı şəhəri ilə həmsərhəddir.

İşğal nəticəsində Kəlbəcər rayonu ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilmiş, yandırılmış, dağıdılmış və məhv edilmişdir. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli, ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları, sənaye əhəmiyyətli ümumi ehtiyatları 850 ton olan 3 - Ağyataq, Levçay, Çorbulaq və ehtiyatları 200 tondan çox olan Qamışlı və Ağqaya civə yataqları, ehtiyatları 10941 min kubmetr olan və mişar daşı istehsalına yararlı Kilsəli tuf yatağı, ehtiyatları 1312 min kubmetr olan və kərpic istehsalına yararlı Keşdək gil yatağı, ehtiyatları 4473 min kubmetr olan və yüngül beton doldurucusu kimi istifadə olunan Keçəldağ perlit yatağı, ümumi ehtiyatları 2,2 milyon kubmetr olan 2 üzlük daşı yatağı, ehtiyatları 2540 min kubmetr olan Çəpli qum-çınqıl qarışığı yatağı; gözəl dekorativliyə malik 4 mərmər oniksi (ehtiyatları 1756 ton), nefroid (ehtiyatları 801 ton) yatağı; ehtiyatları 2337 ton olan 1 obsidian (dəvə gözü) yatağı, ehtiyatları 1067 min kubmetr olan 1 listvenit yatağı qalmışdır.

Bundan əlavə, Kəlbəcərə dünya şöhrəti qazandırmış Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları da (ümumi istismar ehtiyatları 3093 m3/gün) işğal ərazisində yerləşir. Murovdağ, Şahdağ, Vardenis, Mıxtökən, Qarabağ silsiləsinin və Qarabağ yaylasının bir hissəsinin əhatəsində yerləşən Kəlbəcər şəhərinin ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Ərazidə Yura, Təbaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkanik süxurları yayılıb. Ən böyük çayı Tərtər (yuxarı axını) və onun qolları Lev çayı, Tutqunçay və başqalarıdır.

Kəlbəcər rayonunun işğaldan azad olunması tarixi hadisə kimi dəyərləndirən və ərazi baxımından bizim ən böyük rayonlarımızdan biri olduğunu vurğulayan Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 25-də xalqa müraciətində qeyd etmişdir ki, Kəlbəcər bizim qədim torpağımızdır: "Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir. Həm məscidlər, həm kilsələr bizim tarixi sərvətimizdir. Azərbaycan xalqı onu yaxşı bilir və bütün dünya bilməlidir ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Qafqaz Albaniyası dövlətinə məxsusdur. Bunu təsdiqləyən bir çox tarixi sənədlər var. Bu, heç kəsə sirr deyil. Sadəcə olaraq, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər". Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malik olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev qeyd etdi ki, bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir.

Kəlbəcərdə mənfur düşmənin digər cinayətlər də törətdiyini, qanunsuz məskunlaşma aparıldığını bildirən Prezident İlham Əliyev demişdir: "Həm Ermənistan ərazisindən qanunsuz yollarla orada insanlar məskunlaşıb, həm də xarici ölkələrdən. Bu isə hərbi cinayətdir və Cenevrə Konvensiyasına görə hərbi cinayət sayılır. Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan".

Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Prezidenti deyib: “Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq”.

Qeyd etmək vacibdir ki, rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən Ermənistanın hərbi təcavüzünə cavab olaraq, 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirilməklə yanaşı, düşmənin bu illər ərzində yaratdıgı “yenilməzlik” mifologiyasını darmadağın etdi. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslananaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Eyni zamanda, bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi. Bu, informasiya müharibəsində Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çaldığını şərtləndirdi. Xüsusilə, son 17 ildə Azərbaycan diplomatiyasının səyləri nəticəsində münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və s. beynəlxalq təşkilatların sənədləri buna müvafiq hüquqi baza yaratdı.

Nəticədə, informasiya müharibəsində Azərbaycan Prezidenti İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və artıq danışıqların şərtlərini Azərbaycan tərəfi müəyyən etdi və ölkəmizin ikinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi. Təhlil onu söyləməyə əsas verir ki, bütün bunlar Azərbaycanın böyük hərbi-diplomatik uğuru və beynəlxalq birliyin Azərbaycana olan inamının, etimadının təzahürü, ölkəmizin, xüsusilə dövlət başçısının qlobal miqyasda olan nüfuzunun göstəricisidir.

**AZƏRTAC**

**“Kuwait Times” qəzetində Azərbaycan Ordusunun Kəlbəcərə daxil olması barədə məqalə dərc edilib**

[17:12] 26.11.2020

Küveytin ingilisdilli “Kuwait Times” qəzetində Azərbaycan Ordusunun Kəlbəcər rayonuna daxil olması barədə məqalə dərc edilib.

Ölkəmizin Küveytdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə Azərbaycan Müdafiə Nazirliyinə istinadla əsgərlərimizin minaları təmizləyərək rayona daxil olduqları qeyd edilib.

Yazıda sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları keçirdiyi və Ermənistanın bundan sonra Kəlbəcər, Ağdam və Laçın rayonlarını geri qaytarmağa razılıq verməsi barədə sazişə imza atmağa məcbur edildiyi diqqətə çatdırılır. Həmçinin qeyd edilir ki, Azərbaycan humanitar əsaslarla ermənilərin Kəlbəcərdən çıxması üçün müəyyənləşdirdiyi vaxtı 10 gün uzadıb. Bildirilir ki, noyabrın 20-də Ağdam rayonu təhvil verilib və dekabrın 1-dək Laçın rayonu Azərbaycana qaytarılacaq.

Eyni zamanda, bildirilib ki, 30 ildən sonra azərbaycanlılar öz torpaqlarına qayıdacaqlar. Lakin Kəlbəcəri tərk edən ermənilər buradakı hər şeyi məhv edib, o cümlədən elektrik kabellərini, ağacları kəsib, meşələri yandırıb, hətta su elektrik stansiyasının hissələrini avtomobilə yükləyiblər.

Müəllif, həmçinin Ermənistan-Azərbaycan münaqişəsi haqqında məlumat verib. Qeyd edib ki, 1990-cı illərdə erməni silahlıları bölgəni ələ keçirərək azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə aparıb və qondarma “respublika” yaradıblar. Lakin onun “müstəqilliyi” beynəlxalq aləm tərəfindən tanınmayıb.

Diqqətə çatdırılıb ki, imzalanan sülh razılaşmasından sonra Ermənistanda etirazlar başlayıb və N.Paşinyanın istefası tələb olunub.

**AZƏRTAC**

**Rumıniya portalı Kəlbəcərin işğaldan azad olunmasından yazıb**

[21:04] 26.11.2020

Rumıniyanın "News24hours" xəbər portalı Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər rayonunun işğaldan azad olunması ilə bağlı xalqa müraciəti ilə bağlı informasiya yayıb.

AZƏRTAC xəbər verir ki, yazıda Kəlbəcər rayonunun erməni işğalçıları tərəfindən zəbt edilməsinin tarixindən danışılır, Azərbaycanın güclü ordusunun nümayiş etdirdiyi şücaət və peşəkarlıq sayəsində torpaqlarımızın işğaldan azad olunduğu bildirilir. Həmçinin məkrli düşmənin bu ərazilərdə törətdiyi vandalizm aktları, o cümlədən mədəni abidələrin dağıdıldığı, sərvətlərin mənimsənildiyi oxucuların diqqətinə çatdırılır.

Bildirilir ki, Azərbaycan dağılmış bütün infrastrukturu bərpa edərək, rayonu bölgənin turizm və kənd təsərrüfatı mərkəzinə çevirmək niyyətindədir.

**İqbal Hacıyev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Buxarest**

**AZƏRTAC**

**Kəlbəcər rayonunun İstisu qəsəbəsindən videogörüntülər**

[11:12] 28.11.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun İstisu qəsəbəsindən videogörüntüləri paylaşıb.

AZƏRTAC nazirliyin mətbuat xidmətinə istinadla həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Vəng kəndindən videogörüntülər yayıb**

[19:18] 28.11.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Vəng kəndindən videogörüntülər yayıb.

AZƏRTAC həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**Kəlbəcər rayonunun kəndlərinin videogörüntüləri**

[10:18] 29.11.2020

Müdafiə Nazirliyi işğaldan azad olunmuş Kəlbəcər rayonunun kəndlərinin videogörüntülərini yayıb. AZƏRTAC həmin videogörüntüləri təqdim edir.

**AZƏRTAC**

**İspaniya portalı: Kəlbəcərdəki tarixi abidələr - məscidlər, kilsələr Azərbaycanın böyük sərvətidir**

[09:46] 01.12.2020

İspaniyanın böyük oxucu kütləsinə malik "Patrimonio Actual" internet portalında Azərbaycanın noyabrın 25-də işğaldan azad edilən Kəlbəcər rayonu barədə məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, yazıda Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətinə istinad olunur. Bildirilir ki, Kəlbəcər Azərbaycanın qədim torpağıdır və ərazisinə görə Azərbaycan Respublikasının ən böyük rayonlarından biridir.

Xüsusi olaraq vurğulanır ki, Kəlbəcərdəki tarixi abidələr - həm məscidlər, həm kilsələr Azərbaycanın böyük sərvətidir.

Diqqətə çatdırılır ki, Kəlbəcərdə mövcud olan kilsələr qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasına məxsusdur və bu fakt öz təsdiqini tarixi sənədlərdə tapıb.

Eyni zamanda, qeyd olunur ki, erməni "tarixçiləri" və saxtakarlar qədim alban kilsələrini saxtakarlıqla erməniləşdiriblər, öz yazılarını oraya əlavə ediblər və bu kilsələri özününküləşdiriblər.

Prezident İlham Əliyevin çıxışına istinadən bildirilir ki, Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq Ermənistanın başlıca məqsədi idi, lakin Azərbaycan Ermənistanın bu məkrli planının qarşısını aldı. Azərbaycanda qədim Qafqaz Albaniyanın tarixinin, mədəni irsinin öyrənilməsi və tədqiqi üçün kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır.

**Nigar Cəfərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Madrid**

**AZƏRTAC**

**Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib**

[12:00] 01.12.2020

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.
AZƏRTAC müraciəti təqdim edir.

**Prezident İlham Əliyevin xalqa müraciəti**

-Əziz həmvətənlər.

Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq.

Laçın rayonu ölkəmizin ən böyük rayonlarından biridir, ərazisi 1800 kvadratkilometrdir. Laçın rayonunun zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri bizim milli sərvətimizdir. Laçın rayonunun Azərbaycanın gələcək iqtisadi inkişaf işlərində mühüm rolu olacaqdır. İlk növbədə, biz Laçına laçınlıları qaytaracağıq. Əziz laçınlıları bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, gözaydınlığı verirəm. Laçın işğal olunanda bu rayonda təqribən 50 mindən bir qədər çox əhali yaşayırdı. İndi Laçın rayonunun əhalisi 80 min nəfərə çatıb. Əlbəttə ki, laçınlıları qısa müddət ərzində Laçına qaytarmaq bizim əsas vəzifələrimizdən biri olacaqdır. Həmçinin biz çalışacağıq ki, keçmiş məcburi köçkünləri işğaldan azad edilmiş bütün digər rayonlarımıza qısa müddət ərzində qaytaraq.

Əlbəttə, işğaldan azad edilmiş torpaqlarda mövcud olan mənzərə böyük çətinliklər yaradır. Çünki hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq. Bildiyiniz kimi, ilk layihələr artıq icra edilməyə başlanmışdır. Prezidentin ehtiyat fondundan müvafiq vəsait ayrılmışdır. Füzuli-Şuşa avtomobil yolunun, Bərdə-Ağdam dəmir yolunun tikintisi artıq başlanmışdır. Bu, onu göstərir ki, biz bu işləri maksimum səmərə ilə və eyni zamanda, qısa müddət çərçivəsində planlaşdırırıq ki, vaxt itirmədən bütün işləri təşkil edək. Artıq müvafiq dövlət qurumu da yaradıldı və bu işlərin hamısı koordinasiya şəklində aparılacaqdır.

Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir. Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır.

Onu da bildirməliyəm ki, bizim böyük çayımız - uzunluğu 100 kilometrdən çox olan Həkəri çayının mənbəyi Laçın rayonundadır. Bu da böyük strateji əhəmiyyətə malik olan məsələdir. Deyə bilərəm ki, bizim 10-dan çox böyük və kiçik çayımızın mənbəyi işğaldan azad edilmiş torpaqlardadır. Onların arasında 4 çayı xüsusilə qeyd etmək istərdim. Çünki bu çayların uzunluğu 100 kilometrdən çoxdur. Tərtərçay 200 kilometr, Bazarçay 180 kilometrə yaxın, Xaçınçay 120 kilometrə yaxın – bu 3 çay Kəlbəcər rayonunda yerləşir. Həkəri çayı da böyük çaylarımızdan biridir, uzunluğu 100 kilometrdən çoxdur. Bunun çox böyük əhəmiyyəti var. Çünki Azərbaycan ərazisindən keçən bizim əsas çayların mənbələri başqa ölkələrdə yerləşir - Kür çayı, Araz çayı, Samur çayı. Bizim bu 3 əsas çayımızın mənbələri başqa ölkələrdə yerləşir. Əlbəttə ki, 4 böyük çayın mənbəyinin ölkəmizin ərazisində olması böyük üstünlüyümüzdür. Ancaq bu ərazilər işğal altında idi. İndi bu ərazilər işğaldan azad edilib. İşğaldan azad edilmiş torpaqların və orada həyatın bərpası üçün əlbəttə ki, çay resurslarımızın çox böyük əhəmiyyəti olacaqdır. Artıq müvafiq göstərişlər verilib və su anbarlarının tikintisi nəzərdə tutulur. Bu, özlüyündə kənd təsərrüfatının inkişafına, ekoloji tarazlığın təmin edilməsinə çox böyük təsir göstərəcək amillərdən biridir.

Bütövlükdə azad edilmiş bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatı, turizm potensialı çox böyükdür. Biz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirməliyik və əminəm ki, buna nail olacağıq.

Laçın rayonunun strateji əhəmiyyəti, eyni zamanda, ondan ibarətdir ki, rayon ərazisindən və Laçın şəhərinin içi ilə Laçın dəhlizi keçir. Bildiyiniz kimi, bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilibdir. Dəhliz uzun illər erməni silahlı qüvvələrinin, işğalçıların nəzarətində idi. Deyə bilərəm ki, noyabrın 10-da imzalanmış birgə Bəyanatın ilkin versiyasında bu dəhlizin erməni silahlı qüvvələrinin nəzarətində qalması ilə əlaqədar müddəa var idi. Mən buna etiraz etdim və nəticədə bu dəhliz Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə verilmişdir. Hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Laçın dəhlizi erməni işğalçı qüvvələrindən təmizlənib. Onu da bildirməliyəm ki, Bəyanatın ilkin versiyasının üzərində fəal işlər gedirdi, xüsusilə Şuşa şəhəri işğaldan azad olunandan sonra qısa müddət ərzində. Bəyanatın ilkin versiyasında bizə təklif edilirdi ki, Laçın dəhlizinin eni 30 kilometr olsun. Mən buna qəti etiraz etdim və dedim ki, Ermənistan tərəfinin bu iddiası tamamilə əsassızdır. Dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac yoxdur. Ona görə mən bunu tamamilə qəbuledilməz təklif kimi hesab etdim və öz fikrimi bildirdim. Ondan sonra ikinci variantda Laçın dəhlizinin eni 10 kilometr nəzərdə tutulurdu. Buna da mən razılıq vermədim və nəticədə 5 kilometr eni olan dəhliz haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir.

Onu da bildirməliyəm ki, uzun illər ərzində - 30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox. Misal üçün, əgər Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarına baxsaq, orada daha çox hərbi hissələr yerləşirdi. Çünki orada bütün evlər, binalar mənfur düşmən tərəfindən dağıdılmışdı. Orada hərbçilər, onların ailə üzvləri yaşayırdı və çox az sayda mülki əhali yaşayırdı. Xaricdən gətirilən ermənilər oraya göndərilmirdi. Laçın rayonu isə artıq Ermənistan tərəfindən çox ciddi dərəcədə nəzarətə alınmışdı və orada çox böyük məskunlaşma proqramı icra edilmişdi. Orada minlərlə insan yaşayırdı və bəzi məlumatlara görə, bəlkə də 10 minə yaxın insan yaşayırdı. Yəni, Ermənistan rəhbərliyində Laçın rayonunu Azərbaycana qaytarmaq fikri olmamışdır. Biz Laçın dəhlizi haqqında danışıqlar zamanı mövzulara toxunarkən həmişə həm Ermənistan, həm də onun havadarları qeyd edirdilər ki, yox, Laçın rayonu ayrı mövzudur. Birbaşa bizə deyilməsə də, belə bir fikir həmişə var idi ki, Laçın rayonu hansısa formada Ermənistana qalmalıdır.

Danışıqlar prosesi ilə əlaqədar onu da bildirməliyəm, - istəyirəm Azərbaycan xalqı bu məlumatı məndən eşitsin, - təsadüfi deyil ki, işğalda olan rayonların Azərbaycana qaytarılması məsələsi danışıqların mərkəzində yerləşirdi. Bu, bizim mövqeyimiz idi. Ancaq burada da mərhələli həll nəzərdə tutulurdu. Biz də bunun tərəfdarı idik. Birinci mərhələdə 5 rayonun Azərbaycana qaytarılması, ikinci mərhələdə isə Laçın dəhlizi istisna olmaq şərti ilə Kəlbəcər və Laçın rayonunun Azərbaycana qaytarılması. Ermənistan tərəfi hər dəfə məsələ qaldırırdı ki, əgər bu 7 rayon Azərbaycana qaytarılacaqsa, mütləq Dağlıq Qarabağın statusu eyni vaxtda öz həllini tapmalıdır. O başqa məsələdir ki, Ermənistan, sadəcə olaraq, danışıqlarda iştirak edərək imitasiya ilə məşğul idi və heç bir rayonu bizə qaytarmaq fikrində deyildi. Ancaq istənilən halda onların mövqeyi belə idi ki, 5 rayon qaytarıla bilər, amma Laçın və Kəlbəcər rayonlarının Azərbaycana qaytarılması üçün Azərbaycan Dağlıq Qarabağın müstəqilliyini ya tanımalıdır, ya da ki, orada keçiriləcək səsverməni tanımalıdır, səsvermə üçün tarix müəyyən edilməlidir. Dağlıq Qarabağa müstəqillik verilərsə, o zaman Ermənistan Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytaracaq, ancaq Laçın dəhlizi Ermənistana veriləcəkdi, özü də dəhlizin eni müəyyən edilməmişdi. Bax, bu idi danışıqlar masasında olan məsələlər.

Mən deyə bilərəm, bu 17 il ərzində dəfələrlə bizə müxtəlif yerlərdən, xarici dairələrdən belə siqnallar gəlirdi ki, indi beş rayonu alın, bununla da kifayətlənin. Siz müharibədə məğlubiyyətə uğramısınız, Ermənistan müharibədə, - Birinci Qarabağ müharibəsi nəzərdə tutulurdu, - qələbə qazanıb. Siz reallıqlarla razılaşın. İndi beş rayon ki, sizə vəd verilir, o da böyük şeydir, siz onu alırsınız, Laçın, Kəlbəcər də qalsın sonraya, siz nə vaxt müstəqillik versəniz Dağlıq Qarabağa, o vaxt da o rayonların bir hissəsi sizə qayıda bilər.

Mən isə həmişə deyirdim ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qayıtmasa, heç bir razılaşma ola bilməz. Mənim mövqeyim xarici ölkələrdə bir çoxlarını qıcıqlandırırdı. Mən deyirdim ki, bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Deyirdim ki, müharibə variantı heç vaxt istisna olunmur. Nəinki deyirdim, bütün bu illər ərzində bütün gücümüzü səfərbər edib ölkəmizi gücləndirirdik, güc toplayırdıq - həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplayırdıq. Bu gücü dəmir yumruq formasına gətirdik, düşmənin belini qırdıq və bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Belə cəhdlər var. Bu cəhdlərin bir məqsədi var ki, bu razılaşma pozulsun. Çünki bu razılaşma bəzilərini çox qıcıqlandırır ki, artıq burada yeni təhlükəsizlik formatı yaranıbdır. Türkiyə-Rusiya Birgə Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda, burada təhlükəsizlik tədbirlərinin görülməsi və Bəyanatın müddəalarının icra edilməsi bəzilərini qıcıqlandırır. Ancaq bizim işimizə, əldə edilmiş razılaşmaya heç kim müdaxilə edə bilməz. Razılaşma icra edilir və icra edilməlidir.

Bir daha demək istəyirəm ki, biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzərək, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq. Hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı. Bu Bəyanatın altında Paşinyanın imzası var. Bunu o imzalayıb, məcbur olub. O, əslində, kapitulyasiya aktına öz imzasını qoyub. Ermənistan ya tamamilə məhv olacaqdı, ya da ki, imzalayacaqdı. Başqasının buna nə dəxli var? Hər kəs getsin öz işi ilə məşğul olsun.

Bölgəmizdə yeni reallıq yarandı. Bu reallığı biz yaratdıq. Azərbaycan yaratdı bu reallığı. Biz düşməni torpaqlarımızdan qovduq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki, kağız üzərində qalırdı. Bu qətnamələr 27 il idi ki, sadəcə olaraq, bir çoxları üçün kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də. Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tələb edir, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Amma bunun nəticəsi olmadı. Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq. Ümid edirəm ki, biz bölgədə bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik. Bu format nədən ibarət olacaq, bunu həyat göstərər. Hər halda biz bu yeni əməkdaşlıq formatının yaradılması üçün lazımi işləri gördük, öz torpaqlarımızdan düşməni qovduq və noyabrın 10-da imzalanmış Bəyanatda göstərilən məsələlər əgər bu gün öz həllini taparsa, onda bölgəmizdə yeni əməkdaşlıq çərçivələri yaradılacaqdır.

Ona görə Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir. Biz müharibə zamanı təqribən 5 min, 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik. Eyni zamanda, təxminən bir o qədər – 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq. Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var. Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edə bilərdi. Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə. Mən deyəndə ki, məsələnin hərbi yolu var, bunu nəzərdə tuturdum. Əgər düşmənin başını əzməsəydik, o, heç vaxt öz xoşu ilə bu torpaqlardan çıxmazdı. Düşmən bu işğalı əbədiləşdirmək istəyirdi və onların bütün çirkin əməlləri bu məqsədi güdürdü. Laçın rayonuna da bir eybəcər erməni adı vermişdilər. Artıq yoxdur bu ad, zibil yeşiyinə atıldı bütün başqa eybəcər adlarla bərabər.

Laçın rayonunun işğal altına düşməsi böyük faciə idi. Mən bir daha demək istəyirəm ki, hər bir rayonun işğal altına düşməsi faciə idi. Amma Laçın rayonunun işğalı imkan verdi ki, artıq Ermənistan ilə Dağlıq Qarabağ arasında yol bağlantısı olsun. 1992-ci ilin may ayında Şuşanın işğalından bir neçə gün sonra Laçının işğal altına düşməsi böyük itkimiz idi. Artıq Ermənistan bu dəhliz vasitəsilə silah-sursat, canlı qüvvə göndərirdi. Əlbəttə ki, bu, böyük itkilərə gətirib çıxardı. Ondan təxminən bir il sonra Kəlbəcər rayonu işğal altına düşdü.

Demək olar ki, bütün bunlar sonrakı işğal üçün zəmin yaratdı. Onu da bir daha demək istəyirəm ki, Laçın rayonu işğala məruz qalanda Bakıda hakimiyyət uğrunda mübarizə gedirdi. Bu mübarizəni aparanlar

Laçını, Şuşanı, Kəlbəcəri düşmənə satdılar, demək olar ki, Azərbaycan dövlətçiliyini uçurum kənarına qoydular. Biz bütün bu tarixi yaxşı xatırlayırıq. Bu gün Laçın rayonunu bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad etmək böyük qələbəmizdir.

Mən bir daha demək istəyirəm, - artıq onu demişəm, - onsuz da biz Laçını da, Kəlbəcəri də, Ağdamı da alacaqdıq. Bizim planlarımız var idi və biz ardıcıl şəkildə bu planlara doğru gedirdik. Ancaq hər kəs bilməlidir ki, Kəlbəcər və Laçın rayonlarının çox çətin relyefi var. Kəlbəcər rayonuna əvvəlki, sovet dövründə gedən yol Ağdərə rayonundan keçirdi. Sovet vaxtında bu rayona Mardakert deyilirdi, orada ermənilər yaşayırdı. Başqa yol demək olar ki, yox idi. Biz indi Kəlbəcərə Göygöl və Daşkəsən rayonlarından daxil olmuşuq. Xüsusilə qış mövsümünü, çətin relyefi nəzərə alsaq böyük itkilərimiz ola bilərdi. Həm Ağdam, həm Laçın, həm Kəlbəcər rayonlarının azad edilməsi işində böyük itkilərimiz ola bilərdi və böyük vaxt sərf olunacaqdı.

Ona görə bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır. Mən bir daha demək istəyirəm, onlar görəcəklər ki, vahid Azərbaycan dövləti çərçivəsində onların yaşayışı yaxşı olacaq. Onlar bu səfalətdən canlarını qurtaracaqlar. Baxın, biz indi Bərdədən Ağdama dəmir yolu çəkirik. Ağdamdan Xankəndiyə məsafə 20-30 kilometrdir. Amma Ermənistan paytaxtından Xankəndiyə gəlmək üçün neçə saat vaxt sərf etmək lazımdır - yük maşınları ilə bəlkə də on saat. Özü də çətin dağ yolları ilə. Ağdamdan isə Xankəndiyə yarım saat.

Bu, gələcək perspektivlərimizi diktə edəcək. Ona görə biz buna hazır olmalıyıq və öz strategiyamızı, öz taktiki addımlarımızı elə atmalıyıq ki, bundan sonra bu bölgədə bir dənə də təhlükə mənbəyi olmasın. Əlbəttə ki, bunun qarantı Azərbaycan Ordusudur. Əgər bu bölgənin coğrafiyasına hər kəs baxsa görər ki, bu gün Ermənistanı Dağlıq Qarabağla 5 kilometr enində dəhliz birləşdirir.

Bu gün Dağlıq Qarabağda yaşayan ermənilər və mütləq oraya qayıdacaq azərbaycanlılar gün gələcək yenə yaxşı qonşuluq şəraitində yaşayacaqlar. Burada logistik məsələlər var, nəqliyyat məsələləri var, enerji təhlükəsizliyi var. Biz bütün bu məsələləri nəzərdən keçirəcəyik. Ermənistan rəhbərliyindən fərqli olaraq, bizim strateji baxışlarımız var, bunlar artıq formalaşıb. Biz məqsədə çatmaq üçün ardıcıl surətdə gedirik. Ermənistan rəhbərliyinin hətta Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir baxışı yox idi. Onlar özləri bilmirdilər nə istəyirlər. Gah deyirdilər ki, Dağlıq Qarabağ “müstəqil dövlət”dir. Gah deyirdilər ki, “Dağlıq Qarabağ Ermənistan”dır. Bu təzadlı fikirlər bir-biri ilə necə uzlaşa bilər? Bu, nəyi göstərir? Onu göstərir ki, Ermənistan rəhbərliyi savadsız, siyasətdən başı çıxmayan insanlardan ibarətdir. Yaxşı, bu, müstəqil dövlətdirsə, onda sənin ordun orada nə iş görür? Əgər bu, müstəqil dövlətdirsə, - hansı ki, heç kim tanımayıb, elə birinci Ermənistan tanımayıb, - o necə ola bilər ki, Dağlıq Qarabağ Ermənistanın baş nazirinin sözləri ilə desək, “Ermənistandır və nöqtə”. Ona görə onların bu məsələ ilə bağlı da açıq-aydın fikri yox idi. Bu idi bizim qarşımızda duran ölkə.

Əlbəttə, biz bir daha görürük və artıq işğaldan azad edilmiş torpaqlarda olarkən bir daha gördüm ki, onlar bizə bir santimetr də torpaq qaytarmaq istəmirdilər. Əks-təqdirdə o istehkamları qurmazdılar. Onlar əbədi saxlamaq istəyirdilər o torpaqları. Ona görə o saxta xəritələri düzəldirdilər. Ona görə bizim şəhərlərimizə öz adlarını verirdilər. Ona görə xaricdən erməniləri gətirib oraya yerləşdirirdilər. Hərbi cinayət törədirdilər və cavab verəcəklər bütün cinayətlərə görə. Artıq işlər praktiki fazaya keçibdir. Qiymətləndirmə prosesi tezliklə başlanacaq, vurulmuş ziyan hesablanacaq. Artıq hüquqi müstəvidə addımlar atılır. Mən bunu artıq bildirə bilərəm Azərbaycan xalqına. Hələ ki, detalları açmaq istəmirəm. Amma bu, artıq niyyət deyil, bu, artıq praktiki addımlardır. Biz onları bundan sonra da ifşa edəcəyik.

Azad edilmiş torpaqlara xarici jurnalistlər dəvət olunur. Beynəlxalq media erməni vəhşiliyinin nəticələrini işıqlandırır. Bu müddət ərzində Kəlbəcəri nə günə qoyduqlarını işıqlandırır. Vəhşilər kimi gedib hər tərəfi söküb, yandırıb, talayıb, meşələri yandırıb, kəsib. Özlərini burada, necə deyərlər, əsrlərboyu yaşamış xalq kimi təqdim edirdilər. Əsrlərboyu orada yaşamış xalq heç vaxt bunu etməz, bu vəhşiliyi etməz. Onlar orada azərbaycanlıların evlərində yaşayıblar. Özləri üçün bir şey tikməyiblər, daşı daş üstündə qoymayıblar, ancaq istismar ediblər. Bizim torpaqlarımızı istismar ediblər. Mənə verilən məlumata görə, orada on minlərlə hektarda taxıl əkilib, xüsusilə Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında. Mənə verilən məlumata görə, Ermənistan işğal edilmiş torpaqlarda ildə 90 min ton taxıl yığırdı. Ermənistanın işğal edilmiş bu torpaqlarla birlikdə ümumi taxıl istehsalı 190 min ton olub. Onun yarısını bizim torpaqlarımızdan götürürdü. Bu, torpaqlarımızın qanunsuz istismarıdır. Buna cavab verəcək, dəymiş ziyanı

ödəyəcək. İndi onlar bundan məhrum oldular. İndi öz ərzaq təhlükəsizliyini necə təmin edəcəklər? Orada böyük üzüm bağları mövcud idi. Mən Ağdam, Füzuli, Cəbrayıl rayonlarına gedərkən yolboyu görmüşdüm ki, bir çox üzüm bağlarımız dağıdılıb, orada köhnə şpalerlər qalıb. Amma bir çox yerlərdə üzüm bağları saxlanılıb. Ondan istifadə edirdi, bizim suyumuzdan istifadə edirdi, elektrik enerjisi istehsal edirdi. Vəhşi kimi gəlib başqasının torpağına onu istismar edib, onun mənşəyini dəyişdirmək istəyib, yaşayış məntəqələrinin adlarını dəyişdirmək istəyib, tarixi abidələrimizi yerlə-yeksan edib, saxta tarix yaradıb, xəritələr dərc edib. Bu, bölgədə mövcud olan ənənələrə, qaydalara, Qafqazda mövcud olan davranış qaydalarına tamamilə ziddir. Bu, bir daha onu göstərir ki, erməni xalqının bizim bölgə ilə heç bir əlaqəsi olmayıb. Bunlar heç vaxt Qafqaz xalqı olmayıb. Sonradan gəlmələrdir.

Biz isə artıq haqq-ədaləti bərpa etmişik. Biz tarixi həqiqəti bərpa etmişik.

Prezident seçiləndən sonra ilk mərhələdə münaqişənin həlli ilə bağlı ümidlərim var idi. Çünki danışıqlar müəyyən dərəcədə gedirdi. Kiçik olsa da, bəzi tərəqqi əldə edilmişdi, baza prinsipləri əsasında müəyyən addımlar atılmışdı. İşğal edilmiş torpaqların geri qaytarılması məsələsi bizi qane edirdi. Ancaq xalqların öz müqəddəratı prinsipinin ərazi bütövlüyü prinsipi ilə bərabər səviyyədə tutulması bizi qane etmirdi. Amma son illər mənim də, necə ki, Azərbaycan xalqının əksər hissəsinin bütün ümidləri artıq tükənmişdi. Sadəcə olaraq, mən demişdim, bir daha demək istəyirəm ki, nə vaxt nəyi etmək lazımdır, necə etmək lazımdır, hansı məqamda nəyi etmək lazımdır, hər şey gərək ölçülüb-biçilsin. Elə zərbə vurmalıyıq ki, düşmən o zərbədən ayılmasın. Elə zərbə vurmalıyıq ki, düşmən bundan sonra daha baş qaldırmasın. Bu müharibə bizim şanlı Qələbəmizdir. Biz fəxr edirik. Ancaq bizim vəzifəmiz ondan ibarətdir ki, erməni faşizmi bir daha bu bölgədə baş qaldırmasın. Əgər kimsə Ermənistana ikinci dövlət yaratmaq üçün ərazi vermək istəyirsə versinlər, orada ikinci erməni dövləti yaratsınlar, öz ərazisinin bir hissəsini onlara versinlər. Amma gəlib bizdən tələb etmək ki, tarixi, hüquqi Azərbaycan torpağında erməni dövləti yaradılsın, bu, hansı məntiqə sığır? Heç bir məntiqə, heç bir ədalətə sığmır. Sizin bizim torpağımızda nə işiniz var? Min kilometrlərlə məsafədə yerləşən ölkələr, indi qanunlar qəbul edirlər, parlamentlər bu məsələni müzakirə edirlər. Nə işi var Fransa parlamentinin bizim məsələ ilə əlaqədar? Neçə ildir Fransa Minsk qrupunun həmsədridir? Daşı daş üstə qoyub? Bir məsələnin həlli üçün praktiki addım atıb? İndi məsələ həll olunandan sonra görün nələr baş verir? Fransa Senatı qətnamə qəbul edir ki, Dağlıq Qarabağ tanınsın. Sizin onlardan xoşunuz gəlirsə, mən müharibə dövründə demişdim, verin Marsel şəhərini, onun adını dəyişdirin, onlara orada ikinci dövlət yaradın. Amma bizim işimizə heç kim qarışa bilməz. Bir daha demək istəyirəm ki, artıq "Dağlıq Qarabağ münaqişəsi" termini arxada qalıb. Məsləhət görmürəm ki, bu termin artıq dillərdə olsun. Ancaq tarix haqqında danışanda, əlbəttə ki, bu termindən istifadə etmək olar.

Biz müharibə dövründə Ermənistan ordusunu demək olar ki, məhv etdik. Mən müharibə dövründə müntəzəm olaraq düşmənin hərbi texnikasının məhv edilməsi ilə bağlı Azərbaycan xalqına məlumat verirdim. Artıq müharibə başa çatıb və bölgədə yeni dövr başlayır. Amma istərdim ki, Azərbaycan xalqına məlumat verim. Biz müharibə dövründə Ermənistan ordusunu necə məhv etmişik və nəyə görə Ermənistan baş naziri o alçaldıcı kapitulyasiya aktına imzasını qoydu.

Məhv edilmiş Ermənistan ordusunun texnikaları:

Tank əleyhinə vasitələr - 53 dənə, "Smerç" - dörd dənə, "Qrad" - 97 dənə, "Uraqan" - 2, "YARS" - 1, TOS odsaçan - 1, "S-300" zenit-raket kompleksləri - 7 atıcı qurğusu məhv edildi. İndi əgər təkcə bunun qiymətini hesablasalar, görərlər ki, biz Ermənistan ordusuna nə qədər böyük zərbə vurduq. Beləliklə, 7 atıcı qurğu, bir "S-300" radiolokatoru və iki "S-300" aşkaretmə stansiyası məhv edildi. "Oborona" radiolokasiya stansiyası - 1 dənə, "TOR" zenit-raket kompleksi - 5 dənə, "Osa" zenit-raket kompleksi - 40 dənə, "KUB" zenit-raket kompleksi - 4 dənə, "KRUQ" zenit-raket kompleksi - 1 dənə, zastava - 14 dənə, "S-125" zenit-raket kompleksi - 2 dənə, pilotsuz uçuş aparatları - 22 dənə, "Elbrus" əməliyyat-taktiki raket kompleksi - 2, ballistik raket - 1, "Toçka-U" raket kompleksi - 1, radioelektron mübarizə vasitələri - 5 dənə, "R-142" komanda qərargah maşını - 2 dənə, "Nebo-M" radiolokasiya stansiyası - 1 dənə, müxtəlif radiolokasiya stansiyaları - 7 dənə, "Reppelent" radio-texniki maneə vasitəsi - 4 dənə.

Düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikaları:

Özüyeriyən artilleriya qurğuları "Akasiya" və "Qvozdika" – 28-i məhv edilib, 5-i qənimət götürülüb. Müxtəlif çaplı toplar – 315-i məhv edilib, 37-si hərbi qənimət kimi götürülüb. Minaatanlar – 63-ü məhv edilib, 62-si qənimət götürülüb. Xüsusi avtomobillər – 10-u məhv edilib, 93-ü qənimət götürülüb. Qumbaraatan – 178-i qənimət götürülüb. Traktor – 10, "Şilka" zenit qurğusu – 5 ədəd qənimət götürülüb. Atıcı silahlar – 1380 atıcı silah qənimət götürülüb. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdılıb. Tank – 287-si məhv edilib, 79-u qənimət götürülüb, toplam 366 tank. Siyahı davam edir. Piyadaların döyüş

maşını – 69-u məhv edilib, 47-si qənimət götürülüb. “Su-25” təyyarəsi – 5-i məhv edilib. Yük avtomobilləri – 252-si məhv edilib, 270-i hərbi qənimət kimi götürülüb.

Bunlar deməyə əsas verir ki, Ermənistan ordusu yoxdur, məhv etmişik. Bu ordu onilliklər ərzində yaradılırdı. Bu orduya silahlar, sursatlar, ən müasir texnika verilirdi, özü də pulsuz, bunu hər kəs bilir. İndi mütəxəssislər getsinlər hesablasınlar, sadaladığım bu texnikanın qiyməti bəlkə də bir neçə milyarddır. Bəziləri deyirlər ki, 3 milyarddan çox, bəziləri daha çox. İndi hesablayarlar. Haradandır bu kasıb ölkədə bu qədər pul? Ermənistanın xarici dövlət borcu 8 milyard dollardır. Valyuta ehtiyatları təqribən 1 milyardın üstündədir. Bu ölkə borc içindədir. Xarici dövlət borcu ümumi daxili məhsulun 60 faizini təşkil edir. Bu ölkədə indi bütün iqtisadiyyat məhv olub gedir. Müharibədən sonra milli valyuta kəllə-mayallaq getdi. Haradandır bu? Bu, bankrotdur. Bu, iflasa uğramış ölkədir. Bu qədər pulu haradan ödəyib? Bir də ki, göstərsin görüm, bu pulköçürmələrini necə həyata keçirib. Biz beynəlxalq qurumlara da müraciət edəcəyik, desinlər bizə, hansı kontraktlar əsasında bu pullar ödənilib. Ödənilibmi? Ödənilməyibsə, deməli, pulsuz alıb. Otuz il ərzində yığdıqları texnikanı 44 gün ərzində məhv etdik. Yoxdur Ermənistan ordusu, yoxdur. İndi onlar canlı qüvvəsinin də məhv edilməsi ilə bağlı saxta rəqəmlər verirlər. Bizdə məlumat var. Lazım olanda biz o məlumatı səsləndirəcəyik, işğalçı dövlət nə qədər canlı qüvvə itirib. Biz məhv etmişik Ermənistan ordusunu. Məhz buna görə məcbur olub, diz çöküb bizim qabağımızda və kapitulyasiya aktına imza atıb. Hər kəs üçün bu, dərs olmalıdır.

Bildirməliyəm ki, noyabrın 10-da imzalanmış Bəyanat icra edilir. Burada istərdim ki, Azərbaycan xalqı da bilsin, bəzən buna noyabrın 9-da imzalanmış bəyanat deyirlər, bəzən noyabrın 10-da. Mən bu bəyanatı Rusiya Prezidenti Vladimir Putinlə ikimiz videokonfrans vasitəsilə Bakı vaxtı ilə noyabrın 10-da imzalamışam. Bizim Rusiya ilə bir saat fərqimiz var. Yəqin ki, bu uyğunsuzluq buna görədir. Ona görə, noyabrın 10-da imzalanmış Bəyanat icra edilir. Mən imzalanma mərasimindən sonra bu bəyanatı olduğu kimi Azərbaycan xalqının diqqətinə çatdırdım və bir daha göstərdim ki, bizim bütün işlərimiz şəffafdır. Mən xalqın gözü qarşısında bunu imzalamışam, böyük qürur hissi ilə imzalamışam, qalib kimi imzalamışam. Bu Bəyanatın bütün mətnini Azərbaycan xalqının diqqətinə çatdırdım. Bu gün isə artıq münaqişə arxada qalandan sonra bu Bəyanatın icrasını şərh etmək istərdim. Deməli, birinci bənddə göstərilən məsələlər artıq təmin edilib. Noyabrın 10-dan başlayaraq atəşkəs təmin edilibdir. Hərdənbir Ermənistan tərəfindən atəşkəsin pozulması halları olur. Biz isə layiqli cavab veririk. Ancaq Azərbaycan tərəfindən atəşkəsin pozulması halları olmamışdır və bütövlükdə, atəşkəs təmin edilir. İkinci bənddə göstərilir ki, noyabrın 20-də Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır. Bu, təmin edildi. Üçüncü bənddə göstərilir ki, Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 zirehli hərbi texnikasından, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir. Bu, təmin edildi. Dördüncü bənddə göstərilir ki, bu Bəyanatın müddəti 5 ildir. Əgər, müddətin bitməsinə 6 ay qalmış tərəflər buna etiraz etməsələr, bu Bəyanat və bu razılaşma uzadılır. Bu, aydın məsələdir. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır. Bu Bəyanat imzalananda bu bənd o qədər də geniş açıqlanmamışdır. Ancaq biz bunu imzalayanda, artıq razılaşmışdıq ki, bu mərkəz Türkiyə-Rusiya mərkəzi olacaqdır və bu da artıq öz həllini tapıb. Sonra altıncı bənddə göstərilir ki, Ermənistan Respublikası 15 noyabrda Kəlbəcər rayonunu və 1 dekabr tarixinədək Laçın rayonunu qaytarır. Bildiyiniz kimi, Rusiya tərəfi bizə müraciət edərək bir qədər vaxt istəyib. Kəlbəcər rayonunun bizə qaytarılması 15 noyabrda yox, 25 noyabrda artıq təmin edilib. Altıncı bəndin bu hissəsi icra edilib. Laçın rayonu Azərbaycana qaytarılıb. Laçın dəhlizi Şuşa şəhərinə toxunmayacaq 5 kilometr enliyində Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Mən bu bəndi artıq şərh etmişdim. Bunun ilkin variantında 30 kilometr, ondan sonra eni 10 kilometr və bu, Rusiya sülhməramlı kontingentinin yox, erməni silahlı qüvvələrinin nəzarəti altında qalırdı, onu da biz bu Bəyanatdan çıxartdırdıq. Göstərilir ki, tərəflərin razılığı əsasında növbəti 3 il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. Bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Mən bu məsələni də şərh etmək istərdim. Burada nə göstərilir? İndi hamı yaxşı bilir ki, Laçın dəhlizi Laçın şəhərinin içindən keçir. Beləliklə, Laçın şəhəri o dəhlizin ortasında qalır. Mən isə Rusiya Prezidenti ilə söhbətlər əsnasında deyirdim ki, Laçın şəhəri də bizə qayıtmalıdır. Ona görə biz təklif edirik ki, yeni bir dəhliz inşa edilsin. Dağlıq Qarabağı Ermənistanla birləşdirən yeni bir dəhlizin marşrutu işlənilsin və inşa edilsin. Burada vaxt da göstərilib - 3 il ərzində. Ancaq mən hesab edirəm ki, biz bunu daha tez müddətdə edə bilərik. Yeni dəhlizin parametrləri müəyyən olunandan sonra Laçın şəhəri də bizə qaytarılacaqdır. Bu, xüsusi

diqqətəlayiq məsələdir. Çünki əgər mən bunu bu Bəyanata saldırmasaydım, Laçın dəhlizi Laçın şəhərini həmişə əhatə edəcəkdi.

Yeddinci bənddə göstərilir ki, məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır. Bu da önəmli məsələdir. Azərbaycan vətəndaşları Dağlıq Qarabağın bütün yerlərinə qayıtmalıdırlar, harada ki, onlar əvvəl yaşayıblar. Bu məsələyə artıq BMT nəzarət edəcək. Əlbəttə, bunun vaxtı var. Bu, növbəti təmaslar əsnasında həll olunacaqdır.

Səkkizinci bənddə göstərilir ki, hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir. Artıq bu proses davam edir - həm cəsədlərin mübadiləsi, həm əsirlərin və girovların.

Doqquzuncu bənddə göstərilir ki, bölgədəki bütün iqtisadi nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir və tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu 9-cu bənd sırf mənim təkidim nəticəsində Bəyanata salınmışdır. Çünki müzakirə olunan, uzun illər müzakirə olunan sülh planında belə açıq-aydın müddəa yox idi. Yəni, nəzərə alınırdı ki, bütün kommunikasiyalar açılacaqdır və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən dəhliz haqqında söz getmirdi. Hesab olunurdu ki, bu ümumi ifadə bunu ehtiva edir. Burada isə konkret göstərildi ki, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında dəhliz yaradılır və bu dəhlizin təhlükəsizliyini Ermənistan yox, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Yəni, bu dəhliz tam təhlükəsiz olacaq. Eyni zamanda, ikinci məsələ - tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələni tam və gələcəyə hesablanmış çərçivədə həll etmək üçün əlavə də bənd salındı. Yəni, bu, nə deməkdir? O deməkdir ki, iki dəhliz olmalıdır. Əgər lazım olsa, iki dəhliz olmalıdır. Bu, bizim tarixi nailiyyətimizdir. Biz Naxçıvanı həm mühasirədən çıxarırıq, eyni zamanda, yeni bir nəqliyyat damarını açırıq. Deyə bilərəm ki, bütün ölkələr buradan ancaq faydalanacaq. Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvanla birləşir. Azərbaycan Türkiyə ilə birləşir. Rusiya, Azərbaycan, Türkiyə, İran və əgər istəsə, Ermənistan bu dəhlizə qoşula bilər. Beləliklə, bölgədə beştərəfli yeni əməkdaşlıq platforması yaradıla bilər. Mən bu fikrimi artıq həm Rusiya, həm Türkiyə prezidentlərinə çatdırmışam. Həm Rəcəb Tayyib Ərdoğan, həm Vladimir Putin buna müsbət yanaşıblar. Bax, budur bizim təklifimiz. Biz istəyirik ki, bölgədə uzunmüddətli sülh olsun. Buna nail olmaq üçün gərək əməkdaşlıq da təhlükəsizlik tədbirləri ilə birlikdə inkişaf etsin. Biz əməkdaşlığa hazırıq. Bu doqquzuncu bənddə göstərilən məsələlərin arasında bizim üçün bir nömrəli məsələ Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək və eyni zamanda, Azərbaycanla Türkiyə arasında yeni bir nəqliyyat dəhlizi yaratmaqdır. Çünki bildiyiniz kimi, biz Bakı-Tbilisi-Qars dəmir yolunu bir neçə il bundan əvvəl istifadəyə verdik. Bu, artıq Türkiyə ilə Azərbaycan arasında dəmir yolları vasitəsilə bir bağlantıdır. Bu layihə də baş versə, - əminəm ki, baş verəcək, – bu, yeni bir bağlantı olacaq və burada beş ölkə bundan fayda götürə bilər. Regional təhlükəsizlik və əməkdaşlıq üçün bundan da yaxşı layihə ola bilər? Yox. Kimdir bunun təşəbbüskarı? Bizik. Kim bu bəndi buraya salıb? Mən. Bu gün - dekabrın 1-də biz bu işlərin artıq inkişafını görürük. Mən deyə bilərəm ki, artıq "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə göstəriş verildi ki, Horadiz-Zəngilan dəmir yolunun, hansı ki, mənfur düşmən dağıdıb, təhlili aparılsın, ilkin hesablamalar aparılsın. Eyni zamanda, Rusiya Federasiyasının nümayəndə heyətinin Azərbaycana etdiyi səfər çərçivəsində, o cümlədən dəmir yollarının bərpası məsələləri müzakirə olunubdur. Ermənistan dəmir yolları Rusiya dəmir yollarına məxsusdur, 100 faiz. Ona görə biz bu məsələni Ermənistanla yox, Rusiya ilə müzakirə edirik. Çünki Ermənistanda nə var ki, Ermənistanın özünün olsun? Ermənistan beynəlxalq münasibətlərin subyekti deyil, obyektidir. Nəyə görə? İşğala görə. O tarixi şansı itirib, müstəqil ölkə ola bilməyib, iqtisadi imkanlarını itirib, işğala görə. Nə qazandı? Heç nə. Bu vaxta qədər bütün lazımi tədbirləri gördük. Nəqliyyat, energetika, iqtisadi əməkdaşlıq – bütün layihələri başa çatdırdıq. Dekabrın sonunda Cənub Qaz Dəhlizi artıq tam istifadəyə verilir. Onun son hissəsi olan TAP istifadəyə verilir. Ermənistan, haradasan? Kənarda qalmısan. Bu enerji dəhlizi Ermənistandan yan keçir. Kim keçirdib? Biz. Amma mənim yadımdadır, biz Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutunu, – o vaxt mən Dövlət Neft Şirkətində işləyirdim, – müəyyən edərkən bizə nə qədər təzyiqlər oldu, özü də Qərb

ölkələrindən. Nə üçün Ermənistandan yan keçir? Bu, Gürcüstandan yox, Ermənistandan keçməlidir. O vaxt aparıcı Qərb ölkələri bizə şərt qoyurdu. Hətta o vaxt biz xarici kreditlərdən çox asılı idik. Yadımdadır, erməni təbliğatı, erməni lobbisi və ermənipərəst xarici dairələr tərəfindən aparılmış kampaniya nəticəsində Dünya Bankı bir il ərzində bizə veriləcək vəsaitin verilməsini təxirə saldı, dayandırdı, müxtəlif bəhanələrlə, guya ekoloji standartlar pozulur. Halbuki bu, cəfəngiyatdır.

Ermənistan, haradasan? Bakı-Tbilisi-Ceyhan yan keçdi. Bakı-Tbilisi-Ərzurum da həmçinin. TANAP da həmçinin. İndi biz qazımızı Avropaya çatdırırıq. Sən, Ermənistan, pul qazana bilərdin. Kəmərin bir hissəsi sənin əlində ola bilərdi. Sən tranzit haqqı alacaqdın. Sən özünü nədən məhrum etdin?! Dəyərdimi buna? Bu işğalçılıq, bu düşmənçilik, qonşuya qarşı bu nifrət hissləri, onları, bax, bu günə saldı.

Biz nəqliyyatla, energetika ilə bağlı bütün işləri gördük. Biz nəinki neft-qaz, elektrik enerjisi dəhlizi yaratdıq. Bu gün Azərbaycan-Gürcüstan-Türkiyə enerji dəhlizi var. Bu gün Rusiya-Azərbaycan-İran enerji dəhlizi var. Bu gün Rusiya-Azərbaycan-İran nəqliyyat dəhlizi var. Bu il bu dəhliz vasitəsilə daşınan yüklərin həcmi təqribən 30-40 faiz artıb. Ermənistan 20 ildir ki, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində işləyir. Ortalıqda da bir şey yoxdur. Nə Şimal-Cənub dəhlizi ola bilər? Oradan, o dağlardan, o Mehri dağlarından dəmir yolu çəkmək olar? Adam gərək dəli olsun ki, oraya bir neçə milyard pul qoysun. Özü də yaxşı, tutaq ki, kimsə bu pulu verdi, sonra haraya gedəcək? Ermənistan, sən dalansan. Biz səni dalan etdik. Kim səni təcrid etdi? Biz. Enerji, nəqliyyat, elektroenergetika - biz onu təcrid etmişdik. Bu günlərdə bu çirkin qətnamələri qəbul edənlər və onların arxasında duranlar kömək etdimi onlara? Yox. Bizim iradəmizə təsir etdimi? Yox. Nəyə görə? Çünki güclü iradəmiz var, xalq-iqtidar birliyi var. Çünki Azərbaycan 1993-cü ildən bu günə qədər etibarlı əllərdədir. Azərbaycana rəhbərlik edən Ulu Öndər və ondan sonra mən Azərbaycan xalqının maraqlarını hər şeydən üstün tutmuşuq. Ermənistan rəhbərləri kim olub? 20 il quldurlar - Koçaryan-Sarkisyan xunta rejimi, iki il yarım da kim olub, erməni xalqı özü bilir. Qatar getdi. Amma hələ də gec deyil. Hələ o qatara minə bilərsiniz, əgər bizim icazəmiz olsa, əgər bizim şərtlərimiz təmin olunsa. Bundan sonra belə olacaq, ancaq belə olacaq! Yeddi şərt qoyan Paşinyan, görəsən, indi hansı şərt qoya bilər və kimə şərt qoya bilər? Hanı o 7 şərt? Getdi işinə. Azərbaycan qondarma "Dağlıq Qarabağla" danışıqlar aparmalıdır, hanı o şərt? Cəhənnəmə getdi. "Dağlıq Qarabağ Ermənistandır və nöqtə" - bunu necə deyərlər, belə böyük həvəslə, bir qəhrəman kimi Xankəndidə bəyan etdi və hamı da ona əl çalırdı. Nə oldu? Qarabağ Ermənistandır? Gəlsin desin bunu. Qarabağ Azərbaycandır! Ona o əl çalanlar, o kriminal rejimin nümayəndələri indi ya məhv olublar, ya fərarilik ediblər. Özləri etiraf edirlər ki, 10 mindən çox fərari var. Deyirdi ki, Şuşada - bizim tarixi, qədim şəhərimiz, bizim ürəyimiz, canımız olan Şuşada bunlar qondarma "Dağlıq Qarabağın" parlamentini inşa edəcəklər. Nə oldu o parlament? Vurduq dağıtdıq, məhv etdik. Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi axırı nə olacaq. Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!

Mən müharibənin ilk günündən bu günə qədər - sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, qələbə sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm. Özümü çox xoşbəxt adam hesab edirəm. Çünki bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi. Göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, lap balaca uşaqlar, yaşlı insanlar, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri bir arzu ilə, biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik. Bu gün bizim bütün arzularımız çin olub. Bu, hər birimiz üçün doğrudan da böyük xoşbəxtlikdir. Artıq müharibə arxada qaldı.

Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir.

Mən bilirəm ki, bu günlər ərzində mənim hər bir çıxışımı Azərbaycan xalqı səbirsizliklə gözləyirdi. Çünki biz ilk günlərdən qələbə qazanmışdıq və bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz haradasa geriyə çəkilək, bir dəfə də. Halbuki müharibələrdə belə olur, ordular hücum edir, geri çəkilir, taktiki manevrlər edir. Biz bir gün də geri çəkilmədik. Yaralanmış və ağır vəziyyətdə olan əsgərlərimiz hospitallarda, xəstəxanalarda deyirdilər ki, tezliklə sağalaq, qayıdaq döyüş bölgəmizə. Şəhidlərimizin ruhu şad olsun, valideynləri onları dəfn edərkən deyirdilər ki, Vətən sağ olsun. Deyirdilər ki, ancaq irəli, ancaq irəli. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Mülki vətəndaşlar - 94 mülki vətəndaş həlak olub, 400-dən çox mülki vətəndaş vəhşi düşmən tərəfindən yaralanıb. Evi dağılmış insanlar o dağıntılardan çıxarkən deyirdilər ki, ancaq irəli. Bilirsiniz, bunu hər kəs bilməlidir və biz bütün dünyaya göstəririk ki, biz böyük xalqıq, yenilməz xalqıq. Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır.

Mən artıq bu mövzu ilə bağlı müraciətlərimi yekunlaşdırıram. Əminəm, bundan sonra, əlbəttə ki, bir çox hallarda doğma xalqıma öz sözlərimi deyəcəyəm. Amma bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

**AZƏRTAC**

**Türkiyə Milli Müdafiə Nazirliyi: Qəhrəman Azərbaycan Ordusu Laçına daxil olub**

[12:01] 01.12.2020

Qardaş Azərbaycan Qarabağda əldə olunan böyük zəfərdən sonra işğal altındakı torpaqlarına qovuşmaqda davam edir. Qəhrəman Azərbaycan Ordusu Ağdam və Kəlbəcərdən sonra bu dəfə də Laçına daxil olub. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu ifadələr Laçın rayonunun işğaldan azad olunması münasibətilə Türkiyə Milli Müdafiə Nazirliyinin internet səhifəsində yer alan paylaşımda əksini tapıb. Paylaşımda şanlı ordumuzun Laçın rayonuna daxil olmasını əks etdirən görüntülər də yer alıb.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

## “Associated Press”in məlumatında Azərbaycan Prezidentinin azad edilmiş ərazilərimizin dirçəldiləcəyi ilə bağlı fikirləri yer alıb

[19:40] 01.12.2020

“Associated Press” agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin erməni işğalından azad edilmiş Kəlbəcər rayonunun yenidən bərpa ediləcəyi ilə bağlı fikirlərinin əks olunduğu məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda 44 günlük gərgin döyüşlərə son qoymuş üçtərəfli razılaşmaya əsasən Ermənistanın Azərbaycana qaytardığı Kəlbəcər rayonunun yenidən dirçəldiləcəyi barədə Azərbaycan Prezidentinin fikirləri yer alıb.

Dövlətimizin başçısı xalqa müraciəti zamanı söylədiyi bu fikirlər məlumatda əksini tapıb: “Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır”.

Məlumatda Ermənistanla Azərbaycan arasında 30 ilə yaxındır davam edən müharibənin yenidən alovlandığı və sentyabrın 27-dən etibarən gərgin döyüşlərin başladığı qeyd olunur. Bildirilir ki, razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərin qaytarılması nəzərdə tutulsa da, Ermənistan tərəfinin xahişindən sonra Azərbaycan rayonun geri qaytarılması üçün əlavə vaxtın verilməsinə razı olub. Azərbaycanın həmin vaxtı bölgədəki hava şəraitinin pisləşməsi ilə əlaqədar yaranan çətinliklə bağlı olaraq verdiyi qeyd edilir.

Məlumatda gərgin döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl və Füzuli şəhərlərini və bir çox əhəmiyyətli əraziləri işğaldan azad etdiyi bildirilir.

Müəllif Prezident İlham Əliyevin xalqa müraciəti zamanı ermənilərin işğal altında saxladığı əraziləri məhv etdiyini kəskin pislədiyini və həmin əraziləri bərpa edəcəyini vurğuladığını qeyd edir. Məqalədə Azərbaycan Prezidentinin bununla bağlı fikirlərindən sitat gətirilir: “Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də həmçinin, Cəbrayılda da həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var”.

Məqalədə, həmçinin üçtərəfli razılaşmaya əsasən Kəlbəcər rayonunu tərk edən ermənilərin öz evlərini yandırdıqları bildirilir.

“Kəlbəcərdə baş verənlər əsl vandalizmdir. Ermənilər nəinki evlərimizi, hətta rayondakı məktəbləri, mədəniyyət mərkəzlərini və digər mülki obyektlərimizi yandırıblar, meşələri, hətta mal-qaranı məhv ediblər,” – deyə 1990-cı illərdə rayondan köçkün düşmüş Vəlyəddin İsmayılov “Associated Press”ə bildirib.

**AZƏRTAC**

### "Associated Press" Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən yazır

[19:45] 01.12.2020

"Associated Press" agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin erməni işğalından azad edilmiş Kəlbəcər rayonunun yenidən bərpa ediləcəyi ilə bağlı fikirlərinin əks olunduğu məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda 44 günlük gərgin döyüşlərə son qoymuş üçtərəfli razılaşmaya əsasən Ermənistanın Azərbaycana qaytardığı Kəlbəcər rayonunun yenidən dirçəldiləcəyi barədə Azərbaycan Prezidentinin fikirləri yer alıb.

Dövlətimizin başçısı xalqa müraciəti zamanı söylədiyi bu fikirlər məlumatda əksini tapıb: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə və həyat qayıdacaqdır".

Məlumatda Ermənistanla Azərbaycan arasında 30 ilə yaxındır davam edən müharibənin yenidən alovlandığı və sentyabrın 27-dən etibarən gərgin döyüşlərin başladığı qeyd olunur. Bildirilir ki, razılaşmaya əsasən noyabrın 15-də Kəlbəcərin qaytarılması nəzərdə tutulsa da, Ermənistan tərəfinin xahişindən sonra Azərbaycan rayonun geri qaytarılması üçün əlavə vaxtın verilməsinə razı olub. Azərbaycanın həmin vaxtı bölgədəki hava şəraitinin pisləşməsi ilə əlaqədar yaranan çətinliklə bağlı olaraq verdiyi qeyd edilir.

Məlumatda gərgin döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl və Füzuli şəhərlərini və bir çox əhəmiyyətli əraziləri işğaldan azad etdiyi bildirilir.

Müəllif Prezident İlham Əliyevin xalqa müraciəti zamanı ermənilərin işğal altında saxladığı əraziləri məhv etdiyini kəskin pislədiyini və həmin əraziləri bərpa edəcəyini vurğuladığını qeyd edir. Məqalədə Azərbaycan Prezidentinin bununla bağlı fikirlərindən sitat gətirilir: "Biz düşməni məsuliyyətə cəlb edəcəyik, cavab verəcəkdir, bütün hərbi cinayətlərə görə, bütün dağıntılara görə. Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də, həmçinin Cəbrayılda da, həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik. Bu rayonların bərpası ilə bağlı böyük planlarımız var".

Məqalədə, həmçinin üçtərəfli razılaşmaya əsasən Kəlbəcər rayonunu tərk edən ermənilərin öz evlərini yandırdıqları bildirilir.

"Kəlbəcərdə baş verənlər əsl vandalizmdir. Ermənilər nəinki evlərimizi, hətta rayondakı məktəbləri, mədəniyyət mərkəzlərini və digər mülki obyektlərimizi yandırıblar, meşələri, hətta mal-qaranı məhv ediblər," – deyə 1990-cı illərdə rayondan köçkün düşmüş Vəlyəddin İsmayılov "Associated Press"ə bildirib.

**AZƏRTAC**

**Tarixi zəfərimiz Azərbaycan Prezidentinin müdrik siyasətinin nəticəsidir**

[10:29] 02.12.2020

Artıq minilliklərdən soraq verən qalalar məskəni, qədim türk yurdu Laçın da öz əzəli və əbədi sahiblərinə qaytarıldı, işğaldan azad edildi, əsirlikdən azad edilmiş digər torpaqlarımız kimi yeni tarixə qədəm qoydu. Prezident İlham Əliyevin xalqa müraciətində qeyd etdiyi kimi, "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev bildirib.

O qeyd edib ki, noyabrın 10-da imzalanan birgə Bəyanata əsasən, müqəddəs Qarabağ torpaqları uğrunda apardığımız müharibə Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı. Müzəffər Azərbaycan Ordusunun misilsiz şücaəti ilə darmadağın olan düşmən Kəlbəcər, Ağdam və Laçın rayonlarını tərk etməyə məcbur oldu. Bir güllə belə atılmadan geriyə qaytarılan tarixi şəhərlərimiz həm də siyasi arenadakı mütləq qalibiyyətimizin göstəricisidir. Eyni zamanda, tarixi yurd yerlərimizin Kəlbəcərin, Ağdamın, Laçının işğaldan azad edilməsi Azərbaycanın həm siyasi, həm də diplomatik müstəvidə qələbəsinin təcəssümü oldu.

"Artıq xalqımız Ağdam və Kəlbəcərdən sonra Laçının da işğaldan azad edilməsinin sevincini yaşayır. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Laçının işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində bir daha bildirdi ki, bizim qələbəmiz tarixi Qələbədir. Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir. Bu gün Dağlıq Qarabağda yaşayan insanlar Azərbaycan vətəndaşlarıdır.

Faşist ideologiyasından qaynaqlanan Ermənistan hakimiyyəti hər fürsətdən dinc azərbaycanlı sakinlərə qarşı istifadə edib, onlara işgəncə verib, qətlə yetirib. İkinci Qarabağ müharibəsi zamanı da Ermənistan silahlı qüvvələri döyüş bölgəsindən xeyli uzaqda yerləşən şəhərləri raket atəşinə tutdu. Gecə saatlarında Gəncənin bombalanmasını, Bərdənin raket atəşinə tutulmasını, Tərtərdə ölüsünü dəfn edən dinc sakinlərin bombardman olunmasını, Goranboyun, Ağcabədinin, Siyəzənin, Xızının raket atəşinə tutulmasını dünya ictimaiyyəti də gördü və işğalçı Ermənistanın terror aktlarını qınadı", - deyə deputat vurğulayıb.

Bildirib ki, dünyada sülhə, tolerantlığa, mədəniyyət və sivilizasiyalara xüsusi hörmət, ehtiram və qayğısı ilə seçilən Azərbaycan əzəli-əbədi torpaqlarını 30 illik işğaldan azad edərkən də nümunə oldu. Müharibə şəraitində belə ölkəmiz sahib olduğu humanizm dəyərlərinə sadiq qalaraq mülki insanların, tarixi-dini abidələrin, sosial-ictimai obyektlərin təhlükəsizliyinə xüsusi həssaslıq və diqqətlə yanaşdı. Düşmən isə işğal altında olan torpaqlarımızda tarixi abidələrimizi, maddi-mənəvi irsimizi qəsdən, riyakarcasına dağıtdı, təhqir etdi, beynəlxalq hüquq və ədalət prinsiplərinə sığmayan acı həqiqətlərə imza atdı. Bu gün illərlə düşmən tapdağı altında olan torpaqlarımız azad edilib. "Qarabağ Azərbaycandır və nida" deyən Prezident İlham Əliyev bir daha xalqa verdiyi bütün vədlərə sadiq olduğunu nümayiş etdirdi. Özünün tarixi, coğrafi mövqeyinə görə Azərbaycanın ən qədim və strateji cəhətdən vacib olan yaşayış məskənlərindən sayılan Laçının işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edərkən dövlətimizin başçısı hər bir Azərbaycan vətəndaşının illərlə arzusunda olduğu sözləri dilə gətirdi: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

Ölkə Prezidentimizin müdrik, məqsədyönlü siyasətinin təsdiqi olan tarixi zəfərimiz Azərbaycan xalqının iftixar və qürur mənbəyidir.

**AZƏRTAC**

**Kəlbəcər rayonu Söyüdlü qızıl yatağı**

[13:59] 02.12.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonu ərazisindəki Söyüdlü (Zod) qızıl yatağından çəkilmiş videogörüntüləri paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**

**Anadolu agentliyi Azərbaycanın qazandığı zəfərin bölgədə yaratdığı yeni reallıqlardan yazır**

[18:55] 02.12.2020

Türkiyənin Anadolu agentliyi "Azərbaycanın zəfərinin bölgədə yaratdığı yeni reallıqlar" sərlövhəli analitik məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Ordusunun cəbhədə qazandığı qələbələrdən və Ermənistan ordusunun acınacaqlı məğlubiyyətdən, noyabrın 10-da imzalanan birgə Bəyanatdan bəhs edilir. Bildirilir ki, təcavüzkar Ermənistan 44 günlük müharibədən sonra götürdüyü öhdəlik əsasında qüvvələrini Ağdam, Kəlbəcər və Laçın rayonlarından çıxarmaq məcburiyyətində qalıb.

Məqalədə hazırda bölgədəki hərbi-siyasi vəziyyət barədə məlumat verilir və Prezident İlham Əliyevin Azərbaycan xalqına müraciətində səsləndirdiyi ifadələrdən sitatlar gətirilir. Oxuculara məlumat verilir ki, Bəyanata əsasən Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Bu da regionda səmərəli əməkdaşlıq üçün geniş imkanlar açır.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**

**Laçın və Kəlbəcər rayonlarına komendantlar təyin olunub**

[16:02] 03.12.2020

İşğaldan azad olunmuş ərazilərimizdə müvəqqəti xüsusi idarəetmənin təşkilinə dair Azərbaycan Respublikası Prezidentinin imzaladığı Fərmana uyğun olaraq, Daxili İşlər Nazirliyi müvafiq ərazilərin müvəqqəti komendantlarını təyin edir və müvəqqəti komendantlıqların fəaliyyətini təşkil edir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun müvafiq əmrlərinə əsasən Laçın Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Adil Əliyev Laçın rayonuna, Kəlbəcər Rayon Polis Şöbəsinin rəisi polis polkovniki Haqverdi Əkbərov Kəlbəcər rayonuna komendant təyin olunublar.

Şöbələrin şəxsi heyəti müvafiq rayon sakinlərinin sıx məskunlaşdıqları bölgələrdə fəaliyyətlərini davam etdirməklə yanaşı, işğaldan azad olunan rayonlarda xidmətə cəlb ediliblər.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Yanşaq kəndinin videogörüntülərini paylaşıb**

[17:37] 04.12.2020

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Yanşaq kəndinin videogörüntülərini paylaşıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**

**Azərbaycan Alban-udi dini icmasının nümayəndələri Kəlbəcərdəki Xudavəng monastır kompleksini ziyarət ediblər**

[00:13] 05.12.2020

**Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dağlar qoynunda yerləşən monastırda ehtiramla yad olunub**

Dekabrın 4-də Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icmasının nümayəndələri Ermənistanın işğalından azad olunan Kəlbəcər rayonundakı Xudavəng monastır kompleksini ziyarət ediblər.

AZƏRTAC-ın müxbiri Azərbaycan Alban-udi dini icmasının nümayəndələri ilə birlikdə Kəlbəcərdə, Xudavəng monastır kompleksində olub.

İllərdir bütün dinlərin nümayəndələri üçün bərabər şəraitin yaradıldığı Azərbaycanda firavan yaşayan udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq Qəbələ və Oğuzdakı alban məbədlərində olduğu kimi, işğal altındakı Alban kilsələrində, o cümlədən Kəlbəcərdəki Xudavəng monastır kompleksində də ibadət edəcəkləri günləri səbirsizliklə gözləyirdilər.

Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatı nəticəsində darmadağın edilən düşmən noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları Birgə Bəyanata əsasən, Kəlbəcər, Ağdam və Laçın əsl sahiblərinə təhvil verildi. Bu gün isə tarixi abidələrimizdən olan bu məbəddə illərdir ibadət edəcəkləri günü gözləyən udilər işğala son qoyulduqdan sonra ilk ayinlərini icra etmək üçün Kəlbəcərə gəliblər.

1993-cü il aprelin 2-də işğal edilən Kəlbəcər Azərbaycanın yüksək dağlıq rayonlarından biridir. Mineral sular, yeraltı və yerüstü təbii ehtiyatlar, tarixi abidələr ilə zəngin olan bu rayon, həm də bənzərsiz təbiətə malikdir.

Kəlbəcərə qədəm qoyarkən diqqətimizi çəkən, ilk növbədə, rayonun əsrarəngiz təbiəti oldu: başıqarlı dağlar, sıldırım qayalar, sıx meşələr, bolsulu çaylar... Lakin bu gözəlliyin fonunda hər addımda erməni vəhşiliyinin şahidi olurduq: dağıdılmış abidələr, infrastruktur obyektləri, yandırılmış evlər, kəsilmiş ağaclar... Bütün bunlar düşmənin vəhşi və faşist mahiyyətini açıq şəkildə nümayiş etdirirdi. Bu gün işğaldan azad edilmiş digər rayonlarımız kimi, Kəlbəcər də artıq Ordumuzun nəzarətindədir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, bütün bu ərazilərimiz bərpa ediləcək və məcburi köçkünlərimiz doğma torpaqlarına qayıdaraq firavan yaşayacaqlar.

Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsi şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə bağlı Sərəncamına əsasən, canlarını Vətənimizin ərazi bütövlüyü uğrunda qurban verən qəhrəmanlarımızın xatirəsi işğaldan azad olunan Kəlbəcərdə dağların qoynunda ehtiramla anıldı.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı çıxış edərək Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 gün davam edən Vətən müharibəsində göstərdiyi rəşadətdən, qazanılan uğurlardan danışdı, döyüşlərdə qəhrəmancasına şəhid olmuş Vətən övladlarına Allahdan rəhmət dilədi. Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Kəlbəcərin Vəng kəndindəki Xudavəng monastırı dünya əhəmiyyətli memarlıq abidələrindəndir. Monastırın əsası VI-VII əsrlərdə qoyulub. Kompleks Qafqaz Albaniyası dövlətinin süqutundan bir əsr sonra – IX əsrdə Qarabağın dağlıq hissəsində yaradılmış Alban Xaçın Knyazlığının dini mərkəzi olaraq qalıb. Kompleksdə alban yepiskopunun iqamətgahı və dini maarif mərkəzi fəaliyyət göstərib. XIII əsrdə Mehranilər sülaləsindən olan Xaçın knyazı Böyük Həsənin oğlu Bəhramın ailəsi tərəfindən monastır yenilənib və orada əlavə tikililər inşa edilib.

Azərbaycan Alban-udi dini icmasının nümayəndələrinin tarixi Alban məbədinə gəlişi, burada dini ayinlərini icra etmələri böyük əhəmiyyətə malik hadisə oldu. İcma nümayəndələri məbəd kompleksə aid kilsədə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman vətən övladlarının ruhuna dualar oxudular. Xristian dini ilə bağlı ayinlər icra olundu, udi dilində liturgiya səsləndi, kilsədə şamlar yandırıldı.

Anım mərasimi başa çatdıqdan sonra jurnalistlərə açıqlama verən icmanın sədri Robert Mobili bildirdi ki, Xudavəng məbədi həm tarixən, həm də memarlıq üslubu baxımından tamamilə Alban Apostol

Kilsəsinə məxsusdur. Ermənilərin burada etdiyi saxtakarlıqlar açıq şəkildə görünür. Bu, monastırın giriş qapısındakı erməni xaçkarlarında və daxildəki bir çox müasir xaç elementlərində özünü büruzə verir.

İcma sədri Azərbaycanda müxtəlif dinlərin nümayəndələri üçün bərabər şəraitin yaradıldığını, ölkəmizdə bütün dini məbədlərin, o cümlədən kilsə, sinaqoq və məscidlərin əsaslı şəkildə təmir olunduğunu diqqətə çatdırdı. Vətən müharibəsi günlərində Qəbələnin Nic qəsəbəsində Müqəddəs Məryəm kilsəsinin bərpasını əks etdirən fotoların Kəlbəcərdəki Xudavəng monastırında göstərildiyini söylədi. Qeyd etdi ki, işğaldan azad olunan ərazilərimizdəki dini məbədlərimiz də bərpa ediləcək və dindarların istifadəsinə veriləcək.

Lakin Tarixi Qafqaz Albaniyasının məbəd və digər mədəni irs nümunələri erməni kitablarında hər zaman əsassız olaraq “qədim erməni” mədəni irsi, erməni kilsəsinin tərkib hissəsi kimi qələmə verilir. Kəlbəcər rayonu işğal edildikdən sonra Xudavəng monastırında da qanunsuz bərpa işləri aparılıb. Bərpa adı ilə pərdələnən saxtakarlaşdırma işləri Erməni Apostol Kilsəsinin nəzarəti altında 1997-2011-ci illərdə - 14 il davam edib.

Kəlbəcər rayonunda dövlət reyestrindən keçən 35 Alban məbədi var və onların demək olar hamısı Ermənistan tərəfindən saxtalaşdırılıb və ya dağıdılıb. Belə ki, alban kilsələrinin memarlıq üslubu, həmçinin onlara aid simvol və elementlər erməni saxtakarlığına məruz qalaraq dəyişdirilib. Qədim Şərq kilsələrindən olan Alban müstəqil kilsələri həm memarlıq üslubuna, həm də xaçın formasına, ibadət dilinə, liturgiyasına görə erməni kilsələrindən tamamilə fərqlənir. Bununla yanaşı, fərqli əlifba, fərqli dildə olan müqəddəs kitablar və apostol xətti də Alban kilsələri ilə erməni kilsələri arasındakı fərqləri açıq-aydın nümayiş etdirir.

**Əsəd Məmmədov**
**AZƏRTAC-ın redaksiya müdiri**

**AZƏRTAC**

**Belarus portalında Azərbaycanın Vətən müharibəsində Zəfər qazanması barədə məqalə dərc edilib**

[13:26] 05.12.2020

Belarus portalında Vətən müharibəsində Azərbaycanın tarixi Zəfər qazanması ilə bağlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilovun müəllifi olduğu və “Belaruskaya prauda” portalında dərc edilən “Xalq və hakimiyyət birliyi olduqda ölkə yenilməzdir” sərlövhəli məqalədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın igid əsgər və zabitlərinin addım-addım irəliləyərək Ermənistanın illər ərzində qurduğu istehkam sistemlərini aşdığı, torpaqlarımızın cəsur hərbçilərimizin canı və qanı bahasına azad edildiyi qeyd olunub.

Müəllif vurğulayır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbə, xüsusən də Şuşa şəhərinin düşmən işğalından azad edilməsi xalqımızın tarixi yaddaşında əbədi qalacaq. Şuşanın azad edilməsi müharibənin gedişində dönüş nöqtəsi oldu və Ermənistan məğlubiyyətini etiraf etməyə, silahlı qüvvələrini Azərbaycanın işğal olunmuş Kəlbəcər, Ağdam və Laçın bölgələrindən çıxarmağa məcbur oldu. Beləliklə, Azərbaycan həm hərbi, həm də siyasi sahədə qələbə qazandı. Biz tarixi ədaləti bərpa etdik.

“Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi kimi, ölkəmiz üçün yeni bir dövr başlayır - inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü başlayır. Azərbaycanın qətiyyəti və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu, xalq və hakimiyyət birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər idi. Zəngin dövlətçilik tarixindən və əcdadlarımızın hərbi tarixindən ilham alan qürurlu Azərbaycan xalqı, daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq düşmən üzərində tarixi qələbə qazandı”, - deyə Lətif Qəndilov məqaləsində yazıb.

**Emil Hüseynli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Minsk**

**AZƏRTAC**

**Daşlarda elə informasiyalar var ki, onları silmək mümkün deyil - Xudavəng monastır kompleksi**

[18:02] 05.12.2020

Kəlbəcərin Vəng kəndində yerləşən Xudavəng məbəd kompleksi Azərbaycan xalqının əcdadlarının dini etiqadından və əsrlərboyu məruz qaldığı istilalara rəğmən tolerant davranışından xəbər verir. Daş kitabələrdə yazılan Arzu xatun, Tursun, Həsən, Şəms, Altun, Qaragöz və bizim üçün doğma olan digər adlar bu abidə kompleksini ucaldanların etnik mənsubiyyətinin göstəricilərindən biridir.

Azərbaycana 200 il əvvəl köçürülmüş ermənilər xalqımıza məxsus dini, tarixi-mədəniyyət abidələrini öz adlarına çıxmaq üçün hər cür saxtakarlığa əl atıb, buna bütün dövrlərdə aramsız cəhdlər göstəriblər. Kəlbəcərdəki Xudavəng monastırı da bu qəbildəndir.

Dağlar qoynunda yerləşən məbədin tarixinə keçməzdən əvvəl Azərbaycan Alban-udi dini icmasının nümayəndələrinin bu monastır kompleksinə dekabrın 4-də tarixi ziyarətini xatırlatmaq istərdik. İcma nümayəndələri soyuq qış günündə Qəbələnin Nic kəndindən təxminən 400 kilometr məsafə qət edərək, Murovun qarlı dağ yollarını aşaraq tarixi bir gün yaşadılar. Doğma Qarabağımızı, eləcə də onun dilbər guşələrindən biri olan Kəlbəcəri düşmən tapdağından azad edən Vətən müharibəsi şəhidlərinin ruhuna burada dualar oxudular. Udi dilində liturgiya səsləndi, kilsədə şamlar yandırıldı. Bunun çox böyük rəmzi mənası var.

Bu səfərdə AZƏRTAC-ın müxbirləri də iştirak edirdilər. Otuz ildən sonra Xudavəngin görüntülərini əks etdirən fotolar ilk dəfə olaraq AZƏRTAC-ın saytında yayımlandı - gözlər önündə möhtəşəm bir mənzərə canlandı.

Azərbaycan Alban-udi dini icmasının sədri Robert Mobili ziyarət zamanı dedi ki, Xudavəng məbədi həm tarixən, həm də memarlıq üslubu baxımından tamamilə Alban Apostol Kilsəsinə məxsusdur. Ermənilərin burada etdiyi saxtakarlıqlar monastırın giriş qapısındakı erməni xaçkarlarından və daxildəki bir çox müasir xaç elementlərindən aydın şəkildə görünür.

Vəng ziyarətinin ertəsi günü Robert Mobili ilə telefon əlaqəsi saxlayıb təəssüratları ilə maraqlandıq. Robert ixtisasca geoloqdur, ilahiyyatın incəliklərini də yaxşı bilir. Sovet dövründə geoloq işlədiyi illərdə Kəlbəcər dağlarını piyada gəzib-dolaşıb. Deyir ki, az qala bu dağlardakı hər daşa, ağaca bələddir. İndi isə bura gələndə sanki başqa dağlar gördü. Ermənilər hətta ağacları kəsib aparıblar. İmkanları olsa, daşları da daşıyıb aparardılar.

“Bu, mənim gənclik illərimdə gördüyüm Kəlbəcər deyildi. Xudavəngə çatanadək yolumuzun üstündə dağılmış iki alban məbədi gördük. Kəlbəcərdə müharibə getməyib ki, desinlər mərmi düşüb. Bu mənzərə ermənilərin tarixi abidələrə münasibətinin əyani göstəricisidir. Xudavəng monastır kompleksində ilk dəfə idi olurdum. İndiyədək onu yalnız şəkillərdə görmüşdüm. Geoloq olduğumdan, ilk növbədə, diqqətimi daşlar cəlb etdi. Daşlarda elə informasiyalar var ki, nə qədər çalışsan da, onları silə bilməzsən. İndi elm elə inkişaf edib ki, daşın yaşını müəyyənləşdirmək, qumun tərkibini analiz edib onun hansı dövrə aid olduğunu, nəyin həqiqi, nəyin saxta olduğunu asanlıqla ayırd etmək mümkündür. Əminliklə deyə bilərəm ki, belə bir analiz aparılarsa, kilsəyə sonradan qoyulan daşların, xaçların tarixinin 200 ildən uzağa getmədiyi, bəlkə də elə 1993-cü ildən sonraya aid olduğu aşkarlanacaq. Halbuki Xudavəngin yaşı 1000 ildən çoxdur. Kilsənin içərisində harada boş yer var erməni xaçı yapışdırıblar. Hətta onların yaxınlıqda sexləri var, deyəsən elə bir ucdan xaç düzəldirlər. Divarda böyük bir daşı çıxarıb yerinə xaç qoyublar.

Bu torpağın, daşların, ağacların yaralarını sağaltmaq üçün vaxt lazımdır. Amma Prezidentimizin dediyi kimi, biz bunu edəcəyik. İşğaldan azad olunmuş torpaqlarımızda erməni vandallarının dağıtdığı bütün dini abidələrimiz də bərpa ediləcək, - deyə Robert Mobili əminliyini ifadə etdi.

Xudavəng monastırının tarixi ilə bağlı bəzi araşdırmaları, tarixçi alimlərimizin maraqlı mülahizələrini nəzərdən keçirdik. XII əsrdə yaşamış tarixçi Mxitar Qoş bu məbədin əsasının eramızın ilk əsrlərində missionerlərin Qafqaz Albaniyasında təbliğatla məşğul olduqları dövrdə qoyulduğunu qeyd edirdi. Məlumatlara görə, kompleksin ən erkən tikilisi olan bazilika (dini əhəmiyyət daşımayan toplantı yeri) İsa Məsihin həvarisi müqəddəs Faddeyin göstərişi ilə xristianlığı təbliğ etmək üçün gəlmiş Dadinin məzarı üzərində VIII əsrdə inşa edilmişdi. Bu monastır Cənubi Qafqaz ərazisində ilk xristian məbədlərindən biri hesab olunur.

1993-cü ildə Kəlbəcər rayonu Ermənistan tərəfindən işğal edildikdən sonra ölkəmizdə yaşayan qədim xristian etnik icmalar monastırı ziyarət etməkdən məhrum oldular. Ermənilər isə Xudavəngi dünyaya

öz məbədləri kimi təqdim edir, bunu tikiliyə sonradan əlavə etdikləri xaç elementlərlə əsaslandırmağa çalışırdılar.

Xudavəngin memarlıq xüsusiyyətlərini tədqiq etmiş professor Gülçöhrə Məmmədova onun Azərbaycan ərazisində ən böyük monastır kompleksi olduğunu bildirir. Kompleksə dini və dünyəvi xarakter daşıyan müxtəlif ölçülü və dizayna malik ondan çox tikili daxildir. Onların ən qədimi - bazilikanın maraqlı xüsusiyyətlərindən biri əsas altarın yanlarında yerləşən əlavə məkanlardır. Bu məkanlar Qafqaz Albaniyası memarlığında məbəd inşasının özünəməxsus ənənələrini yaşadır.

Tarixçi-alim, professor İbrahim Zeynalov Kəlbəcərin işğaldan azad olunması ərəfəsində AZƏRTAC-a müsahibəsində deyib ki, monastır kompleksində əsas yer tutan Arzu xatun kilsəsi alban memarlığının ən qiymətli nümunələrindən biridir. İki barelyefli kilsənin şərq divarında knyaz və müqəddəs adam, cənub divarında əllərində məbədin modelini saxlayan iki knyaz təsvir olunur. Kompleksə daxil olan digər tikilinin - İgid Həsən məbədinin divarında isə onun 1182-ci ildə inşa edildiyini təsdiqləyən kitabə var. 1224-cü ildə kompleksə əlavə edilmiş böyük tikilidə zadəgan nəslinin ailə üzvləri dəfn olunub. Alimlərin fikrincə, kompleksin tikintisi XIII əsrdə tamamlanıb. Çar Rusiyası dövründə, sovet hakimiyyəti illərində yaşanmış çətinliklərə baxmayaraq, Azərbaycan ərazisindəki bütün dini abidələr, o cümlədən Xudavəng monastırı qorunub saxlanılırdı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra isə müxtəlif dinlərə məxsus ibadət məkanlarına xüsusi diqqət və qayğı ilə yanaşılır.

Qeydlərimizi Prezident İlham Əliyevin Kəlbəcərin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciətində alban kilsələri barədə dediyi bu fikirlərlə tamamlamaq istədik: “Tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar. Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elm ictimaiyyətinə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq. Mən bu kilsələrdə dəfələrlə olmuşam, Şəki şəhərində, Qəbələ rayonunda, Udi kilsəsində. Bildiyiniz kimi, müharibə dövründə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Nic qəsəbəsində qədim Udi Qafqaz Albaniyası kilsəsinin təmir işləri yekunlaşdı və bu kilsənin açılışı oldu. Biz bu kilsələri mədəni sərvətimiz kimi qoruyuruq. Ona görə, heç kim narahat olmasın. Bu kilsələr bundan sonra da dövlət tərəfindən qorunacaq”.

Xudavəng monastır kompleksi tarixin daşlaşmış yaddaşıdır. Robert Mobilinin dediyi kimi, daşlarda elə informasiyalar var ki, ermənilər və onların fransalı havadarları nə qədər çalışsalar da o informasiyaları silə bilməzlər.

**AZƏRTAC**

**Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən videogörüntülər yayılıb**

[12:07] 06.12.2020

Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Zülfüqarlı kəndindən videogörüntülər yayıb.
AZƏRTAC həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**

**İsrailin "Jerusalem online.com" saytı: Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində sistematik olaraq əsl ekoloji terror törədib**

[14:28] 07.12.2020

Ulu Tanrı, ilk növbədə, Cənnət bağında ağaclar əkdiyi kimi, sionizm hərəkatının da ilk əməllərindən biri İsrail torpağında ağac əkmək olub. İudaizm dinində ağaclar üçün Yeni il var. Hər yeddi ildə bir dəfə biz meyvə ağaclarına bir il istirahət veririk ki, onlar çiçək açsın, bərpa olunsun.

AZƏRTAC xəbər verir ki, israilli məşhur jurnalist qadın Sivan Qamliel İsrailin ingilisdilli populyar "Jerusalem online.com" saytında dərc olunmuş "Ekoloji terrorizmə yəhudi baxışı" sərlövhəli məqaləsini bu mövzuya həsr edib. Müəllif yazır ki, bu səbəbdən adi terrorizm kimi ekoloji terrorizm də bəşəriyyətə qarşı ciddi cinayətdir.

Deniel Şvarts "The Journal of Peace Research" nəşrində yazır ki, aşağıdakı məzmunda terror aktı törədən hər kəs ekoloji terrorist hesab edilir: ekoloji terrorizmin vurduğu fiziki ziyan terror aktlarının birbaşa nəticələri ilə məhdudlaşmır. Ekoloji dağıntı baş verəndə ətraf mühit qarşılıqlı əlaqəli xarakter daşıdığı üçün bu ziyan həmin hərəkətlərin çərçivəsindən kənara çıxır".

Qamliel yazır: "Beləliklə, "HƏMAS" təşkilatı tərəfindən İsrailin cənubunda yerləşən meşələrə yandırıcı şarlar və hava çərpələngləri buraxılması, yaxud, ermənilərin məlum üçtərəfli bəyanat çərçivəsində Azərbaycanın işğal edilmiş ərazilərini tərk etməzdən əvvəl həmin rayonlardakı ağacları, evləri və mədəni irs obyektlərini məhv etməsi həqiqətən əsl ekoloji terror aktıdır. Hər iki halda cinayətkarlar öz əməllərinin qurbanlarının ətraf təbii mühitdən zövq almalarını istəmirlər".

Müəllif qeyd edir ki, ermənilər Kəlbəcərdə olduqları son günlərdə ekoloji soyqırımı törədiblər. 27 il bundan əvvəl öz yurdlarından qovulmuş Azərbaycan sakinləri indi öz evlərinə qayıdan vaxt ermənilər ətraf mühitə vəhşicəsinə ziyan vurublar.

İsrailli jurnalist yazır: "Kəlbəcər rayonu 1993-cü ildə erməni qoşunları tərəfindən işğal edilib. Bu rayonun 128 kəndində yaşayan 60 minə yaxın azərbaycanlı öz evlərini tərk etməyə məcbur olub və Azərbaycanın başqa ərazilərində sığınacaq tapıblar. Sənədlərdə göstərilir ki, işğala qədər bu rayonda heç bir erməni olmayıb. Azərbaycanlılar öz torpaqlarından qovulandan sonra Ermənistan bu rayona erməniləri köçürüb və onları orada məskunlaşdırıb.

Köçkün ermənilər Dağlıq Qarabağı və Azərbaycanın ona bitişik yeddi rayonunu tərk edərkən "HƏMAS" təşkilatının üzvləri kimi genişmiqyaslı ekoloji terror aktları törədib, azərbaycanlı məcburi köçkünlərin evlərini yandırıb, heyvanları öldürüb, ağacları kəsib, Azərbaycana məxsus olan Xudavəng Qafqaz alban monastır kompleksi kimi müqəddəs ziyarətgahları qarət edib, mədəniyyət xəzinələri yerləşən əraziləri talan ediblər".

Qamlielin fikrincə, bu hərəkətləri törədən ermənilərin məqsədi həmin regionu 1990-cı illərin əvvəlində oradan zorla qovulmuş və indi öz evlərinə qayıtmaq istəyən azərbaycanlı köçkünlərin yaşaması üçün yararsız vəziyyətə salmaq olub.

Son 30 ildə Ermənistan işğal etdiyi ərazilərdə təbii ehtiyatları qarət edib, suları çirkləndirib, flora və faunanı məhv edib, narkotik bitkilər yetişdirib və narkotik maddələr alveri edir, nəticədə ətraf mühitə çox ciddi ziyan vurulub.

İsrailli məşhur jurnalist qadın Sivan Qamliel İsrailin ingilisdilli populyar "Jerusalem online.com" saytında dərc edilmiş məqaləsinin sonunda yazır: "Ətraf mühit və ağaclar bütün bəşəriyyət üçün həlledici əhəmiyyət kəsb edir. Ağaclar bizim nəfəs almağımız üçün oksigen, istirahət etməyimiz üçün kölgə, yemək üçün meyvə verir, dünyamızı gözəlləşdirir. İudaizmə görə müharibə dövründə ağacların kəsilməsi qadağandır. Ağaclar düşmən deyil, deməli, bizim onları məhv etməyə və ya onlara əziyyət verməyə haqqımız yoxdur".

**AZƏRTAC**

**AZƏRTAC-ın Xudavəng məbəd kompleksi ilə bağlı məqaləsi Rumıniyanın "News24hours" portalında dərc edilib**

[12:39] 08.12.2020

AZƏRTAC-ın "Daşlarda elə informasiyalar var ki, onları silmək mümkün deyil - Xudavəng monastır kompleksi" sərlövhəli məqaləsi Rumıniyanın "News24hours" portalında dərc edilib.

Xatırladaq ki, məqalədə Qafqaz Albaniyası dövrünə aid Xudavəng məbəd kompleksinin tarixindən, onun erməniləşdirilməsi cəhdlərindən bəhs olunur. Qeyd edilir ki, ermənilər Azərbaycan xalqına məxsus dini, tarixi abidələri saxtalaşdıraraq öz adlarına çıxmağa çalışırlar. Kəlbəcərdəki Xudavəng monastırı da bu qəbildəndir.

Azərbaycan Alban-udi dini icmasının sədri Robert Mobiliyə istinadla bildirilir ki, Xudavəng məbədi həm tarixən, həm də memarlıq üslubu baxımından tamamilə Alban Apostol Kilsəsinə məxsusdur. Ermənilərin burada etdiyi saxtakarlıqlar monastıra süni şəkildə əlavə olunmuş erməni xaçkarlarından və bir çox müasir xaç elementlərindən aydın şəkildə görünür.

Məqalədə Azərbaycanda tolerantlıq ənənələrindən, dini abidələrə dövlət qayğısından, eləcə də Alban-udi dini icmasının nümayəndələrinin işğaldan azad olunmuş Kəlbəcərə gələrək bu monastır kompleksində dini ayinlər icra etmələrindən də bəhs edilir.

**İqbal Hacıyev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Buxarest**

**AZƏRTAC**

**Kəlbəcər rayonuna komendant təyin olunub, rayonda polis postları qurulub**

[10:42] 09.12.2020

Silahlı Qüvvələrimizin sentyabrın 27-də başlanan əks-hücum əməliyyatları zəfərlə başa çatdı, xalqımız tarixi Qələbəyə qovuşdu. Otuz ilə yaxın işğalda qalan torpaqlarımızda artıq müvafiq təhlükəsizlik tədbirləri görülür.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə şəhərindəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, noyabrın 25-də işğaldan azad edilən Kəlbəcər rayonunda Ali Baş Komandanın Fərmanına uyğun olaraq komendant rejimi elan edilib və daxili işlər nazirinin əmri ilə rayon polis şöbəsinin rəisi, polis polkovnik-leytenantı Haxverdi Əkbərov rayonun komendantı təyin olunub.

Rayon polis şöbəsinin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları rayonun giriş-çıxışlarında, o cümlədən rayon daxilində polis postları quraraq komendant rejiminin tələblərinin yerinə yetirilməsinə nəzarət edirlər.

**AZƏRTAC**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Zivel kəndinin videogörüntülərini yayıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Zivel kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 4 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Allıkənd kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad olunmuş Kəlbəcər rayonunun Allıkənd kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 5 yanvar**

**Prezident İlham Əliyev: Laçın, yaxud Kəlbəcər rayonunda yeni beynəlxalq hava limanı tikiləcək**

İndi bizim əsas diqqətimiz azad edilmiş torpaqlara olmalıdır və bu sahədə ilkin infrastruktur layihələrinin icrası artıq başlamışdır. Birinci layihə Şuşa şəhərinə yol layihəsidir. Çünki Şuşa şəhərinə ənənəvi yollar hazırda bizim üçün o qədər də məqbul deyil. Düzdür, biz bu yollardan istifadə edirik. Ancaq biz bu yollardan Rusiyanın sülhməramlı qüvvələrinin müşayiəti ilə istifadə edirik - həm Laçın dəhlizindən, həm də Qırmızı Bazar ərazisindən. Gələcəkdə əlbəttə ki, biz bu yollardan da sərbəst şəkildə istifadə edəcəyik, o cümlədən Ağdam-Xankəndi-Şuşa yolundan da istifadə edəcəyik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə bildirib.

Prezident İlham Əliyev deyib: "Noyabrın 10-da imzalanmış Bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq və beləliklə, müəyyən müddətdən sonra bu yollardan getmək də problemli olmayacaq. Ancaq bu gün Şuşa şəhərinə getmək üçün yeni yol çəkilişi mütləq lazımdır və biz bu sahədə işlərə artıq start vermişik. O, çox çətin layihədir, relyef də çox çətindir və xüsusilə indi hava şəraiti də imkan vermir. Ancaq Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu inşa olunur və hesab edirəm ki, nəzərdə tutulmuş qrafikdən daha tez bir zamanda inşa ediləcək".

Dövlətimizin başçısı qeyd edib ki, digər vacib layihəyə artıq start verilib. Bu, Toğanalı - Kəlbəcər yoludur, bu da çox çətin relyefdən keçən bir yoldur. Eyni zamanda, göstəriş verilib ki, Horadizdən Zəngilana, oradan Qubadlıya və oradan da Laçın rayonuna qədər yol çəkilsin və hazırlıq işləri gedir.

Toğanalıdan Kəlbəcərə çəkiləcək yolun Laçın rayonuna da davam etdiriləcəyini bildirən Prezident deyib: "Beləliklə, biz iki tərəfdən, - həm şimaldan, həm cənubdan Laçın və Kəlbəcər rayonlarına yol-nəqliyyat infrastrukturu yaradacağıq. Eyni zamanda, mənim göstərişimlə Laçın və ya Kəlbəcər rayonlarının ərazisində müasir beynəlxalq hava limanının tikilməsi üçün yer axtarılır. Düzdür, orada relyef çox çətindir və demək olar ki, ərazilərin mütləq əksəriyyəti dağlıq ərazilərdir. Orada düz yer tapmaq çətindir, amma indi araşdırmalar gedir, ümid edirəm ki, yaxın gələcəkdə mənə məlumat veriləcək. Beləliklə, ya Laçın, ya da Kəlbəcər rayonunda yeni beynəlxalq hava limanı tikiləcək".

**AZƏRTAC**
**2021, 7 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Otaqlı kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Otaqlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Füsunkar təbiətə malik Otaqlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. İkinci Qarabağ müharibəsi nəticəsində noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanata əsasən, Kəlbəcər rayonu noyabrın 25-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 7 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Aşağı Ayrım kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Aşağı Ayrım kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 8 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 8 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Keşdək kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Keşdək kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşən Keşdək kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. İkinci Qarabağ müharibəsi nəticəsində noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanata əsasən, Kəlbəcər rayonu noyabrın 25-də Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 11 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Şaplar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Şaplar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qeyd edək ki, Şaplar kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu işğaldan azad edilib.

**AZƏRTAC**
**2021, 12 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Aşağı Şurtan kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Aşağı Şurtan kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 13 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Hacıkənd kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Hacıkənd kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Hacıkənd dəniz səviyyəsindən 1794 metr hündürlükdə, Tər-Tər çayının sağ sahilində yerləşir. Kəndin yaxınlığındakı Qoçdaş yaylağında mövcud olan tarixi yüz illərlə ölçülən qədim qoç heykəlləri sonralar Kəlbəcər rayonunun tarix-diyarşünaslıq muzeyinə aparılıb. Hacıkənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

Tərtər çayının sahilində, Dəlidağın ətəyindəki bu kənd Şurtançayın Aşağı axarında yerləşdiyi üçün belə adlandırılıb. Aşağı Şurtan kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 16 yanvar**

**Müdafiə Nazirliyi Kəlbəcər rayonunun Alolar kəndinin videogörüntülərini paylaşıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Alolar kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Alolar kəndi Tərtərçayın qolu olan Keşdək çayının (digər adı Alolar suyu) sahilindədir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 18 yanvar**

**İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Çopurlu kəndinin videogörüntüləri yayımlanıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Çopurlu kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

**AZƏRTAC**
**2021, 19 yanvar**

**İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Kəndyeri kəndinin videogörüntüləri yayımlanıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Kəndyeri kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Tərtər çayının sahilində, dağətəyi ərazidə yerləşən Kəndyeri kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 21 yanvar**

**İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Qamışlı kəndinin videogörüntüləri yayımlanıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Qamışlı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qamışlı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 23 yanvar**

**İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Alıbəyli kəndinin videogörüntüləri yayımlanıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Alıbəyli kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Alıbəyli kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana qaytarılıb.

**AZƏRTAC**
**2021, 28 yanvar**

**İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Qaraxançallı kəndinin videogörüntüləri yayımlanıb**

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi işğaldan azad edilmiş Kəlbəcər rayonunun Qaraxançallı kəndinin videogörüntülərini yayıb.

AZƏRTAC Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Qaraxançallı kəndi 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana qaytarılıb.

Çopurlu kəndi Lev çayının sahilində, Murovdağ silsiləsinin ətəyindədir. Keçmiş adı Çopur Hüseynli olan bu kənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. İkinci Qarabağ müharibəsində ordumuzun Şanlı Qələbəsindən sonra Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən ötən il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilib.

**AZƏRTAC**
**2021, 1 fevral**

**İordaniyalı tarixçi Xudavəng monastır kompleksi haqqında məqalə yazıb**

İordaniyanın "Nayruz" informasiya agentliyinin saytında tarixçi Ömər əl-Armutinin "Xudavəng – Azərbaycanın alban məbədi" sərlövhəli məqaləsi yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, iordaniyalı tarixçi məqalədə Xudavəng monastır kompleksinin tarixi barədə oxuculara ətraflı məlumat verib. Müəllif qeyd edib ki, işğaldan azad olunmuş Kəlbəcər rayonunda yerləşən tarix-memarlıq abidəsi Azərbaycan ərazisindəki ən böyük monastır kompleksidir. Xudavəng monastırına dini və dünyəvi xarakter daşıyan müxtəlif ölçüdə və dizaynda ondan çox tikili daxildir. Həmin tikililər müxtəlif tarixi dövrlərdə müəyyən şəxslərin sifarişi və himayəsi ilə inşa edilib. Monastırın adı tarixi mənbələrdə Dadivəng kimi də qeyd edilir. "Dadi" sözünün etimologiyası Qafqaz Albaniyasının tarixi ilə əlaqəlidir. Belə ki, Dadi və ya Dada Həvari Faddey tərəfindən "xristianlığın təbliğ edilməsi üçün Şimal və Şərq ölkələrinə göndərilmiş" 70 həvaridən biri olub.

Əl-Armuti yazıb ki, Birinci Qarabağ müharibəsi zamanı monastır kompleksinin yerləşdiyi Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Ermənilər Xudavəngin üzərindəki alban yazılarını silərək tarixi saxtalaşdırmağa, Azərbaycana aid olan bu məbədi özününkü kimi qələmə verməyə çalışıblar. Lakin ədalət öz yerini tapıb və azərbaycanlılar qədim tarixi-mədəni irsinə yenidən sahib olublar.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2021, 20 mart**

**Deputat: 27 ildən sonra biz Kəlbəcərdə qətlə yetirilən günahsız soydaşlarımızın qisasını aldıq**

Biz 27 ildən sonra ilk dəfədir Kəlbəcərin işğalı gününü qeyd etmirik. Lakin biz bu acı tarixi bu il də unutmamışıq və bundan sonra da unutmayacağıq. Məhz 27 il sonra biz şəhidlərimizin, Kəlbəcərdə qətlə yetirilən günahsız soydaşlarımızın qisasını alaraq qürurla deyirik : "Kəlbəcər bizdədir, Kəlbəcər Azərbaycandır!".

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Cavid Osmanov deyib.

C.Osmanov qeyd edib ki, Azərbaycan müstəqilliyinin ilk illərində ağrılı-acılı çox günlər yaşayıb. Bunun əsas səbəblərindən biri də naşı, səriştəsiz, təsadüfi adamların ölkəyə rəhbərlik etməsi olub. 1992-1993-cü illərdə ölkəyə AXC-Müsavat cütlüyünün rəhbərlik etməsi isə Azərbaycan tarixində qara ləkə olaraq qalıb. Yarıtmaz siyasətləri, başlarının hakimiyyət davasına qarışması ölkəmiz üçün ağır fəsadlara səbəb oldu. Hisslərə qapılaraq aparılan xarici siyasət kursu isə Azərbaycan üçün əlavə problemlər yaradır, qonşu ölkələrlə münasibətlərin tamamilə korlanmasına gətirib çıxarırdı. Belə bir vaxtda ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistan yaranmış fürsətdən istifadə edərək, sərhəd rayonlarda təxribatlar törədir və öz məqsədlərinə nail olmağa çalışırdılar. Kəlbəcərin ermənilər tərəfindən işğal edilməsi isə digər rayonların işğal olunması üçün açar rolunu oynayırdı.

Deputat diqqətə çatdırıb ki, paytaxt Bakıda AXC-Müsavat cütlüyünün başı hərc-mərcliyə, vəzifə bölgüsünə qarışdığı üçün Qarabağ və ətraf rayonlar yaddan çıxmış, tamamilə müdafiəsiz qalmışdı. Kəlbəcərin işğal edilməsi AXC-Müsavat hakimiyyətinin Azərbaycan xalqına xəyanəti nəticəsində baş verdi. Ölkənin və xalqın təhlükəsizliyini təmin edə bilməyən AXC-Müsavat hakimiyyəti ölkədə xaos, anarxiya, özbaşınalıq yaratmış, ordu quruculuğu məhv edilmiş və hakimiyyətdə daha da möhkəmlənmək məqsədilə ayrı-ayrı şəxslər özlərinin tabeliyində olan silahlı dəstələr saxlamaqla məşğul olurdular. Nizami ordunun olmaması Ermənistanla sərhəd rayonların müdafiəsi işini çətinləşdirirdi. Yaranmış fürsətdən istifadə edən ermənilər Kəlbəcərdə mülki əhaliyə qəddarcasına hücumlar həyata keçirərək insanları qətlə yetirmiş və insanlığa qarşı qanlı cinayət törətmişlər. Ölkə rəhbərliyi tərəfindən isə Kəlbəcərin və rayon əhalisinin müdafiəsi üçün heç bir iş həyata keçirilmirdi. Sanki Kəlbəcərdə heç nə baş vermirdi. Susqunluq, heç bir müqavimətin olmaması isə erməni silahlı dəstələrini daha da azğınlaşdırır, faciənin miqyasını genişləndirirdi. Ermənistan silahlı birləşmələri Kəlbəcəri işğal edərkən qanlı cinayət törədiblər və belə demək mümkündürsə, ermənilərin bu qanlı cinayətinin ortağı isə satqın, xəyanətkar, siyasi maraqlarını ümummilli maraqlardan üstün tutan AXC-Müsavat hakimiyyəti olub.

"Ermənilərin Kəlbəcərdəki bütün infrastrukturu, yaşayış yerlərini dağıtması, mədəniyyət və dini abidələri məhv etməsi, ekoloji terror həyata keçirməsi, Azərbaycan xalqına məxsus sərvətləri talan etməsi dünya miqyasında törədilmiş vandallıq və cinayətdir. Hətta Kəlbəcəri tərk edən zaman azərbaycanlılar arasında daha çox itkiyə nail olmaq üçün ermənilərin əraziləri, mülki obyektləri yenidən minalaması onların öz qəsbkar, terrorçu xislətlərindən əl çəkə bilmədiklərini göstərir. Evləri və meşələri yandırmaqları isə erməni vandalizminin sərhəd tanımadığından xəbər verir", - deyə C.Osmanov qeyd edib.

Deputat diqqətə çatdırıb ki, Azərbaycan torpaqları işğalda altında olan müddət ərzində münaqişənin sülh yolu ilə həllində maraqlı idi. Lakin Prezident İlham Əliyev hər zaman vurğulayırdı ki, sülh danışıqları əbədi ola bilməz, danışıqlar nəticəsiz olduğu halda Azərbaycan torpaqlarını hərb yolu ilə işğaldan azad edəcək. Ermənistan rəhbərliyinin təxribat xarakterli açıqlamaları və təmas xəttindəki hadisələr Azərbaycan Ordusunu əks-hücum əməliyyatlarına başlamasına vadar etdi. 44 günlük hərbi əməliyyatlar nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz torpaqlarımızı işğaldan azad edərək ölkəmizin ərazi bütövlüyünü təmin etdi.

"Kəlbəcər rayonunun çox böyük hissəsi hərbi əməliyyatlar keçirilmədən, Ermənistanın kapitulyasiyasından sonra geri qaytarıldı. Bu, Azərbaycan dövlətinin və Azərbaycan Ordusunun gücündən xəbər verir. Azərbaycan dövləti və Ordusu isə Prezident İlham Əliyevin cəsarətli, prinsipial və düşünülmüş siyasəti nəticəsində sarsılmaz gücə sahib olub", - deyə C.Osmanov bildirib.

**AZƏRTAC**
**2021, 2 aprel**

**Könül Nurullayeva: Kəlbəcərin azad edilməsi Azərbaycan Prezidentinin cəsarətli, prinsipial və düşünülmüş siyasətinin nəticəsidir**

2020-ci il Vətən müharibəsindən sonra təqvimimizin işğal tarixlərini qələbə günləri əvəzlədi. Biz Böyük Qələbəyə qədər 2 apreli Kəlbəcərin işğal günü kimi qeyd edirdik. Kəlbəcərin geri qaytarılması güclü Azərbaycan dövlətinin, dünyanın 50 ən güclü ordusundan birinin iradəsi hesabına mümkün oldu. Prezident İlham Əliyevin cəsarətli, prinsipial və düşünülmüş siyasətinin nəticəsidir ki, bu gün Kəlbəcər azaddır.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Könül Nurullayeva deyib.

1993-cü ilin bu günü, yəni, aprelin 2-də Kəlbəcər rayonunun Ermənistan ordusu tərəfindən işğal edildiyini xatırladan deputat bildirib: “Təəssüf ki, işğal nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və ya girov götürülmüş, rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəymişdi. Ən dəhşətlisi isə budur ki, ermənilər Kəlbəcərdə mülki əhaliyə qarşı xüsusi qəddarlıq tətbiq etmişdilər. İnsanlar amansızcasına qətlə yetirilmişdi. İşğal dövründə düşmən Kəlbəcərdə bütün infrastrukturu, yaşayış yerlərini dağıdıb, mədəniyyət və dini abidələri məhv edib, ekoloji terror həyata keçirib. Azərbaycan xalqına məxsus sərvətləri talan edib. Yəni, heç zaman ermənilərə aidiyyəti olmayan Kəlbəcər bu müddət ərzində terrorun demək olar ki, bütün növlərinə məruz qalıb”.

K.Nurullayeva qeyd edib ki, Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı qətnamə qəbul edib. Qətnamə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın tarixi ərazisi olan Kəlbəcər rayonunu işğal etməsindən sonra 1993-cü il aprelin 30-da qəbul olunmuşdu. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılması tələb edilirdi. Lakin 27 il ərzində bu sənədin icrası ilə bağlı mexanizm işləmədi. Nəhayət, Azərbaycan öz gücü hesabına, təkbaşına bu qətnamənin icrasına nail oldu, ərazi bütövlüyünü bərpa etdi, Kəlbəcər tarixi sahiblərinə qaytarıldı. Lakin ermənilər öz xislətlərini bu müddətdə də gizlədə bilmədilər.

Deputat təəssüflə bildirib ki, Kəlbəcəri tərk edən zaman azərbaycanlılara daha böyük ziyan vurmaq üçün ermənilər əraziləri, mülki obyektləri yenidən minaladılar, evləri, meşələri yandırdılar. Bütün dünya ermənilərin əsl vandal simasını gördü. Bu gün Ermənistanda da etiraf edirlər ki, Kəlbəcərin bu ölkəyə heç vaxt aidiyyəti olmayıb. İşğalçı ölkədə fikirlər belə idi ki, Kəlbəcər tarixi Azərbaycan torpağıdır, ona görə də gec-tez Azərbaycana qaytarılmalı idi.

“Biz 44 günlük Vətən müharibəsi nəticəsində nəinki Kəlbəcəri, işğal altında olan digər ərazilərimizi də azad etdik”, - deyə deputat qeyd edib.

**AZƏRTAC**
**2021, 2 aprel**

**Deputat: 2 aprelin sızıltılarını 25 noyabr qüruru unutdurdu**

1993-cü ilin əvvəllərində Azərbaycanda daxili vəziyyət son dərəcədə kəskinləşmişdi. Dövlət idarəçiliyində yol verilən nöqsanlar, səriştəsizlik, ambisiyalar həm ölkəmiz tərəfindən Ermənistanın ərazi iddiasına qarşı aparılan xarici siyasəti məhdudlaşdırırdı, həm də mərhələlərlə dövlət çevrilişinə yaxınlaşdırırdı. Ordudakı özbaşınalıq, vahid komandanlığın olmaması, ordu rəhbərliyində, yerli özünümüdafiə taborlarında bu və ya digər yollarla rəhbərliyə gətirilmələr dövlətçilik üçün real təhlükə yaratmışdı. AXC–Müsavat hakimiyyəti isə bu problemləri həll etmək iqtidarında deyildi.

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin deputatı Səbinə Xasayeva bildirib.

Deputat deyib: "O vaxt regionda hərbi vəziyyət gərginləşmişdi. Dövlətin hərbi dəstəyi olmadığına görə kəlbəcərlilər, Kəlbəcərin yerli özünümüdafiə taboru həmin vaxtlarda imperiyanın hərbi yardımından kifayət qədər bəhrələnən Ermənistanın silahlı birləşmələrinin hücumlarının qarşısını almaq gücündə deyildi. Ermənilər hələ 1992-ci ilin aprelin 8-də rayonun Ağdaban kəndində böyük faciə törətmişdi.

Düşmən Azərbaycandakı siyasi qarşıdurmalardan istifadə edərək martın 27-dən Kəlbəcərə genişmiqyaslı hücuma başladı. 1993-cü il aprelin 2-də Kəlbəcər rayonu Ermənistan ordusu tərəfindən işğal edildi. İşğal zamanı 511 kəlbəcərli şəhid oldu, 231 nəfər itkin düşdü. Həmçinin rayonda 172 mədəniyyət obyekti, 1 muzey və sair dağıdıldı. İşğal zamanı və işğaldan sonra meşələrin sistemli, məqsədyönlü şəkildə yandırılması ekoloji terror idi. Bu işğal mahiyyət etibarilə Xocalı faciəsinin davamı oldu. Ermənilər Kəlbəcərdə də bütün tarixi abidələrimizi dağıdıb məhv etdilər".

Kəlbəcərin işğalından sonra BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 822 saylı Qətnamədə qeyd olunurdu ki, bütün işğalçı qüvvələr Kəlbəcərdən, eləcə də Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılmalıdır. Havadarlarına arxalanan Ermənistan beynəlxalq təşkilatın bu qətnaməsini də yerinə yetirmədi.

Prezident İlham Əliyev Kəlbəcərin azad olunması münasibətilə xalqa müraciət etdi. Kəlbəcərin erməni işğalından azad edilməsi təkcə kəlbəcərlilərin deyil, hər birimizi sevindirir. Bu Qələbə həm də xalqla Müzəffər Ali Baş Komandanın, xalqla ordunun sıx və möhkəm birliyinin təzahürüdür. 2020-ci ilin noyabrın 25-də xalqa müraciətində Prezident İlham Əliyev dedi: "Azərbaycan Xalq Cəbhəsi dövlət çevrilişi edərək hakimiyyətə gəldi. Ancaq ondan sonra nə oldu? Ondan sonra bütün səylərini öz laxlamış hakimiyyətini möhkəmləndirmək, ölkəmizdə repressiyalar təşkil etmək, senzuranı tətbiq etmək və digər antidemokratik addımlar atmağa yönəltdi. Torpaqlarımız işğala məruz qalırdı. Azərbaycan Xalq Cəbhəsi, onun rəhbərliyi ancaq bir məqsədi güdürdülər ki, öz ciblərini doldursunlar, öz yaxın adamlarını vəzifələrə təyin etsinlər və öz hakimiyyətinin ömrünü uzatsınlar. Kəlbəcərin işğal altına düşməsi bax, bu çirkin addımların nəticəsi idi".

"Kəlbəcər 1993-cü ilin aprelin 2-də işğal edilmişdi. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Vətən müharibəsində digər rayonlarımız kimi, Kəlbəcər də işğaldan azad olundu. 2 aprel tarixinin yaralarının ağrı-acılarını 25 noyabr tarixi unutduracaq. Kəlbəcərdə qələbəmizin təmin olunması Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda həyata keçirilən genişmiqyaslı islahatlar, müxtəlif miqyaslı beynəlxalq təlimlər Silahlı Qüvvələrimizin dünyanın ən güclülərindən biri olmasını təmin etdi. Bunun nəticəsi olaraq Vətən müharibəsində möhtəşəm Zəfər qazanıldı. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi və strateji əhəmiyyətli yüksəkliklər azad edildi. Təslim olan düşmən Birgə Bəyanata uyğun olaraq noyabrın 25-də Kəlbəcərdən çıxdı", - deyə deputat qeyd edib.

Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin Kəlbəcərdən çıxması Prezident, qalib sərkərdə İlham Əliyevin uzaqgörən, düşünülmüş, düzgün taktika və strategiyasının parlaq nəticəsinin təzahürüdür. Bu Zəfər həm də şanlı Azərbaycan Ordusunun igid, qorxmaz, qəhrəman əsgər və zabitlərinin doğma torpaqlarımız uğrunda yüksək hərbi peşəkarlıq, tükənməz Vətən sevgisi və qəhrəmancasına vuruşmalarının əyani nümunəsidir.

Deputat qeyd edib ki, Kəlbəcərin azad olunması oradakı tariximizin bizə qayıtmasıdır. Kəlbəcər rayonu ərazisindəki memarlıq abidələrinin əksəriyyəti Qafqaz Albaniyası dövrünə aiddir.

Faşist ideologiyasının daşıyıcısı kimi ermənilər Kəlbəcərdə qanunsuz qazıntılar aparıb və tapılmış qiymətli tarixi əşyaları Ermənistana daşıyıblar. Bu, təkcə Azərbaycana deyil, tarixə, bəşəriyyə xəyanətdir. Prezident İlham Əliyev qeyd etdiyi kimi, bu vandalizmi törədən qaniçən düşmənin xalqımıza vurduğu maddi və mənəvi ziyana görə layiqli cəzasını alması üçün dövlətimizin əlaqədar qurumları nüfuzlu

beynəlxalq təşkilatlarla birlikdə bütün hüquqi imkanlardan istifadə edəcək. Artıq bu istiqamətdə bir çox hazırlıq işləri uğurla davam etdirilir.

**AZƏRTAC**
**2021, 3 aprel**

**Deputat: Bundan sonra rayonlarımızın işğal gününü deyil, azad olunduğu tarixləri qeyd edəcəyik**

Müasir Azərbaycan tarixinin ən keşməkeşli dövrü torpaqlarımızın 20 faizinin erməni işğalına və vandalizminə məruz qaldığı illərdir. Artıq torpaqlarımız düşmən işğalından azad olunub. Biz bundan sonra rayonlarımızın, ərazilərimizin işğal gününü deyil, əsarətdən azad olunduğu tarixləri qeyd edəcəyik.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tamam Cəfərova deyib.

Deputat bildirib ki, 1993-cü il aprelin 2-də Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı Azərbaycan xalqı üçün böyük faciə idi. Belə ki, Kəlbəcərin işğal altına düşməsi Ermənistana sonrakı işğalçılıq siyasətində böyük üstünlüklər vermiş, Ermənistanla Dağlıq Qarabağ arasında Kəlbəcər ərazisindən keçən bir çox yollar vasitəsilə əlaqə yaradılmış, silahlar, texnikalar, canlı qüvvə göndərilmişdi. "Kəlbəcər rayonunun işğalı həmin dövrdə hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün yarıtmazlığı, siyasi savadsızlığı və xəyanəti nəticəsində baş verdi. 1992-ci ildə onlar qanunsuz yollarla hakimiyyətə gəlməsəydilər, bəlkə də bunlar baş verməzdi. Kəlbəcərin işğalında onların birbaşa iştirakı, əli var və bu məsuliyyəti onlar daşıyırlar", - deyən T.Cəfərova qeyd edib ki, heç şübhəsiz, Kəlbəcər rayonunun işğalı həmin dövrdə Azərbaycandakı anarxiya, xaos və özbaşınalığın, eləcə də hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsizliyinin və yalnız öz şəxsi mənafelərini güdmələrinin nəticəsi idi.

"Azərbaycan Prezidenti İlham Əliyevin cəsarətli, prinsipial, düşünülmüş siyasəti, Ordumuzun gücü, xalqımızın birliyi və həmrəyliyi nəticəsində Kəlbəcər rayonu 2020-ci il noyabrın 25-də siyasi yolla Azərbaycana təhvil verildi. Bu, Azərbaycanın döyüş meydanında olduğu kimi, diplomatik müstəvidə də qələbəsinin təsdiqi idi. Kəlbəcərin azad olunması ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsini, ümumilikdə isə Qarabağla bağlı bütün qətnamələrini faktiki olaraq özü hərbi-siyasi yolla yerinə yetirmiş oldu", - deyə deputat vurğulayıb.

O, həmçinin deyib: "Sözsüz ki, erməni vandallarının mülki əhaliyə qarşı törətdikləri vəhşiliklər, qəddarlıqlar heç zaman unudulmayacaq. Başlıbel faciəsi erməni faşistlərinin Kəlbəcərin işğalı zaman azərbaycanlılara qarşı törətdikləri qanlı faciələrdən yalnız biridir. Xatırladım ki, Kəlbəcər rayonu işğal edilən zaman 2 minə yaxın əhalisi olan Başlıbel kəndinin 73 sakini kəndi vaxtında tərk edə bilməyib. Həmin 73 nəfərin bir qismi erməni vandalları tərəfindən vəhşicəsinə qətlə yetirilib, digərləri isə dözülməz zülmə məruz qalaraq, yalnız gecələr hərəkət etməklə, dağ yolları ilə Ermənistan ordusunun mühasirəsindən xilas ola biliblər".

Tamam Cəfərova bildirib ki, işğaldan azad olunan Kəlbəcərdə faşist ermənilər bütün infrastrukturu, yaşayış yerlərini dağıdıb, mədəni və dini abidələri məhv edib, meşələri qırıb, ekoloji terror həyata keçirib. Hətta rayonu tərk edən vaxt azərbaycanlılar arasında daha çox itkiyə nail olmaq üçün əraziləri, mülki obyektləri yenidən minalayıblar. Bütün bunlara baxmayaraq, Azərbaycan qurub-yaradan bir dövlət olaraq Kəlbəcəri də yenidən inşa edəcək. Kəlbəcər füsunkar təbiəti ilə yenidən qonaqlarını qəbul edəcək.

**AZƏRTAC**
**2021, 3 aprel**

**Aqil Məmmədov: Dövlətimizin gücü və qüdrəti sayəsində tezliklə Kəlbəcərdə də həyat öz axarına düşəcək**

Ulu öndər Heydər Əliyevin işğal edilmiş rayonlarımızın gələcək taleyi ilə bağlı vaxtilə dediyi müdrik fikirlər artıq bu gün reallığa çevrilib. Ümummilli Lider hər zaman Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və oradan məcburi köçürülən insanların öz yurd-yuvalarına qayıdacaqlarını deyirdi. Ulu Öndər 1996-cı ildə kəlbəcərlilərlə görüşündə bildirmişdi ki, heç şübhəsiz, Kəlbəcər işğaldan azad olunacaq və kəlbəcərlilər öz doğma evlərinə qayıdacaqlar. Belə də oldu. Ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz ermənilərin 30 ildən artıq işğal altında saxladığı əraziləri azad etdi. 2020-ci ilin sentyabrın 27-dən başlayan Zəfər yürüşü böyük Qələbəmizlə nəticələndi. Şuşa da daxil olmaqla, Qarabağı geri qaytardıq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Kəlbəcər rayonundan olan deputatı Aqil Məmmədov deyib.

A.Məmmədov qeyd edib ki, 1993-cü il aprelin 2-də ermənilər tərəfindən işğala məruz qalan Kəlbəcər də 44 günlük Vətən müharibəsində qazandığımız Qələbə ilə öz azadlığına qovuşdu. Azərbaycanın ən yüksək dağ rayonu olan, gözəl təbiəti və faydalı qazıntılarla zəngin olan doğma Kəlbəcər düşmənin kapitulyasiyasından sonra 2020-ci il noyabrın 25-də işğaldan azad edildi. Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində Kəlbəcər də daxil olmaqla, 3 rayonumuz bir güllə atılmadan boşaldıldı. Digər rayonlarımız kimi, Kəlbəcərin də işğal səbəbləri hər birimizə gün kimi aydındır. Ərazilərimizin işğalı həmin dövrdə ölkədə mövcud olan özbaşınalıq və xaosun, AXC-Müsavat hakimiyyətinin xəyanətinin nəticəsi idi. Bu xəyanətin, özbaşınalığın əziyyətini isə öz yurd-yuvasında qovulmuş günahsız insanlar çəkdi.

Kəlbəcərin işğal günlərindən danışan deputat qeyd edib ki, rayon əhalisi 1988-1993-cü illərdə tamamilə mühasirə şəraitində yaşayıb. Kəlbəcərin bütün əlaqələri kəsilmişdi, yol, işıq yox idi. Ümidimizi təkcə Laçın yoluna bağlamışdıq. Ağdərə istiqamətindən ermənilərin mütəmadi təzyiqlərinə və hücumların məruz qalırdıq. Bunun sübutu olaraq Ağdaban faciəsini xatırlatmaq yerinə düşər. Belə ki, Kəlbəcərin işğalından təqribən bir il əvvəl ermənilər tərəfindən rayonun sonrakı işğalına şərait yaratmaq məqsədilə Ağdaban kəndində törədilmiş soyqırımı hadisəsi erməni vəhşiliyinin sərhəd tanımadığını göstərir. Erməni separatçıları tərəfindən törədilmiş qırğın nəticəsində 130 evdən ibarət kənd tamamilə yandırıldı. Kəndin 779 nəfər dinc sakininə müxtəlif işgəncələr verildi, 67 nəfər isə amansızlıqla qətlə yetirildi.

Ermənistanın öz çirkin əməllərini 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra da davam etdirdiyini deyən A.Məmmədov bildirib ki, ermənilər Kəlbəcərin işğalı zamanı oranı tar-mar edib, rayonun əmlakını talayaraq Ermənistana daşıyıblar. Ermənilər məcbur qalıb Kəlbəcəri tərk edəndə də öz məkrli, alçaq xislətini ortaya qoyaraq yaşadıqları evləri yandırdılar, meşələri qırıb odununu daşıdılar.

Deputat vurğulayıb ki, torpaqlarımızın işğaldan azad olunması, 44 günlük Vətən müharibəsində böyük Qələbəmiz Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasətinin, dövlətimizin başçısı olduğu 17 illik dövrdə səmərəli və gərgin fəaliyyətinin bəhrəsidir. Azərbaycanın beynəlxalq müstəvidə böyük nüfuzu, güclü ordu quruculuğu, xalq-iqtidar birliyi Qələbəmizi şərtləndirən amillərdir.

“Təsadüfi deyil ki, Kəlbəcəri Azərbaycanın “qərb qapısı” adlandırırlar. Turizmin inkişafı üçün Kəlbəcərin gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral suları ölkəmizin iqtisadiyyatı üçün böyük əhəmiyyət daşıyır. Dövlətimizin başçısı işğaldan azad edilən bölgələrin, o cümlədən Kəlbəcərin də bərpası, yenidən qurulması və gələcək inkişafı üçün lazımi göstəriş, tapşırıq və tövsiyələrini verib. İnşallah, torpaqlarımızın azadlığı kimi, bu işlər də tezliklə öz həllini tapacaq. Dövlətimizin gücü və qüdrəti sayəsində tezliklə Kəlbəcərdə də həyat öz axarına düşəcək”, - deyə Aqil Məmmədov əminliyini ifadə edib.

**Səadət Hakıyeva**

**AZƏRTAC**
**2021, 3 aprel**

**Kəlbəcərdə qar əriyəndən sonra Ermənistanın basdırdığı minlərlə mina üzə çıxıb - ombudsman beynəlxalq təşkilatlara müraciət etdi**

Kəlbəcər rayonunda yerləşən dağların ətəklərindəki qar əriməyə başladıqdan sonra belə bir mənzərənin şahidi olduq: Azərbaycanın bu əzəli torpaqları işğal altında olarkən Ermənistan silahlı qüvvələri tərəfindən yüzlərlə, hətta minlərlə mina yerləşdirilmişdir və bu minalar, sözün əsl mənasında, hər addımbaşı basdırılmışdır. Bu, Ermənistanın beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyinin daha bir əyani sübutudur. Artıq onlarla hərbi qulluqçumuz və mülki şəxslərimiz bu işarələnməmiş mina partlayışlarının qurbanı olub. Bir milyondan çox azərbaycanlı məcburi köçkün hələ də Ermənistanın minalanmış ərazilərin xəritəsini verməkdən imtina etməsi səbəbi ilə öz yurdlarına qayıda bilmir, belə ki, onların həyat və sağlamlıqları hələ də təhlükə altındadır.

AZƏRTAC xəbər verir ki, bu barədə Ombudsman Aparatının yaydığı açıqlamada bildirilib.

"Bu, Ermənistan tərəfindən insan hüquqlarının kobud şəkildə pozulmasının və beynəlxalq hüquqa açıq-aşkar etinasızlığın sübutudur. Azərbaycan ombudsmanı mütəmadi olaraq dünya ictimaiyyətinin diqqətinə yeni faktlar və sübutları çatdıraraq, işarələnməmiş minalar və onların insan həyatı üçün potensial təhlükəsi ilə bağlı narahatlığımızı bir daha təkrar edərək, müvafiq beynəlxalq strukturlardan Ermənistandan bu minalanmış ərazilərin xəritələrinin verilməsi üçün tədbirlər görmələrini tələb edir", - deyə açıqlamada vurğulanıb.

**AZƏRTAC**
**2021, 11 may**

**XİN Ermənistan silahlı qüvvələrinin sərhədin Kəlbəcər rayonu istiqamətində növbəti təxribatı barədə məlumat yayıb**

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan silahlı qüvvələrinin sərhədin Kəlbəcər rayonu istiqamətində növbəti təxribatı barədə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda deyilir: “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına əsasən, cari il mayın 27-də Ermənistan silahlı qüvvələrinin iki qrupdan ibarət kəşfiyyat-diversiya dəstəsi Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonunun Yuxarı Ayrım kəndi istiqamətində Azərbaycan ərazilərinin dərinliyinə daxil olaraq, ərazidə kəşfiyyat-diversiya əməliyyatları və yolların minalanmasına yönəlmiş təxribat terror fəaliyyəti həyata keçirməyə cəhd göstəriblər.

Həmin qruplar aşkar edilib, onların bir hissəsi qaçıb, 6 nəfər isə (bir qrupdan 2, digər qrupdan 4 nəfər olmaqla) Azərbaycan Ordusu tərəfindən tərksilah edilərək saxlanılıb.

Ermənistan tərəfindən bir müddətdir ki, iki ölkənin sərhədyanı ərazilərində qəsdən gərginliyin artırılması siyasəti həyata keçirilir. Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun Azərbaycan ərazisinə keçməsi və ərazini minalama və digər diversiya cəhdləri terror-təxribat əməli kimi qiymətləndirilir.

Azərbaycan Ermənistanın illər ərzində basdırdığı minalardan əziyyət çəkdiyi halda, Ermənistanın diversant qrupu tərəfindən Azərbaycan ərazisində həyata keçirilən diversiya və keçid yollarını növbəti minalama cəhdləri Azərbaycan hərbçilərinin və gələcəkdə mülki insanların həyatı üçün ciddi təhlükə ola bilərdi.

Azərbaycan, Ermənistan-Azərbaycan dövlət sərhədində gərginliyin danışıqlar yolu ilə aradan qaldırılmasının tərəfdarıdır və iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə əlaqədar beynəlxalq ictimaiyyətin çağırışlarını dəstəkləyir.

Azərbaycanın sərhədlərinin pozulmasına yönəlik cəhdlər yolverilməzdir. Ermənistan iki ölkənin sərhədində gərginliyin artırılmasına yönəlmiş əməllərdən çəkinməli və qonşu dövlətin sərhədlərinə hörmətlə yanaşmalıdır”.

**AZƏRTAC**
**2021, 27 may**

**Azərbaycanlı jurnalistlərin ermənilərin basdırdığı minanın partlaması nəticəsində həlak olmaları ilə bağlı məlumatlar dünya KİV-lərinin diqqət mərkəzindədir**

Kəlbəcər rayonunda Azərbaycan jurnalistlərinin Ermənistan tərəfindən basdırılmış minaya düşərək həlak olmaları və yaralanmaları ilə bağlı məlumatlar dünyanın aparıcı informasiya agentliklərinin və xəbər resurslarının diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, qardaş Türkiyə mediası azərbaycanlı jurnalistlərin Kəlbəcərdə mina partlaması nəticəsində həyatlarını itirməsi ilə bağlı xəbərlərə geniş yer ayırıb. Türkiyənin Anadolu Agentliyi, “Haber Global” televiziya kanalında verilən informasiyalarda deyilir ki, Ermənistanın minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi hərbçilərlə yanaşı, dinc insanların, o cümlədən öz xidməti vəzifələrini icra edən media mənsublarının da həyatını təhlükə altına atır.

Bu hadisə ilə bağlı Rusiyanın TASS, Ria Novosti informasiya agentliklərində və BBC-nin Rusiya bölməsində dərc olunan xəbərlərdə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimovun və AzTV-nin operatoru Sirac Abışovun Kəlbəcər rayonu ərazisində mina partlaması nəticəsində həlak olduqları bildirilir, həmçinin sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi ilə bağlı məlumatlar verilir.

Ukrayna kütləvi informasiya vasitələri də Ermənistanın mina xəritələrini verməməsi nəticəsində Kəlbəcərdə iki azərbaycanlı jurnalistin həlak olması ilə nəticələnmiş son hadisəyə xüsusi yer ayırıb. “Ukrinform”, “RBK-Ukraina”, “24tv.ua”, “gordonua.com”, “correspondent.net” kimi media platformaları hadisə ilə bağlı informasiyalar yayıb. Xəbərlərdə bildirilir ki, Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq Ermənistandan minalanmış ərazilərin xəritələrini tələb edir. Ermənistan isə bundan israrla imtina edir.

Kəlbəcərdə baş vermiş mina partlayışı və dinc insanların həlak olması ilə bağlı xəbərlər, həmçinin ərəb mətbuatının da diqqət mərkəzində olub. Bununla bağlı “aljazeera.com” saytında, Misirin “Yeni dünya xəbərləri”, “Aldiplomacy”, Səudiyyə Ərəbistanının “Səda”, “Əl Vətən” informasiya portallarında, “Okaz” qəzetində xəbərlər dərc edilib.

İranın İRNA rəsmi dövlət xəbər agentliyində dərc olunan məlumatda isə bildirilir ki, Ermənistanın yollara basdırdığı mina mülki əhali arasında da itkilərə gətirib çıxarır.

Avstraliyanın “news.com.au”, “australiannewsreview.com”, “adelaidenow.com.au” saytları da Kəlbəcərdə Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində ikisi jurnalist olmaqla üç dinc sakinin həlak olması ilə bağlı materiallar yayıb.

**AZƏRTAC**
**2021, 4 iyun**

**Avropa Şurasının komissarı Kəlbəcərdə jurnalistlərin minaya düşərək həlak olması ilə bağlı paylaşım edib**

Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç Kəlbəcərdə jurnalistlərin minaya düşərək həlak olması ilə bağlı tvitter hesabında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Dunya Miyatoviç paylaşımında Kəlbəcərdə iki jurnalist də daxil olmaqla üç nəfərin ölümü və bir neçə nəfərin yaralanması ilə nəticələnən mina partlayışının Qarabağ ərazisinin beynəlxalq əməkdaşlıq yolu ilə təcili şəkildə minalardan təmizlənməsini zəruri etdiyini vurğulayır.

**AZƏRTAC**
**2021, 4 iyun**

**AZƏRTAC-ın və AZTV-nin əməkdaşları Kəlbəcər rayonunda minaya düşərək həlak olublar**

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) və Azərbaycan Televiziyasının (AZTV) işğaldan azad olunmuş ərazilərdə çəkiliş aparan əməkdaşları iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində minaya düşüblər.

AZƏRTAC xəbər verir ki, çəkiliş qrupunun olduğu nəqliyyat vasitəsinin hərəkət olan yolda tank əleyhinə minaya düşməsi nəticəsində AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AZTV-nin operatoru Sirac Abışov həlak olub, yaralananlar var.

Həlak olanlara Allahdan rəhmət diləyir, onların ailələrinə dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirik.

**AZƏRTAC**
**2021, 4 iyun**

**İspaniya Azərbaycanlıları Birliyi Kəlbəcərdə baş vermiş dəhşətli hadisə ilə əlaqədar dünya ictimaiyyətinə müraciət edib**

İspaniya Azərbaycanlıları Birliyi iyunun 4-də Kəlbəcərdə baş vermiş dəhşətli hadisə ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, təşkilatın sədri Vahid İmanov müraciətdə Kəlbəcər rayonu ərazisində Ermənistan tərəfindən basdırılmış minaların partlaması nəticəsində Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı Məhərrəm İbrahimov, Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Kəlbəcər rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyevin həlak olmasına, 4 nəfərin yaralanmasına diqqət cəlb edildiyini bildirib.

Bəyanatda qeyd olunub ki, baş verən dəhşətli hadisə Ermənistanın beynəlxalq konvensiyalara məhəl qoymamasının, mina xəritələrini Azərbaycana təhvil verməməklə regionda qarşıdurma yaratmasının acı nəticəsidir.

İspaniya Azərbaycanlıları Birliyi beynəlxalq ictimaiyyəti Ermənistanın yolverilməz davranışlarına biganə qalmamağa, onun minalanmış ərazilərin xəritələrini Azərbaycana təhvil verməsini, beynəlxalq hüquqla müəyyənləşdirilən öhdəliklərə əməl etməsini tələb etməyə çağırıb.

**AZƏRTAC**
**2021, 5 iyun**

## Deputat: Kəlbəcərdə baş verən hadisə erməni terrorunun növbəti təzahürüdür

Namərd düşmən, murdar, alçaq erməni xisləti yenə öz sözünü dedi. Lal, kar, kor dünya isə yenə də susdu, hadisələri yenə də görməzdən gəldi. İyunun 4-də növbəti dəfə qanlı erməni cinayətkarlığının şahidi olduq. Yenə günahsız qanlar axıdıldı, yenə günahsız canlar getdi, yenə şəhid verdik.

Kəlbəcər rayonunun Susuzluq kəndində peşə fəaliyyətlərini yerinə yetirərkən iki media təmsilçimiz-AzTV-nin operatoru Sirac Abışov və AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov mina partlaması nəticəsində həyatlarını itirdilər, şəhid oldular.

Biz indiyədək Alı Mustafayev, Osman Mirzəyev, Salatın Əsgərova, Çingiz Mustafayev kimi jurnalistləri, qələm əhlini itirmişik, onlar qanlı erməni terrorizminin, erməni vandalizminin qurbanına çevriliblər.

Çox təəssüf ki, uzun illərdən sonra mediamız yenidən şəhid verdi. Dünən yenə kar, kor, lal dünyanın gözləri qarşısında qanlı erməni terrorizmi, barbarlığı, vandalizmi baş verdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Ailə, qadın, uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva bildirib.

Deputat qeyd edib ki, buna görə təkcə ermənilər və Ermənistan günahkar deyil, buna görə həm də Ermənistana, ermənilərə himayədarlıq edənlər - Şimaldan Cənubadək, Şərqdən Qərbədək hər kəs günahkardır. Onların üzərində də bu tökülən qanların izi, ləkəsi var. Çünki İkinci Vətən müharibəsinin başa çatmasından 7 aya yaxın vaxt keçməsinə baxmayaraq, hələ də ermənilər və Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana vermir, vermək istəmir, min cür fırıldaq işlədib bundan boyun qaçırırlar. Onlara dəstək olanlar, qahmar çıxanlar da - elə Qərbdəkilər də, elə ATƏT-dəkilər də, elə həmsədrlik institutunda əyləşənlər də onlara gözün üstə qaşın var demir, erməniləri və Ermənistanı öz öhdəliklərinə sadiq qalmağa, onları yerinə yetirməyə məcbur etmirlər.

Yenə də oyun oynayırlar, yenə də “bulanıq suda balıq sevdası”ndadırlar. Onlar ədalət, həqiqət, sülh, təhlükəsizlik tərəfdarı olsaydılar, erməniləri və Ermənistanı çoxdan buna məcbur edərdilər. Amma elə ona görə iyunun 4-dəki faciə, qanlı hadisə də daxil olmaqla, hər biri ermənilər və Ermənistan qədər məsuliyyətli və günahkardır.

“Bəli, ermənilər və Ermənistan Susuzluqdakı qanlı hadisə ilə bir daha çirkin, murdar üzlərini açdılar, ifşa etdilər. Bir daha göstərdilər ki, canidirlər, cinayətkardırlar və başları yenə “dəmir yumruq” istəyir, - deyən deputat vurğulayıb ki, “dəmir yumruq” yenə yerində, yenə də öz əzəmətindədir və hər an işə düşə, ermənilərin, Ermənistanın, onların qanlı dəstəkçilərinin başına endirilə bilər. Əgər bunu istəmirlərsə, o zaman minalanmış ərazilərin xəritələrini təcili olaraq Azərbaycana təhvil verməli və torpaqlarımızdan birdəfəlik getməlidirlər.

Azərbaycan xalqının və dövlətinin əsəbləri ilə oynamamalı, əsəblərimizi yenidən tarıma çəkməməlidirlər. Çünki uduzan yenə onlar olacaq, bu dəfə isə birdəfəlik, əbədi olaraq!

Deputat qanlı hadisə zamanı həlak olanlara Allahdan rəhmət diləyib, yaxınlarına başsağlığı verib, yaralananların isə tezliklə şəfa tapmalarını arzulayıb.

Şəhidlər ölməz, Vətən bölünməz! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır və Qarabağ Azərbaycanındır!

**AZƏRTAC**
**2021, 5 iyun**

## "The USA Tribune" qəzeti: İki azərbaycanlı jurnalist minaya düşərək həlak olub

Amerikada çıxan "The USA Tribune" qəzetində iki azərbaycanlı jurnalist minaya düşərək həlak olub" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalə iyunun 4-də Azərbaycanın Kəlbəcər rayonunda baş vermiş faciəvi hadisəyə həsr olunub.

Materialda qeyd edilir ki, Azərbaycanın Kəlbəcər rayonunun Susuzluq kəndi yaxınlığında tank əleyhinə minanın partlaması nəticəsində Azərbaycan Dövlət Televiziyasının operatoru Sirac Əliyev, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimov (Əlioğlu) və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının nümayəndəsinin müavini Arif Əliyev həlak olub.

Faciəyə yerli vaxtla səhər saat 11:00 radələrində baş verib. Dörd nəfər müxtəlif dərəcəli xəsarətlər alaraq xəstəxanaya yerləşdirilib.

Azərbaycan Respublikası Baş Prokurorluğu və Daxili İşlər Nazirliyi mina partlayışı nəticəsində KİV işçilərinin həlak olması barədə birgə bəyanatla çıxış ediblər. Bəyanatda deyilir ki, erməni silahlı qüvvələri Azərbaycan ərazilərini minalamaqla Azərbaycan vətəndaşlarına qarşı cinayətkar əməllərini davam etdirirlər. Bu, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərinin, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının tələblərinin kobud şəkildə pozulmasıdır.

Azərbaycan Respublikası Hərbi Prokurorluğu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.2 (təcavüzkar müharibənin planlaşdırılması, hazırlanması, törədilməsi və ya aparılması), 116.0.6 (silahlı münaqişə dövründə beynəlxalq humanitar hüququn pozulması) və başqa maddələri üzrə cinayət işi qaldırıb.

Məqalədə qeyd edilir ki, Fransanın Azərbaycandakı səfiri Zakari Qross öz tviter səhifəsində azərbaycanlı jurnalistlərin həlak olması ilə əlaqədar başsağlığı verib.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın üç dinc sakininin həlak olması ilə əlaqədar başsağlığı verib. Xarici siyasət idarəsi rəhbərinin bəyanatında qeyd edilir ki, Ermənistan silahlı qüvvələrinin bir qrup hərbi qulluqçusu Kəlbəcər istiqamətində Azərbaycanın dövlət sərhədini pozmağa və bu rayonun yollarında yerüstü minalar quraşdırılmasına yönəlmiş provokasiya törətməyə cəhd edərkən saxlanılıb. Bu fakt bir daha təsdiq edir ki, Ermənistan həm hərbçilərin, həm də mülki əhalinin həyatına və təhlükəsizliyinə ciddi təhdid mənbəyidir və bununla regionda vəziyyətin kəskinləşməsinə şərait yaradır. C.Bayramov bəyan edib ki, Ermənistanın bu cür davranışı regionda sülhə, təhlükəsizliyə və əməkdaşlığa nail olmaq yolunda ciddi maneə kimi qalmaqda davam edir.

**AZƏRTAC-ın Vaşinqton bürosu**

**AZƏRTAC**
**2021, 5 iyun**

**Macarıstanın "Magyar Nemzet" nəşri azərbaycanlı jurnalistlərin Kəlbəcərdə minaya düşmələri barədə məlumat dərc edib**

Macarıstanın "Magyar Nemzet" nəşri "İki azərbaycanlı jurnalist minaya düşərək həlak olub" adlı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, nəşrdə Azərbaycanın işğalından azad edilmiş, lakin hələ də minalardan tam təmizlənməmiş Kəlbəcər rayonu ərazisində cümə günü baş vermiş faciədən söhbət gedir.

Məlumatda bildirilir ki, "Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) aparıcı müxbiri Məhərrəm İbrahimovun (Əlioğlu) və Kəlbəcər rayon İcra Hakimiyyəti başçısının Susuzluq kəndi üzrə nümayəndəsinin müavini Arif Əliyevin olduğu nəqliyyat vasitəsi həmin kəndin yaxınlığında yerli vaxtla təxminən səhər saat 11-də tank əleyhinə minaya düşüb. Hadisə nəticəsində Sirac Abışov, Məhərrəm İbrahimov və Arif Əliyev şəhid olub və digər dörd nəfər yaralı isə xəstəxanaya çatdırılıb.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Daxili İşlər Nazirliyinin birgə bəyanatında Ermənistan tərəfinin minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsi pislənilir və belə bir yanaşmanın beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərinə zidd olması vurğulanır.

**Pərvanə Qarayeva,**
**AZƏRTAC-ın xüsusi müxbiri, Budapeşt**

**AZƏRTAC**
**2021, 6 iyun**

**Azərbaycan Yaponiya Dostluq Mərkəzi Kəlbəcərdə mülki əhalinin minalardan həlak olması ilə əlaqədar müraciət yayıb**

Tokioda fəaliyyət göstərən Azərbaycan Yaponiya Dostluq Mərkəzi Kəlbəcərdə mülki əhalinin, xüsusən də jurnalistlərin erməni separatçıların basdırdığı minalardan həlak olması ilə əlaqədar müraciət yayıb.

AZƏRTAC xəbər verir ki, mərkəzin rəhbəri Xəlil Kələntərin imzaladığı müraciətdə Yaponiyanın dövlət qurumlarının, hakim və müxalifət partiyalarının, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələrinin diqqəti Ermənistan tərəfindən hələ də davam edən təxribatçı hərəkətlərə yönəldilir. Bunun bariz nümunəsi kimi, iyunun 4-də içərisində jurnalistlərin və digər mülki şəxslərin olduğu avtobusun ermənilər tərəfindən basdırılmış tank əleyhinə minaya düşdüyü və nəticədə üç nəfərin həlak olduğu qeyd edilir.

Müraciətdə bildirilir ki, Ermənistan 30 ilə yaxın müddətdə işğal altında saxladığı Azərbaycan ərazilərinə minaların basdırılmasına milyonlarla dollar sərf edib. Bu gün sosial-iqtisadi problemlər burulğanında boğulan dinc ermənilərin həmin vəsaitə böyük ehtiyacı var.

Mərkəzin rəhbərliyi Yaponiyanın müvafiq qurumlarını Ermənistanın davam etməkdə olan təxribatçı hərəkətlərini qətiyyətlə pisləməyə, buna qarşı etiraz səsini ucaltmağa çağırır. Vurğulayır ki, bu, bütün insanlığa qarşı törədilən terror aktıdır.

Bildirilir ki, baş verənlər Ermənistan tərəfindən Azərbaycan ərazisində həyata keçirilən diversiya və yolların növbəti minalama cəhdlərinin faciəvi nəticəsinə daha bir sübutdur. Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ partlayıcı qurğular müharibə başa çatdıqdan sonrakı 7 ay ərzində 120-dən çox insanın həlak olmasına və yaralanmasına səbəb olub.

Müraciət Ermənistanın bu təxribatçı hərəkətlərinin qarşısını almaq üçün lazımi tədbirlər görmək barədə çağırışla başa çatır.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tokio**

**AZƏRTAC**
**2021, 6 iyun**

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzi azərbaycanlı jurnalistlərin minaya düşərək həlak olmaları ilə bağlı bəyanat yayıb

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi jurnalistlərə, media mütəxəssislərinə və aidiyyəti şəxslərə silahlı qarşıdurma vəziyyətində olduğu kimi, hücumları qınayır və bu kimi təcrübələrə son qoymaq üçün bütün tərəflərə səslənir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Azərbaycan jurnalistlərinin minaya düşərək həlak olmaları ilə bağlı yaydığı bəyanatda yer alıb.

Bəyanatda qeyd olunub ki, silahlı münaqişə şəraitində mülki şəxslərin və digər qorunan şəxslərin qəsdən hədəfə alınması və beynəlxalq humanitar və insan hüquqlarının sistemli və açıq şəkildə pozulması beynəlxalq sülh və təhlükəsizlik üçün bir təhlükə ola bilər.

Kəlbəcər rayonunda minanın partlaması nəticəsində iki azərbaycanlı jurnalist və bir rəsmi həlak olub. Yük maşınının tank əleyhinə mina tərəfindən partlaması nəticəsində daha dörd nəfər yaralanıb. Azərbaycanda mina partlayışı qurbanlarının ailələrinə dərin hüznlə başsağlığı veririk.

Minaların mülki əhali üçün davamlı təhlükə yaratdığının və münaqişədən sonra bərpa işlərinə mane olduğunun qeyd edildiyi müraciətdə bildirilib: "BMT və ATƏT-in Minsk qrupu həmsədrlərini Ermənistan tərəfindən minalanmış bölgələrinin xəritələrinin təmin edilməsini asanlaşdırmağa və sürətləndirməyə çağırırıq. Bu, jurnalistlər də daxil olmaqla çoxlu sayda insanın həyatı üçün təhlükənin aradan qaldırılmasına ciddi kömək edə bilər. Bu dəstək, eyni zamanda, bölgədə ədalət, sülh, təhlükəsizlik və sabitliyin bərqərar olmasına böyük töhfə ola bilər".

Qeyd edək ki, bəyanatı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Dünya Bankının sabiq vitse-prezidenti İsmail Serageldin, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Mavritaniyanın sabiq Prezidenti Amina Qurab-Fakim, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipovic, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziya, Moldovanın sabiq Baş naziri Kirill Qaburiç, Pakistanın sabiq Baş naziri Şavkat Əziz, ICESCO-nun keçmiş baş direktoru Əbdüləziz əl-Tuveycri, Fransa Senatının üzvü Natali Qule, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin baş katibi Rövşən Muradov imzalayıblar.

**AZƏRTAC**
**2021, 6 iyun**

**Serbiya mətbuatında Kəlbəcər bölgəsindəki mina teraktı barədə məlumat yayımlanıb**

Serbiyanın "b92.net" nəşrində Azərbaycanın Kəlbəcər rayonunda jurnalistlərin və digər mülki şəxslərin həlak olması ilə nəticələnən erməni tərəfindən törədilən terakt haqqında məlumat yayımlanıb.

AZƏRTAC xəbər verir ki, materialda avtomobilin erməni terrorçuları tərəfindən basdırılmış tank əleyhinə minaya düşməsi anının videogörüntüləri əks olunub. Məqalədə qeyd olunur ki, Ermənistan tərəfindən 1949-cu il Cenevrə Konvensiyası kobud şəkildə pozulur. Çünki Ermənistan hələ də Azərbaycana minalanmış ərazilərinin xəritələrini təqdim etməkdən imtina edir.

**AZƏRTAC**
**2021, 6 iyun**

**UNESCO-nun baş direktoru Kəlbəcərdə azərbaycanlı jurnalistlərin ölümündən dəhşətə gəldiyini bildirib**

UNESCO-nun baş direktoru Odre Azule media nümayəndələri – Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun Kəlbəcərdə minaya düşərək həlak olmalarını pisləyib.

AZƏRTAC xəbər verir ki, UNESCO-nun baş direktoru jurnalistlərin faciəli ölümündən təəssüfləndiyini və dəhşətə gəldiyini bildirib. O qeyd edib ki, jurnalistlər peşə fəaliyyətlərini təhlükəsizlik şəraitində yerinə yetirə bilməlidirlər.

UNESCO-nun rəsmi internet səhifəsində yerləşdirilən bəyanatda qeyd edilib ki, media nümayəndələri peşə vəzifələrini yerinə yetirmək məqsədilə nəqliyyat vasitəsi ilə səfər edərkən tank əleyhinə minaya düşüblər. Partlayış nəticəsində Məhərrəm İbrahimov və Sirac Abışov, eləcə də rayon rəsmisi Arif Əliyev həlak olub. Partlayış nəticəsində daha dörd nəfər isə yaralanıb.

UNESCO xüsusilə BMT-nin Jurnalistlərin Təhlükəsizliyi və Cəzasızlıq Məsələləri üzrə Fəaliyyət Planı çərçivəsində qlobal maarifləndirmə və bir sıra digər tədbirlər vasitəsilə jurnalistlərin təhlükəsizliyini təbliğ edir.

**Şəhla Ağalarova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Paris**

**AZƏRTAC**
**2021, 7 iyun**

**Kəlbəcərdəki terror aktı Ermənistanın beynəlxalq hüquq normalarını kobud surətdə pozmasının növbəti sübutudur**

Azərbaycanın Ermənistan üzərindəki rəşadətli Qələbəsi nə işğalçı dövlət, nə də onun havadarları tərəfindən hələ də həzm oluna bilmir. Müharibə qaydalarını ciddi şəkildə pozan Ermənistan ordusu sərhədboyu ərazilərdən uzaqda məskunlaşmış mülki əhalini hədəfə almaqla faşizm ideologiyasına sadiqliyini nümayiş etdirir. Ermənilərin 44 günlük müharibə dövründə dinc əhalinin yaşadığı ərazilərə ağır artilleriyadan və qadağan olunmuş silahlardan atəş açmaqla günahsız insanların qətlə yetirilməsi barədə beynəlxalq təşkilatlar da məlumatlandırılıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirdib.

Hüquq müdafiəçisi deyib ki, müharibə başa çatsa da, erməni faşistləri yenə müxtəlif vasitələrlə insanların qətlə yetirilməsinə cəhd edir və bəzi hallarda buna nail olurlar. Beynəlxalq təşkilatlara dəfələrlə məlumat verilsə də, Ermənistan tərəfi bu gün də minalan¬mış sahələrin xəritəsini təqdim etmir. Bu da hərbçilərin, həmçinin mülki əhalinin faciəvi ölümü ilə nəticələnir.

İyunun 4-də daha bir faciəli hadisənin şahidi olduq. Belə ki, xidməti vəzifələrinin icrası ilə əlaqədar işğaldan azad edilmiş Kəlbəcər rayonuna ezam olunmuş televi¬ziya kanallarının və xəbər agentliklərinin əməkdaşlarının olduğu “KamAZ” markalı sərnişin avtomobili rayonun Susuzluq kəndi istiqamətində hərəkətdə olarkən tank əleyhinə minaya düşüb. Nəticədə 3 nəfər – AzTV-nin operatoru Sirac Abışov, Azərbaycan Dövlət İnformasiya Agentliyinin əməkdaşı Məhərrəm İb¬rahimov və Kəlbəcər RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olub, digər 4 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri almaqla xəstəxanaya yerləşdirilib. Bu, ermənilərin növbəti vandaliz¬mi, insanlığa xas olmayan vəhşiliyidir.

Ermənistan ordusunun qəddarlığı, faşizmə xas olan hərəkətləri barədə dəfələrlə beynəlxalq təşkilatlara müraciət olunsa da, bu vaxta qədər heç bir tədbirin görülməməsi, sanksiyaların tətbiq edilməməsi ikili standartların, islamofobiyanın göstəricisidir. Ermənistan açıq şəkildə beynəlxalq hüquq norma və prinsiplərinə hörmətsizlik edir, dünya isə buna laqeyd yanaşır. Daha dəqiq desək, ermənilərin nazı ilə oynayır. Maraqlıdır, görəsən, Ermənistan qərəzli beynəlxalq təşkilatların əlində oyuncaqdır, yoxsa həmin təşkilatlar Ermənistan üçün alətə çevrilib? Belə olmasaydı, bu vaxta qədər ermənilərin ərköyünlüyünə bu qədər dözümsüzlük göstərməzdilər.

Ç.Qənizadə Azərbaycan işğaldan azad edilmiş ərazilərdə insanların həyatı üçün təhlükə yaradan minaların yerlərinə dair Ermənistanın müvafiq xəritələri təqdim etməkdən imtinası ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə də şikayət göndərildiyini vurğulayıb. Xatırladıb ki, Ermənistan ilə Azərbaycan arasındakı bütün hərbi əməliyyatlara son qoymuş üç ölkənin rəhbərləri tərəfindən 2020-ci il 10 no¬yabr tarixli Birgə Bəyanatın imzalandığı vaxtdan etibarən Azərbaycan dəfələrlə Ermənistandan minalanmış ərazilərin xəritələrini verməyi tələb edib. Ancaq düşmən tərəf bu günə qədər həmin xəritəni təqdim etməyib. Hətta bu barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinə müraciət edilsə də, heç bir faydası olmayıb.

Ermənistanın minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtinasının heç bir əsası yoxdur – deyə hüquq müdafiəçisi bildirib. O deyib: “Yeganə məqsəd bölgədə Azərbaycan əhalisinin həyatına qəsd etməkdir. İnsanların həyatını xilas etmək səylərinə kömək edə biləcək bu xəritələri və digər zəruri məlumatları Ermənistanın təqdim etməkdən imtinası Azərbaycan əhalisinin İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolunun 1-ci maddəsi, 4 saylı Protokolunun 2(1) və 3(2) maddələrindən irəli gələn hüquqları¬nın ciddi şəkildə pozulmasına səbəb olur. Hətta Ermənistanın beynəlxalq hüquq normalarına qarşı hörmətsizliyinin qarşı¬sının alınması üçün Avropa Məhkəməsinə çağırışlar olub”.

Artıq Avropa Məhkəməsinə ikinci müraciət olunub. Bu müraciət Ermənistana qarşı ikinci dövlətlərarası şikayət olmaqla bu ölkəyə beynəlxalq hüquqdan irəli gələn öhdəliklərinə əməl etməsi istiqamətində təzyiqin artırılmasına hesablanıb.

Komitə sədri xatırladıb ki, Ermənistan tərəfindən yerləşdirilən müxtəlif növ minalar və digər partlayıcı qurğular birgə bəyanat imzalandığı gündən bəri 120-dən çox insanın ölümünə, yaxud yaralanmasına səbəb olub. Birgə bəyanat imzalandıqdan sonrakı yeddi ay ərzində işğaldan azad edilmiş ərazilərdə təxminən 100 milyon kvadratmetr sahədə 35 mindən çox mi¬nanın zərərsizləşdirilməsinə baxmayaraq, mina qurbanlarının sayı artmaqda davam edir. Ermənistanın minalanmış ərazilərin

xəritələrinin təhvil verilməsindən imtina etməsi doğma ocaqlarından zorla didərgin salınmış bir milyondan artıq soydaşımızın təxminən 30 il sonra ata - baba yurdlarına qayıtmalarına ciddi problem yaradır.

Ç.Qənizadə deyib: "Bu gün Ermənistanın Azərbaycanın mülki əhalisini məhv etməyə hesablanmış təcavüz aktları həyata keçirməsi 1949-cu ildə qəbul edilən Cenevrə Konvensiyasına tamamilə ziddir. Bütün dövlətlər 1925-ci il Cenevrə protokoluna və 1949-cu il Cenevrə konvensiyalarına, həmçinin silah¬lı münaqişələr dövründə insan hüquqlarına hörmət edilməsinə aid digər beynəlxalq hüquq aktlarına müvafiq öhdəliklərini tam yerinə yetirməlidirlər.

Dünya birliyi Ermənistanın beynəlxalq hüquq normalarını kobud şəkildə pozmasına biganə qalmamalı və bu hegemonluğun qarşısı dərhal alınmalıdır".

**AZƏRTAC**
**2021, 7 iyun**

**Alman siyasətçi Azərbaycanın Kəlbəcər rayonunda mülki vətəndaşların həlak olması ilə əlaqədar başsağlığı verib**

AFR federal hökuməti nəzdində insan haqları və humanitar dəstək məsələləri üzrə komissar, Almaniya Bundestaqının üzvü Berbel Kofler Azərbaycanın Kəlbəcər rayonunda azərbaycanlı jurnalistlərin və bələdiyyə üzvünün həlak olmaları ilə əlaqədar özünün tvitter mikrobloqunda şərh yazıb.

AZƏRTAC xəbər verir ki, məlumatda deyilir: “Mina partlaması nəticəsində iki jurnalistin – Məhərrəm İbrahimovun (Əlioğlu) və Sirac Abışovun ölümü dəhşətli xəbərdir! Həlak olanların yaxınlarına başsağlığı verirəm. Ümidvaram ki, vəziyyətə aydınlıq gətiriləcək. Regionun hərtərəfli sülhə ehtiyacı var”.

**Vüqar Seyidov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Berlin**

**AZƏRTAC**
**2021, 8 iyun**

**Beynəlxalq Mətbuat İnstitutu Kəlbəcərdə həlak olan azərbaycanlı jurnalistlərlə bağlı bəyanat yayıb**

İyunun 11-də Beynəlxalq Mətbuat İnstitutu (BMİ) Azərbaycanın işğaldan azad edilmiş Kəlbəcər rayonunda iki azərbaycanlı jurnalistin Ermənistanın basdırdığı minaya düşərək həlak olmaları ilə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Beynəlxalq Avrasiya Mətbuat Fondundan (BAMF) məlumat verilib. Qeyd olunub ki, bəyanat Beynəlxalq Mətbuat İnstitutunun Milli Komitəsinin rəhbəri Umud Mirzəyevin BMİ-nin icraçı direktoru Barbara Trionfiyə ünvanladığı məktuba əsasən hazırlanıb.

Bəyanatda iyunun 4-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimovun və Azərbaycan Televiziyasının operatoru Sirac Abışovun Ermənistanın mina terroru nəticəsində həyatlarını itirməsindən məyusluq ifadə edilir, jurnalistlərin ailələrinə və çalışdıqları kollektivlərə başsağlığı verilir.

BMİ-nin bəyanatında bu faciəli hadisə zamanı daha bir mülki şəxsin həlak olduğu və 4 nəfərin yaralandığı qeyd olunur. Qurumun direktor müavini Skot Qriffen yazıb ki, biz Ermənistanı minalanmış ərazilərin xəritəsini verməyə çağırırıq. Bu, gələcəkdə belə faciələrin qarşısını almağa imkan verəcək. Təəssüf ki, Ermənistan Azərbaycan tərəfinin minalanmış ərazilərin xəritələrinin verilməsi barədə israrlı tələblərini hələ də cavablandırmayıb.

**AZƏRTAC**
**2021, 11 iyun**

**Kəlbəcərdə xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş jurnalistlər və yerli icra hakimiyyətinin nümayəndəsi təltif edilib - SƏRƏNCAM**

İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İşğaldan azad olunan ərazilərdə vəzifə borcunu yerinə yetirmiş bir qrup şəxsin 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının işğaldan azad olunan ərazilərində vəzifə borcunu ləyaqətlə yerinə yetirərkən həlak olmuş Abışov Sirac Abış oğlu, Əliyev Arif Ağalar oğlu və İbrahimov Məhərrəm Əli oğlu 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərin çəkilişini həyata keçirən jurnalistləri aparan nəqliyyat vasitəsi iyunun 4-də Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində tank əleyhinə minaya düşüb. Nəticədə AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov, AZTV-nin operatoru Sirac Abışov və Kəlbəcər Rayon İcra Hakimiyyəti başçısının Susuzluq kənd inzibati dairəsi üzrə nümayəndəsinin müavini Əliyev Arif Ağalar oğlu həlak olub, dörd nəfər yaralanıb.

**AZƏRTAC**
**2021, 14 iyun**

**XİN: Ermənistanın davamlı təxribatlara əl atması, bölgədəki vəziyyəti gərginləşdirmək cəhdləri qəbuledilməzdir**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına əsasən, bu il iyulun 23-də Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsindəki mövqelərini atəşə tutub. Qarşı tərəfdən açılan snayper atəşi nəticəsində bir hərbi qulluqçumuz şəhid olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, son zamanlar Ermənistan tərəfinin davamlı təxribatlara əl atması, Azərbaycan mövqelərini atəşə tutaraq, bölgədəki vəziyyəti gərginləşdirmək cəhdləri qəbuledilməzdir və vəziyyətin bu şəkildə inkişafının bütün məsuliyyəti Ermənistanın üzərinə düşür.

Azərbaycan beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü müdafiə etmək, habelə bölgədə sülh və təhlükəsizliyi təmin etmək üçün bütün lazımi addımları atmaq hüququnu özündə saxlayır.

Allah şəhidimizə rəhmət eləsin.

**AZƏRTAC**
**2023, 23 iyul**

**Müdafiə Nazirliyi: Kəlbəcər istiqamətində gərginlik davam edir**

İyulun 28-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonu istiqamətində başladığı təxribatın qarşısının alınması məqsədilə Azərbaycan Ordusunun həyata keçirdiyi cavab tədbirləri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimiz tərəfindən qarşı tərəfin atəş nöqtələrinin neytrallaşdırılması istiqamətində zəruri addımlar atılıb.

Ermənistan ərazisində guya mülki obyektlərə zərərin yetirilməsi barədə xəbərlər yalandır və sırf dezinformasiya məqsədi daşıyır. Ermənistan hərbi-siyasi rəhbərliyi ənənələrinə sadiq olaraq Ermənistan ictimaiyyətini və beynəlxalq aləmi çaşdırmaq üçün yalan məlumatlar yaymaqda davam edir.

“Ermənistanın hərbi-siyasi rəhbərliyini iki ölkənin dövlət sərhədində hərbi avantüra məqsədi daşıyan təxribatlar və vəziyyəti qəsdən gərginləşdirmək əməllərindən çəkinməyə və sivil qaydada dövlət sərhədinin delimitasiyası üzrə danışıqlara başlamağa çağırırıq.

Müdafiə Nazirliyi bir daha bildiririk ki, Ermənistan-Azərbaycan dövlət sərhədində vəziyyətin gərginləşdirilməsinə görə məsuliyyət tam olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Hazırda bu istiqamətdə əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Azərbaycan Respublikasının sərhədlərinin toxunulmazlığını təmin etmək üçün Ermənistanın bütün təxribatlarının qarşısı bundan sonra da qətiyyətlə alınacaq”, - deyə Müdafiə Nazirliyinin məlumatında bildirilib.

**AZƏRTAC**
**2021, 28 iyul**

**Misir portalı Prezident İlham Əliyevin Kəlbəcərdə çıxışının əsas məqamlarını işıqlandırıb**

Misirin nüfuzlu "Aldiplomasy" portalında Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər rayonuna səfəri zamanı etdiyi çıxışın əsas məqamlarına geniş yer verilib.

AZƏRTAC-a istinadla yayımlanmış xəbərdə Prezident İlham Əliyevin ermənilərin işğal dövründə Azərbaycanın təbii sərvətlərini qanunsuz talan etdiklərini vurğuladığı qeyd olunub. Dövlətimizin başçısının bu işlərdə ermənilərə yardım edən bəzi xarici şirkətlərin ya Azərbaycana təzminat ödəyəcəkləri, ya da beynəlxalq məhkəmədə cavab verməli olacaqları barədə fikri xüsusi vurğulanıb.

Yazıda diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı artıq məhkəmə prosedurlarının başladığını qeyd edib: "Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər".

Misirli oxucuların diqqətinə Prezident İlham Əliyevin Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yollarının xüsusi əhəmiyyətə malik olması, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrini "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoyması fikirləri də yer alıb.

**Oqtay Bayramov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Qahirə**

**AZƏRTAC**
**2021, 17 avqust**

**Deputat: Prezident İlham Əliyevin qalib Lider kimi Kəlbəcər və Laçın rayonlarına səfəri mühüm tarixi və strateji əhəmiyyətə malikdir**

Azərbaycan Prezidenti İlham Əliyevin qalib Lider kimi Kəlbəcər və Laçın rayonlarına səfəri mühüm tarixi və strateji əhəmiyyətə malikdir. Azərbaycan Prezidenti torpaqlarımızı işğaldan azad edərək tarix yazan şanlı və qalib Ordunun Müzəffər Ali Baş Komandanı kimi çıxışında ölkəmizin prinsipial mövqeyini növbəti dəfə qətiyyətlə ifadə etdi, hazırkı hərbi-siyasi vəziyyəti dəqiq qiymətləndirdi, Ermənistana, onun havadarlarına ünvanlanmış açıq və konkret mesajlar verdi. Bir daha aydın oldu ki, siyasi və hərbi-strateji şərait tam Azərbaycanın nəzarətindədir. Öz milli gücü vasitəsilə ərazi bütövlüyünü bərpa edən və hazırda bütün şərtləri diktə edən Azərbaycan istənilən təxribat cəhdinin qarşısını almaq, revanşizm təfəkkürü ilə yaşayan erməni faşizminin başını əzmək iqtidarındadır.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Hikmət Babaoğlu deyib.

Deputat bildirib ki, Azərbaycan 44 günlük Vətən müharibəsində bir çox mifi darmadağın edərək reallığın nədən ibarət olduğunu təkcə işğalçı Ermənistana deyil, hələ də müstəmləkəçilik təfəkkürü ilə yaşayan mərkəzlərə, ermənipərəst və islamofob dairələrə sübut etdi. Azərbaycan Ordusu "qəhrəman erməni əsgəri", "görkəmli erməni sərkərdələri" kimi mifi darmadağın etdi. Rəşadətli Ordumuz döyüş meydanında öz sözünü dedi, ancaq əliyalın insanlarla müharibə aparmaq qabiliyyətinə malik olan erməni cəlladları qaçıb gizləndilər. Xocalıda dinc əhalini qıran Koçaryan, Sarkisyan, Ohanyan kimi canilər rəşadətli Ordumuzun qarşısına çıxmaqdan qorxaraq Yerevana qaçdılar. Azərbaycan Silahlı Qüvvələri "yenilməz erməni ordusu" mifini də məhv edərək təcavüzkar qüvvələrə layiqli cəza verdi. Bunu görmək istəyənlər xalqımızın çoxəsrlik tarixinin bənzərsiz qələbəsi olan tarixi Zəfərimizin rəmzi kimi çıxış edən Hərbi Qənimətlər Parkına nəzər salsınlar.

YAP İdarə Heyətinin üzvü vurğulayıb ki, Prezident İlham Əliyev səfər zamanı, həmçinin Azərbaycan dövlətinin milli maraqlara əsaslanan bütün məsələlərdə prinsipial yanaşma ortaya qoyduğunu diqqətə çatdırdı. Bu kontekstdə işğal dövründə Azərbaycanın təbii sərvətlərini talayan xarici şirkətlərin cinayətlərinin gündəmə gətirilməsi xüsusi əhəmiyyətə malikdir. Dövlətimizin başçısı bu şirkətlərin iki yolu olduğunu – ya təzminat ödəyəməli olduqlarını, ya da beynəlxalq məhkəməyə veriləcəklərini vurğuladı. Bu, heç şübhəsiz, haqlı və ədalətli mövqedə olan Azərbaycanın qətiyyətinin bariz nümunəsi, milli gücünün ifadəsidir.

Bunlarla yanaşı, dövlətimizin başçısı Azərbaycanın strateji hədəfləri, perspektivə baxışı və çoxşaxəli fəaliyyət istiqamətləri ilə əlaqədar konkret məsələlərə toxundu. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq prosesi, zəruri infrastruktur yaradılması istiqamətində işlərin ardıcıl olaraq davam etdirildiyini, ölkəmizin "Böyük qayıdışı" ən yüksək səviyyədə davam etdirmək əzmində olduğunu nəzərə çatdırdı.

H.Babaoğlu diqqətə çatdırıb ki, dövlətimizin başçısının "Biz Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır", "Biz harada lazım bilsək, orada da duracağıq" fikirləri isə qalib Liderin qəti iradənin, əzmin və prinsipial mövqeyinin ifadəsidir. Nəticə etibarilə, Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər Azərbaycan dövlətinin öz qətiyyətli mövqeyindən bir addım da geri çəkilmədiyini, bütün strateji hədəflərinə addım-addım irəlilədiyini göstərir.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Səttar Möhbalıyev: Azərbaycan Prezidentinin səfəri göstərdi ki, Kəlbəcər və Laçının parlaq gələcəyi uzaqda deyil**

Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə şəxsən özü nəzarət edir. Mütəmadi olaraq həmin ərazilərə səfərlər edir, görülən işlərin gedişi ilə maraqlanır, yeni infrastruktur layihələrinin təməlini qoyur. Bu, Azərbaycan Prezidentinin işğaldan azad olunan ərazilərimizə nə qədər önəm verdiyinin təzahürüdür.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.

Onun sözlərinə görə, dövlətimizin başçısının hər dəfə işğaldan azad olunan ərazilərimizə səfərləri xalqımız üçün yeni müjdələrdən xəbər verir. Avqustun 16-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarına səfərləri zamanı dövlətimizin başçısının Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində - Murovdağda və Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunellərin, həmçinin Laçın Beynəlxalq Hava Limanının təməllərini qoyması, eyni zamanda “Kəlbəcər” yarımstansiyasının açılışını etməsi kompleks şəkildə görülən işlərin əhəmiyyətini və miqyasını göstərir. Çətin keçilən relyefə malik ərazilərimizdə müasir standartlara cavab verən yolların çəkilməsi, tunellərin inşası uzun zaman və böyük məbləğdə maliyyə vəsaiti tələb etsə də, görürük ki, dövlətimiz bunların öhdəsindən ləyaqətlə gəlir. “Mən həm də bir iqtisadçı kimi, müsahibələrimdə Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu bildirmişəm. İşğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətini bir daha ortaya qoyur. Bir fakta diqqət çəkmək istəyirəm. Biz hələ də tam sovuşmayan pandemiya şəraitində yaşayırıq. Bilirik ki, pandemiya bütün dövlətlərin iqtisadi əsaslarını laxlatdı, sosial vəziyyəti ağırlaşdırdı. Həm də biz müharibədən çıxmış bir dövlətik. Müharibə aparmaq və bu müharibədə qalib gəlmək həmçinin böyük iqtisadi güc tələb edir. Azərbaycan iqtisadiyyatı hər iki sınaqdan üzüağ çıxdı. Eyni zamanda, müharibədən dərhal sonra işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işlərinə başlanması dediklərimizi bir daha təsdiq edir. Hamıya məlumdur ki, bütün bu uğurların önündə Prezident İlham Əliyevin düzgün qurulmuş iqtisadi siyasəti dayanır. Heç vaxt öz torpaqları, əraziləri olmayan indiki Ermənistan qədim Azərbaycan torpaqlarında yaradılıb. Qurama, süni bir dövlətdir. Tarixə nəzər salsaq, görərik ki, Ermənistanın mövcud olduğu ərazilərin adları Azərbaycan adlarıdır. Kəlbəcərdə səfərdə olarkən Prezident İlham Əliyev bu məsələyə toxundu. Bildirdi ki, həmin ərazilərin adları sonradan dəyişdirilib, erməni adları verilib. Ermənilərin “Vardenis” adlandırdığı rayon əslində qədim Azərbaycan torpağı Basarkeçərdir, Göyçə mahalının tərkibindədir. Dövlətimizin başçısı çox əhəmiyyətli bir təşəbbüs irəli sürdü. Vurğuladı ki, biz indiki Ermənistan ərazisində qalan torpaqlarımızı əsl adı ilə adlandırmalıyıq. Həqiqətən də, bu, çox vacib və strateji bir məsələdir. Biz öz tariximizə sahib çıxan xalqıq. Bu da bizim tarixi haqqımızdır. Gələcək nəsillər də bunu bilməlidir ki, Ermənistan dövləti qədim Azərbaycan torpaqlarında quraşdırılıb. Xislətlərində işğalçılıq meyilləri buradan qaynaqlanır. Amma Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, həmçinin xalqımızın bir yumruq kimi nümayiş etdirdiyi sarsılmaz birlik bir də çətin yadlarına düşə biləcək işğal arzularını alt-üst etdi”, - Milli Məclisin deputatı vurğulayıb.

“İşğal dövründə ermənilər Basarkeçərdən Kəlbəcərə Laçın dəhlizinə alternativ yol çəkəndə biz buna ciddi etiraz etdik, daxilimizdə bir narahatlıq var idi. Axı bu ərazilər bizimdir. İkili standartlardan çıxış edən beynəlxalq və regional təşkilatlar, həmçinin münaqişənin həlli ilə məşğul olan Minsk qrupu buna göz yumdu. Onlar digər yollar da çəkmək niyyətində idilər, qanunsuz məskunlaşma da həyata keçirirdilər. “Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm”, - deyən Prezidentimizin böyük məharətlə hazırladığı və uğurla tətbiq etdiyi strategiyası nəticəsində bu yoldan bu gün biz istifadə edirik. Dağıtdıqları şəhərləri, kəndləri bərpa edirik. Oraya qayıdacaq sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılır. Təbii ki, həmin ərazilərə turist axını da çox olacaq. Kəlbəcərin, həmçinin işğaldan azad edilmiş digər ərazilərimizin turizm imkanları çox genişdir. Bu istiqamətdə də kompleksi işlər görülür. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoydular. Bundan öncə isə Füzuli və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisinə başlanıldı. Bölgənin işıqlı gələcəyinə rəng qatacaq bu cür layihələr ümumilikdə ölkəmizin hərtərəfli inkişafına töhfə vermiş olacaq”, - S.Möhbalıyev qeyd edib.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Azərbaycan Prezidenti: Kəlbəcər işğal altına düşəndən sonra digər torpaqların işğalı da labüd idi**

Kəlbəcər işğal altına düşəndən sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yarandı və artıq digər torpaqların işğalı da labüd idi. Çünki AXC-Müsavat hakimiyyəti ordu quruculuğuna fikir vermirdi, orduda heç bir islahat aparılmırdı. Əksinə, ordumuzu zəiflətmək üçün hər vasitədən istifadə edirdi.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev avqustun 16-da Kəlbəcər şəhərində dövlət bayrağının ucaldılması mərasimində çıxış edərkən deyib.

Torpaqlarımızın işğal altına düşdüyü zaman AXC-Müsavat cütlüyünün laxlamış hakimiyyətini qorumaq üçün Gəncəni bombaladığını qeyd edən Azərbaycan Prezidenti bildirib: “Onlar Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu videokadrlar var. Burada ermənilər soyqırımı törədirdilər, şəhərlərimizi viran qoyurdular. Baxın, Kəlbəcər nə gündədir, digər şəhərlər nə gündədir. Onlar isə Azərbaycan əsgərlərini əsir götürüb, öz hakimiyyətini möhkəmləndirmək istəyirdilər. Görəndə ki, artıq bu da mümkün deyil, qaçdılar gizləndilər, dövlət səviyyəsində fərarilik etdilər. AXC-Müsavat hakimiyyəti, onun başında duranlar fəraridirlər, satqındırlar, qorxaqdırlar, xaindirlər və bu, əsl həqiqətdir”.

**AZƏRTAC**
**2021, 17 avqust**

## Azərbaycan Prezidenti: Kəlbəcərin işğal altına düşməsi xalqımızın böyük faciəsi idi

Kəlbəcərin azad edilməsi tarixi hadisədir. Kəlbəcərin işğal altına düşməsi isə xalqımızın böyük faciəsi idi. Çünki Laçın və Şuşa rayonları 1992-ci ilin may ayında işğal altına düşəndən sonra ermənilərin növbəti hədəfi Kəlbəcər idi. Şuşa və Laçının işğalı ilə bağlı artıq Azərbaycanda çox dəqiq təsəvvür var.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev avqustun 16-da Kəlbəcər şəhərində dövlət bayrağının ucaldılması mərasimində çıxış edərkən deyib.

Şuşa və Laçının işğala məruz qalmasının AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində baş verdiyini deyən dövlətimizin başçısı bildirib: “O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC-Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir”.

AXC-Müsavat cütlüyünün xəyanətkar, satqın, antimilli hakimiyyətinin Kəlbəcərin işğalını şərtləndirdiyini qeyd edən Azərbaycan Prezidenti bildirib: “Çünki 1992-ci ilin bahar-yay aylarından onlar demək olar ki, hakimiyyətdə idilər və bir il ərzində ancaq talançılıqla, rüşvətxorluqla, soyğunçuluqla, qanunsuzluqla və digər çirkin əməllərlə məşğul idilər. İndi bir çoxları bunu unudur. Gənc nəsil isə bundan xəbərsizdir. O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər. Kəlbəcərin işğala məruz qalması satqın AXC-Müsavat hakimiyyətinin əməlləridir”.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Deputat: Prezidentin və birinci xanımın Kəlbəcərə və Laçına səfərləri erməni təxribatlarının arxasında dayananlara cəhdlərinin əbəs olduğuna dair mesajdır**

Prezident İlham Əliyev "CNN Türk"ə verdiyi müsahibədən iki gün sonra - avqustun 16-da birinci xanım Mehriban Əliyeva ilə Kəlbəcər və Laçın rayonlarına səfər etdilər. Dövlətimizin başçısı həmin müsahibədə Ermənistanın hamilərinə və dünya birliyinə kifayət qədər ciddi, açıq və sətiraltı mesajlar ünvanlamışdı. Elə bu səbəbdən, müsahibə beynəlxalq media ilə yanaşı, ölkə mətbuatında və sosial şəbəkələrdə geniş müzakirələrə yol açıb. Bu da təsadüfi deyil. Çünki Ermənistanın atəşkəsi davamlı şəkildə pozması, müttəfiqlərindən və havadarlarından gələn qızışdırıcı və ziddiyyətli açıqlamalar cəmiyyətimiz tərəfindən yeni müharibəyə çağırış kimi qiymətləndirilir, haqlı olaraq etirazla qarşılanır. Prezidentin müsahibəsi bir daha əminlik yaratdı ki, Ermənistanın təqsiri üzündən dövlət sərhədlərimizdə, Qarabağda və Şərqi Zəngəzurda baş verən ən xırda insident belə, Azərbaycan hakimiyyətinin xüsusi diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin verdiyi açıqlamalar və səsləndirdiyi mesajlar Ermənistanın müharibədən sonrakı təxribatlarının səbəblərinə rəsmi şəkildə aydınlıq gətirdi və ictimai müzakirələrdə irəli sürülən ehtimallardan bəzilərinin əsassız olmadığını təsdiq etdi. Prezident İlham Əliyevin "Rusiyanın sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli Bəyanatına ziddir" məzmunlu ismarıcı, Rusiya müdafiə nazirinin Ermənistanın silahlandırılması ilə bağlı açıqlamasının sülhməramlı missiyanın mahiyyətinə uyğun olmadığının qeyd edilməsi və qonşu İrandan İslami dəyərlərə uyğun olan dost davranışı gözləntimizin vurğulanması, Zəngəzur dəhlizinin açılması ilə bağlı mövqeyimizin Avropa İttifaqının rəsmi mövqeyi ilə tam üst-üstə düşdüyünün altının cızılması, digər açıq və sətiraltı mesajlar əksər mətləblərə aydınlıq gətirdi.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ülvi Quliyev söyləyib.

Deputat vurğulayıb ki, dövlətimizin başçısı məhz bu mesajlarını ictimailəşdirdikdən sonra Kəlbəcər və Laçın rayonlarına səfər etdi. O əraziyə ki, Ermənistan son vaxtlar atəşkəsi əsasən bu istiqamətdə pozur. Səfər üçün Kəlbəcər və Laçının seçilməsi, onun məhz müsahibədən sonrakı günə təsadüf etməsi erməni təxribatlarının, buna rəvac verənlərin qarşısında ölkəmizin inamlı və qətiyyətli ali siyasi iradəsinin dayandığının nümayişidir. Prezident İlham Əliyevin səfər çıxışında söylədiyi növbəti fikir Ermənistana dirijorluq edənlərə müsahibədə ünvanladığı mesajlarının daha sərt məzmunlu məntiqi davamıdır: "Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq... Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir".

Ermənistan tərəfindən atəşkəsin daha çox pozulduğu əraziyə Prezident İlham Əliyevlə Mehriban xanım Əliyevanın birgə səfər etməsi erməniləri cızığından çıxmağa təhrik edənlərə həmin cəhdlərinin əbəs olduğuna açıq ismarıcdır. Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində, Murovdağında inşa olunacaq 11.6 kilometr uzunluğunda tunelin təməlini qoydular, "Kəlbəcər-1" Su Elektrik Stansiyasında aparılan yenidənqurma işləri ilə tanış oldular, "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər, Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3.4 kilometr uzunluğundakı tunelin təməlini atdılar, Laçın rayonunun Qorçu kəndi ərazisində Laçın Beynəlxalq Hava Limanının təməlqoyma mərasimində iştirak etdilər. Prezident İlham Əliyev Qarabağda və Şərqi Zəngəzurda dəyəri milyardlarla ölçülən bu və digər layihələrə start verməklə, onları əyani şəkildə nümayiş etdirilməklə Ermənistana və onu təxribata sürükləyən dairələrə bu mesajı verdi ki, heç kim və heç bir təxribat Azərbaycanı yolundan döndərə və dayandıra bilməz.

Ülvi Quliyev diqqətə çatdırıb ki, Prezident İlham Əliyev səfər çərçivəsində cəmiyyətimizə də çağırış etdi: "Basarkeçər rayonuna Ermənistanda "Vardenis rayonu" deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır... Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri". Prezidentin bu çağırışını xatırlatmağım təsadüfi deyil, məqsədlidir. Qaragöl ətrafında tarixi və beynəlxalq hüquqla tanınan sərhədlərimizdə mövqelərimizi möhkəmləndirdikdən sonra ermənilər hay-küy saldılar ki, guya Azərbaycan onların ərazisinə keçib. Ən ağrılısı odur ki, bu hay-küyü qızışdıranlar təkcə onların xaricdəki havadarları deyildi. Təəssüf ki, öz içərimizdən olan bəziləri də kimlərinsə dirijor çubuğu ilə erməni isterikasında onlara züy tuturdular. Beləlləri, əsasən, AXC-Müsavat hakimiyyətində təmsil olunan və səriştəsizlikləri ucbatından xalqımız tərəfindən hakimiyyətdən qovulan, Qarabağın işğalına görə məsuliyyət daşıyan o zamankı siyasi camiyənin günümüzə qədər gəlib çatmış bəzi təmsilçiləridir. Nə qədər paradoksal görünsə də, məhz onlar hələ də barışmaz, radikal siyasi müxalifət adına iddia edir, ötən günlərinin həsrəti ilə alışıb-yanırlar. Yansınlar, amma elə ümummilli məsələlər var ki, siyasi

düşərgədən asılı olmayaraq, bu cür məqamlarda qırmızı xətti keçmək və onu tapdalamaq xalqımız tərəfindən erməni dəyirmanına su tökmək, xəyanət kimi qəbul edilir. Çünki məhz belələri Ermənistanın siyasi-hərbi hakimiyyətinin və ona xaricdən havadarlıq edən məlum dairələrin yalanla dolu ritorikasını eynilə təkrarlayır, sosial şəbəkələrdə və yutub kanallarında bar-bar bağırırlar ki, guya atəşkəsi ermənilər deyil, ölkəmiz pozur. Həmin şəxslər bunu müxalifətçilik və söz azadlığı hesab edirlərsə, kökündən yanılırlar. Hakimiyyətə müxalif olmaq olar, millətə və xalqa isə əsla. Ona görə də bu cür addımlar cəmiyyətimiz tərəfindən bağışlanmır və satqınlıq kimi qiymətləndirilir. Hətta bir anlığa, yalnız nəzəri cəhətdən ehtimal etsək ki, Azərbaycan əsgəri hərbi üstünlüyümüz naminə hansısa strateji yüksəklikdə möhkəmlənib, bunu azərbaycanlı siyasətçi, politoloq və ya ekspert adı altında qəsdən qabardan birisi Azərbaycan cəmiyyətinin əfvinə və güzəştinə heç vaxt ümid edə bilməz. Nə qədər gülməli olsa da, reallıq budur ki, onların arasında vaxtilə qoz və hamam vədi ilə camaatın dilində lətifələr "qəhrəmanına" və istehza ünvanına çevrilmiş Ə.Vəzirov zehniyyətində olanlar kifayət qədərdir. Bunların içərisində eləsi də var ki, demokrat adlandırıb hələ də səcdə etdiyi, "Qarabağ Ermənistandır" söyləyən Paşinyan kimi birisinə müharibədən əvvəl səlis rus dilində bilirsiniz nə təklif edirdi? Deyirdi ki, gəlin vuruşmayaq, kimin güclü olduğunu savaş meydanında yox, şahmat lövhəsində yoxlayaq. Əgər bu təklif həmin siyasi camiyədə təmsil olunanlardan guya ən ağıllısının düşüncə tərzidirsə və beləsinin İQ (intellekt əmsalı) səviyyəsinin göstəricisidirsə, bütövlükdə onlardan ciddi nəsə gözləmək sadəlövhlükdür...

"Prezident İlham Əliyev Ermənistan və ona havadarlıq edənlərlə yanaşı, cəmiyyətimizdəki bu "ağıl" sahiblərinə də tutarlı bir mesaj verdi: "Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq, Qaragöl də bizimdir, başqa yerlər də bizimdir... Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca - Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik". Allah yar olsun!", - deyə deputat fikrini tamamlayıb.

**AZƏRTAC**
**2021, 18 avqust**

## Türkiyə mediası Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfərini geniş işıqlandırıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfəri Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyi, "TRT Haber", "TRT Avaz", "Haber Global" telekanalları, "Sabah", "Yeni akıt", "Hüriyyət", "Milliyet" qəzetləri və digər media qurumları səfərin təfərrüatlarını türkdilli ictimaiyyətə geniş şəkildə çatdırıblar.

Anadolu Agentliyi yaydığı videomaterialda dövlətimizin başçısı İlham Əliyevin öz səsi ilə səfər və onun təfərrüatı barədə türkdilli ictimaiyyətə məlumat çatdırıb. Bölgənin füsunkar gözəlliyi, Prezident İlham Əliyevin Kəlbəcərdə dövlət bayrağımızı yüksəltməsi, dövlətimizin başçısının yerli sakinlər, eləcə də arıçılarla görüşü və səmimi söhbəti orijinal kadrlar əsasında materialda əksini tapıb. Bu videomaterial digər media qurumları tərəfindən də sürətlə yayılıb.

"TRT haber" telekanalının saytında səfərlə bağlı fotosessiya təqdim olunub.

"Haber global" telekanalı səfərlə bağlı geniş videomaterial yayıb.

"Sabah" qəzeti Prezident İlham Əliyevin səfər çərçivəsindəki çıxışları, fikir və mülahizələri əsasında analitik təhlil aparıb. Yazıda Azərbaycana qarşı həyata keçirilmiş işğalçılıq siyasəti və sərgilənən ədalətsizlik faktlarla oxuculara çatdırılıb.

Qeyd edək ki, Türkiyənin nüfuzlu kütləvi informasiya vasitələri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin avqustun 14-də "CNN türk" televiziya kanalına müsahibəsini də geniş işıqlandırıb

Bütün materiallarda Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı rəşadət, işğal altındakı torpaqlarımızın düşməndən cəsarətlə alınması, zalım düşmənin törətdiyi vəhşiliklər, azad olunan bölgələrimizdə həyata keçirilən geniş quruculuq və bərpa işləri, böyük qayıdışa qərarlı hazırlıq məsələləri əksini tapıb.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ankara**

**AZƏRTAC**
**2021, 18 avqust**

**Sədaqət Vəliyeva: Müzəffər Ali Baş Komandanın Kəlbəcər və Laçın səfəri tarixi hadisədir**

Laçın və Kəlbəcər rayonları strateji bölgələr hesab edilir. Bu rayonlar 1992-1993-cü illərdə AXC-Müsavat hakimiyyətinin xəyanəti nəticəsində Ermənistan tərəfindən işğal edilmişdi. Bununla da Ermənistanla Qarabağ arasında quru əlaqəsi yaranmışdı. Bu da Azərbaycanın digər rayonlarının işğalına şərait yaratmışdı. Lakin 2020-ci ildə Prezident İlham Əliyevin diplomatik səyləri ilə bir güllə atılmadan düşmən işğalından tamamilə xilas olundular.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Onun sözlərinə görə, səfər zamanı çəkilmiş kadrlardan da görünür ki, hər iki rayonun yolları, relyefi necə sərt və çətindir. Qış aylarında orada hərbi əməliyyatlar aparmaq həqiqətən də böyük itkilərə səbəb ola bilərdi. Bu baxımdan Prezident İlham Əliyevin bir güllə atmadan hər iki rayonu düşmən işğalından azad etməsi möhtəşəm zəfərin nişanəsidir. Məhz, bu mənada Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri tarixi hadisə hesab edilməlidir.

Sədaqət Vəliyeva bildirib ki, işğaldan azad olunmuş digər rayonlar kimi Kəlbəcər və Laçın da Prezident İlham Əliyevin göstərişi ilə bərpa olunur, cənnətə çevrilir. Dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın səfər çərçivəsində Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlini qoyması, tamamilə yenidən qurulan Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası ilə tanış olması, 110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasının açılışında iştirak etməsi, uzunluğu 72,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunun üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin, Laçın Beynəlxalq Hava Limanının təməlini qoyması bir daha Qarabağ və Şərqi Zəngəzurun cənnətə çevrilməsi prosesinin sürətlə reallaşdırıldığını isbat edir və Azərbaycan hakimiyyətinin iradəsini nümayiş etdirir.

“Qarabağ, Şərqi Zəngəzur bölgələri, eləcə də Kəlbəcər, Laçın rayonları barədə həqiqətləri bütün cəmiyyətimiz, xüsusilə də gənclərimiz bilməlidir”, – deyən Sədaqət Vəliyeva əlavə edib ki, Azərbaycan Ordusu və Müzəffər Ali Baş Komandan Kəlbəcər və Laçın kimi digər rayonları da işğaldan azad etməklə zəfər, qələbə tarixi yazdılar. Azərbaycan illərdir silahlanan işğalçı Ermənistanı məğlub etdi. İllərdir özləri haqqında mif formalaşdırmış düşmən ordusunu, Köçaryanı, Sarkisyanı, Ohanyanı rəzil vəziyyətinə saldı. Azərbaycan erməni vəhşiliyini, faşizmini də məhv etdi. İllərdir ədalətin təmin olunmasına mane olan Ermənistan havadarlarının təzyiqlərinə baxmayaraq, BMT TŞ qətnamələrini də həyata keçirdi. Eyni zamanda, təxminən 30 il öncə torpaqlarımızı satmış AXC-Müsavat cütlüyünün vurduğu milli zərər, qeyrət ləkəsi təmizləndi. Hər bir azərbaycanlı bilməlidir ki, satqın və xilaskar kimlərdir. Biz tariximizi nə qədər dərindən öyrənsək, satqınlıq və xilaskarlıq tarixini nə qədər yaxşı bilsək, bir o qədər də güclü, qüdrətli olacağıq, haqqımız olanı təmin edəcəyik, hər kəsi yeni reallıqla barışmağa məcbur edəcəyik.

**AZƏRTAC**
**2021, 18 avqust**

**Qırğızıstan və Özbəkistan portalları Azərbaycan Prezidentinin Kəlbəcər və Laçın rayonlarına səfəri haqqında materiallar verib**

Qırğızıstanın "goldenbridgenews.com" və "turkelpress.com" portalları avqustun 16-da Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər və Laçın rayonlarında olmaları haqqında AZƏRTAC-ın geniş materialını və ayrı-ayrı hissələrini rus dilində işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Özbəkistanın "qalampir.uz" saytı isə bununla bağlı şərh materialı verib.

Materiallarda qeyd edilir ki, Prezident İlham Əliyev çıxışlarında İkinci Qarabağ müharibəsinin bizim şanlı Zəfərimiz kimi tarixdə əbədi qalması, öz dədə-baba torpaqlarımıza Ermənistan faşizminin başını əzərək, şəhidlərimizin qanını alaraq qayıtmağımız, Kəlbəcərin işğal altına düşməsinin xalqımızın böyük faciəsi olması, bizim qızıl yataqlarımızın xarici şirkətlər tərəfindən istismar edilməsi, Qaragöl və başqa yerlərin də bizim torpaqlar olması, beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb etmək məsələsi, erməni ordusunu "yenilməz ordu" kimi təqdim edən mifologiyaya son qoymağımız, dağıdılmış binalar, məscidlər, qazılmış qəbirlər - bunları yadplanetlilərin yox, ermənilərin etməsi, indiki mərhələdə bizim əsas vəzifəmizin azad edilmiş torpaqlarda möhkəmlənməyimiz, Qarabağda törədilmiş erməni vəhşiliyini dünyaya göstərmək istəyi və digər məsələlərə toxunub.

**Qulu Kəngərli**
**AZƏRTAC-ın xüsusi müxbiri, Bişkek**

**AZƏRTAC**
**2021, 19 avqust**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar**
*(16 avqust 2021-ci il)*

Xəbər verildiyi kimi, avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ömər aşırımından Kəlbəcərin füsunkar mənzərəsini seyr etdilər.

**Prezident İlham Əliyev:** Yolumuz Kəlbəcərədir, işğaldan azad edilmiş Kəlbəcərə. Ömər aşırımından keçərək Kəlbəcərə gedirik. Bu yol son bir neçə ay ərzində genişləndirildi. Çünki bu yol demək olar ki, keçilməz idi. İndi yol boyunca tunellər tikilir. Tunellər tikiləndən sonra gediş-gəliş çox rahat olacaq. Amma hələlik biz bu yoldan istifadə edirik və bu gözəl mənzərələr də göz oxşayır. Kəlbəcərin mənzərələri indi daha da gözəldir. İndi yolumuza davam edirik. Bu aşırımın hündür hissəsində dayanaraq bir daha Azərbaycan xalqını tarixi Zəfər münasibətilə təbrik etmək istəyirəm.

Müharibədən sonra Kəlbəcərə ilk səfərimdir. Bir neçə tədbir nəzərdə tutulur. Kəlbəcərin bərpası, yenidən qurulması prosesinə start veriləcəkdir.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

**X X X**

Kəlbəcərə gedərkən avtomobildən çəkilən videogörüntüdə **Prezident İlham Əliyev** deyir: Mehriban xanım Kəlbəcərin gözəl mənzərəsini çəkir və yol boyunca Azərbaycanın gözəl təbiətini seyr edirik. Əminəm ki, bu, kadrlara baxanlar üçün də çox maraqlı olacaq. Artıq Kəlbəcərin meşələri də göründü. Bildiyimiz kimi, Kəlbəcərin çox füsunkar təbiəti var – dağlar, dərələr, meşələr.

Baxın bu dağıntılara. Ermənilər Kəlbəcəri tərk edərkən buraları dağıdıblar. Bütün binaları, su elektrik stansiyalarını, hamısını dağıdıblar. Bu dağıntılar erməni vəhşiliyinin növbəti təzahürüdür.

Ermənilər tərəfindən dağıdılmış evlər. Bura Zallar kəndinin ərazisidir.

**X X X**

Dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında inşa olunacaq 11.6 kilometrlik tunelin təməlinin qoyulması mərasimində iştirak etdi.

Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Dövlət başçısının tapşırığına əsasən avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-4 hərəkət zolaqlı olmaqla 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir. Layihənin 16-cı kilometrlik hissəsindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1900 metrdən Murovdağ zirvəsinədək 3260 metrə qədər artır. Ərazinin çətin relyefi və təhlükəsizlik məsələləri nəzərə alınaraq Murovdağ silsiləsinin altından 11.6 kilometrlik tunelin tikintisi məqsədəuyğun hesab edilib.

Dövlətimizin başçısı tunelin təməlini qoydu.

**X X X**

**Prezident İlham Əliyev** dedi: Durduğumuz yol ermənilər tərəfindən çəkilmiş Basarkeçər-Kəlbəcər yoludur. Onlar Ermənistanı Qarabağla birləşdirmək üçün ikinci yol çəkdilər. Laçın dəhlizindən əlavə. Beləliklə, Kəlbəcəri və digər əraziləri məskunlaşdırmaq və özlərinin gediş-gəlişini daha rahat etmək üçün bu yolu çəkdilər. Bu yol birbaşa Basarkeçər rayonuna gedir. Basarkeçər rayonuna Ermənistanda “Vardenis rayonu” deyilir. Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır. 1930-cu ildə Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb. Orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. O cümlədən Zod kəndinin sakinləri də azərbaycanlılar idi, deportasiyaya məruz qalmışlar. Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona “Vardenis” adı qoymuşdur. Xahiş edirəm ki, Azərbaycanda bu bölgə ilə bağlı hazırlanan reportajlarda və ümumiyyətlə, bizim ümumi leksikonumuzda “Vardenis” yox, Basarkeçər adı bərpa edilsin. İndiki Ermənistan ərazisində yerləşən bütün digər qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə də çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın “Yerasx” kəndində, onun ətrafında

hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri.

Biz indi bu yoldan istifadə edirik. Ermənilər üçüncü yolu da çəkmək istəyirdilər - Cəbrayıla gedən yol. Bu haqda müharibə zamanı dəfələrlə öz fikirlərimi bildirmişdim və beləliklə, Ermənistanı Şərqi Zəngəzurla və Qarabağla üç yolla birləşdirmək istəyirdilər. Bunun yeganə məqsədi qanunsuz məskunlaşma siyasəti aparmaqdı və bu da hərbi cinayət sayılır. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, ilk növbədə, ATƏT-in Minsk qrupu buna laqeyd yanaşmışdır, Ermənistana heç bir irad tutmamışdır, onları bu işlərdən çəkindirməyə cəhd etməmişdir, sadəcə olaraq, müşahidəçi kimi bunu müşahidə edirdi. Onlar, hətta bu yolda da olublar, onu da görüblər və Cəbrayıl rayonunda nəzərdə tutulmuş yolun inşasına da etiraz bildirməmişdilər. O vaxt bu yol çəkiləndə biz etirazımızı bildirmişdik. Biz səsimizi qaldırmışdıq, biz demişdik ki, buna yol vermək olmaz, Azərbaycan ərazisində qanunsuz işlər aparıla bilməz. Ancaq bizi eşidən yox idi. Amma bu gün mən gəlmişəm, həmin yolun üstündə durmuşam və biz bu yolda bundan sonra əbədi qalacağıq, bu bölgədə əbədi yaşayacağıq.

Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir.

**X X X**

**Prezident İlham Əliyev:** Qamışlı kəndi. Burada bizim enerji infrastrukturumuz yaradılıb və bu yüksəkgərginlikli xətlər bu yaxınlarda çəkilib.

Bu asfalt yolu da ermənilər Basarkeçərdən çəkiblər. Kəlbəcərə getmək üçün Laçın dəhlizinə alternativ bir yol çəkmişdilər. Görün, gözəl də yoldur. İndi biz bu yoldan istifadə edirik. Bu yol çəkiləndə Azərbaycan tərəfi buna ciddi etiraz etmişdir. Deyirdik ki, buna yol vermək olmaz. Bu, ermənilərin məskunlaşma siyasətinin bir hissəsidir. Ancaq bizi eşidən olmadı. Nəticədə biz gəldik, bayrağımızı qaldırdıq. Düşməni torpağımızdan qovduq və indi bu yoldan istifadə edirik. Ermənilər isə bu yoldan məhrum oldular. Ona görə bu yolu da hərbi qənimət saymaq olar. Onlar üçüncü yolu da Cəbrayıldan salmaq istəyirdilər. O da yarımçıq qaldı. Onların arzuları gözlərində qaldı.

Bizim evlər - azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq.

Biz indi “Kəlbəcər-1” Su Elektrik Stansiyasının yerinə gəlmişik.

**X X X**

Sonra Prezident İlham Əliyev Kəlbəcər Kiçik Su Elektrik Stansiyasında görülən işlərlə tanış oldu.

Hazırda Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası tamamilə yenidən qurulur, stansiyanın maşın zalı, aqreqatı, generatoru, idarəetmə panelləri, transformatorları yenilənir. Suyu hidroaqreqata ötürən dağıdılmış plastik su borusu 1,3 kilometr məsafədə metal borularla əvəz edilir. Stansiyanın maşın zalı və 110/6 kilovoltluq yarımstansiyasında isə işlər tamamlanıb. Beləliklə, ermənilər tərəfindən dağıdılaraq yandırılan “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyası tam yenidən tikilir və işlərin qarşıdan gələn aylarda başa çatdırılması planlaşdırılır.

**Prezident İlham Əliyev:** Lev çayı bizim gözəl çaylarımızdan biridir. Uzunluğu o qədər də böyük deyil – təxminən 20 kilometrə yaxındır. Ancaq mənbəyi Azərbaycandadır və bu gündən elektrik enerjisi istehsalına xidmət edəcək.

**XXX**

Bura da “Kəlbəcər” yarımstansiyasıdır. Qısa müddətdə - cəmi altı ay ərzində inşa edilib və Kəlbəcəri elektrik enerjisi ilə təmin edəcək.

**X X X**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak etdilər.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərin ən qısa vaxtda Azərbaycanın ümumi enerji sisteminə qoşulması, bu ərazilərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məsələsinə xüsusi diqqətlə yanaşır. Bunun nəticəsidir ki, bu istiqamətdə işğaldan azad edilmiş bütün yaşayış məntəqələrində, o cümlədən Kəlbəcər rayonunda genişmiqyaslı işlər həyata keçirilib. 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının qısa müddətə inşası həyata keçirilən layihələrdən biridir.

Kəlbəcər rayonunun Qamışlı kəndi ərazisində müasir avadanlıqlarla təchiz olunaraq inşa edilən yeni yarımstansiyada 80 MVA gücündə yeni transformatorlar quraşdırılıb. Yarımstansiyada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular yaradılıb. "Kəlbəcər" yarımstansiyası məsafədən idarəolunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulub və bunun üçün yeni idarəetmə binası tikilib. Burada ən yeni rəqəmsal texnologiyalardan istifadə edilib.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Qeyd edək ki, ermənilər tərəfindən enerji sistemi tamamilə dağıdılan Kəlbəcər rayonuna Daşkəsəndən 70 kilometr məsafədə 110 kV-luq yüksəkgərginlikli ikidövrəli elektrikötürmə xətti çəkilib. Murov dağını aşmaqla çəkilən xəttin bəzi anker dayaqları dəniz səviyyəsindən 3400 metr yüksəklikdə quraşdırılıb.

**X X X**

Sonra Lev çayının sahilində çay süfrəsi arxasında söhbət edən **Prezident İlham Əliyev** dedi

-Kəlbəcər rayon yarımstansiyasının açılışını etdik. Çox əlamətdar hadisədir. Kəlbəcər rayonunun elektrik enerjisi ilə təchizatı üçün bunun çox böyük əhəmiyyəti var və deyə bilərəm ki, cəmi altı ay ərzində bu yarımstansiya ərsəyə gəldi. Özü də çox çətin bir hava şəraitində, çətin relyefdən, dağlardan keçərək, bu önəmli infrastruktur obyektini istifadəyə verdik. Yeni dirəkləri də görürsünüz. Dirəklərin ən hündür olan yeri 3400 metrdir. Doğrudan da böyük peşəkarlıq və məharət tələb edən layihədir və onu göstərir ki, bizim daxili resurslarımız o qədər güclüdür ki, biz qısa müddət ərzində bu işləri görə bilərik. Beləliklə, bu yarımstansiya Kəlbəcər rayonunu elektrik enerjisi ilə təchiz edəcək. Bu tədbirə qədər Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış oldum. Orada generasiya gücü 4,4 meqavatdır. Biz artıq Güləbird Su Elektrik Stansiyasını işə saldıq, orada 8 meqavatdır, o, Laçın rayonundadır. Suqovuşan Su Elektrik Stansiyası da təmir olundu, yenidən quruldu, orada da 7,8 meqavatdır. Yəni, görün, biz artıq 20 meqavatdan çox elektrik enerjisini alternativ mənbələrdən hasil etməyə başlayırıq və bu hələ başlanğıcdır. Ermənilər bu bölgələri tərk edərkən bütün su elektrik stansiyalarını məhv etdilər, dağıtdılar. Biz onları bərpa edəcəyik. Güləbird, indi isə Lev çayı üzərində və digər su elektrik stansiyaları və onların sayını tədricən təxminən 20-yə çatdıracağıq, bəlkə də 30-a çatdıracağıq, amma tədricən. Beləliklə, bizim enerji potensialımız da güclənəcək. Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası kimi yaşayacaq və bizim bütün planlarımız yerinə yetiriləcək. Cəmi 7-8 ay ərzində bu qədər işin görülməsi bizim gücümüzü göstərir, əzmkarlığımızı göstərir, güclü siyasi iradəni göstərir.

Bu gün biz Lev çayının kənarında çay içəcəyik armudu stəkanda. Bu, onu bir daha göstərir ki, nə qədər ermənilər çalışsalar da bizim xalqımızın iradəsini qıra bilmədilər. Biz buraya qayıtmalı idik və qayıtdıq. Onlar buradan getməli idilər və getdilər. Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq. Bundan sonra da tədbirlər olacaq. Hələlik isə çayımızı içək və təbiətdən zövq alaq. Yaşasın Azərbaycan!

**X X X**

Prezident İlham Əliyevin sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolunun uzunluğu 72,8 kilometrdir. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq. Yol üzərində 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolu üzərində tikiləcək 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoydu

**Dövlətimizin başçısı dedi:** Bu gün ikinci tunelin təməli qoyuldu. Kəlbəcər-Laçın avtomobil yolunda tunel tikiləcək və beləliklə, ikinci tunelin bir müddətdən sonra istifadəyə verilməsi gediş-gəlişi daha da rahat edəcək. Bütün bu bölgənin, Şərqi Zəngəzurun hərtərəfli inkişafı üçün avtomobil yolları xüsusi əhəmiyyət daşıyır. Azad edilmiş torpaqların investisiya proqramı tutulanda mənim göstərişimlə məhz tunellər də bu layihələrə salınmışdır, o cümlədən Şuşaya gedən yolda və burada tunellər çəkilməkdədir. Tunelin tikintisi həm çətindir, xüsusilə belə ağır dağlıq relyefdə, eyni zamanda, çox böyük xərclər tələb edir. Ancaq biz bunu edirik və edəcəyik. Çünki bu, bölgənin, Şərqi Zəngəzurun inkişafına lazımdır. İnsanlar buraya qayıdandan sonra artıq Azərbaycanın digər bölgələri ilə çox rahat əlaqəyə malik olacaqlar. Həm Kəlbəcər və Laçın rayonları arasında əlaqələr möhkəmlənəcək, - Laçın rayonunda aeroportun tikintisi nəzərdə tutulur, - eyni zamanda, Kəlbəcər-Göygöl-Gəncə istiqamətində gediş-gəliş daha da rahat olacaq. Cəmi 8-9 ay ərzində görülmüş işlər onu bir daha göstərir ki, bizim çox güclü iradəmiz var, siyasi qərarlar verildi, bütün güclər, texniki imkanlar səfərbər olundu, maliyyə vəsaiti təmin edildi, Azərbaycanda, o cümlədən inşaat sahəsində kadr potensialı formalaşdı və hərtərəfli işlər gedir - elektrik xətləri, su elektrik stansiyaları, yarımstansiyalar, tunellər, körpülər, hava limanları, sosial obyektlər və bütün digər məsələlər. Bax, bu tunelin şəkli də burada göstərilir, çox rahat və təhlükəsiz bir yol olacaq.

Qarabağ Azərbaycandır!

**X X X**

**Prezident İlham Əliyev:** İndi biz Laçın rayonuna gedirik. Sonra Kəlbəcər şəhərinə gedəcəyik. Yolumuz Laçın rayonunadır. Hava limanının təməlini qoyacağıq.

**Birinci xanım Mehriban Əliyeva:** Bu yol təzə yoldur? Yoxsa olub bu yol

**Prezident İlham Əliyev:** Yox, bu, olub. Kəlbəcər-Laçın yolu da təbii ki, ən yüksək səviyyədə yenidən qurulacaq. İndicə təməlini qoyduğum hər iki tunel bu yolu daha da rahat edəcək. Bu da sovet vaxtında inşa edilmiş məşhur tuneldir. Burada göstərilir - inşası 1958-ci ildə başlamışdır, uzunluğu cəmi 200 metrdir. Bizim inşa edəcəyimiz tunellər isə 11 kilometr, 5 kilometrdir. Bax, bu gün Azərbaycan buna qadirdir. Bu isə köhnədən qalan Kəlbəcərlə Laçını birləşdirən yeganə yoldur. Artıq tunel işıqlandırılıb. Ermənilər Kəlbəcər və Laçını tərk edərkən bu tuneli partlatmaq istədilər. Görün, bu adamlar nə qədər məkrli hisslərlə yaşamışlar. Baxın bu hissəyə, buranı partlatmaq istədilər, amma alınmadı. Qaça-qaç idi, tələsirdilər.

Azərbaycanın gözəl mənzərələri. Kəlbəcər və Laçın rayonları təbiət nöqteyi-nəzərdən ən gözəl rayonlardandır. Ermənilər təbiətimizə nə qədər ziyan vursalar da, onu tam məhv edə bilmədilər.

**X X X**

Qeyd edək ki, Laçın rayonunun Qorçu kəndinin ərazisində inşa ediləcək hava limanı bir neçə mühüm amili özündə ehtiva edir. İlk növbədə, şübhəsiz ki, burada aeroportun tikilməsi ümumilikdə bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq. Laçın hava limanının inşası həm də işğaldan azad edilmiş tarixi torpaqlarımızda aparılan abadlıq-quruculuq işlərinin miqyasını göstərir. Olduqca mühüm strateji əhəmiyyətə malik olan Laçın aeroportu logistik mərkəzlərin yaradılmasına da töhfə verəcək. Laçın hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu olacaq. Uçuş-enmə zolağının uzunluğu 3 kilometr olacaq hava limanında 6 təyyarə dayanacağının inşası nəzərdə tutulur. Bu hava limanı Kəlbəcər rayonu ərazisinə hava nəqliyyatı ilə gediş-gəlişi asanlaşdıracaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanının təməlini qoydular.

Tədbirdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

-Bu gün azad edilmiş torpaqlarda böyük infrastruktur obyektinin təməli qoyulur. Laçın rayonunda beynəlxalq hava limanının tikintisinə start verilir. Bu hava limanının tikintisi mənim tərəfimdən bir müddət əvvəl elan edilmişdir. Demişdim ki, azad edilmiş torpaqlarda üç beynəlxalq hava limanı tikiləcək. Artıq Füzulidə və Zəngilanda bu işlərə start verildi. Füzuli Beynəlxalq Hava Limanı bu ilin sonuna, ya da gələn ilin əvvəlinə istismara tam hazır olacaq.

Zəngilanda da işlərə start verildi, mən şəxsən Zəngilan Beynəlxalq Hava Limanının təməlini qoydum. Zəngilan hava limanının istifadəyə verilməsi tarixi yəqin ki, 2022-ci il olacaq. Kəlbəcər və Laçın

rayonlarında, - mən müharibə başa çatandan sonra elan etmişdim, - yer axtarılacaq və beynəlxalq hava limanı tikiləcək. Yerin axtarışı, əlbəttə ki, çox vaxt apardı. Çünki Kəlbəcər və Laçın rayonlarının relyefi elədir ki, burada düzən yer tapmaq mümkün deyil. Baxmayaraq ki, hər iki rayonun çox geniş ərazisi var, - dağlar, meşələr, dərələr, təpələr, - düz yer demək olar ki, yoxdur. Yeganə bu yer seçildi ki, burada yenə də böyük torpaq işləri aparmaqla hava limanının tikilməsi mümkündür. Hava limanının zolağı bax, arxamdakı yerdə olacaq, indi bunu təsəvvür etmək belə çətindir. Mən hesab edirəm ki, dünya tarixində belə relyefdə bəlkə də ilk dəfə hava limanı tikilir. Çünki bütün hava limanları adətən düzən ərazidə inşa edilmişdir. Burada belə yer olmadığı üçün yeganə yer bura - Laçın rayonunun Qorçu kəndi seçilib. Bu yerin üstünlüyü, eyni zamanda, ondadır ki, Laçın şəhərinə məsafə 30 kilometrdən bir qədər çox, Kəlbəcər şəhərinə məsafə isə 60 kilometrdən bir qədər çoxdur. Eyni zamanda, Şuşa şəhərinə məsafə də 70 kilometrə yaxındır. Yəni, gələcəkdə Şuşaya təyyarə ilə getmək üçün həm Füzuli, həm də Laçın hava limanlarından istifadə etmək mümkün olacaq. Dediyim kimi, burada böyük torpaq işləri aparılacaq. Bəzi təpələr kəsiləcək, bəzi boşluqlar doldurulacaq. Yəni, torpaq işləri vaxtımızı aparan əsas işlər olacaqdır.

O ki qaldı, uçuş-enmə zolağına, o da standart ölçüdə olmalıdır. Yeni inşa edilən və ediləcək hər üç hava limanında uçuş-enmə zolağı üç kilometrə bərabərdir. Yəni, bütün növ təyyarələr, o cümlədən ən ağır yük təyyarələri də bu hava limanlarına enə biləcək.

Beləliklə, azad edilmiş bölgələrin - Şərqi Zəngəzurun, Qarabağın bərpası, insanların buraya, bu zonaya qaytarılması üçün yeni imkanlar açılacaq. İndi demək çətindir, bu inşaat nə qədər zaman aparacaq. Ancaq, əlbəttə, biz istəyirik ki, maksimum qısa müddətdə aparılsın. Amma bunu demək çətindir. Çünki mal-materialların gətirilməsi üçün logistik problemlər var. İndi yay başa çatır, bir müddətdən – oktyabr ayından sonra buralarda qar yağacaq. Ona görə yollardan istifadə çətinləşəcək. Hər halda, bu gün bu tarixi hadisə baş verir, biz Laçın Beynəlxalq Hava Limanının tikintisinə start veririk. Hesab edirəm ki, bu, bir çoxları üçün gözlənilməz oldu. Bəziləri bunu möcüzə hesab edirdilər. Çünki sovet dövründə heç vaxt bu bölgədə - Kəlbəcər-Laçın zonasında hava limanı olmayıb. Məhz bu səbəbə görə. Çünki çox bahalı bir layihə ola bilərdi və məqbul yer də tapmaq mümkün deyil. Ancaq biz bunu edirik. Müstəqil Azərbaycan dövləti buna da qadirdir. Buna texniki imkanlarımız da, maliyyə imkanlarımız da və güclü iradəmiz də var. Bu hava limanını inşa edən Azərbaycan şirkəti olacaq. Bu da çox sevindiricidir. Çünki azad edilmiş torpaqlarda yerli şirkətlərin fəal işləməsi önəmli amillərdən biridir. Bizimlə bərabər, böyük layihələrdə qardaş Türkiyə şirkətləri də fəal iştirak edirlər.

Zəngilan, Laçın, Füzuli hava limanlarının inşa edilməsi və istismara verilməsi bölgənin canlanmasına gətirib çıxaracaq. Bu hava limanlarının həm yüklər, həm sərnişinlər, eyni zamanda, hərbi təyinatı da, təbii ki, göz önündədir. Biz daim hazır olmalıyıq, daim öz hərbi gücümüzü artırmalıyıq, hərbi infrastruktur yaratmalıyıq və yaradırıq, o cümlədən hava limanları bizim hərbi məqsədlərimizə də xidmət edəcək.

Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını, laçınlıları, kəlbəcərliləri, bütün keçmiş köçkünləri ürəkdən təbrik edirəm.

**X X X**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərdə arıçılarla görüşüb söhbət etdilər.

**Arıçılar:** Azərbaycanda arı ailələri iki dəfədən çox artıb.

**Prezident İlham Əliyev:** Bizim balımız da çox keyfiyyətlidir. İndi Kəlbəcər balı yəqin ki, bütün digər yerlərdən daha da keyfiyyətli olacaq. Ona görə gərək həm daxili bazarı təmin edəsiniz, həm də ki, ixrac edəsiniz. Göstərməyə bir şey var?

**Arıçı:** Göstərməyə bəli var. Mən indi bir arı papağı verəcəyəm.

**Prezident İlham Əliyev:** Onlar bilirlər biz kimik, bizə dəyməzlər. Bu, baldır?

**Arıçı:** Bəli, baldır, əsl Kəlbəcər balıdır. İcazə versəydiniz, bunlardan Sizə iki dənə hədiyyə verərdim.

**Prezident İlham Əliyev:** İki dənə çoxdur, yox. Bir dənə bəsdir. Biz Kəlbəcər balından da dadarıq. Hazırdır da bu?

**Arıçılar:** Bəli, artıq hazırdır. Biri budur, birini də başqa yeşikdən taparam.

**Prezident İlham Əliyev:** Yox, biri bəsdir. Bir dənə bəsdir dadmaq üçün.

**Birinci xanım Mehriban Əliyeva:** Bir dənə bəsdir.

**Arıçılar:** Vuracaq indi.

**Prezident İlham Əliyev:** Yox, bizə dəyməz, o, bilir ki, biz kimik. Sizdən başqa da arıçılar var?

**Arıçılar:** Var, başqa arıçılar da var. Pilot layihə kimi 5 arıçı gəldi. Sonra başqa arıçılar gəldilər. Qoy bir dənə də çıxarım.

**Prezident İlham Əliyev:** Yox, yox bəsdir.

**Birinci xanım Mehriban Əliyeva:** Orada arı qalıb üstündə.

**Arıçı:** Bu, tam möhürlü olmadı, istəyirəm tam möhürlüsünü verim.

**Prezident İlham Əliyev:** Yox, elə bu, kifayətdir.

**Birinci xanım Mehriban Əliyeva:** Orada arılar var. Çəkirəm.

**Prezident İlham Əliyev:** Gəlin birlikdə şəkil çəkdirək.

Sağ olun. Mən bütün köçkünlərə söz vermişdim ki, onları dədə-baba yurduna qaytaracağam.

**Arıçılar:** Biz inanırdıq, ona görə ki, biz Sizə inanırdıq, xalqımıza inanırdıq, şəhidlərimizə inanırdıq. Bizim təsərrüfatımızın builki məhsulunun 20 faizi şəhid ailələrinə yönəldiləcək.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Yəqin ki, təsərrüfatınızı getdikcə genişləndirəcəksiniz.

**Arıçı**: Bəli genişləndirəcəyik. Çünki tək Kəlbəcər yox, ümumiyyətlə, işğaldan azad olunmuş torpaqlar arıçılıq üçün böyük yem bazasıdır. Ermənilərin böyük təsərrüfatları var idi burada və ixracla məşğul idilər.

**Prezident İlham Əliyev:** Sovet vaxtında da Kəlbəcərdə arıçılıq inkişaf etmişdi.

**Arıçılar:** Kəndin özündə olub sovet vaxtında. Sovet İttifaqında Kəlbəcər balının adı çıxmışdı. Bu adı inşallah, özünə qaytaracağıq.

**Prezident İlham Əliyev**: Ermənilər çox qanunsuz işlər görüblər, təbiətimizi məhv ediblər, istismar ediblər.

**Arıçı:** Ata-babalarımızın kökü buradadır, atamın qəbri buradadır. Kəlbəcərdə heç vaxt erməni yaşamayıb.

**Prezident İlham Əliyev:** Bilirəm, heç vaxt. Amma sonra Kəlbəcəri özününküləşdirmək istədilər, adını dəyişdirməyə çalışdılar. Biz də gəldik, dərsini verdik, torpağımızı geri aldıq.

**Arıçılar:** Çox sağ olun. Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun, uğurlar sizə. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bütün qohum-qardaşlara salam deyin.

**Arıçılar:** Allah Sizi bu xalqımıza çox görməsin. Sağ olun.

**X X X**

**Prezident İlham Əliyev:** Kəlbəcər şəhərinə yaxınlaşırıq. Bir neçə dəqiqədən sonra Kəlbəcər şəhərində olacağıq.

Artıq Kəlbəcər şəhərindəyik, şəhərin girəcəyindəyik. Bax, bunlar vəhşi ermənilərin əməlləridir. Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar.

**X X X**

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərinə gəldilər. Dövlətimizin başçısı Kəlbəcər şəhərində Dövlət bayrağını ucaltdı və çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

-Hərbi əməliyyat nəticəsində torpaqlarımız işğaldan azad edildi. İkinci Qarabağ müharibəsi bizim şanlı Zəfərimiz kimi tarixdə əbədi qalacaq. Qələbə nəticəsində Kəlbəcər rayonu da Laçın və Ağdam rayonları ilə bərabər işğalçılardan azad edildi. Ermənistan noyabrın 10-da kapitulyasiya aktını imzalayaraq

bu öhdəliyi də öz üzərinə götürmüşdür və Kəlbəcər, Laçın və Ağdam rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər gedirdi, şəhidlər verirdik. Ancaq strateji yüksəklikləri götürdük və bu yüksəkliklər bizə imkan verirdi ki, ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna da nəzarət edək. Beləliklə, biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bu, hərbi əməliyyatın, əks-hücum əməliyyatının tərkib hissəsi idi. Biz əks-hücum əməliyyatını bir neçə istiqamətdə aparırdıq və hər istiqamət önəmli idi. Çünki biz artıq bəzi istiqamətlər üzrə müdafiə xəttini yararaq işğalda olan torpaqları azad edirdik, bəzi istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq. Bəzi istiqamətlər üzrə, sadəcə olaraq, hərbi manevrlər apararaq erməni silahlı birləşmələrinin başqa yerə göndərilməsinin qabağını alırdıq. Beləliklə, Kəlbəcərin bir hissəsi, kiçik olan hissə döyüş meydanında azad edildi. Ancaq əksər hissəsi, böyük hissə Ermənistan kapitulyasiya aktına imza atandan sonra azad edildi.

Kəlbəcərin azad edilməsi tarixi hadisədir. Kəlbəcərin işğal altına düşməsi isə xalqımızın böyük faciəsi idi. Çünki Laçın və Şuşa rayonları 1992-ci ilin may ayında işğal altına düşəndən sonra ermənilərin növbəti hədəfi Kəlbəcər idi. Şuşa və Laçının işğalı ilə bağlı artıq Azərbaycanda çox dəqiq təsəvvür var. Hər kəs bilir ki, Şuşa və Laçının işğala məruz qalması AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində baş vermişdir. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi, AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, nəyin bahasına olursa-olsun hakimiyyəti zəbt etməyə çalışırdı və onların nəzarəti altında olan bəzi qüvvələr, bəzi satqınlar Şuşanı demək olar ki, ermənilərə təhvil verdilər və Şuşa demək olar ki, müdafiə olunmadı. Şuşada olan bəzi silahlı dəstələr Şuşadan çıxdı və faktiki olaraq Şuşa ermənilərə təslim edildi. Məhz bunun nəticəsində Azərbaycanda hakimiyyət böhranı yaşandı və AXC-Müsavat cütlüyü bundan istifadə edib qanunsuz yollarla hakimiyyəti uzaqlaşdırıb, hərbi çevriliş törədib hakimiyyətə gəldi. Şuşa və Laçının işğal altına düşməsi sırf AXC-Müsavat cütlüyünün xəyanətidir, satqınlığıdır. Kəlbəcər rayonu işğal altına düşəndə artıq AXC-Müsavat cütlüyü öz çirkin məqsədlərinə çatmışdı, hakimiyyətdə idi. Təxminən bir ilə yaxın hakimiyyətdə idi. Kəlbəcər 1993-cü il aprel ayının əvvəlində işğal altına düşmüşdü və bunun da günahkarı AXC-Müsavat cütlüyüdür, AXC-Müsavat hakimiyyətidir. Onların xəyanətkar, satqın, antimilli hakimiyyəti Kəlbəcərin işğalını şərtləndirdi. Çünki 1992-ci ilin bahar-yay aylarından onlar demək olar ki, hakimiyyətdə idilər və bir il ərzində ancaq talançılıqla, rüşvətxorluqla, soyğunçuluqla, qanunsuzluqla və digər çirkin əməllərlə məşğul idilər. İndi bir çoxları bunu unudur. Gənc nəsil isə bundan xəbərsizdir. O dövr bizim milli faciəmiz, milli rəzalət dövrü idi. AXC-Müsavat hakimiyyəti dünya miqyasında bəlkə də ən biabırçı hakimiyyətlərdən biri idi, bəlkə də birincisi idi. Ölkə əldən gedirdi, ölkədə vətəndaş qarşıdurması pik həddə çatmışdı, torpaqlar işğal altına düşürdü, ancaq onlar yalnız öz mənafeyini, öz maraqlarını düşünürdülər. Hakimiyyətə gəlmiş antimilli ünsürlər Azərbaycanı demək olar ki, bütün beynəlxalq tərəfdaşlardan, xarici tərəfdaşlardan təcrid etdilər və həm xarici, həm daxili siyasətdə kobud səhvlər buraxdılar və cinayətlər törətdilər. Kəlbəcərin işğala məruz qalması satqın AXC-Müsavat hakimiyyətinin əməlləridir. Kəlbəcər işğal altına düşəndən sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yarandı və artıq digər torpaqların işğalı da labüd idi. Çünki AXC-Müsavat hakimiyyəti ordu quruculuğuna fikir vermirdi, orduda heç bir islahat aparılmırdı. Əksinə, ordumuzu zəiflətmək üçün hər vasitədən istifadə edirdi. Torpaqlar işğal altına düşürdü, onlar isə öz laxlamış hakimiyyətini qorumaq üçün Gəncəni bombalayırdılar. Onlar Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu videokadrlar var. Burada ermənilər soyqırımı törədirdilər, şəhərlərimizi viran qoyurdular. Baxın, Kəlbəcər nə gündədir, digər şəhərlər nə gündədir. Onlar isə Azərbaycan əsgərlərini əsir götürüb, öz hakimiyyətini möhkəmləndirmək istəyirdilər. Görəndə ki, artıq bu da mümkün deyil, qaçdılar gizləndilər, dövlət səviyyəsində fərarilik etdilər. AXC-Müsavat hakimiyyəti, onun başında duranlar fəraridirlər, satqındırlar, qorxaqdırlar, xaindirlər və bu, əsl həqiqətdir

Əlbəttə, biz torpaqlarımızı azad etmək üçün addımlarımızı elə atırdıq ki, bütün torpaqlar azad edilsin. Artıq bu da sirr deyil ki, danışıqlar dövründə masa üzərində olan təkliflər bizim maraqlarımızı qane etmirdi. Mən bunu açıq bəyan etmişdim və məhz buna görə təklif edilən varianta razılıq vermirdim. Çünki son 10 il ərzində nədən söhbət gedirdi - beş rayon Azərbaycana qaytarıla bilər, Kəlbəcər və Laçın rayonları isə keçmiş Dağlıq Qarabağda referendum keçiriləndən sonra Azərbaycana qaytarıla bilər. Əlbəttə, biz buna

heç cür razı ola bilməzdik. Çünki heç bir referendumdan söhbət gedə bilməzdi. Mənim siyasətim ondan ibarət idi və mən bunu açıq şəkildə bəyan edirdim ki, bizim bütün torpaqlarımız işğalçılardan azad edilməlidir, ərazi bütövlüyü tam bərpa edilməlidir, bizə məsələnin yarımçıq həlli lazım deyil. Məhz buna görə edilən təkliflərə Azərbaycan tərəfi razılıq vermirdi. Ancaq sonra bilindi ki, Ermənistan da buna razı deyil. Çünki Ermənistanın məqsədi bu torpaqları, zəbt edilmiş bütün torpaqları əbədi işğal altında saxlamaq idi. İndi çıxan yeni məlumatlar və eyni zamanda, azad edilmiş torpaqlarda mövcud olan mənzərə onu göstərir. Torpaqları təhvil vermək istəyən 6 xətt müdafiə istehkamları qurmazdı. İndi bilinir ki, onların məqsədi status-kvonu əbədi etmək, bizə bir qarış torpaq qaytarmamaq, məsələni uzatmaq idi. Onlar öz xarici havadarlarına güvənərək bunu 30 il ərzində həyata keçirirdilər və istəyirdilər ki, bundan sonra da 300 il ərzində bunu həyata keçirsinlər. Hesab edirdilər ki, bu siyasət onlara xeyir gətirəcək. Hesab edirdilər ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə azad etməyəcək. Hesab edirdilər ki, bizi kimsə dayandıracaq. Onların himayədarları bizə, necə deyərlər, təsir göstərəcəklər, təzyiq göstərəcəklər. Ancaq bilmirdilər bütün Azərbaycan xalqı bir amalla yaşayır ki, işğala son qoyulsun, düşmən torpaqlarımızdan qovulsun və biz öz dədə-baba torpaqlarımıza qayıdaq və qayıtdıq. Ermənistan ordusunu məhv edərək qayıtdıq, Ermənistan faşizminin başını əzərək qayıtdıq, erməni cəlladlarını cəzalandıraraq qayıtdıq, şəhidlərimizin qanını alaraq qayıtdıq. Qayıtmışıq, bu gün burada durmuşuq və əbədi duracağıq!

İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar.

Ancaq bu gün İkinci Qarabağ müharibəsi ilə bağlı bu sözləri deyərkən bir məsələyə diqqət yetirmək istəyirəm. Bu müharibə, eyni zamanda, erməni mifologiyasının tamamilə məhv olması deməkdir. Çünki uzun illər ərzində, otuz il ərzində ermənilər dırnaqarası “hərbi qələbə” ilə öyünürdülər. Ermənilər bir neçə mif uydurmuşdular ki, onların ordusu “yenilməz ordu”dur və onların ordusu bu torpaqları əbədi işğal altında saxlaya bilər. Biz bu mifi dağıtdıq. Erməni ordusu yoxdur bu gün. Erməni ordusu tamamilə məhv edildi. Erməni ordusunun silah-sursatlarının mütləq əksəriyyəti məhv edildi, ya da ki, qənimət kimi götürüldü və indi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Biz erməni ordusunu “yenilməz ordu” kimi təqdim edən mifologiyaya son qoyduq.

İkinci mif ondan ibarət idi ki, erməni əsgəri “cəsur”dur və istənilən müharibədə qalib gələ bilər. Biz bu mifi də darmadağın etdik. Erməni əsgəri fəraridir, qorxaqdır. Onlar özləri etiraf etdilər və bu da sübut olundu ki, müharibə dövründə Ermənistan ordusunda 10 min fərari olmuşdur. Azərbaycan Ordusunda bir nəfər də olsun fərari olmamışdır. Yəni, bu mif də darmadağın edildi. Erməni əsgəri fəraridir.

Növbəti mif isə o idi ki, azərbaycanlılar öz torpaqları uğrunda vuruşmayacaqlar, onlar bu vəziyyətlə barışıblar və əgər otuz ilə yaxın müddət ərzində müharibə başlamayıbsa, bundan sonra da başlamayacaq. Bu mifi də biz dağıtdıq. Biz göstərdik ki, bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildik. Mən bunu dəfələrlə deyirdim. Bütün çıxışlarımda deyirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və bunu etdik. Bu mifologiya da darmadağın edildi.

Növbəti mif onların dırnaqarası “sərkərdələri” ilə bağlı idi. Guya Ermənistanda elə görkəmli generallar, sərkərdələr var ki, onlar istənilən hərbi vəzifəni yerinə yetirə bilərlər. Biz gördük ki, onların generalları oğrudurlar, “tuşenka” satandırlar. Onların sərkərdələri də qorxaqdırlar, fəraridirlər. Xocalı cəlladları Köçaryan, Sarkisyan, Ohanyan müharibə zamanı Qarabağa soxulmuşdular, orada idilər. Amma görəndə ki, müzəffər Azərbaycan Ordusu öz torpaqlarını qəhrəmancasına azad edir, qaçdılar gizləndilər. Soruşmaq lazımdır onlardan, oradan nəyə görə çıxdılar? Onlar Xankəndidə idilər, üçü də. Niyə qaçmısınız? Niyə gizlənmisiniz? Mən demişəm, bir daha deyirəm, o dəmir-dümürləri çıxarın, onları atın zibil yeşiyinə. Siz fərarisiniz, qorxaqsınız. Biz sizi məhv etmişik. Xocalı soyqırımında ən fəal rollardan birini oynayan keçmiş müdafiə naziri Şuşadan güclə canını qurtardı, son anda canını qurtardı. Dovşan kimi qaçmışdılar. Biz onları məhv etmişik. Onların dırnaqarası “qəhrəmanlarını”, “Artsax”, olmayan “Artsax” qəhrəmanlarını məhv etmişik. Onlar bu damğa ilə əbədi yaşayacaqlar. Fərarilər, satqınlar, cəlladlar, qorxaqlar - onlar ancaq əliyalın əhali ilə müharibə apara bilərlər. Necə ki, vaxtilə Xocalını işğal edəndə burada demək olar ki, onlara müqavimət göstərən qüvvə yox idi, mülki vətəndaşlar idi. Bax, bu evlərdə yaşamış mülki vətəndaşlar idi və aprel ayında hələ burada qarlar əriməmişdi, onların böyük hissəsi burada

həlak oldu. Onlar buradan Gəncə istiqamətinə, o Murov dağının üstündən, Ömər aşırımından keçərkən onlara pusqular qurdular. Onları – uşaqları, qadınları, qocaları qətlə yetirdilər. Onlar məcbur olub ayaqyalın, qarlı-şaxtalı havada Ömər aşırımından keçərək, on kilometrlərlə yolu qət edərək buradan çıxmalı idilər. Bir çoxları da yolda qaldı, dondu, öldü. Bu, erməni vəhşiliyidir. Biz vəhşiləri məğlub etdik. Biz bölgəni vəhşilərdən, faşistlərdən xilas etdik. Bunu heç kim heç vaxt unutmamalıdır.

Erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər və burada "vəhşi müsəlmanlar" arasında qalıblar. Guya ki, o, Qafqazda mədəniyyətin ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu binalardır, qazılmış qəbirlərdir, dağıdılmış məscidlərdir. Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib. Özü də Birinci Qarabağ müharibəsi dövründə yox, müharibədən sonra, məqsədyönlü şəkildə, barbar kimi, vəhşi kimi, vandal kimi, bir-bir evlərin kərpiclərini, daşlarını söküb aparıb özləri üçün daxmalar tikiblər.

Onlar artıq buradan gedəsi olanda, kapitulyasiya aktını imzalayandan sonra da bizdən vaxt istədilər. Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şülələrini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır. İndi onların bəzi hallarda göndərdikləri yaltaqlıqla dolu sözlərinə inanmaq olmaz. Buna inanmaq istəyən, bax, bu mənzərəni göz önünə gətirsin, dağıdılmış Ağdamı, Füzulini, Şuşanı, Kəlbəcəri, Laçını, Zəngilanı, Qubadlını, Cəbrayılı göz önünə gətirsin. Erməni vəhşilərin əməlləri göz qabağındadır. Amma onların hamiləri bunu görmək istəmirlər. Amma görməlidirlər və görəcəklər. Onların gözünə soxacağıq. Biz indi kitablar da dərc edirik, göstəriş vermişəm, təqdimatlar da olacaq. Xarici ölkələrdə sərgilər olacaq. Biz göstərəcəyik. Bunu görmək istəməyən məcbur olub görəcək. Görəcək ki, erməni faşizmi, erməni vəhşiliyi nədir

Ermənilər işğal dövründə, eyni zamanda, bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan edirdilər. Bu işlərdə bəzi xarici şirkətlər onlara yardım edirdi. Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər

Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərini dəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər.

Bizim meşələrimiz ermənilər tərəfindən məhv edilib. İndi bizim "Azərkosmos"un fotoları var - işğaldan əvvəl neçə min hektar meşə altında idi və indi nə qədərdir. Ağacla dolu olan altmış min hektara yaxın sahəni, meşə fondunu ermənilər dağıdıblar, yəni, kəsiblər. Kəsiblər, talayıblar, aparıblar. Eşitdiyimə görə orada parket işləri, bu biznes çox sürətlə gedirdi. Bu da talançılıqdır. Bu talançılığa görə də cavab verəcəklər. Bizim çaylarımızı zəhərləyiblər. Oxçuçay nə gündədir? Oxçuçay təbii fəlakətdir və onu zəhərləyən yenə də xarici şirkətdir. O şirkət də cavab verməlidir və verəcəkdir. Dəymiş hər bir ziyan hesablanır. Azad edilmiş bütün torpaqlarda, şəhərlərlə, kəndlərdə indi monitorinq aparılır, pasportlaşdırma aparılır, bütün evlərin pasportları hazırlanır, dəymiş ziyan təsbit edilir və biz beynəlxalq məhkəmələrdə dəymiş bütün ziyanın qaytarılmasını tələb edəcəyik.

Təbii sərvətlər talan edilib, istismar edilib, çaylarımız zəhərlənib, meşələrimiz qırılıb, evlərimiz dağıdılıb, məscidlərimiz sökülüb. Bunu kim edib? Ermənilər! Cavab verməlidirlər və verəcəklər.

Biz isə indi genişmiqyaslı bərpa işlərinə start verdik. O cümlədən Kəlbəcər və Laçın rayonlarında, Şərqi Zəngəzur regionunda. Artıq bu işlərin bir hissəsi bu gün qeyd olundu – yarımstansiya fəaliyyətə başladı, su elektrik stansiyasının tikintisi ilə tanış oldum, Laçın rayonunda beynəlxalq hava limanının təməli qoyuldu, iki tunelin təməli qoyuldu və digər infrastruktur layihələri artıq icra edilməkdədir. Eyni zamanda, biz pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarının arıçılıqla və heyvandarlıqla məşğul olan sakinlərini buraya göndərdik, ezam etdik, şərait yaratdıq ki, onlar işə başlasınlar və artıq bu işlərə də start verildi.

Biz, eyni zamanda, Kəlbəcər, Laçın istiqamətində dövlət sərhədimizi möhkəmləndiririk. Bu sərhəd 30 ilə yaxın müddət ərzində ermənilərin əlində idi və biz may ayında qarlar əriyəndən sonra bu sərhədlərə çıxmışıq, öz mövqelərimizi tutmuşuq, Zəngəzurda yerləşmişik və orada möhkəmlənirik. Bu, bizim torpağımızdır. Ermənistan tərəfindən səslənən fikirlər tamamilə əsassızdır. Biz öz torpağımızdayıq,

Qaragöl də bizimdir, başqa yerlər də bizimdir. Biz gəlmişik. 30 il bu ərazi ermənilərin əlində idi. Əgər o sərhəd onların dediyi yerdən keçirdisə, durardılar o sərhəddə. Durardılar, deyərdilər ki, sərhəd budur. Nə oldu bəs? Biz gələndən sonra, durandan sonra dedilər ki, yox, biz düz yerdə durmamışıq. Biz düz yerdə durmuşuq, harada lazımdır, orada durmuşuq və əgər istəsək, harada lazım bilsək, orada da duracağıq. Onu heç kim unutmasın. Ona görə indi Müdafiə Nazirliyinin və Sərhəd Qoşunlarının xətti ilə bütün sərhəd boyunca - Murovdağdan ta Araz çayına qədər bütün sərhəd infrastrukturu, hərbi hissələr yaradılır, biz bu sərhədlərdə möhkəmlənirik.

Daxili əhəmiyyət daşıyan 700 kilometr uzunluğunda yolların çəkilişi prosesi gedir. Mən hələ əsas şəhərlərarası yolları kənara qoyuram, o layihələr haqqında kifayət qədər məlumat verildi. Bizim sərhədlərə gedən 700 kilometr yolların çəkilişi prosesi gedir və artıq qış gələnə qədər bu işin təqribən 80 faizi görüləcək. Yəni, torpaq, çınqıl örtüklə döşənmiş yollar və bu, bizə imkan verəcək ki, həm hərəkət üçün, həm hərbi nöqteyi-nəzərdən bu bölgələrdə daha da möhkəmlənək. Əlbəttə ki, Azərbaycan-Ermənistan sərhədində biz söz sahibiyik. Bu, təbiidir və bundan sonra da söz sahibi olacağıq. Ona görə, bu məsələ ilə bağlı bəzən hansısa xarici dairələrdə də qeyri-adekvat fikirlər səsləndirilir. Buna ehtiyac yoxdur. Biz harada lazım bilmişiksə, orada da durmuşuq və əgər bu kimisə narahat edirsə, əgər kimsə əsəbləşirsə, necə deyərlər, getsinlər, su içsinlər.

Bildiyiniz kimi, mənim Sərəncamımla 14 iqtisadi rayon yaradıldı. Onların arasında iki iqtisadi rayonun yaradılması diqqət çəkdi – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı. Hesab edirəm ki, bu da çox düzgün addımdır. Bu, həm tarixə əsaslanır, eyni zamanda, gələcəyə əsaslanır. Çünki, həm Qarabağ, həm Zəngəzur bizim tarixi dədə-baba torpağımızdır. Qarabağ iqtisadi rayonunda bütün Qarabağ bölgəsinə aid olan rayonlar birləşdi. Şərqi Zəngəzur iqtisadi rayonunda Şərqi Zəngəzura aid olan rayonlar birləşdi. Qərbi Zəngəzur isə hazırda Ermənistanın nəzarəti altındadır. Ancaq Zəngəzur dəhlizinin çəkilişi nəticəsində əlbəttə ki, biz bu dəhlizdən istifadə edib öz vətəndaşlarımızı dədə-baba torpaqlarımıza qaytaracağıq. Belə planlar var və bu da təbiidir. Çünki bizim vətəndaşlar indiki Ermənistan ərazisindən, təkcə Zəngəzur mahalından yox, Göyçə mahalından da, - bura ilə həmsərhəddir, - zorla qovulmuşlar və onların tam haqqı var ki, gedib öz dədə-baba torpaqlarında yaşasınlar. Biz bunu sonrakı mərhələyə saxlayırıq.

İndiki mərhələdə bizim əsas vəzifəmiz müharibənin nəticələrini möhkəmləndirməkdir, azad edilmiş torpaqlarda möhkəmlənməkdir. Azərbaycan-Ermənistan sərhədində bundan sonra da mövqelərimizi gücləndirməkdir. Yenidənqurma, bərpa işlərinə artıq start verilib, bu da əsas vəzifələrdən biridir. Keçmiş məcburi köçkünləri azad edilmiş torpaqlara tədricən qaytarmaq da gündəlikdə duran məsələdir. Mən artıq bildirmişəm, Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər seçildi. Artıq işlər gedir ki, o kəndlərin bərpasına start verək və vətəndaşları oraya qaytaraq. Ağdam şəhərinin baş planı təsdiqləndi, digər şəhərlərin baş planının təsdiqlənməsi yaxın aylarda nəzərdə tutulur.

Beləliklə, biz bundan sonrakı əsas hədəfləri düzgün müəyyən edərək, bu hədəflərə çatmağa da nail olacağıq. Biz bu gün buradayıq, Kəlbəcərdəyik, Azərbaycanın çox gözəl guşələrindən biri olan Kəlbəcərdəyik və biz bundan sonra burada əbədi yaşayacağıq. Yaşasın Azərbaycan! Eşq olsun Azərbaycan xalqına!

**X X X**

**Prezident İlham Əliyev:** Kəlbəcər şəhəri. Yolun sağında da, solunda da bir dənə salamat bina yoxdur. Baxmayaraq ki, ermənilərin bir hissəsi Kəlbəcər rayonunda qanunsuz məskunlaşmışdılar. Ancaq azərbaycanlılara məxsus olan bütün evləri yerlə-yeksan ediblər. Bax, indiki Kəlbəcər şəhəri budur. Biz Kəlbəcər şəhərini də, kənləri də yenidən quracağıq. Bax, bütün evlər dağılmış vəziyyətdədir.

**X X X**

Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Kəlbəcər şəhərindəki N saylı hərbi hissəyə gəldi.

Quru qoşunları komandanı general-mayor Ənvər Əfəndiyev Ali Baş Komandan İlham Əliyevə raport verdi.

-Cənab Ali Baş Komandan, quru qoşunlarının əməliyyat şəraitində dəyişiklik olmayıb, hadisə baş verməyib.

Prezident, Ali Baş Komandan hərbi hissədə yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, burada hərbi qulluqçuların xidməti yüksək səviyyədə aparması üçün hər cür şərait yaradılıb. Hərbi hissənin maddi-texniki təchizatı da ən yüksək səviyyədə həyata keçirilib. Bu da hərbi qulluqçularımıza Vətənin keşiyində hər zaman ayıq-sayıq durmağa, onu düşməndən layiqincə müdafiə etməyə imkan verir.

**X X X**

**Prezident İlham Əliyev:** İndi isə biz İstisuya gəldik. İstisu sanatoriyasının dağılmış görüntüləri gözümüzün önündədir. Vəhşi düşmən buranı da söküb. Baxın, nə günə qoyub sanatoriya korpuslarını.

**X X X**

Kəlbəcər faydalı qazıntı yataqları, səfalı təbiəti ilə yanaşı, İstisu mineral ehtiyatı və “İstisu” sanatoriyası ilə də məşhurdur. Erməni vandalları ərazilərimizi işğal etdikdən sonra oradakı təbii ehtiyatları da istismar ediblər. İndi “İstisu”ya öz əvvəlki şöhrətini qaytarmaq qarşıda duran vəzifələrdən biridir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcərə səfər çərçivəsində “İstisu” sanatoriyasında da oldular

İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb.

Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir. Suyun temperaturu səthdə müsbət 74, dərinlikdə isə 90 dərəcəyə çata bilər. İstisu mineral bulaqları 12 bulaqdan ibarətdir.

**Prezident İlham Əliyev:** Vəhşilər bu abidəni də söküblər. Qəribədir, burada “mir” yazılıb, bu abidə sülhü tərənnüm edirdi. Vəhşi düşmən bunu da sökübdür. Onu da söküb, bu binanı da söküb, hər tərəfi söküb. Biz bütün yerləri yenidən bərpa edəcəyik, yenidən həyat qayıdacaq.

Prezident İlham Əliyev burada uzunluğu 51 kilometr olan İstisu-Minkənd yolunun çəkilməsi işlərinə də baxdı.

**Prezident İlham Əliyev** dedi: Bu, İstisu-Minkənd yoludur. Bu yol olmayıb, yenidən çəkilir, uzunluğu 51 kilometrdir. Kəlbəcərin İstisu qəsəbəsini Laçının Minkənd kəndi ilə birləşdirən yoldur. Bu, Kəlbəcər və Laçın rayonları arasında ikinci bağlantı olacaq. Hazırda bu yol boyunca işlər gedir, torpaq işləri başa çatıb. Bundan sonra asfalt qatı da vurulacaq. Beləliklə, biz növbəti yol infrastrukturunu yaradacağıq. Həm İstisuya Laçın Beynəlxalq Hava Limanından istifadə edərək gəlmək üçün rahat imkan olacaq, eyni zamanda, Kəlbəcərlə Laçın arasında ikinci yol bağlantısı olacaq. Bunun həm strateji, həm də hərbi əhəmiyyəti var. Eyni zamanda, vətəndaşların rahatlığı, İstisu kurortunu yenidən bərpa etmək, müasir səviyyəyə gətirmək üçün bu yolun böyük əhəmiyyəti var. Bu yol layihəsi də uğurla icra edilir. Xəritədə də artıq yaşayış məntəqələrindən keçən yol göstərilir.

Beləliklə, Kəlbəcər və Laçın rayonlarına səfərimiz başa çatır. Səfər çox uğurlu idi. Bir çox önəmli obyektlərin açılışını etdik, təməlini qoyduq. Şərqi Zəngəzurun gələcək inkişafı ilə bağlı bütün işlər plan üzrə gedəcək və biz istəyimizə nail olacağıq.

Qarabağ və Şərqi Zəngəzur Azərbaycandır!

**X X X**

**Prezident İlham Əliyev:** Heyvandarlar da Kəlbəcər yaylaqlarına qayıdıblar. Həm arıçıları, həm heyvandarlıqla məşğul olanları biz qaytarmışıq. Görürsünüz, onlar məskunlaşıblar. Qoyunları da burada otarırlar. Bu ənənə də bərpa edildi. İşğaldan əvvəl heyvandarlar həmişə buraya gəlirdilər. İndi bizi salamlayırlar. Biz də onları salamlayırıq. Xoş gəliblər öz Vətənlərinə.

Səma bizi yola salır, biz də Ömər aşırımına yaxınlaşırıq, qayıdırıq.

**AZƏRTAC**
**2021, 17 avqust**

**Ahlat bələdiyyəsinin sədri: Azərbaycanlı qardaşlarımızın Şuşada, Kəlbəcərdə yaşadıqlarını biz də hiss edir və paylaşırıq**

Ahlatdakı Azərbaycan çadırını ziyarət edərkən azərbaycanlı qardaşlarımızın Şuşada, Kəlbəcərdə yaşadıqları eyni duyğuları hiss edir və paylaşırıq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Bitlis vilayətinin Ahlat rayon bələdiyyəsinin sədri Abdülalim Mümtaz Çoban Malazgirt zəfərinin 950-ci ildönümü münasibətilə qurulan Azərbaycan mədəniyyətini tanıtma çadırını ziyarət edərkən Azərbaycan mediasına açıqlamasında ifadə edib.

Ahlat və Azərbaycan əhalisinin eyni milli köklü əhali olduğunu diqqətə çatdıran bələdiyyə sədri Abdülalim Mümtaz Çoban ölkəmizə və xalqımıza olan tükənməz sevgi və məhəbbətini, eləcə də Malazgirt zəfərinin 950-ci ildönümü mərasimlərində iştirak üçün təşəkkürlərini ən xoş sözlərlə ifadə edib.

Qeyd edək ki, Türkiyədə Malazgirt zəfərinin 950-ci ildönümü münasibətilə Bitlis vilayətinin Ahlat rayonunda mərasimlərin keçirildiyi ən cəlbedici məkanda ölkəmizin Türkiyədəki səfirliyi və Qarsdakı baş konsulluğu tərəfindən Azərbaycan mədəniyyətini tanıtmaq üçün birgə qurulan çadır ziyarətçilərin böyük sevincinə və marağına səbəb olub.

**Sabir Şahtaxtı**
**AZƏRTAC-ın xüsusi müxbiri, Ahlat**

**AZƏRTAC**
**2021, 26 avqust**

**Prezident İlham Əliyev: Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır**

Zəngilan, Qubadlı, Kəlbəcər və Laçının baş planları hazırlanır. Heç kimdən asılı olmayaraq, öz vəsaitimiz hesabına, heç kimə müraciət etmədən, heç bir kredit götürmədən biz bu işləri görəcəyik.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib.

Dövlətimizin başçısı deyib ki, uzun illər həm torpaqlarımızı azad etmək üçün ordumuzu gücləndirmişik, həm postmüharibə dövründə quruculuq, bərpa işlərini görmək üçün texniki imkanlar, intellektual potensial, kadr potensialı və maliyyə resursları yaratmışıq.

**AZƏRTAC**
**2021, 17 oktyabr**

**Politoloq: Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz azad edilməsi hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir**

Mübarizliyi və cəsurluğu ilə seçilən Azərbaycan xalqı tarixboyu müstəqilliyə can atması ilə regiondakı digər xalqlardan seçilib. Böyük imperiyaların hədəfində olması da, Azərbaycanı daim gərgin mübarizələrin və qaynar hadisələrin mərkəzinə çevirib.

Bunu AZƏRTAC-a açıqlamasında Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri Xəyal Bəşirov deyib.

Politoloq bildirib ki, XIX əsrin əvvəllərindən başlayaraq artıq planın növbəti mərhələsi, tarixi ərazilərimizdə süni şəkildə hayların yerləşdirilməsi və qədim Azərbaycanın parçalanması prosesinə başlanıldı: “Bu proses ötən əsrdə də davam etdi və Qarabağın və ətraf ərazilərin də daxil olduğu iyirmi faiz torpaqlarımızın düşmənin nəzarətinə keçməsi ilə nəticələndi. Ancaq bu prosesə başı qarışan və əvvəlki itkiləri kimi müəyyən müddət bu hadisələri də əvvəlkilər kimi unudacağımıza ümid edən düşmən yanıldı. Yanıldı ki, biz xalq olaraq, əslində, heç əvvəlki xəyanətləri də, itkiləri də unutmamışıq. Əksinə, bu günə qədər verdiyimiz itkilər və bizim itkilərimiz nəticəsində onların qazandıqları bizim qan yaddaşımıza həkk olunub. İki əsrlik bir məkrli planın qarşısını almaq və bu məğlubiyyət sindromunu qırmaq üçün bizə, ilk növbədə, çox güclü milli birlik, sarsılmaz və mərkəzləşdirilmiş dövlət və məğlubedilməz ordu lazım idi. Bunun da həyata keçirilməsi üçün bütün xalqı bu istiqamətdə səfərbər edəcək qətiyyətli iradəyə sahib liderə ehtiyac var idi. Çünki biz yalnız yeni imicdə qarşımıza çıxan ermənilərə deyil, həm də onları əsrlərdir ki, özlərinin planlarına alət edən qüvvələrə qarşı mübarizəyə hazır olmalıydıq.

Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycanda siyasi hakimiyyətinin ilk illərindən siyasi, iqtisadi və beynəlxalq əlaqələr baxımından çox güclü mərkəzi idarəetmə mexanizminə malik dövlətin əsasını qoydu. Ancaq bu prosesi yekunlaşdırmaq üçün daha uzun zamana ehtiyac var idi və o prosesin daha da sürətli davamını Prezident İlham Əliyev özünün gərgin fəaliyyəti ilə gətirdi. Dövlətimizin başçısı hakimiyyətdə olduğu 18 ilin hər ilində, hər ayında, hər günündə və hər saatında belə qarşıya qoyulan hədəflərə doğru uğurla irəlilədi. Bütün bu illər ərzində dövlətimizin siyasi, iqtisadi, beynəlxalq əlaqələr və ordu quruculuğu istiqamətində yüksək inkişafını təmin etməklə yanaşı, artıq tarixə qovuşmuş Qarabağ münaqişəsi ilə bağlı sülh və danışıqlar prosesini də davam etdirdi. Paralel olaraq danışıqlar prosesini davam etdirməklə Prezident İlham Əliyev Azərbaycan xalqının çoxəsrlik sülhün, sabitliyin və mehribançılığın tərəfdarı olmaqla bağlı müsbət imicini də qorudu. Bununla biz həm də, gələcəkdə istənilən an danışıqlar prosesinə alternativ olacaq əks-hücum yolu ilə torpaqlarımızı işğaldan azad edəcəyimizlə bağlı prosesə hüquqi zəmini gücləndirdik”.

Danışıqlar prosesinin artıq dalana dirəndiyini və Ermənistan rəhbərliyinin təxribatçı bəyanatlarının bu danışıqların sonu olduğunu söyləyən X.Bəşirov bildirib ki, artıq Azərbaycanın da səbri tükəndi və Ermənistanın sentyabrın 27-də başladığı hərbi təxribata Ordumuz əks-hücum əməliyyatı ilə cavab verdi: “Azərbaycan dünyada müharibələr tarixində müddət baxımından ən qısa, məzmun və nəticə baxımından isə ən böyük müharibələrindən birini reallaşdırdı. Azərbaycan ən yeni texnologiyalar vasitəsilə həyata keçirdiyi döyüşün Qalibi adını qazandı. Müharibəyə qədər əldə etdiyimiz siyasi və diplomatik uğurlarımız nəticəsində düşməni bütün siyasi, hərbi və maddi dəstəyinə rəğmən döyüş meydanında tək qoymağımızın da bu prosesdə çox böyük rolu oldu. 44 gün ərzində düşməni çox böyük itkilərə məruz qoyub darmadağın etdik. Nəticədə Ermənistan kapitulyasiya sənədinə imza atmağa məcbur oldu. Bir sözlə, Azərbaycan mövcud imkanları olmasına baxmayaraq, 30 ilə yaxın gözləməklə, əslində, müharibənin deyil, məhz sülhün tərəfdarı olduğunu nümayiş etdirdi”.

X.Bəşirov üçtərəfli Bəyanatın Ermənistanın kapitulyasiyası olduğunu bildirərək deyib: “Düşmən təslim olmağa, ağ bayraq qaldırmağa məcbur oldu. Məhz o sənəd əsasında düşmən iyirmi gün ərzində üç böyük rayonumuzu - Ağdam, Laçın və Kəlbəcəri döyüşsüz boşaltdı. Əlbəttə ki, bu, hərbi-siyasi Zəfərimizin bariz nümunəsidir”.

**Səadət Hakıyeva**

**AZƏRTAC**
**2021, 10 noyabr**

**Deputat: Kəlbəcərdə sürətlə həyata keçirilən layihələr rayonun işıqlı gələcəyindən xəbər verir**

Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il aprelin 2-də işğal olunmaqla 60 minə yaxın sakin öz doğma torpağından didərgin salındı. Bu qəsbkarlıq zamanı 511 dinc insan öldürüldü, 321 nəfər isə əsir götürüldü. Bununla da Ağdam, Füzuli, Qubadlı və Cəbrayıl rayonlarının işğalına yol açıldı. Əslində isə bu, Qarabağın artıq itirilməsi, düşmən caynağına keçməsi demək idi.

BMT Təhlükəsizlik Şurası (TŞ) tərəfindən 1993-cü il aprelin 30-da Azərbaycanın Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822 saylı qətnamə qəbul olundu. Sənəddə işğalçı qüvvələrin Kəlbəcər və digər rayonlardan dərhal çıxarılması tələb edildi. Bu qətnamənin qəbulundan sonra ATƏT-in Minsk qrupu qəsbkarın Azərbaycanın işğal altında saxladığı ərazilərindən geri çəkilməsi ilə bağlı “təcili tədbirlər haqqında vaxt cədvəli” hazırladı. Lakin Ermənistan bütün bunlara məhəl qoymayaraq, 20 faiz torpağımızı 30 il ərzində işğalda saxladı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında, Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Rəşad Mahmudov söyləyib.

Ermənistanın işğal dövründə Kəlbəcərin qədim və zəngin maddi-mədəni irsini tamamilə məhv etdiyini bildirən deputat deyib: Düşmən bölgədə yerləşən və Azərbaycanın qədim alban xristian irsinə aid olan monastrların orijinal arxitektur xüsusiyyətlərini dəyişdirərək erməniləşdirib. Kəlbəcərin təbii resurslarını və faydalı qazıntılarını qanunsuz şəkildə istismar edib. Qəsbkar bunlar azmış kimi, rayon ərazisində qanunsuz məskunlaşdırma da aparıb.

Davamlı sülhə nail olunmasının yeganə yolu isə Ermənistan silahlı qüvvələrinin Kəlbəcərdən, eləcə də işğal olunmuş digər ərazilərimizdən qeyd-şərtsiz və tamamilə çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları üçün hüquqlarının təmin edilməsi idi. Belə bir hüquq, haqq-ədalət isə düşmən ölkənin silahlı qüvvələrinin ötən il sentyabrın 27-də törətdiyi növbəti təxribata, hərbi obyektləri və mülki əhalini hədəfə almasına cavab olaraq Ordumuzun həyata keçirdiyi əks-həmlə əməliyyatları ilə başlanan və 44 çəkən Vətən müharibəsində qazandığı möhtəşəm Qələbə ilə bərpa edildi”.

Rəşad Mahmudov bildirib ki, savaş zamanı düşmənin işğal etdiyi ərazilərdə möhkəmləndirdiyi hərbi mühəndis-istehkam qurğuları Azərbaycan Ordusunun əks-hücumu nəticəsində darmadağın edildi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın, Ağdam və Hadrut azad edildi. Bütövlükdə, 5 şəhər, 4 qəsəbə və 300-ə yaxın kəndin ərazisi hərbi yolla qəsbkardan təmizləndi.

Azərbaycanın qədim mədəniyyət beşiyi sayılan və hər bir azərbaycanlının qəlbində qürur, iftixar simvolu olan Şuşa şəhərinin düşmən əsarətindən azad edilməsi ilə tam məğlubiyyətə uğrayan Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza ataraq, Azərbaycanın işğal altındakı digər ərazilərindən qoşunlarını çıxarmağa məcbur oldu. Beləliklə, Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını gerçəkləşdirdi. Bununla da Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasəti Ermənistan və onun ədalətsiz havadarlarının acı məğlubiyyəti ilə nəticələndi, ölkəmiz uzun illər çəkən bu haqsız siyasi-hərbi mübarizədən qalib çıxdı.

Ordumuz uğurlu əməliyyatları ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. Haqq işində Azərbaycan xalqının birliyi, qalib Prezidentinə və qəhrəman Ordumuza inamı bu tarixi Qələbəni reallaşdırdı.

Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanan birgə Bəyanatın qüvvəyə minməsi ilə münaqişənin hərbi fazası başa çatdı. Bəyanata uyğun olaraq, dekabrın 1-dək üç rayon-Ağdam, Kəlbəcər və Laçın Azərbaycana təhvil verildi.

Deputat qeyd edib ki, ötən il noyabrın 25-də azadlığına qovuşan Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi düşməndən təmizləndi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə rayonun azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət göstərən Azərbaycan Silahlı Qüvvələrinin 9424 hərbi qulluqçusu “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olundu.

Vətən müharibəsində Kəlbəcərdəki strateji yüksəkliklərin götürülməsi işğalçının acı məğlubiyyətinin əsas məqamlarından biri oldu. Çünki bu yüksəkliklər ermənilərin yararlandıqları nəqliyyat-kommunikasiya infrastrukturuna nəzarət etməyə imkan verdi. Prezident İlham Əliyev bununla bağlı çıxışlarının birində dedi: “İkinci Qarabağ müharibəsinin ilk günlərində döyüşlər gedən zaman Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilmişdir. Biz Kəlbəcərin şimal hissəsində strateji yüksəklikləri götürərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə böyük dərəcədə məhdudlaşdıra bildik və faktiki olaraq onlar Basarkeçər-Kəlbəcər yolundan istifadə edə bilmədilər. Bəzi

istiqamətlərdə strateji nöqtələri götürərək Ermənistan ordusunun hərəkətlərini demək olar ki, iflic vəziyyətə salmışdıq".

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva düşməndən təmizlənən Kəlbəcərdə 2021-ci il avqustun 16-da səfərdə olarkən, dövlətimizin başçısı burada Azərbaycan bayrağını qaldırdı və rayonda bərpa-quruculuq, tikinti işlərinə rəsmi start verdi.

Hazırda rayon ərazisində fərqli təyinatlı infrastruktur layihələri reallaşdırılır. Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda tunelin tikintisi həyata keçirilir. Qısa müddətdə işə salınan 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyası isə rayonun işıqlı gələcəyindən xəbər verir.

**AZƏRTAC**
**2021, 22 noyabr**

**Politoloq: Kəlbəcərin qaytarılması Ermənistan məğlubiyyətinin və işğalçı dövlət kimi tanınmasının təsdiqi idi**

Kəlbəcər İkinci Qarabağ müharibəsində qazanılmış Qələbənin hüquqi və siyasi nəticəsi olaraq Ermənistanın kapitulyasiyasından sonra Azərbaycana qaytarıldı. Kəlbəcərdən erməni silahlı birləşmələrinin çıxarılmasının digər önəmli tərəfi isə rayonun silah və güc tətbiq edilmədən azad edilməsi oldu. Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri ötən il noyabrın 10-da üçtərəfli Bəyanat imzaladılar. Bəyanata əsasən, işğalçı Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından çıxmaq məcburiyyətində qaldı. Müharibənin gedişi zamanı Azərbaycan Prezidenti İlham Əliyev müsahibə və çıxışlarında bildirirdi ki, düşmən torpaqlarımızdan çıxmağının qrafikini rəsmi şəkildə verdikdə döyüş əməliyyatlarını dayandıra bilərik. Üçtərəfli Bəyanatda erməni silahlı birləşmələrinin torpaqlarımızdan çıxması şərtlərinin göstərilməsi Prezident, Ali Baş komandan İlham Əliyevin siyasi iradəsinin, Azərbaycanın Müzəffər Ordusunun gücünün təzahürü idi.

Bunu AZƏRTAC-a açıqlamasında politoloq Yalçın Hacızadə deyib.

Politoloq bildirib: "Azərbaycan xalqı 27 il idi Kəlbəcərin azad olunmasını səbirsizliklə gözləyirdi. Kəlbəcərin qaytarılması Azərbaycanın möhtəşəm tarixi Qələbəsinin sübutu, Ermənistan məğlubiyyətinin və işğalçı dövlət kimi tanınmasının təsdiqi idi. Kəlbəcərin azad olunması, eyni zamanda, dünyanın ən böyük və nüfuzlu təşkilatı hesab edilən BMT-nin illərdir icra olunmayan 822 saylı qətnaməsinin Azərbaycanın özü tərəfindən hərbi-siyasi yolla yerinə yetirilməsi idi.

Kəlbəcərin işğalı nəticəsində minlərlə vətəndaşımız məcburi köçkünə çevrildi. Rayon ərazisində yerləşən şəxsi və dövlət obyektləri, infrastruktur, tarixi-mədəni abidələr dağıdılıb. Həmçinin kəndlərin, obyektlərin tarixi adı dəyişdirilib. İşğalçı Ermənistan bununla kifayətlənməyərək Kəlbəcərin təbiətinə də böyük ziyan vurub.

Qələbəmizdən sonra işğaldan azad edilmiş bütün rayonlarımızda olduğu kimi, Kəlbəcərdə də böyük quruculuq işləri sürətlə həyata keçirilir. Yollar, tunellər, elektrik stansiyaları tikilir və müxtəlif layihələr icra edilir.

Y.Hacızadə vurğulayıb ki, Kəlbəcərin təbiəti, orada yerləşən qədim tarixi abidələr ərazinin turizm potensialını artırır. Yenidən qurulan yollar, tikilən müasir tunellər, ətraf rayonlarda inşa edilən hava limanları Kəlbəcərə insanların gəlişini rahatlaşdırır. Həmçinin təbii mineral suları və filiz yataqları ilə zəngin olan Kəlbəcərin gələcəkdə ölkəmizin inkişaf etmiş rayonlarından birinə çevriləcəyini göstərir.

Tarixi Zəfərimiz nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasından, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması təmin olunacaq. Eləcə də iqtisadi və ticari əlaqələrin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın regionun iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsində rolunu daha da möhkəmləndirəcək.

**AZƏRTAC**
**2021, 24 noyabr**

**Deputat: Kəlbəcər rayonu xarici turistlər üçün ən cəlbedici bölgələrimizdən biri olacaq**

Noyabrın 25-də Azərbaycanın ən füsunkar və qədim yaşayış məskənlərindən biri olan Kəlbəcər rayonunun işğaldan azad olunmasının 1 ili tamam olur. "Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (Kevliçer) "çay üstündə qala" deməkdir. Təsadüfi deyil ki, bu yaşayış məntəqəsinin yerləşdiyi qayada Tərtər çayı boyunca qədim süni mağaralar var. Kəlbəcər ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri mövcuddur. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Jalə Əhmədova bildirib.

Deputat bildirib ki, 1 şəhər, 1 qəsəbə, 145 kənd və 55 inzibati ərazi dairəsindən ibarət olan Kəlbəcər rayonu 1993-cü il 2 aprel tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildikdən sonra rayon talan edilib, dağıdılıb, rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanmışdı.

O qeyd edib ki, Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822 saylı Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunsa da, rəsmi İrəvan digər qətnamələr kimi onu da icra etmədi. "Nəhayət ədalət öz yerini tapdı. Vətən müharibəsində əldə etdiyimiz Qələbə nəticəsində noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Silahlı Qüvvələrinin 9424 hərbi qulluqçusu "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olundu.

2021-ci il avqustun 16-da Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş Kəlbəcər rayonunda səfərləri zamanı dövlətimizin başçısı Kəlbəcərdə Azərbaycan bayrağını ucaltdı. Bu gün Kəlbəcər rayonunda sürətli bərpa-quruculuq işləri gedir, infrastruktur layihələri həyata keçirilir. Dövlətimizin başçısı və birinci xanım 80,7 kilometrlik Toğana-Kəlbəcər-İstisu avtomobil yolunun və onun üzərində Murovdağda inşa olunacaq 11,6 kilometr uzunluğunda tunelin təməlini qoyublar. Bu yolla Göygöl və Kəlbəcər rayonları birləşəcək. Bundan başqa, bu yolun üzərində inşa ediləcək və Murovdağ silsiləsinin altından keçəcək tunel ölkəmizdə yol tikintisi sahəsində bir yenilik olacaqdır. Həyata keçirilən bütün bu işlər onu göstərir ki, Kəlbəcər rayonu yaxın illərdə müasir və yeni infrastrukturla təmin olunaraq turistlərin ən çox maraq göstərdikləri məkanlardan birinə çevriləcəkdir", - deyə deputat vurğulayıb.

**AZƏRTAC**
**2021, 24 noyabr**

**Adil Əliyev: Kəlbəcərin azad olunması erməni diasporuna vurulan psixoloji zərbədir**

2017-ci ildə Ermənistan onların Vardenis adlandırdıqları tarixi Azərbaycan torpağı olan Basarkeçərdən Kəlbəcərə çəkilən yeni magistral yolun inşasını tamamlayıb istifadəyə verdi. Kəlbəcər yolu İrəvana Laçın yolundan daha yaxın olduğu üçün məsafəni qısaldırdı. Eyni zamanda, Ermənistandan o vaxt işğal altında olan Qarabağa turistlərin gətirilməsi üçün daha əlverişli idi. Həm də Ermənistan ordusunun təchizatı baxımından strateji rol oynayırdı. Məhz bu səbəblərdən xaricdəki erməni diasporu bu yola xüsusi əhəmiyyət vermiş və onun tikintisinə yardım məqsədilə Hayastan fondu tərəfindən ABŞ-da, Los-Ancelesdə 2013-cü il 28 noyabr - Şükranlıq Günündə xeyriyyə telemarafonu təşkil edilmişdi. Amma erməni tərəfi bu yoldan cəmi üç il istifadə edə bildi. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərində Azərbaycan Ordusu yola nəzarət edən yüksəklikləri tutaraq onun istifadəsini Ermənistan qüvvələri üçün demək olar ki, mümkünsüz etdi. 2020-ci il oktyabrın 8-də Ermənistanın Fövqəladə Hallar Nazirliyi Basarkeçər-Kəlbəcər yolunun bağlandığını rəsmi surətdə etiraf etdi. Nəticədə Ermənistan ordusunun təchizatında ciddi problemlər yarandı və bu amil də bizim Qələbəmizə öz töhfəsini verdi. Bu isə o deməkdir ki, Ermənistan Kəlbəcəri üçtərəfli Bəyanata uyğun olaraq təhvil versə də, əslində Azərbaycan Ordusu Kəlbəcərin taleyini hərbi-strateji baxımdan Vətən müharibəsinin ilk on günündə həll etmişdi.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

A.Əliyev deyib: “Cari il avqustun 16-da Kəlbəcər rayonuna səfər edən Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin yolun üstündə avtomobili saxlayaraq qeyd etdi ki, bu yol çox gözəl yoldur və bu yolun özünü də hərbi qənimət hesab etmək olar. Erməni diasporunun vəsaiti hesabına inşa edilmiş bu yolun hərbi qənimət kimi qiymətləndirilməsi onlar üçün həm də sarsıdıcı psixoloji zərbə idi. Çünki işğal zamanı erməni tərəfi həmişə bu yol haqqında fəxrlə danışır, onu sanki işğal edilmiş torpaqların Ermənistana birləşdirilməsinin və Ermənistan Respublikası ilə erməni diasporu arasındakı birliyin rəmzi kimi təqdim etməyə çalışırdılar. Amma ermənilərin məğlubedilməzliyi barədə yaradılmış mif Azərbaycan Ordusu tərəfindən darmadağın edildiyi kimi bu yolun ətrafında qurulmuş süni hekayənin taleyi də puç oldu”.

Milli Məclis sədrinin müavini qeyd edib ki, Ermənistanın və erməni diasporunun puç olmuş hekayəsinin əvəzində Azərbaycan yeni bir reallıq yaratdı. Bu yeni reallığın ən əlamətdar təzahürlərindən biri Prezident İlham Əliyevin təməlini qoyduğu, Göygöl və Kəlbəcər rayonlarını birləşdirəcək 81 kilometrlik Toğana-Kəlbəcər avtomobil yolu və onun üzərində Murovdağda inşa ediləcək 11,6 kilometrlik tuneldir. Hətta Sovet dövrünün ən çiçəklənən vaxtında belə, bu cür çətin coğrafi relyefdə tunel çəkmək mümkün olmayıb. Bu gün isə Azərbaycan özü bu yolu və tuneli inşa edir. Bu, bir daha sübut edir ki, güclü Azərbaycan miskin Ermənistanın əksinə olaraq daş sökməyə, ev yandırmağa deyil, qurmağa, yaratmağa, Kəlbəcəri və bütün işğaldan azad edilmiş ərazilərimizi çiçəklənmiş diyara çevirmək üçün qayıdıb.

**AZƏRTAC**
**2021, 24 noyabr**

**Deputat: Kəlbəcərin bərpası regionun inkişafında yeni imkanlar yaradacaq**

Vətən müharibəsindəki şanlı Zəfər, Qarabağın inkişafı, Böyük Qayıdış planının icrası, Zəngəzur dəhlizinin açılması istiqamətində atılan addımlar müstəqil dövlətçilik tariximizin ən şərəfli səhifəsi olmaqla yanaşı ölkəmizin dünyadakı nüfuzunu, siyasi və iqtisadi çəkisini daha da artırdı.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğalçını sülhə məcbur etmək məqsədilə qətiyyətli əks-hücum əməliyyatlarının gedişində qazandığı möhtəşəm Qələbə dünya hərb tarixində öz dəst-xəti ilə seçildi. Ən başlıcası, müstəqil dövlətimiz Birləşmiş Millətlər Təşkilatının erməni silahlı birləşmələrinin işğal olunmuş torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmasını tələb edən, lakin ikili standartlar üzündən illər ərzində kağız üzərində qalan qətnamələrinin icrasını özü təmin etdi

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib.

O qeyd edib ki, hər günü, hər anı xalqımız üçün şərəf və qürur mənbəyi olan Zəfər tariximizdə Ağdam rayonundan sonra Qarabağın qala qapısı sayılan Kəlbəcərin azad edilməsi hərb meydanında qazandığımız böyük qələbələrin diplomatik yolla davamı, xalq-iqtidar birliyinin dünyaya nümayişi oldu.

Uzun illər erməni işğalı altında olan, Kəlbəcər rayonunun ərazisində yerləşən, Söyüdlü (Zod), Ağduzdağ və Tutxun qızıl yataqları Ermənistan tərəfindən talan edilib. Kəlbəcəri tərk edərkən belə təbii sərvətlərimizi talan edən ermənilər ağacları kəsdilər, evlərə, meşələrə od vurdular, əsl ekoloji terror törətdilər. Dünya birliyi də, beynəlxalq təşkilatlar da, işğalçı Ermənistana havadarlıq edənlər də, bəzi Qərb liderləri də erməni vandallarının ekoloji terroruna, maddi mədəniyyət nümunələrinin dağıdılmasına, dini abidələrin viran qoyulmasına səssiz qaldılar. Uzun illərdir işğal olunmuş ərazilərdə Azərbaycanın təbii sərvətlərinin amansızcasına hasilatı, təbiətinin, endemik nümunələrinin, flora və faunasının məqsədli və sistemli şəkildə məhv edilməsi bu gün yalnız ölkəmizin deyil, bütün dünya dövlətlərinin də diqqət mərkəzində olmalıdır.

“Düşmən tapdağından birdəfəlik azad olan diyarda dərhal genişmiqyaslı tikinti, quruculuq işlərinə start verilməsi isə dədə-baba yurduna qovuşmağın sevinci içərisində olan Kəlbəcər elində daha aydın sabaha inamı birə-min yüksəltdi.

Azərbaycanın Ermənistanla sərhədboyu ən uzun məsafəyə - 136 kilometrlik sərhəd xəttinə malik Kəlbəcərdə üçrəngli bayrağımızın dalğalanması, azadlığından ötən cəmi bir il ərzində müstəsna əhəmiyyətə malik infrastruktur layihələrinin icra olunması çox qısa zamanda kəlbəcərlilərin doğma yurdlarında yeni həyata başlayacaqlarından xəbər verir. 2021-ci ilin avqustun 16-da dövlətimizin başçısı və birinci xanım Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin təməlini qoydu. Beləliklə Göygöl və Kəlbəcər rayonlarını yeni yol birləşdirəcək. Daha sonra “Kəlbəcər-1” Kiçik Su Elektrik Yarımstansiyasında görülən işlərlə tanış olan Azərbaycan Prezidenti, 110/35/10 kilovoltluq “Kəlbəcər” yarımstansiyasının açılışını etdi. Səfər çərçivəsində Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin də təməli qoyuldu. Torpağının altı da, üstü də zəngin xəzinə olan Kəlbəcər ölkə Prezidentinin birbaşa nəzarəti və rəhbərliyi ilə tez bir zamanda Azərbaycan iqtisadiyyatına inteqrasiya edəcək və bölgənin əsas iqtisadi istinadı, gücü olacaq.

**AZƏRTAC**
**2021, 25 noyabr**

# Deputat: Kəlbəcərin azad olunması Azərbaycanın düşməndən hərbi və mənəvi cəhətlərdən qat-qat güclü olduğunu bir daha göstərdi

Ötən il sentyabrın 27-də Azərbaycan Ermənistanın növbəti təxribatlarına cavab olaraq əks-hücum əməliyyatına başladı. Əslində, müharibə heç bir halda sevinclə qarşılana bilməz. Lakin Azərbaycan xalqı bu hadisəyə tamamilə başqa reaksiya verdi. 30 ilə yaxın davam etmiş Vətən həsrəti, torpaqların işğalı bir çox ürəyi qubarlatmışdı, sanki bizi xəcalətli etmişdi. Xalqımız sanki Ali Baş Komandanın əmrinə müntəzir idi. Gənc nəslin humanizm dəyərləri çərçivəsində tərbiyə edilməsinə baxmayaraq, hamı bir nəfər kimi müharibəni gözləyirmiş. Səfərbərliyə sevindik, döyüşlərə könüllü getmək üçün ər oğullar növbəyə durdu. Müharibənin ilk günlərindən bir-birinin ardınca qələbə xəbərləri almağa alışdıq. Murovdağ, digər əhəmiyyətli zirvələr, Suqovuşan, Füzuli, Cəbrayıl, Qubadlı… Nəhayət 8 noyabr. Azərbaycan tarixində yeni və ən şanlı bir gün - Şuşa azad edildi. Bu xəbər düşmənin belini qırdı. 9 Noyabr - Bayraq Günü ikiqat bayrama çevrildi. Şuşanın azad edilmə sevinci bayrağımızı daha əziz, daha möhtəşəm etdi və hələ bu bayram sevincindən oyanmamış daha bir bayram xəbəri aldıq - Ermənistan kapitulyasiyaya imza atdı.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Ülviyyə Ağayeva ifadə edib.

“Noyabrın 10-da Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən, Ermənistan silahlı qüvvələrinin birləşmələri Kəlbəcər, Laçın və Ağdam rayonlarının ərazilərini qeyd-şərtsiz tərk etməlidir. Kəlbəcər rayonu noyabrın 15-də Azərbaycana qaytarılmalı idi”, - deyən deputat qeyd edib ki, gözü doymayan düşmən son nəfəsinə kimi bu torpaqlardan qənimət aparmaq istəyirdi, 27 il özəlləşdirib yaşadıqları evlərimizin damı, daşı, meşələrimizin ağacları maşınlarına yükləndi. Yenə də gözləri doymadı. İmkanları olsaydı, havanı da yığıb daşıyardılar. Apara bilmədiklərini məhv edir, evləri yandırır, meşələrə od vurur, suları çirkləndirərək ekoloji fəlakət törədirdilər.

Bununla bir daha bütün dünyaya öz vəhşi mahiyyətlərini, XXI əsrdə misli görünməmiş vandalizm nümayiş etdirirdilər. Noyabrın 15-dək rayonu boşalda bilməyən Ermənistan tərəfinin müraciəti əsasında Rusiya dövlətinin xahişi ilə Kəlbəcəri təhvil vermək üçün 10 gün əlavə möhlət verildi. Qeyri-qanuni yaşadıqları əraziləri - Azərbaycan torpaqlarını tərk edən ermənilər təhlükəsiz şəkildə, atəşə məruz qalmadan rahatlıqla buranı tərk etdilər. Azərbaycan Ordusu onlara ərazini tərk etmək üçün şərait yaratmışdı. Halbuki işğalçılar vaxtilə Kəlbəcər əhalisinə öz evlərindən qovulmaq üçün cəmi 10 saat vaxt vermişdilər, onda da yollarını bağlayaraq uşaq, qoca, qadın bilmədən bacardıqları qədər insanı qətlə yetirmişdilər. Bu addımı ilə Azərbaycan dövləti düşməndən hərbi və mənəvi cəhətdən qat-qat üstün olduğunu nümayiş etdirdi. Bu, Azərbaycanla Ermənistan arasındakı fərqin bariz nümunəsi, danılmaz faktdır.

İyirmi yeddi illik həsrətdən sonra 10 günün həsrətinə dözmək olardı. Ancaq bu on gün nə qədər ağır idi. Sanki hər dəqiqə bir günə çevrilmişdi. Bu günü də yaşadıq - noyabrın 25-də Kəlbəcər ölkəmizə təhvil verildi. Kəlbəcərin azad olunması BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin Azərbaycan dövləti tərəfindən icrasının təmin edilməsi deməkdir.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, hərbi Zəfəri həm də siyasi qələbəyə çevirən diplomatik məharəti nəticəsində Ağdam kimi, Kəlbəcər də qan tökülmədən, şəhid verilmədən, hərbi əməliyyatlarsız, siyasi yolla işğaldan azad edildi, öz tarixi sahiblərinə geri qaytarıldı. Azərbaycan Ordusu çox çətin relyefə, sərt iqlimə malik Kəlbəcərə bir güllə atmadan daxil oldu.

“Təbii ki, vandalların təbiətimizə vurduqları itkiləri hesaba almasaq, Kəlbəcərin işğaldan insan itkisi vermədən azad edilməsi Ali Baş Komandanımızın müdrik rəhbərliyi ilə qəhrəman oğullarımızın şanlı hərbi Qələbəsi nəticəsində mümkün oldu. Artıq bu torpaqlar uğrunda qan tökmüş şəhidlərimizin, günahsız qurbanlarımızın, məzarları təhqir edilmiş babalarımızın ruhları rahat uyuyur”, - deyə deputat vurğulayıb.

Bu torpaqları bizə qaytaran, milli qürurumuzu ucaldan, bizi birliyimizə, gücümüzə inandıran Ali Baş Komandana, Azərbaycan Ordusuna, igid oğullarımıza eşq olsun!

**AZƏRTAC**
**2021, 25 noyabr**

**Deputat: Kəlbəcərin hərbi-siyasi yolla işğaldan azad olunması Azərbaycanın böyük diplomatik qələbəsidir**

Azərbaycan xalqı böyük sevinc və fərəh hissi ilə Kəlbəcər rayonunun işğaldan azad olunmasının birinci ildönümünü qeyd edir. Respublikamızın əsrarəngiz guşələrindən olan Kəlbəcər üçtərəfli Bəyanatın şərtlərinə əsasən 2020-ci il noyabrın 25-də ermənilər tərəfindən boşaldıldı. Azərbaycan bununla hərbi-siyasi yolla beynəlxalq hüququn aliliyini və tarixi ədaləti bərpa etdi. Bəyanatın şərtlərinə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarının hərbi-siyasi yolla işğaldan azad olunması Azərbaycanın böyük diplomatik qələbəsidir.

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tamam Cəfərova deyib.

Deputat bildirib ki, Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdi. İşğal nəticəsində 511 dinc sakin öldürülmüş, 321 adam əsir götürülmüş və itkin düşmüş, həmçinin Kəlbəcərin 60 min sakini respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olmuşdur. Erməni vandalları tərəfindən Kəlbəcərin onlarla tarixi-mədəniyyət abidəsi, sosial infrastrukturu dağıdılmış və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb. Hətta mənfur düşmən üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq Kəlbəcər rayonunu tərk edərkən 1992-ci ildə olduğu kimi, vandallığından əl çəkmədi, öz barbarlığını nümayiş etdirdi.

“Ermənilər Kəlbəcəri tərk edərkən evləri yandırır, infrastrukturu dağıdır, meşələrə od vurur, ağacları kütləvi şəkildə kəsərək yük maşınları ilə Ermənistana daşıyırdılar. Faktiki olaraq Ermənistan dünyanın gözü qarşısında Azərbaycan təbiətinə qarşı ekoloji terror törətdi. Əminliklə deyə bilərik ki, Azərbaycan Ermənistan üzərində qazandığı böyük Qələbə nəticəsində tarixi torpaqlarımızı işğaldan azad etməklə yanaşı, erməni faşizminə də qalib gəldi. Bu fikirləri Prezident İlham Əliyev də çıxışlarında dəfələrlə ifadə edib. Həqiqətən, ermənilərin insanlara, təbiətə qarşı törətdikləri vəhşiliklər, barbarlıq heç bir insanlığa sığmır”, - deyə deputat bildirib.

Kəlbəcər rayonunda həyata keçirilən işlərə diqqət çəkən T.Cəfərova qeyd edib ki, erməni vandallarının törətdiyi bütün cinayətlərə baxmayaraq, Kəlbəcər rayonunda bərpa-yenidənqurma işlərinə artıq start verilib. İşğaldan azad olunmuş ərazilərdə fərqli təyinatlı infrastruktur layihələri reallaşdırılır. Bu il avqustun 16-da dövlətimizin başçısı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq tunelin təməlini qoyub. Beləliklə, Göygöl və Kəlbəcər rayonlarını yeni yol birləşdirəcək. Daha sonra “Kəlbəcər-1” Kiçik Su Elektrik Yarımstansiyasında görülən işlərlə tanışlıq olub, 110/35/10 kilovoltluq “Kəlbəcər” yarımstansiyasının açılışı edilib. Səfər çərçivəsində Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin təməli qoyulub.

“Əminliklə deyə bilərik ki, işğaldan azad olunmuş digər ərazilərimizdə olduğu kimi Kəlbəcərdə də yenidən həyat öz axarına qayıdacaq və Şərqi Zəngəzur iqtisadi rayonunun mühüm mərkəzlərindən birinə çevriləcək”, - deyə deputat fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2021, 25 noyabr**

**Azərbaycan Prezidenti: Gəncə Kəlbəcər rayonunun inkişafı ilə də bağlı öz sözünü deyir və deməlidir**

Gəncənin hərtərəfli inkişafı ilə bağlı işlər görülür, o cümlədən parklar, xiyabanlar, istirahət və əyləncə zonaları yenidən qurulur. Görülən bütün bu işlər düzgün müəyyən edilmiş siyasətin nəticəsidir

AZƏRTAC xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Gəncə şəhərinə səfəri zamanı AZƏRTAC-a müsahibəsində deyib.

“İkinci Qarabağ müharibəsindən sonra Gəncə, eyni zamanda, Kəlbəcər rayonunun inkişafı ilə bağlı öz sözünü deyir və deməlidir. Çünki hazırda bizim Kəlbəcərə yeganə, yəni, rahat gedə biləcəyimiz yol Gəncədən Göygölə, Göygöldən Kəlbəcərədir”, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident İlham Əliyev deyib ki, Murov aşırımından keçən bu yol qış aylarında keçilməz olur. Hazırda Murov dağının altından uzunluğu təqribən 12 kilometr olan tunel çəkilir. Yəni, Kəlbəcərin gələcək inkişafı, vətəndaşların oraya qayıtmaları və Kəlbəcər rayonunun, eyni zamanda, Laçın rayonunun təchizatı böyük dərəcədə bu bölgədən təşkil ediləcək: “Ona görə Gəncə və bu zona azad edilmiş torpaqların bərpası, vətəndaşların rahat yaşaması üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda bizim hərbi postlarımıza, bizim sərhəd boyunca yerləşən postlara da əsas təchizat buradan gedir. Ona görə Gəncə və Gəncənin ətrafında yerləşən ərazilərin bundan sonra da ölkəmizin həyatında, xüsusilə azad edilmiş torpaqların həyatında xüsusi rolu olacaqdır”.

**AZƏRTAC**
**2021, 31 yanvar**

**Prezident: Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı, Hadrut və Suqovuşanın Baş planları hazırlanmalıdır**

Bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarımı bir daha vermək istəyirəm. Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib.

“Dövlətimizin başçısı deyib: Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir”.

**AZƏRTAC**
**2022, 12 aprel**

**Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub**

Ermənistan silahlı qüvvələrinin bölmələri mayın 20-si axşam saatlarında dövlət sərhədinin Basarkeçər rayonunun Aşağı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2022, 21 may**

## Fələstin səfiri: Kəlbəcər rayonu turistik gələcək vəd edir

Bizlərə Kəlbəcərə səfər etmək və burada görülən işlərlə yaxından tanış olmaq imkanı yaratdığına görə Azərbaycan hökumətinə minnətdaram.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Kəlbəcərə səfəri zamanı Fələstinin ölkəmizdəki səfiri Nəssir Əbdül Kərim jurnalistlərə açıqlamasında söyləyib.

O, Kəlbəcər şəhərinin və kəndlərin tezliklə tam bərpa olunmasını, rayon sakinlərinin öz doğma yurdlarına geri dönməsini arzulayıb.

“Gözəl təbiətə malik Kəlbəcər rayonu turistik gələcək vəd edir. Azərbaycanın bu əraziləri gələcəkdə çox böyük turizm mərkəzi olacaq”, - deyə diplomat qeyd edib.

**AZƏRTAC**
**2022, 31 may**

### Əşrəf Adəm: Kəlbəcərdə qısa müddət ərzində çox böyük işlər görülüb

"Tunel qırğını" insanlığa qarşı törədilmiş böyük cinayətdir. Burada baş vermiş hadisəni qəti şəkildə pisləyir və qəbul etmirik.

Bu sözləri Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Kəlbəcərə səfəri zamanı AZƏRTAC-a açıqlamasında Liviyanın ölkəmizdəki müvəqqəti işlər vəkili Əşrəf Adəm deyib.

O, bu gün Kəlbəcərə səfərə gəlməklə Azərbaycanın yanında olduğunu bildirmək istədiyini söyləyib.

"Azərbaycanın qəhrəman övladları öz canının, qanının bahasına bu torpaqları işğaldan azad etdilər. Mən şəhidlərə Allahdan rəhmət diləyir, yaralılara şəfa diləyirəm", - deyə Ə.Adəm qeyd edib.

Kəlbəcərdə görülən işlərdən danışan Əşrəf Adəm vurğulayıb: “Azərbaycan hökumətinin burada həyata keçirdiyi layihələrin şahidi oldum. Qısa müddət ərzində çox böyük işlər görülüb. Mən Azərbaycana daima inkişaf və çiçəklənmə arzulayıram”.

**AZƏRTAC**
**2022, 31 may**

**Corc Dik: Kəlbəcərdə Azərbaycan hökuməti tərəfindən görülən mükəmməl işlərin şahidi oldum**

İki il öncə kimsə mənə Kəlbəcərdə çay içəcəyimi söyləsə idi, mən buna inanmazdım. Azərbaycan hökuməti tərəfindən görülən mükəmməl işlərin şahidi oldum. Qısa zaman ərzində enerji infrastrukturlarının inşa və bərpa edilməsi, Murovdağ silsiləsinin altından keçən tunelin tikinti işlərinin aparılması, ümumiyyətlə, buraya qoyulan investisiyalar Kəlbəcərin gözəlləşdirilməsi üçün görülən işlərdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Kəlbəcərə səfəri zamanı İsrailin ölkəmizdəki səfiri Corc Dik söyləyib.

Kəlbəcərin füsunkar təbiəti olduğunu bildirən diplomat bu regionda Azərbaycanla İsrailin bərpaolunan enerji sahəsində əməkdaşlıq edə biləcəyini vurğulayıb.

“Ölkələrimiz arasında, xüsusilə günəş və külək enerjisi sahələrində işlər görülə bilər. Regionda, həmçinin su ehtiyatları sahəsində də əməkdaşlığımızı davam etdirə bilərik. Ötən ay İsrail və Azərbaycan arasında bu regionda su ehtiyatlarının strateji planının hazırlanması ilə bağlı anlaşma imzalanıb. Kəlbəcər su ehtiyatları ilə zəngindir və düşünürəm ki, bu ərazilər ölkələrimiz arasında işlərin görülməsi üçün çox gözəl ərazilərdir", - deyə C.Dik qeyd edib.

O diqqətə çatdırıb ki, İsrail Azərbaycan ilə istənilən sahədə əməkdaşlıq etməyə hazırdır.

**AZƏRTAC**
**2022, 31 may**

**Prezident İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib**
*(26 iyun 2022-ci il)*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfər edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Göygöl rayonunda Toğanalı-Kəlbəcər avtomobil yolunun 13-cü kilometrliyində inşa edilən iki tunelin tikintisi ilə tanış olub, Kəlbəcər rayonunda yeni tikilmiş "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər-Laçın avtomobil yolunun inşası və Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında aparılan işlərlə tanış olub.

Dövlətimizin başçısına Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi təqdim edilib. Prezident İlham Əliyev Laçın Beynəlxalq Hava Limanının tikintisi ilə də tanış olub.

Dövlətimizin başçısına Kəlbəcər şəhərinin baş planı təqdim edilib.

Sonra Prezident İlham Əliyev Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun təməlini qoyub, tikilməkdə olan "Çıraq-1" kiçik su elektrik stansiyasında olub. Burada dövlətimizin başçısına hazırda rayonda 5 yerdə inşa edilən elektrik stansiyaları barədə məlumat verilib.

Prezident İlham Əliyev Kəlbəcər rayonunda İstisu sanatoriyasının təməlini qoyub.

Sonra dövlətimizin başçısı çıxış edib.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident İlham Əliyev "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak edib**
*(26 iyun 2022-ci il)*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası haqqında məlumat verdi.

Bildirildi ki, Lev çayı üzərində inşa olunan stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir.

"Yaşıl enerji zonası" konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıb. Burada 110/6 kilovoltluq yarımstansiya da inşa edilib.

Qeyd olunub ki, "Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə Kəlbəcərdən olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər demək olar işçi heyət olmadan işlədilir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.

Xatırladaq ki, işğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" və "Kəlbəcər-1" Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcər rayonunda hərbi hissənin açılışında iştirak edib**
*(26 iyun 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Müdafiə naziri yeni inşa edilən hərbi şəhərciyin baş planı barədə Ali Baş Komandana məlumat verdi.

Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi heyəti salamladı və hərbçiləri 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə təbrik etdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Şəxsi heyət hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışı**

- Bu gün biz Silahlı Qüvvələr Gününü Kəlbəcərdə qeyd edirik, azad olunmuş Kəlbəcərdə. Eyni zamanda, bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsi açılır.

Altı ay bundan əvvəl, dekabrın 24-də birinci komando hərbi hissəsi azad edilmiş Hadrutda istifadəyə verilmişdir. Bu gün Kəlbəcərdə yeni yaradılmış komando qüvvələrinin hərbi hissəsini açırıq. Bu, onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi sürətlə gedir və komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir.

Bu gün Silahlı Qüvvələrimizlə fəxr edə bilərik. Bu gün biz müzəffər xalq kimi, qalib ölkə kimi Ordu Gününü qeyd edirik. İşğal illəri dövründə hərbçilərlə çoxsaylı görüşlərdə - hərbi hissələrdə, səngərlərdə, Lələtəpə zirvəsində, hərbi paradlarda hər zaman deyirdim ki, gün gələcək biz öz doğma torpaqlarımızı qaytaracağıq. Hər zaman deyirdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmasa, biz hərbi yolla Qarabağ məsələsini həll edəcəyik. Belə də oldu. Müzəffər Azərbaycan Ordusu tarixi missiyanı şərəflə yerinə yetirdi.

Biz Vətən müharibəsində xalqımızın böyüklüyünü göstərdik, yenilməz ruhumuzu göstərdik, güclü iradəni göstərdik və göstərdik ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Sadəcə olaraq, biz istəyirdik ki, bu məsələ sülh yolu ilə həll olunsun və uzun illər apardığımız danışıqların məqsədi məhz bu idi. Biz istəmirdik ki, qan tökülsün. Ümid edirdik ki, beynəlxalq aləm Ermənistana sanksiyalar tətbiq etməklə işğalçını məcbur edib bizim torpağımızdan çıxaracaq. Ancaq əfsuslar olsun ki, biz bunu görmədik və Azərbaycan xalqı bütün gücünü səfərbər edib tarixi şərəfli missiyanı yerinə yetirib.

Biz müzəffər xalq kimi, qalib dövlət kimi bundan sonra əbədi yaşayacağıq. Ancaq biz bu şanlı Qələbəni əldə etmək üçün gecə-gündüz çalışmalı idik, güc toplamalı idik. Çünki bu gün dünyada güc amili ön plandadır. Beynəlxalq hüququn norma və prinsipləri işləmir, beynəlxalq təşkilatlar faktiki olaraq fəaliyyəti formal şəkildə davam etdirir. Haqq-ədalət bizim tərəfimizdə idi, beynəlxalq hüquq bizim tərəfimizdə idi, bizim torpaqlar işğal altında idi. Ancaq işğalçıya heç kim "Azərbaycan torpaqlarından çıx!" deməmişdir. Ona görə biz güc toplamalı idik ki, özümüz bu vəzifəni icra edək və toplayırdıq. Siyasi güc topladıq, beynəlxalq aləmdə öz gücümüzü artırdıq. Bütün dünyaya sübut etdik ki, Qarabağ Azərbaycandır və Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. İqtisadi güc topladıq və iqtisadi müstəqillik əldə etdik. Əgər iqtisadi müstəqillik olmasaydı, imkanlarımız olmasaydı, biz müharibəni hansı vasitələrlə aparacaqdıq? Ona görə iqtisadi müstəqillik və sürətli inkişaf bizim Qələbəmizi yaxınlaşdırırdı.

Vətənpərvərlik işinə çox böyük önəm verirdik. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün bir çox tədbirlər görülmüşdür və buna nail olduq. Bu gün Azərbaycan gəncləri vətənpərvər gənclərdir, Vətənə bağlıdır və Vətən müharibəsi bunu bütün dünyaya göstərdi. Bizi Qələbəyə aparan ən başlıca amil milli ruh, ləyaqət, Vətənə sevgi idi və bunu gənc nəslin nümayəndələri, müstəqillik dövründə yetişən

gənclər etdilər. Öz canlarını fəda edərək, ölümə gedərək bunu etdilər. Əziz şəhidlərimizin xatirəsi daim bizim qəlbimizdə yaşayacaq. Ona görə vətənpərvərlik, nizam-intizam, iqtisadi güc, siyasi mövqelər və əlbəttə ki, Silahlı Qüvvələrimizin müasir silahlarla təchiz edilməsi - bütün bu amillərin vəhdəti İkinci Qarabağ müharibəsinin nəticələrini şərtləndirdi. Cəmi 44 gün ərzində biz düşməni torpağımızdan qovduq, düşməni diz çökdürdük, onu məcbur etdik ki, ağ bayraq qaldırsın və Kəlbəcərdən məcbur olaraq çıxsın. Kəlbəcər bir güllə atılmadan azad edilmişdir. Biz onsuz da Kəlbəcəri azad edəcəydik. Çünki artıq Ermənistan ordusunun beli qırılmışdı, ancaq itkilər çox olacaqdı. Ona görə 44 gün ərzində Ermənistan ordusunu elə vəziyyətə saldıq ki, onların başqa yolu qalmamışdı.

Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq. Biz bu gün qalib insanlar kimi yaşayırıq. Bütün dünya azərbaycanlıları yaşadıqları yerlərdə başlarını dik tutub qalib xalqın nümayəndələri kimi yaşayırlar. Biz tarix qarşısında, əcdadlarımızın ruhu qarşısında və gələcək nəsillər qarşısında tarixi missiyanı icra etdik. Bu tarixi Qələbə daim bizim tariximizdə olacaq. Biz daim bu tarixi Qələbə ilə fəxr edəcəyik.

Ermənistan ordusu 44 gün ərzində demək olar ki, məhv edilmişdir. Ermənistan ordusunda panika, isterika vüsət almışdı. Özlərinin etirafına görə, 10 min fərari olmuşdu. Azərbaycan Ordusunda bir nəfər də döyüş meydanından qaçmadı. Budur Azərbaycan övladının ruhu, Vətənə olan bağlılığı. Qarabağın tacı olan Şuşanı - bu alınmaz qalanı alaraq biz Şuşada Azərbaycan bayrağını ucaltdıq. Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb və o vaxt işğal altında qalan ərazilərdən çıxmağa məcbur olub.

Biz indi bütün sərhəd boyunca yerləşmişik. Bütün sərhədlərdə hərbi hissələr yaradılmışdır. Müharibədən keçən ilyarım ərzində biz gecə-gündüz çalışmışıq ki, ordumuzu daha da gücləndirək, daha da müasir silahlarla təchiz edək, sərhəd boyunca bütün əlverişli mövqelərə sahib olaq, yerləşək və buna nail olduq. Altı ay bundan əvvəl Hadrutda birinci komando hərbi hissəsi açılmışdır. Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək. Bu, bizim gücümüzü daha da artıracaq.

Müharibədən sonra bu gün Azərbaycan Ordusu daha güclüdür - həm təchizat nöqteyi-nəzərdən, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərdən. Ona görə biz bundan sonra da Ordumuzun inkişafı üçün ciddi addımlar atacağıq. Ən müasir silahları almaq üçün yeni kontraktlar imzalandı. Bu kontraktlar artıq icra olunur, yeni silahlar, ən müasir texnika Azərbaycana gətirilir və gətiriləcək. Ermənistanla sərhəddə bizim mövqelərimiz daha da möhkəmlənəcək. Əgər Ermənistan sərhədlərin müəyyən edilməsi işində yenə də öz köhnə taktikasına qapılsa, vaxt uzatmağa çalışsa, nəticədə özü peşman olacaq. Biz Ermənistanda baş qaldıran revanşist qüvvələrin hərəkətlərinə diqqətlə baxırıq. Onlar da bunu bilsinlər. Bax, o dağın başında mənim sözlərim yazılıb: “Dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın”.

Vətən müharibəsində Ermənistanı məğlub etməyimiz onlar üçün dərs olmalıdır. Onlar hesab edirdilər ki, orduları məğlubedilməzdir və öz orduları haqqında olmayan şayiələri yayırdılar. Biz göstərdik ki, onlar Azərbaycan Ordusu qarşısında duruş gətirə bilməzlər. Onlar bəyan edirdilər ki, Azərbaycan öz torpaqlarını heç vaxt silahlı yollarla ala bilməz. Çünki həm qurulmuş istehkamlar, həm 30 il ərzində mühəndislik işlərinin aparılması, həm də ki, bu bölgənin coğrafiyası onlar üçün çox əlverişli idi. Biz bu mifi də dağıtdıq və göstərdik ki, güclü iradə olan yerdə, xalq-iqtidar birliyi olan yerdə, hərbçilərin vətənpərvərliyi olan yerdə heç kim bizim qabağımızda dura bilməz. Əgər yenə də Ermənistanda revanşist qüvvələr baş qaldırsa, bilməlidirlər ki, onları nələr gözləyir.

Biz müharibə istəmirik, heç vaxt istəməmişik. Amma biz istəyirik ki, bizim maraqlarımız təmin olunsun. Biz istəyirik ki, müharibə nəticəsində yaradılmış reallıqlar hamı tərəfindən qəbul edilsin. Deyə bilərəm ki, dünyanın aparıcı qüvvələri postmüharibə reallıqlarını artıq qəbul ediblər və öz fəaliyyətini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir. Müharibədən cəmi bir il yarım keçibdir. Bu müharibəni unutmasınlar - nə onlar, nə də ki, sonrakı nəsillər. Bilsinlər ki, Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var, Azərbaycan əsgəri, zabiti dövlətimizi qorumaq üçün canını fəda etməyə hazırdır, necə ki, İkinci Qarabağ müharibəsində canlarını fəda etdilər.

Ordu quruculuğu ilə bağlı işlər planlı şəkildə gedir. Kəlbəcər rayonunda, Laçın rayonunda və azad edilmiş digər rayonlarda bir çox hərbi hissələr yaradılır və xidmət şəraiti də yaxşıdır. Bütün şərait təmin edilir ki, hərbçilərimiz xidmət şəraitini nəzərə alaraq daha yaxşı xidmət etsinlər.

Bu gün Ordu Gününü Kəlbəcərdə qeyd etməklə biz hamımız qürur hissi keçiririk. Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşmüşdü. O vaxt hakimiyyətdə olan AXC-Müsavat xəyanətkar cütlüyü Kəlbəcəri nəinki müdafiə etmirdi, hətta Kəlbəcəri qurban verməyə hazır idi, bunu da etdi. Ondan əvvəl Laçın və Şuşa işğal altına düşdü və Kəlbəcərin işğal altına düşməsi ermənilərin planlarında idi. AXC-Müsavat hakimiyyəti talançılıqla, soyğunçuluqla məşğul olurdu, orduya, ordu təchizatına fikir vermirdi, bu bölgədə yaşayan insanlara fikir vermirdi, onlara biganə yanaşırdı və Kəlbəcər işğal altına düşdü. Beləliklə, Ermənistan öz arzularına, çoxəsrlik arzularına çatdı ki, Qarabağla, - o zaman "Dağlıq Qarabağ" adlandırılırdı, - bu bölgə ilə Ermənistan arasında canlı bağlantı olsun. Kəlbəcər, Laçın dağları bu bağlantının qabağını almışdı. Kəlbəcərin itirilməsi strateji nöqteyi-nəzərdən böyük faciə idi. Eyni zamanda, burada yaşayan insanların bir çoxu ermənilər tərəfindən öldürülüb, buradan çıxa bilən insanların bir çoxu Murov dağlarında donub və həyatlarını itirib. İndi buraya gələn hər bir insan Murov dağını aşaraq görür ki, nə qədər çətin yoldur, daim dumanlı yoldur və bu gün səhər mən oradan keçmişəm - yağış, duman. İnsanlar aprelin əvvəllərində o qarlı, şaxtalı havada oradan ayaqyalın keçməyə məcbur idilər. Onlara yolda da işgəncələr verildi, pusqular quruldu. Mənfur düşmən tərəfindən dinc əhali öldürüldü. Hərbi cinayətkarlar – Sarkisyan, Köçəryan bunu törətdilər: İkinci Qarabağ müharibəsi dövründə Xankəndiyə gəlmişdilər, guya orada müqavimət göstərəcəklər. Dovşan kimi, fərari kimi qaçdılar oradan. Ona görə Kəlbəcərin itirilməsi müharibənin ondan sonrakı gedişatına da əlbəttə ki, mənfi təsir göstərmişdi.

Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər var. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi - artıq buna start verilir. Əlbəttə ki, biz, ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır.

Biz 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qeyd edirik, qürurla qeyd edirik. Onu da deməliyəm, işğal dövründə müxtəlif variantlar müzakirə olunurdu, vasitəçilər tərəfindən bizə müxtəlif variantlar təklif edilirdi. Bütün bu variantlarda Kəlbəcərin Azərbaycana qaytarılması məsələsi ayrıca mövzu kimi gündəlikdə idi. Mən hər zaman deyirdim ki, biz bütün torpaqları geri almalıyıq. Beş rayonla biz kifayətlənə bilmərik. Kəlbəcər, Laçın, Şuşa, digər rayonlar da bizdə olmalıdır, bu, bizim tarixi torpağımızdır, dədə-babalarımızın diyarıdır və buna nail olduq. Kəlbəcərdə bu hərbi bayramı keçirmək əlavə zövq verir, bizim qəlbimizi daha da böyük qürurla doldurur.

Biz bütün dünyaya sübut etmişik ki, biz böyük xalqıq. Qarabağ hər zaman Azərbaycan torpağı olub - işğal dövründə də, müharibə dövründə də, müharibədən sonra da və bu gün də. Qarabağ Azərbaycandır!

**Hərbçilər:** Qarabağ Azərbaycandır!

**x x x**

Sonra Azərbaycan Respublikası Prezidentinin komando hərbi hissəsinə döyüş bayrağının verilməsi haqqında təqdimatı oxundu.

Polkovnik-leytenant Fəxrəddin Cavadov döyüş bayrağını Ali Baş Komandandan qəbul edərək and içdi.

Sonra komando hərbi hissəsinin şəxsi heyəti Müzəffər Ali Baş Komandan qarşısında "Komando andı"nı qəbul etdi.

Ali Baş Komandan "Komando andı"nı qəbul edən şəxsi heyəti təbrik etdi.

Şəxsi heyət təntənəli marşın sədaları altında döyüş bayrağı ilə tribunanın önündən keçdi.

Daha sonra Prezident İlham Əliyev hərbi şəhərcikdə əsgər yeməkxanası, tibb məntəqəsi, əsgər yataqxanası ilə tanış oldu, yeni inşa edilən qərargah binasında yaradılan şəraitlə maraqlandı.

Qərargah binasındakı akt zalında Quru Qoşunlarının komandanı general-leytenant Ənvər Əfəndiyev əməliyyat şəraiti barədə Ali Baş Komandana məlumat verdi.

Sonra Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində uzunömürlülük rəmzi kimi çinar ağacı əkdi, şəhidlərin xatirəsinə ucaldılan abidə-kompleksini və "Dəmir yumruq" abidəsini ziyarət etdi.

Ali Baş Komandan Silahlı Qüvvələr Günü və yeni hərbi hissənin açılışı münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyini və şəxsi heyəti bir daha təbrik etdi, onlara uğurlar arzuladı.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunun inşası ilə tanış olub**
*(26 iyun 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə bağlı görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər və Laçın rayonlarını birləşdirən bu avtomobil yolu 2-4 hərəkət zolaqlı olmaqla, 1-ci və 2-ci texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda yolun müəyyən hissələrində qazma-dolğu işləri icra olunur, yeni torpaq yatağı inşa edilir. Bundan başqa, düzbucaqlı və dairəvi suötürücü boruların, həmçinin su kanallarının tikintisi, drenaj işləri və daş divarın inşası aparılır.

Qeyd olundu ki, layihə üzrə yol boyunca tikintisi nəzərdə tutulan avtomobil tunellərindən ikisində qazma prosesi davam etdirilir, birinin isə giriş və çıxış hissələrində işlərə başlanılıb.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident İlham Əliyev Laçında "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olub**
*(26 iyun 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Laçın rayonunda 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasında görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün ötən il istismara verilən "Kəlbəcər" yarımstansiyasından Laçının Qorçu kəndinə 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürücü xətt çəkilir.

Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və yolsuzluq şəraitində çəkilən ötürücü xətt üzrə hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılır.

Yüksəkgərginlikli xəttin üzərindəki ildırımötürücü funksiyalı 24 damarlı fiber-optik kabellə internet xətti çəkilir ki, bu da enerjisistemin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsini təmin edəcək.

Paralel olaraq Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1800 metr yüksəklikdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilir.

Sistem əhəmiyyətli "Qorçu" yarımstansiyasında idarəetmə mərkəzi, açıq və qapalı paylayıcı qurğular yaradılır. Yarımstansiyanın ərazisində işçi heyət üçün yataqxana binası tikilir, lazımi şərait yaradılır.

Qeyd edək ki, yarımstansiyanın yaxınlığında hava limanı tikilir və Qorçu kəndi mərkəz olmaqla, burada 7 kəndi birləşdirən yaşayış massivinin inşası planlaşdırılır.

Yeni yarımstansiya Laçın hava limanını, rayon ərazisindəki hərbi hissələri, gələcəkdə bölgədə inşa olunacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Perspektivdə Laçın dəhlizində 110 kV-luq "Laçın Şəhər" və "Zabux" yarımstansiyalarını tikməklə, Qorçudan Laçın şəhərinə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkiləcək və Laçın şəhərindən 110 kV-luq yeni xətt çəkilməklə "Şuşa" yarımstansiyası ilə əlaqələndiriləcək.

Ən əsası odur ki, Laçın şəhərindən Güləbird istiqamətində "Qubadlı" yarımstansiyasına ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilməklə enerjisistem üçün mühüm əhəmiyyəti olan və regionun enerji dayanıqlılığını təmin edən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Kəlbəcər şəhərinin Baş planı təqdim edilib, İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyulub**
*(26 iyun 2022-ci il)*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov dövlətimizin başçısına Kəlbəcər şəhərinin Baş planı barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Ağdam, Cəbrayıl, Füzuli və Zəngilan rayonlarından sonra Kəlbəcər rayonunda da Zəfər və İşğal muzeyləri yaradılacaq.

Prezident İlham Əliyev Kəlbəcər Zəfər və İşğal muzeylərini layihələndirən "ACN" şirkətinin nümayəndələri ilə görüşdü.

Şirkətin icraçı direktoru **Laura Konti** dedi: Sizi görmək bizim üçün şərəfdir.

**Prezident İlham Əliyev**: Gəldiyiniz üçün təşəkkür edirəm.

**Laura Konti:** Bizi dəvət etdiyiniz üçün minnətdarıq. Burada olmaqdan məmnunluq və şərəf hissi keçiririk. Təşəkkür edirəm. Xüsusilə bu möhtəşəm mühitdə, gözəl təbiətdə olmaq heyrətamizdir. Bura bizim olduğumuz ən gözəl yerlərdən biridir.

**Prezident İlham Əliyev:** Bəli, bütün bu ərazilər belədir. Bütün bu ərazilər yaşıllıqdır.

**Laura Konti:** Təbiət heyrətamizdir. Təbiət bizim layihənin ilham mənbəyidir.

Dövlətimizin başçısı İşğal və Zəfər muzeylərinin layihəsini əks etdirən videoçarxa baxdı.

Prezident İlham Əliyevə Kəlbəcər şəhərində inşa olunacaq İşğal və Zəfər muzeyləri kompleksi barədə məlumat verildi. Qeyd olundu ki, hər iki muzey şəhərin mərkəzində salınacaq parkda tikiləcək. Bu, gözəl bir mühitdə yerləşən möhtəşəm layihə olacaq. Çünki bu ərazi landşaftına görə heyrətamiz gözəlliyə malikdir. Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə Zəfərə həsr olunacaq. Bu layihə ilə həm də təbiətə ehtiram nümayiş olunacaq.

**"ACN" şirkətinin nümayəndəsi:** Ermənilər buranı işğal ediblər, lakin burada yaşamayıblar.

**Prezident İlham Əliyev:** Yaşamayıblar və hər şeyi dağıdıblar.

**Şirkətin nümayəndəsi**: Hər şeyi bir-bir dağıdıblar.

**Prezident İlham Əliyev:** Bunu etmək üçün heç bir səbəb yox idi. Biz onlara qarşı heç bir pis iş görməmişik. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar bizim torpağımıza gəldilər, hər şeyi dağıtdılar və getmədilər. Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

**Şirkətin nümayəndəsi:** Mən su elektrik stansiyalarının dağıdılmasını görmüşəm.

**Laura Konti:** Hər şey yandırılmışdır.

Sonra dövlətimizin başçısı İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydu.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub**
*(26 iyun 2022-ci il)*

İyunun 26-da Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısına məlumat verilib ki, Kəlbəcər rayonu ərazisində xüsusi dövlət əhəmiyyətli obyektlərin və hərbi hissələrin elektrik enerjisi ilə təmin olunması istiqamətində genişmiqyaslı işlər bu gün də davam etdirilir. İşlər çərçivəsində mənbə kimi Gəncə şəhərində yerləşən “Gəncə-2” yarımstansiyasından Daşkəsənə 110 kV-luq elektrik verilişi xətti çəkilib. Kəlbəcərin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təminatında bu xətt müstəsna rol oynayacaq. Bu, Azərbaycanda ən mürəkkəb və çətin relyeflərdən keçən yüksəkgərginlikli xətdir. Dağlarda texnikanın rahat hərəkət etməsi üçün əvvəlcə yol inşa edilib.

Diqqətə çatdırılıb ki, Kəlbəcərin yüksək dağlıq ərazidə yerləşməsinə və çətin şəraitə baxmayaraq, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən işlər bu gün də sürətlə davam etdirilir. Sovet dövründə elektrik enerjisinin olmadığı ucqar ərazilərdə belə müasir elektrik şəbəkələr qurulur. Rayonun Alagöllər və digər əraziləri ilk dəfə “Azərişıq” ASC tərəfindən elektrik enerjisi ilə təmin olunur, Zod qızıl yatağı ərazisinə 35 kV-luq mühafizəli, izolyasiyalı kabel xəttinin çəkilməsi işləri davam edir.

Görülən işlər nəticəsində Kəlbəcərdə iki istiqamət üzrə 110 kV-luq hava xətləri bərpa edilib, bir istiqamətdə 110 kv-luq, dörd müxtəlif əraziyə isə 35 kV-luq elektrik xətləri çəkilib. Ümumilikdə rayon ərazisində müxtəlif güclərdə 15 komplekt transformator məntəqəsi quraşdırılıb.

Bundan başqa, altı müxtəlif istiqamətdə 35 kV-luq müasir izolyasiyalı kabel xətlərinin çəkilməsi nəzərdə tutulub. Həmçinin 110/35 kV-luq "İstisu" yarımstansiyasının, Kəlbəcər və Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxeminin yaradılması planlaşdırılıb.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Kəlbəcərdə “İstisu” mineral su zavodunun təməli qoyulub**

*(26 iyun 2022-ci il)*

İyunun 26-da Kəlbəcərdə “İstisu” mineral su zavodunun təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, istifadəyə veriləcək zavodda həm şüşə, həm də plastik butulka istehsalı xətlərinin qurulması planlaşdırılır. Müəssisədə gündə 327 min, ildə isə 95 milyon butulka mineral su istehsal olunacaq. Suyun mənbəyinə gəldikdə, 200 metr dərinlikdə yeni quyu qazılıb. Çıxışda istilik 60-65 C dərəcəyə bərabərdir.

Azərbaycan Prezidenti İlham Əliyev Kəlbəcər “İstisu” mineral su zavodunun təməlini qoydu.

Qeyd edək ki, “İstisu” bulağının suyu kimyəvi tərkibi və fiziki xüsusiyyətlərinə görə seçilir. Laborator analizlər göstərib ki, mineralların miqdarı 6,7 qrama çatan bir litr suyun tərkibi litium, brom, yod, mərgümüş, fosfor, sink, mis, nikel, maqnezium, dəmir və digər kimyəvi maddələrlə zəngindir. Bu bulaqların suyundan mədə-bağırsaq, qaraciyər, öd kisəsi və sair xəstəliklərin müalicəsində istifadə edilir.

Statistikaya görə, Azərbaycanda mineral suların ümumi ehtiyatının 33 faizi Kəlbəcər və Laçın rayonlarında yerləşir. Bu rayonlarda suların gündəlik istismar ehtiyatı 7393 kubmetr təşkil edir ki, bunun da 42 faizi Laçının, 58 faizi isə Kəlbəcərin payına düşür.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident İlham Əliyev Kəlbəcərdə "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub**
*(26 iyun 2022-ci il)*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, "yaşıl enerji" strategiyasına uyğun olaraq hazırda Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su elektrik stansiyası tikilir.

Kiçik su elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Stansiyaların enerjisistemə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilir. İşlərin böyük hissəsi görülən bu 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcək. Açılıb-qoşulma, intellektual tənzimləmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyaların idarə edilməsi Kəlbəcərdən olduğu kimi, Bakıdan da həyata keçiriləcək.

Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir.

"Azərenerji" ASC-nin mütəxəssislərinin apardığı araşdırmalar göstərir ki, ermənilərin təbiəti məhv etməklə köhnə nəsil texnologiyalar əsasında kortəbii hesablamalarla apardıqları planlaşdırmadan fərqli olaraq, dördüncü nəsil sənaye inqilabına uyğun süni intellektə adaptasiya edilən müasir texnologiyalar əsasında ölkənin ən böyük su bazası olan bol sulu Kəlbəcər və Laçın çayları üzərində nəzərdə tutulandan dəfələrlə artıq ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal etmək mümkündür.

Qeyd edilib ki, növbəti illərdə Kəlbəcər və Laçın rayonlarında yenidən qurulması təklif edilən digər kiçik su elektrik stansiyalarının ümumi gücü 82,2 MVt təşkil etsə də, yeni hesabatlara əsasən bu həcmi iki dəfə artırmaq mümkün olacaq.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident İlham Əliyev Kəlbəcərdə "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib**
*(26 iyun 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına sanatoriyada görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, 34 hektar ərazidə salınması nəzərdə tutulan "İstisu" İstirahət-Müalicə Kompleksi gündəlik 300 nəfər qəbul etmək imkanına malik olacaq. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottecin tikilməsi də planlaşdırılır.

Diqqətə çatdırıldı ki, Kəlbəcərin İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriya yaradılıb. İşğal dövründə yararsız hala salınan sanatoriya yeni simada tam bərpa olunacaq və əvvəlki şöhrəti qaytarılacaq.

Prezident İlham Əliyev "İstisu" sanatoriyasının təməlini qoydu.

Sonra dövlətimizin başçısı çıxış etdi.

**Prezident İlham Əliyevin**
**çıxışı**

- Kəlbəcər və Laçın rayonlarına mənim səfərim başa çatır. Keçən il olduğu kimi, bu il də burada - İstisu qəsəbəsində başa çatır. İstisu qəsəbəsinin inkişafı ilə bağlı artıq konkret addımlar atılır. İlk növbədə, yeni su zavodunun tikintisi nəzərdə tutulur. Bu gün mən bu su zavodunun təməlini qoydum. Vaxtilə məşhur olan İstisu suyu yenidən buraxılacaq, istehsal olunacaq, Azərbaycanda istehlak olunacaq və ixrac ediləcək. Eyni zamanda, arxada gördüyünüz "İstisu" sanatoriyasının dağıntılarıdır. Keçən il burada bu dağıntılarla tanış oldum və göstəriş verdim ki, bu yerdə - İstisu qəsəbəsində yeni mehmanxana inşa edilsin və müalicə mərkəzi yaradılsın. Çünki vaxtilə sovet dövründə minlərlə insan gəlib burada dincəlib, öz sağlamlığını bərpa edib, bu gözəl təbiətdən zövq alıb.

Bu dağıntılar erməni faşizminin təzahürüdür. Onlar binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi dağıdıblar. Bu sanatoriyanı da dağıdıblar. Amma bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu, çox vacibdir. Çünki "İstisu" sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz - bu torpaqların sahibləri vaxtilə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndlərimizi yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər rayonunda, Laçın rayonunda böyük quruculuq işləri gedir.

Ancaq mənim iyunun 26-da bu rayonlara səfərimin əsas səbəbi bu gün - Silahlı Qüvvələr Günündə hərbçilərlə bir yerdə olmağımdır. Mən bu gün hərbçilərlə - yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var. Hərbi xidmət nöqteyi-nəzərdən bu bölgə - Kəlbəcər-Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından bəlkə də ən çətin bölgədir. Ona görə bu gün mən burada olmalı idim, müzəffər Ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi.

Eyni zamanda, bu fürsətdən istifadə edərək son bir il ərzində burada görülmüş işlərlə də tanış oldum. Görürdüm, baxırdım, mənim göstərişlərim necə yerinə yetirilir, ümumiyyətlə, Kəlbəcər və Laçın rayonlarının inkişafı ilə bağlı hansı əlavə addımlar atılmalıdır. Çünki bu rayonların bərpası azad edilmiş digər rayonlara nisbətən daha çətindir. Ona görə ki, biz hələ də Murov aşırımından keçib gəlməliyik. Qış aylarında gediş-gəliş çətindir. Hava limanı hələ hazır deyil ki, yükləri hava yolu ilə göndərək. Ona görə bu bölgələrin, bu iki rayonun inkişafı ilə bağlı işlər gedir. Ancaq, əlbəttə, bu təbii şərait imkan vermir ki, bu işlər daha geniş vüsət alsın. Amma buna baxmayaraq, bütün infrastruktur layihələri uğurla icra edilir. Keçən il 4 su elektrik stansiyası istifadəyə verilib. Bu il isə 5 su elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Həmin 4 stansiya artıq işləyir və ümumi enerji gücümüzü artırır, bərpaolunan enerji növlərinin həcminin artırılmasına xidmət göstərir.

Yollar çəkilir. Kəlbəcər və Laçın rayonlarında 10-dan çox tunel inşa edilir. Təsəvvür edin, 10-dan çox tunel. Onların arasında ən böyük tunelin uzunluğu təxminən 12 kilometrdir. Biz bu tuneli Murov dağının altından çəkirik ki, buraya gediş-gəliş rahat olsun. Bu, həm mülki əhali üçün, həm hərbçilər üçün,

həm də müdafiə nöqteyi-nəzərdən lazımdır. Hazırda bütövlükdə 10-dan çox tunel tikilir və gələcəkdə bu tunellərin sayı daha da çox ola bilər. Çünki burada hər tərəf dağlardır, meşələrdir. Qarabağ bölgəsində isə indi 10-dan çox tunel, 9 viaduk, onlarla körpü inşa edilir. Görün, həm Zəngəzurda, həm də Qarabağda ancaq yol təsərrüfatına aid olan nə qədər genişmiqyaslı işlər görülür. Çünki bunlar - elektrik enerjisi və yol əsasdır. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz.

Bu gün mənə, eyni zamanda, digər infrastruktur layihələrinin icrası ilə bağlı məlumat verildi. Hesab edirəm ki, qısa müddət ərzində, - müharibədən cəmi ilyarım keçib, - bu genişmiqyaslı işlərin görülməsi həm gücümüzü, niyyətimizi, iradəmizi göstərir, bir daha xalqımızın böyüklüyünü göstərir. Biz bunu təkbaşına edirik və edəcəyik.

Bu gün Kəlbəcər şəhərinin Baş planı mənə təqdim edildi. Bu Baş planı hazırlayan şirkət Zəngilan şəhərinin Baş planını da hazırlayıb. Mən o vaxt demişdim ki, Zəngilan şəhəri təbiətə sıx inteqrasiya olunmalıdır, park-şəhər olmalıdır, Kəlbəcər də həmçinin. Kəlbəcərin də özünəməxsus füsunkar təbiəti var. Kəlbəcər şəhərinin Baş planının təsdiq olunması, əlbəttə ki, bu təbii gözəlliyi ehtiva edir. Artıq ilin sonuna qədər müfəssəl layihələndirmə gedəcək və ondan sonra yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcəkdir. Hərbi hissələr, ictimai yerlər artıq fəaliyyət göstərir. Göstəriş vermişəm ki, Kəlbəcərdə mütləq aşıq mərkəzi və lazım olan digər tikililər inşa edilsin. Bu, ancaq Kəlbəcər şəhərinin Baş planıdır. Kəlbəcər rayonunun inkişafı ilə bağlı isə bizdə konsepsiya artıq hazırdır. Kəndlərin yenidən qurulması konsepsiyamız hazırdır və biz bunu icra edəcəyik.

Laçın rayonunda yeni hava limanı inşa edilir. Bu hava limanının tikintisinin ən çətin tərəfi Laçın rayonunda və Kəlbəcər rayonunda düz yerin olmamasıdır. Ona görə biz dağları yarırıq, dağları kəsirik ki, zolaq üçün uyğun şərait yaradılsın. Ona görə bu torpaq işləri hələ gələn il də davam edəcək. Ümid edirəm ki, 2024-cü ildə Laçın rayonunda beynəlxalq hava limanı açılacaq və ondan sonra gediş-gəliş daha rahat olacaq. Əminəm ki, bu bölgə turizm zonası olacaq. Çünki burada olan təbii gözəllik heç bir yerdə yoxdur. Təbii gözəllik – çaylar, bulaqlar, meşələr - biz bütün bu sərvətdən məhrum idik, ermənilər bizim xalqımızı məhrum etmişdilər. Otuz il ərzində bizim təbii sərvətlərimizi istismar edir, ağaclarımızı kəsirdilər, - 60 min hektar ağac fondu, meşə fondu məhv edilib, - çaylarımızı zəhərləyir, binalarımızı sökür, qızıl yataqlarımızı qanunsuz istismar edirdilər. Hər şeyi qanunsuz edirdilər. Bu gün erməni vəhşiliyi haqqında dünyada kifayət qədər böyük məlumat var və biz bu məlumatı daha da genişləndirəcəyik.

Bu gün, eyni zamanda, Kəlbəcər şəhərində İşğal və Zəfər muzeylərinin təməli qoyuldu. Azad edilmiş bütün şəhərlərdə mənim göstərişimlə İşğal və Zəfər muzeyləri inşa edilməlidir. Artıq bir neçə şəhərdə layihələr təsdiqlənib. Bu gün Kəlbəcər şəhərində də bu layihə təsdiqləndi və təməl daşı atıldı.

Yəni, biz hərtərəfli iş görürük - həm infrastruktur işləri, xəstəxanalar, məktəblər, yaşayış binaları, mədəniyyət obyektləri, məscidlərimizin bərpası, muzeylər, hava limanları, dəmir yolları, tunellər. Cəmi bir il yarım ərzində görülən bütün işləri sadalamaq mümkün deyil. Bu, onu göstərir ki, biz bu torpaqların sahibləriyik. Bu torpaqlar 30 il ermənilərin əlində idi. Nə qoyub getdilər? Xarabaxana, viran qoyulmuş şəhərlər, kəndlər! Dəfələrlə demişəm, hər dəfə də bu dağıntıları görəndə bir daha deyəcəyəm: Elə bil ki, burada vəhşi qəbilə yaşayıb. Burada ondan da eybəcər işlər görülüb - ancaq dağıtmaq, sökmək, yandırmaq. Bu qədər nifrət, bu qədər qeyri-insani hərəkət, görəsən, haradan qaynaqlanır? Bunu gərək psixoloqlar, yaxud psixiatrlar bizə desinlər. Çünki normal adam bu əməllərə əl atmaz.

Biz isə qurub-yaradan xalqıq. Biz gəlmişik, tamamilə dağılmış 10 min kvadratkilometr ərazidə yeni həyat qururuq. Artıq yeni həyatın təzahürləri görünməkdədir. Azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə artıq geniş inşaat işləri gedir. Məsələn, mənə verilən məlumata görə, indi Şuşa şəhərində mindən çox insan yerləşib və inşaat işləri ilə məşğuldur, xidmət sahəsində işləyir. Artıq Ağdamda sənaye parkı yaradılır. Zəngilanda, Ağalı kəndində birinci “ağıllı kənd” layihəsi istismara verilmişdir. Yəni, bunu biz edirik, biz – bu torpaqların sahibləri. Ancaq hər kəs bilməlidir, bu, çox genişmiqyaslı işdir.

Bununla bərabər, Ermənistanla bütün sərhəd boyunca yeni mövqelər, yeni postlar quraşdırılır. Heç vaxt olmayan, Ermənistan sərhədinə gedən bir çox yollar salınır ki, biz mövqelərə daha rahat gələ bilək.

Bütün bu işlərin həcmi bir daha xalqımızın böyüklüyünü göstərir. Onu göstərir ki, bir daha demək istəyirəm, biz bu torpaqların sahibiyik, buraya qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ Azərbaycandır!

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident: Təbii şəraitin çətinliyinə baxmayaraq, Kəlbəcər-Laçın zonasında bütün infrastruktur layihələri uğurla icra edilir**

Mən bu gün hərbçilərlə - yeni yaradılmış komando qüvvələri ilə Ordu Gününü Kəlbəcərdə qeyd etdim. Hesab edirəm ki, bunun çox böyük rəmzi mənası var.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda “İstisu” sanatoriyasının təməlqoyma mərasimində çıxış edərkən söyləyib.

Dövlətimizin başçısı deyib ki, hərbi xidmət nöqteyi-nəzərdən Kəlbəcər-Laçın zonası həm iqlim, həm relyef, həm də təbiət baxımından ən çətin bölgədir: “Ona görə bu gün mən burada olmalı idim, müzəffər Ordumuzla bərabər olmalı idim, hər zaman olduğu kimi”.

Son bir il ərzində burada görülmüş işlərlə də tanış olduğunu deyən Prezident İlham Əliyev bildirib ki, təbii şərait baxımından bu rayonların bərpası azad edilmiş digər rayonlara nisbətən daha çətindir.

“Ona görə ki, biz hələ də Murov aşırımından keçib gəlməliyik. Qış aylarında gediş-gəliş çətindir. Hava limanı hələ hazır deyil ki, yükləri hava yolu ilə göndərək. Ona görə bu bölgələrin, bu iki rayonun inkişafı ilə bağlı işlər gedir. Ancaq, əlbəttə, bu təbii şərait imkan vermir ki, bu işlər daha geniş vüsət alsın. Amma buna baxmayaraq, bütün infrastruktur layihələri uğurla icra edilir. Keçən il 4 su elektrik stansiyası istifadəyə verilib. Bu il isə 5 su elektrik stansiyasının istifadəyə verilməsi təmin ediləcək. Həmin 4 stansiya artıq işləyir və ümumi enerji gücümüzü artırır, bərpaolunan enerji növlərinin həcminin artırılmasına xidmət göstərir”, - deyə Azərbaycan Prezidenti qeyd edib.

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident İlham Əliyev: İstisu qəsəbəsinin inkişafı ilə bağlı konkret addımlar atılır**

İstisu qəsəbəsinin inkişafı ilə bağlı artıq konkret addımlar atılır. İlk növbədə, yeni su zavodunun tikintisi nəzərdə tutulur. Bu gün mən bu su zavodunun təməlini qoydum.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident İlham Əliyev iyunun 26-da Kəlbəcər rayonunda "İstisu" sanatoriyasının təməlqoyma mərasimindəki çıxışında bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, vaxtilə məşhur olan İstisu suyu yenidən buraxılacaq, Azərbaycanda istehlak olunacaq və ixrac ediləcək.

"Eyni zamanda, arxada gördüyünüz "İstisu" sanatoriyasının dağıntılarıdır. Keçən il burada bu dağıntılarla tanış oldum və göstəriş verdim ki, bu yerdə - İstisu qəsəbəsində yeni mehmanxana inşa edilsin və müalicə mərkəzi yaradılsın. Çünki vaxtilə sovet dövründə minlərlə insan gəlib burada dincəlib, öz sağlamlığını bərpa edib, bu gözəl təbiətdən zövq alıb", - deyə Azərbaycan Prezidenti əlavə edib.

Ermənilərin binalarımızı, məscidlərimizi, məktəblərimizi, şəhər və kəndlərimizi, o cümlədən bu sanatoriyanı dağıtdıqlarını bildirən Prezident İlham Əliyev deyib: "Bir müddətdən sonra burada yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılacaq. Mən hesab edirəm ki, bu, çox vacibdir. Çünki "İstisu" sanatoriyası və İstisu suyu bu bölgənin rəmzi, Kəlbəcərin təbii sərvəti idi. Bu gün biz - bu torpaqların sahibləri vaxtilə əlimizdən alınmış bütün sərvətləri özümüzə qaytarmışıq. Bütün şəhər və kəndlərimizi yenidən, sıfırdan bərpa edirik və edəcəyik, o cümlədən Kəlbəcər rayonunda, Laçın rayonunda böyük quruculuq işləri gedir".

**AZƏRTAC**
**2022, 27 iyun**

**Prezident İlham Əliyev: 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qürurla qeyd edirik**

Biz 1993-cü ilin aprelində itirdiyimiz Kəlbəcərdə bu gün Ordu Gününü qürurla qeyd edirik.

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev iyunun 26-da - Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinin açılışında çıxışı zamanı səsləndirib.

İşğal dövründə müxtəlif variantların müzakirə olunduğunu, vasitəçilər tərəfindən müxtəlif variantlar təklif edildiyini xatırladan dövlətimizin başçısı deyib: "Bütün bu variantlarda Kəlbəcərin Azərbaycana qaytarılması məsələsi ayrıca mövzu kimi gündəlikdə idi. Mən hər zaman deyirdim ki, biz bütün torpaqları geri almalıyıq. Beş rayonla biz kifayətlənə bilmərik. Kəlbəcər, Laçın, Şuşa, digər rayonlar da bizdə olmalıdır, bu, bizim tarixi torpağımızdır, dədə-babalarımızın diyarıdır və buna nail olduq. Kəlbəcərdə bu hərbi bayramı keçirmək əlavə zövq verir, bizim qəlbimizi daha da böyük qürurla doldurur. Biz bütün dünyaya sübut etmişik ki, biz böyük xalqıq".

Prezident İlham Əliyev vurğulayıb ki, "Qarabağ hər zaman Azərbaycan torpağı olub - işğal dövründə də, müharibə dövründə də, müharibədən sonra da və bu gün də. Qarabağ Azərbaycandır!".

**AZƏRTAC**
**2022, 27 iyun**

**Yaponiya portalı Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri barədə məlumatlar yayıb**

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri, burada iştirak etdiyi tədbirlər barədə məlumatlar yayıb.

AZƏRTAC xəbər verir ki, yapon və ingilis dillərində yayımlanan məlumatlarda 2020-ci ilin payızında düşmən tapdağından azad edilən həmin rayonlarda Azərbaycan hökuməti tərəfindən aparılan böyük bərpa və quruculuq işləri barədə ətraflı məlumat verilib.

Yaponiyalı oxuculara Kəlbəcər-Laçın yolunun tikintisi, 30 ilə yaxın müddətdə işğal altında qalmış və erməni vandalizmi nəticəsində xarabazarlığa çevrilmiş bu rayonlara yeni həyatın qayıtması, azad olunmuş şəhərlərdə inşa edilən İşğal və Zəfər muzeyləri, təbii şəraitin və mövcud relyefin çətinliyinə baxmayaraq, Kəlbəcər-Laçın zonasında bütün infrastruktur layihələrinin uğurla icra edilməsi barədə məlumatlar çatdırılıb. Həmin rayonlarda aparılan nəhəng quruculuq işlərinin Prezident İlham Əliyev tərəfindən şəxsən diqqətdə saxlandığı xüsusi vurğulanıb.

**Vüqar Ağayev**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tokio**

**AZƏRTAC**
**2022, 28 iyun**

**Prezident İlham Əliyevin Silahlı Qüvvələr Günündə Kəlbəcərdəki çıxışı mühüm siyasi-hərbi və tarixi hadisədir**

26 İyun – Silahlı Qüvvələri Günündə Prezident İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfər etməsi, Kəlbəcərdə komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimin keçirilməsi, mərasimdə Müzəffər Ali Baş Komandanın çıxışı mühüm siyasi-hərbi və tarixi hadisə kimi yaddaşlara həkk olundu. Hər an ən mürəkkəb şəraitdə qarşıya qoyulan hərbi vəzifəni yerinə yetirməyə qadir olan komandonun Prezident, Ali Baş Komandan İlham Əliyevin tapşırıq və tövsiyələrini alması, hətta birbaşa Kəlbəcərdən "Dəmir yumruq!" yerindədir mesajının verilməsi də postmüharibə reallığının hər kəs tərəfindən qəbul edilməsinə dair növbəti xəbərdarlıq oldu.

Bunu AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov deyib.

O bildirib ki, birinci komando hərbi hissəsi 2021-ci il dekabrın 24-də işğaldan azad edilmiş Hadrutda istifadəyə verilib. Cəmi 6 ay sonra yeni yaradılmış növbəti komando qüvvələrinin hərbi hissəsinin Kəlbəcərdə açılış mərasiminin keçirilməsi onu göstərir ki, Azərbaycanda 44 günlük Vətən müharibəsindən sonra da ordu quruculuğu prosesi sürətlə gedir. Yeni formalaşdırılan komando qüvvələri bütün digər silahlı birləşmələrlə bərabər ölkə qarşısında duran bütün vəzifələri yerinə yetirmək, ərazi bütövlüyünü müdafiə etmək və sərhədlərimizi qorumaq üçün bütün imkanlara malikdir. Bununla bərabər bütün sərhədlərdə hərbi hissələr yaradılıb. Müharibədən ötən müddət ərzində Azərbaycan Ordusu daha da gücləndirilib, müasir silahlarla təchiz edilib. Müharibədən sonrakı vəziyyət bir daha göstərir ki, bu gün Azərbaycan Ordusu həm təchizat, həm də döyüş qabiliyyəti nöqteyi-nəzərindən daha güclüdür. Heç şübhəsiz ki, ordunun daha da gücləndirilməsi tədbirləri postmünaqişə reallığı ilə barışmayan revanşistlərə və onların havadarlarına mühüm hərbi mesajdır. Prezident İlham Əliyevin bildirdiyi kimi, dünyanın aparıcı qüvvələri postmüharibə reallıqlarını artıq qəbul ediblər və öz fəaliyyətini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir.

"Sirr deyil ki, Kəlbəcər 1993-cü ilin aprel ayında işğal altına düşmüşdü. O vaxt hakimiyyətdə olan AXC-Müsavat xəyanətkar cütlüyü Kəlbəcəri qurban vermişdi. Hətta, o zamankı hakimiyyətin nümayəndələri Kəlbəcərin işğalını "əl borcu" kimi qələmə verirdilər", – deyən Ramil Vəlibəyov əlavə edib ki, həmin dövrdə AXC-Müsavat tandemi Kəlbəcəri müdafiə etmək əvəzinə talançılıqla, soyğunçuluqla məşğul olurdular. Lakin bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş Kəlbəcərdə abadlıq-quruculuq işləri gedir, rayonun infrastrukturu yenidən qurulur. Bütövlükdə isə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirən Prezident İlham Əliyev qalib Azərbaycan xalqının qürurunu və özgüvənini geri qaytardı, 30 il öncə AXC-Müsavat xəyanətkar cütlüyünün insanlara yaşatdığı məğlubiyyət sindromunu darmadağın etdi.

**AZƏRTAC**
**2022, 29 iyun**

## Azər Badamov: Dövlətimizin başçısının Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çox zəngin və əhəmiyyətli oldu

Prezident İlham Əliyevin işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərləri "Böyük Qayıdış"ın əhatə dairəsini genişləndirir və sürətləndirir. Dövlətimizin başçısı bu ərazilərə səfərləri çərçivəsində verilmiş tapşırıqların icrasını yoxlayır, yeni layihələrə baxış keçirir. Həmçinin hazır layihələrin açılışlarını edir və lazımi mesajlar verir. İşğaldan azad olunmuş ərazilərdə görülən işlərin miqyası gündən-günə genişlənməkdədir. Azad olunmuş bütün ərazilərdə bu gün bərpa-quruculuq işlərinə başlanılıb. Açılışları olmuş infrastruktur layihələri yenilərinin başlanılmasını sürətləndirir və icrasını asanlaşdırır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Azər Badamov söyləyib.

Deputat qeyd edib ki, dövlətimizin başçısının Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çox zəngin və əhəmiyyətli oldu. Bu səfərin Silahlı Qüvvələr Gününə təsadüf etməsinin də böyük siyasi əhəmiyyəti var. Yəni, bu o deməkdir ki, Prezident, Ali Baş Komandan İlham Əliyev hər zaman öz əsgərinin yanındadır.

"Ordumuz gündən-günə güclənir. Qələbə qazandığımız 44 günlük Vətən müharibəsində döyüş əməliyyatları bir daha təftiş olunur, üzə çıxmış zəif yerlər yenidən nəzərdən keçirilir və düzəlişlər edilir. O cümlədən, qələbənin qazanılmasında xüsusi şücaət göstərmiş xüsusi təyinatlı birliklərin təcrübəsi genişləndirilir. Belə ki, yeni komando ordu növlərinin yaradılması prosesi də genişləndirilir. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə komando hərbi hissələrinin açılışlarında iştirak edir, döyüş bayrağını təqdim edərək öz tapşırıqlarını verir. Komando qoşun növünün genişlənməsi Ordumuzun gücünün dəfələrlə artdığını göstərir. Çünki komandolar qarşısına qoyduğu hər bir döyüş tapşırığını yüksək səviyyədə icra etmək iqtidarında olan qoşun növüdür.

Biz, həmçinin Ermənistanla dövlət sərhədimizi möhkəmləndiririk. Paralel olaraq, infrastruktur formalaşdırılır. Belə ki, həmin ərazilərdə hərbçilərin hərəkətini təmin etmək üçün 700 kilometrdən çox yol çəkilib. Dövlətimizin başçısı komando hərbi hissəsinin açılışında çıxış edərkən Ermənistana da çox ciddi mesajlar ünvanladı. Yəni, ölkələrimiz arası münasibətlərin tənzimlənməsinin və Zəngəzur dəhlizinin açılmasının alternativi yoxdur, İrəvanda baş qaldıran revanşistlərin başını yenidən əzməyə Azərbaycan hər zaman hazırdır. Düzdür, müharibə istəmirik, istəyirik ki, gündəlikdə olan məsələlər danışıqlar yolu ilə həll olunsun. Əks halda isə, tarixi torpaqlarımızı da özümüzə qaytarmağımıza məcbur olacağıq", - deyə deputat qeyd edib.

A.Badamov bildirib ki, dövlətimizin başçısı səfər çərçivəsində İstisu sanatoriyasının təməlqoyma mərasimində iştirak etdi. Kəlbəcər rayonu böyük turizm potensialına malikdir. Bu ərazilərin füsunkar təbiəti, təmiz havası, qaynayan bulaqları turizmin müxtəlif sahələrin fəaliyyəti üçün imkanlar açır. O cümlədən İstisuyun müalicəvi əhəmiyyəti sağlamlıq turizminin inkişafına, həm də İstisu mineral suyunun istehsalı prosesinin təşkil olunaraq satışının həyata keçirilməsi bu rayonun iqtisadiyyatının yenidən dirçəlməsinə imkan verəcək.

Kəlbəcər rayonunun baş planının təbiətə inteqrasiya olunmuş şəkildə nəzərdə tutulması bu şəhərə unikal görkəm verəcək. İşğal və zəfər muzeylərinin inşası həm rayonun tarixini yaşadacaq, həm də rayona səfər etmiş hər bir qonaq üçün məlumat mənbəyi olacaq. Bu ərazilərin yol infrastrukturunun yenidən qurulması, dağların altından tunellərin çəkilməsi, çətin relyefə malik Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi bu ərazilərin yenidən qurulması üçün yüklərin daşınmasını asanlaşdıracaq, həm də Şuşaya və digər rayonlara səfərlərin daha rahat şəkildə həyata keçirilməsinə imkan verəcək.

"İşğaldan azad olunmuş əraziləri dövlətimizin başçısı "yaşıl enerji" zonası adlandırıb. Bu ərazilərdə bərpaolunan enerjinin istehsalı üçün yeni stansiyalar quraşdırılır. O cümlədən ermənilərin torpaqlarımızı işğal etdiyi dövrdə darmadağın edərək taladıqları 30-a yaxın kiçik su elektrik stansiyaları yenidən bərpa edilərək müasirləşdirilir. Bu stansiyalarda heyət iştirak etmədən uzaqdan idarəetmə elektron sistemləri quraşdırılır ki, bu da həmin stansiyalarda istehsal olunan elektrikin maya dəyərinin çox aşağı olmasına gətirib çıxarır. Bu günə qədər işğaldan azad olunmuş ərazilərdə 5 su elektrik stansiyası yenidən qurulub, 4 su elektrik stansiyasının da cari ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulub ki, bu da ölkəmizin enerji gücümüzün artmasına bir töhfəsi olacaq", - deyə Azər Badamov qeyd edib.

Deputat diqqətə çatdırıb ki, işğaldan azad olunmuş ərazilərimizdə icra olunan bütün meqa layihələri heç bir xarici dəstək olmadan Azərbaycan dövləti ancaq öz gücü hesabına həyata keçirir. Bu, həm də

Azərbaycanın iqtisadi gücünün göstəricisidir. Dövlətimizin başçısının müəyyənləşdirdiyi sosial-iqtisadi siyasət kursu Azərbaycanı güclü iqtisadiyyatı olan ölkəyə çevirib.

"Onu da qeyd etmək istəyirəm ki, cari ildə işğaldan azad olunmuş ərazilərə 2,2 milyard manat vəsait ayrılmasına baxmayaraq, dövlət büdcəsinə yenidən baxmaq imkanı əldə etməyimizi və həmin ərazilərin yenidən qurulmasına 1,5 milyard manata qədər əlavə vəsaitin ayrılmasını ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin uğuru hesab edirəm. İşğaldan azad olunmuş ərazilərimizdə yeni yaşayış məntəqələrinin sürətlə inşa edilməsi "Böyük Qayıdış" prosesini uğurla həyata keçirməyimizə imkan verəcək", - deyən Azər Badamov fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2022, 1 iyul**

**Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub**

İyulun 5-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

**AZƏRTAC**
**2022, 6 iyul**

**Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub**

İyulun 11-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

**AZƏRTAC**
**2022, 12 iyul**

### Adil Əliyev: Kəlbəcər Böyük Qayıdışın əsas inşaat meydanlarından biridir

2020-ci il noyabrın 25-də Kəlbəcər rayonunun işğaldan azad olunması Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində Ermənistanın işğalçı ordusuna vurduğu sarsıdıcı zərbənin və ölkə başçımızın hərbi əməliyyatlarla yanaşı apardığı fəal, intensiv beynəlxalq diplomatiyanın nəticəsi idi. Bir tərəfdən, 44 günlük Vətən müharibəsi ərzində işğalçı ordu darmadağın edilmiş, mənəvi-psixoloji çöküş keçirmiş və on minlərlə əsgər fərarilik etmişdi. Digər tərəfdən, noyabrın 8-də qəhrəman əsgərlərimizin Şuşanı azad etməsindən sonra Ermənistan özü də tam iflasa uğradığını anlamışdı. Buna görə də 10 noyabr üçtərəfli Bəyanat imzalamaqla bu iflası rəsmən etiraf etməyə məcbur oldu, 30 il ərzində möhkəmləndiyi Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz tərk etməli oldu.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

O qeyd edib ki, Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu 2020-ci il noyabrın 25-də boşaltdı. Bununla da, Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü il aprelin 30-da qəbul etdiyi və 27 il ərzində icra olunmamış qalan Kəlbəcər rayonundan və digər işğal olunmuş ərazilərdən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 822 saylı qətnaməsini özü icra etmiş oldu.

Kəlbəcərin işğaldan azad edilməsindən sonra rayonun yenidən qurulması və bərpası üzrə işlərə start verildi. Kəlbəcər rayonunun yeni inkişaf dövrü başlandı. İlk növbədə, rayonu ölkəmizin digər əraziləri ilə birləşdirən yolların çəkilişinə start verildi. Kəlbəcərin coğrafi relyefini nəzərə alsaq, bu işin nə qədər mürəkkəb olduğunu və buna görə də böyük resurs və vəsait tələb etdiyini təsəvvür etmək çətin deyil. Ona görə də 70 illik sovet dönəmində də Kəlbəcərin yol-nəqliyyat infrastrukturu lazımi surətdə inkişaf etdirilməmişdi. Hazırda Göygöl və Kəlbəcər rayonlarını birləşdirəcək 81 kilometrlik Toğanalı-Kəlbəcər avtomobil yolu və onun üzərində Murovdağda 11.6 kilometrlik tunel inşa edilir. Sovet dövlətinin ən qüdrətli çağlarında da Murovdağ silsiləsinin altından keçməklə olduqca qəliz coğrafi şəraitdə belə tunel çəkmək mümkün olmamışdı.

“Bundan əlavə, Kəlbəcər-Laçın yolu və müxtəlif tunellər də tikilir. Eləcə də qeyd edilməlidir ki, inşası gedən Laçın Beynəlxalq Hava Limanı Kəlbəcər rayonunun nəqliyyat imkanlarının genişlənməsinə mühüm töhfə verəcək. Bu, xüsusilə Kəlbəcər rayonunun turizm potensialının reallaşdırılması baxımından faydalıdır.

Yeri gəlmişkən, Kəlbəcərdə İstisu mineral su zavodunun və İstisu sanatoriyasının da təməlqoyma mərasimləri keçirilib və inşaat işlərinin icrasına başlanıb.

Böyük Qayıdışın tərkibi hissəsi olaraq, doğma sakinlərinin yenidən Kəlbəcərdə məskunlaşıb yaşaması üçün yol-nəqliyyat infrastrukturu ilə yanaşı, eləcə də sosial-iqtisadi infrastruktur və mədəni obyektlərin yaradılması zəruridir. Bu baxımdan, Kəlbəcərin Baş planının hazırlanması əhəmiyyətlidir. Baş plana əsasən, inşaat işləri Kəlbəcərin füsunkar təbiəti və coğrafi şəraiti nəzərə alınmaqla aparılacaq. Xəstəxana, məktəb və yaşayış binaları müvafiq qaydada inşa ediləcək. Kəlbəcərin tarixi-mədəni xüsusiyyətləri nəzərə alınaraq, aşıq mərkəzinin də yaradılması nəzərdə tutulur”, - deyə Milli Məclis sədrinin müavini vurğulayıb.

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə Ermənistan hərbi təxribatlara əl atmağa davam edir. Belə təxribatlar çox zaman Kəlbəcər istiqamətində baş verir. Buna görə də təhlükəsizliyimizi daha etibarlı təşkil etmək və müdafiə qüdrətimizin artırılması siyasətinin tərkib hissəsi olaraq, 2022-ci il iyunun 26-da - Azərbaycan Respublikası Silahlı Qüvvələri Günündə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Kəlbəcərdə yeni yaradılmış komando hərbi hissəsinin açılışını etdi. Təbii ki, erməni təxribatlarının bir məqsədi də Böyük Qayıdışı yubatmaq, ona mane olmaqdır. Ancaq Ordumuzun təxribatlara verdiyi qətiyyətli və sarsıdıcı cavablar cənab Prezidentin qeyd etdiyi kimi, heç bir qüvvənin bizi yolumuzdan döndərə, bizi dayandıra və ya qorxuda bilməyəcəyini bir daha sübut edir. Bütün təxribatlara baxmayaraq, Kəlbəcər hazırda Böyük Qayıdışın əsas inşaat meydanlarından biridir.

**AZƏRTAC**
**2022, 24 noyabr**

**Bu gün Kəlbəcər rayonu yeni inkişaf dövrünü yaşayır, yenidən qurulur, bərpa edilir**

1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonu işğal edilmişdi. Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etmişdi. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunurdu. Lakin rəsmi İrəvan həmin Qətnaməni icra etmədi, beynəlxalq təşkilatlar tərəfindən isə onun icrası tələb olunmadı. Əksinə, BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanıldı. Yalnız Kəlbəcərin işğalından 27 il sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rayon işğaldan azad edildi. Məhz bu gün – 25 noyabr tarixi Kəlbəcərin işğaldan azad olunduğu gündür. Bu gün eyni zamanda 1993-cü ildə gülərək Kəlbəcəri tərk etmək üçün azərbaycanlılara 10 saat vaxt verən beynəlxalq terrorçu, ASALA təşkilatının üzvü, ASALA İnqilab Hərəkatının rəhbəri olmuş, "Azərbaycan Bayrağı" ordenli İbad Hüseynov tərəfindən məhv edilmiş Monte Melkonyanın da ad günüdür. Bəlkə də bu bir təsadüfdür. Amma 25 noyabr Kəlbəcərin azad olunması günü onu işğal etmiş bütün Melkonyan kimilərə bir tarixi-siyasi mesaj oldu. Bundan sonra ermənilər hər il noyabrın 25-də Melkonyana ad günü keçirəndə Kəlbəcərin azad olunması gününün silləsini də yemiş olacaqlar.

Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov AZƏRTAC-a açıqlamasında deyib.

O bildirib ki, Vətən müharibəsinin ilk günlərində döyüşlər zamanı Kəlbəcərin şimal hissəsinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğalçılardan azad edilməsi, Kəlbəcərin strateji yüksəkliklərinin götürülməsi ermənilərin istifadə etdikləri nəqliyyat-kommunikasiya infrastrukturuna nəzarət etməyə imkan verirdi. Beləliklə də 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi Qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, kapitulyasiya etmiş Ermənistan götürdüyü öhdəliyə əsasən noyabrın 25-də Kəlbəcərdən silahlılarını çıxardı və rayonu Azərbaycana təhvil verdi. Bununla da, Azərbaycan xalqı beynəlxalq qanunların aliliyini, tarixi ədaləti bərpa etdi və Müzəffər Ali Baş Komandan İlham Əliyevin praqmatik siyasəti nəticəsində bir qüllə atılmadan Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. 2020-ci il noyabrın 26-da isə “Kəlbəcərin azad olunmasına görə” medalı təsis edildi və Azərbaycan Prezidentinin sərəncamları ilə Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Silahlı Qüvvələrimizin 9454 hərbi qulluqçusu “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olundu.

“Bu gün Kəlbəcər rayonu yeni inkişaf dövrünü yaşayır, yenidən qurulur, bərpa edilir. 2021-ci il avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunmuş Kəlbəcər rayonunda səfərdə olublar. Prezident İlham Əliyev Kəlbəcərdə Azərbaycan bayrağını qaldırıb. Bununla da Kəlbəcər rayonunda bərpa-quruculuq işlərinə artıq rəsmi start verilib. Hazırda infrastruktur layihələri icra edilir, Kəlbəcərin elektrik və su təchizatı, habelə evlərin tikilməsi ilə bağlı işlərinə start verilib.

Belə ki, “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasının, hərbi hissələrin açılışı, Kəlbəcər-Laçın avtomobil yolunun inşası, “Çıraq-1” Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi, Kəlbəcər şəhərinin Baş planı ilə tanışlıq, İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcərdə “İstisu” mineral su zavodunun, “İstisu” sanatoriyasının təməlqoyma mərasimləri olub. Heç şübhəsiz ki, bütün bu işlərin görülməsi Azərbaycan dövlətinin qüdrətini, qətiyyətini və iradəsini nümayiş etdirir”, - deyə Ramil Vəlibəyov vurğulayıb.

**AZƏRTAC**
**2022, 25 noyabr**

**Çingiz Qənizadə: Kəlbəcər yeni inkişaf dövrünə qədəm qoyub**

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz ordumuz Ermənistanın işğalçılıq siyasətinə son qoyaraq Azərbaycanın dünya birliyindəki nüfuzunu daha da artırdı. İndi respublikamız dünyada qalib ölkə kimi tanınır. İki il əvvəl işğalçı Ermənistan tərəfindən başlanan müharibə elə düşmən ölkənin məğlubiyyəti ilə başa çatdı. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla Ermənistan məğlubiyyətini rəsmiləşdirdi. Tarixi əhəmiyyətli sənədin 6-cı bəndində qeyd edilirdi ki, Ermənistan respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır...

Vətən müharibəsində əldə etdiyimiz Qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu bir güllə atılmadan Azərbaycana təhvil verilib. Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edilib. Kəlbəcərin işğaldan azad edilməsindən artıq iki il keçir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə bildirib. Hüquq müdafiəçisi Kəlbəcər rayonunun 1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini xatırladıb. Deyib ki, işğal zamanı 511 dinc sakin öldürülüb, 321 nəfər əsir götürülüb və itkin düşüb. Kəlbəcərin əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olub. İşğal nəticəsində onlarca tarixi-mədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərcə mənzil, yüzlərlə maşın, texnika və s. talan edilib, dağıdılıb və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb.

Komitə sədri rəsmi İrəvanın törətdiyi hərbi cinayətə beynəlxalq təşkilatların laqeyd münasibətindən söhbət açaraq deyib ki, 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılması BMT-nin və ATƏT-in prinsiplərinə tamamilə zidd idi. Lakin beynəlxalq birlik bu özbaşınalığa, ədalətsizliyə göz yumdu: "Hətta BMT Təhlükəsizlik Şurası 1993-cü il 30 aprel tarixli 822 saylı qətnamə də qəbul etmişdi. Qətnamədə işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın bütün digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunurdu. Lakin rəsmi İrəvan həmin qətnaməni icra etmədi, beynəlxalq təşkilatlar isə onun icrasını tələb etmədi. Ermənistan beynəlxalq təşkilatların bu ədalətsiz mövqeyindən daha da azğınlaşdı və işğalçılıq siyasətini davam etdirdi".

Ç.Qənizadə deyib ki, bu işğal əbədi ola bilməzdi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın müddətdə icra edə bilmədiyi qətnaməni cəmi 44 gün ərzində həyata keçirdi. Rəşadətli Ordumuz düşməni darmadağın edərək Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. İkinci Qarabağ müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsi yenilməz Silahlı Qüvvələrimiz tərəfindən işğalçılardan azad edildi.

Qəhrəman Ordumuz həmin ərazidəki strateji yüksəklikləri ələ keçirərək erməni silahlı qüvvələrinin hərəkətlərini bu istiqamətdə əhəmiyyətli dərəcədə məhdudlaşdırdı.

Komitə sədri tarixi Qələbəmizdən sonra dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərə səfərlərindən də danışdı: "2021-ci il avqustun 16-da, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev azad olunmuş Kəlbəcərə səfəri zamanı Azərbaycan bayrağını həmin ərazidə ucaltdı və Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq 11,6 kilometrlik tunelin təməlini qoydu. 2022–ci il iyunun 26-da reallaşan ikinci səfəri zamanı isə rayon ərazisində görülmüş yenidənqurma, tikinti-bərpa işləri ilə tanış oldu və "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının və hərbi hissələrin açılış mərasimləri keçirildi. Həmçinin İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, "İstisu" mineral su zavodunun təməlqoyma mərasimləri keçirildi. Bütün işlər planlı şəkildə həyata keçirilir. Baş plana əsasən, rayon ərazisində yaşayış binaları, məktəb, xəstəxana inşa ediləcək. Hərbi hissələr, ictimai yerlər artıq fəaliyyət göstərir. Kəlbəcərdə aşıq mərkəzi və digər tikililər də inşa ediləcək".

Ç.Qənizadə yaxın illərdə Kəlbəcərin turistlərin daha çox gələcəyi və Azərbaycanın ən görməli və gəzməli yerlərdən birinə çevriləcəyini bildirib.

**AZƏRTAC**
**2022, 25 noyabr**

**Kəlbəcərdə mövqelərimiz atəşə tutulub**

Dekabrın 4-də saat 03:50 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2022, 4 dekabr**

**Fergus Ould: Kəlbəcərdə 8 nəfərin minaya düşməsi xəbərindən kədərləndim**

Böyük Britaniyanın Azərbaycandakı səfiri Fergus Ould dekabrın 14-də Kəlbəcərdə 8 nəfərin minaya düşməsi ilə əlaqədar özünün tviter səhifəsində paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Dünən Kəlbəcərdə 8 nəfərin minaya düşməsi və nəticədə 7 nəfərin yaralanması və 1 nəfərin həlak olması xəbəri məni kədərləndirdi. Həyatını itirmiş şəxsin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananlara tezliklə şəfa diləyirəm".

**AZƏRTAC**
**2022, 15 dekabr**

**Prezident: Biz Laçın və Kəlbəcərin su ehtiyatları hesabına böyük enerji mənbəyi yaradacağıq**

Biz Laçın və Kəlbəcər rayonlarının su ehtiyatlarından istifadə edərək böyük bir enerji mənbəyi yaradacağıq.

AZƏRTAC xəbər verir ki, bu fikri Prezident İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən söyləyib.

"İndi Laçın, Kəlbəcər, Zəngilan və bir neçə digər rayonda Su Elektrik stansiyalarının tikintisi sürətlə gedir, biz 50 meqavatdan çox enerji alırıq. Bütövlükdə isə qarşıya məqsəd qoyulmuşdur ki, azad edilmiş ərazilərdə bu ilin sonuna qədər su elektrik stansiyalarının gücü 200 meqavat olsun, gələcəkdə isə 500 meqavata çatmalıdır. Laçın və Kəlbəcər rayonlarında böyük külək enerji potensialı var", - deyə dövlətimizin başçısı əlavə edib.

**AZƏRTAC**
**2023, 28 mart**

**Azərbaycan Prezidenti İlham Əliyevin Kəlbəcər və Laçın rayonlarına səfəri**
**Prezident İlham Əliyev Kəlbəcər rayonunun Yanşaq kəndinin təməlini qoyub**
*(27 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər və Laçın rayonlarına səfər edib.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində dövlətimizin başçısı Kəlbəcər rayonunun Yanşaq kəndinin təməlini qoyub.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Yanşaq kəndində ümumilikdə 421 ailənin məskunlaşması planlaşdırılıb. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 121 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 218 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 218 evin 50-si ikiotaqlı, 112-si üçotaqlı, 41-i dördotaqlı və 15-i beşotaqlı olacaq. Burada, həmçinin 264 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Qeyd olundu ki, Yanşaq kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında “yaşıl enerji”dən istifadə olunacaq.

Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sonra Azərbaycan Prezidenti kəndin inkişaf planı barədə videoçarxa baxdı.

Daha sonra Prezident İlham Əliyev Yanşaq kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 27 may**

**Kəlbəcər rayonunun Zallar kəndinin təməli qoyulub**
*(27 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər rayonunun Zallar kəndinin təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kəndin layihəsi barədə məlumat verildi.

Qeyd olundu ki, Zallar kəndində ümumilikdə 487 ailənin məskunlaşması nəzərdə tutulub. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 137 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 350 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 350 evin 100-ü ikiotaqlı, 167-si üçotaqlı, 57-si dördotaqlı, 26-sı isə beşotaqlı olacaq. Burada, həmçinin 360 şagird yerlik məktəb, 120 yerlik uşaq bağçası inşa ediləcək.

Məlumat verildi ki, Zallar kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında “yaşıl enerji”dən istifadə olunacaq.

Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sonra Azərbaycan Prezidenti kəndin inkişaf planı barədə videoçarxa baxdı.

Daha sonra Prezident İlham Əliyev Zallar kəndinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 27 may**

**Kəlbəcər rayonunda "Qamışlı" Kiçik Su Elektrik Stansiyası istifadəyə verilib**
*(27 may 2023-cü il)*

Mayın 27-də Kəlbəcər rayonunda "Qamışlı" Kiçik Su Elektrik Stansiyasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyanın açılışında iştirak edib.

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Kəlbəcəri tərk edərkən ermənilərin avadanlıqlarını daşıyaraq tamamilə dağıtdıqları "Qamışlı" Kiçik Su Elektrik Stansiyası da "AzərEnerji" tərəfindən tamamilə yenidən tikilib. Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi ilə bağlı strategiyasına uyğun olaraq yaradılan 6,3 meqavat gücündə "Qamışlı" Kiçik Su Elektrik Stansiyası üçün maşın zalı inşa edilib.

Bildirildi ki, "Qamışlı" stansiyası da daxil olmaqla indiyədək azad edilən ərazilərdə tikilmiş və tikilən su elektrik stansiyalarının hər birində çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları çayın axını ilə paralel quraşdırılıb. Burada boru ilə axan su da yenidən çaya buraxılır. Bütün yerlərdə, o cümlədən "Qamışlı" stansiyasında da su ehtiyatlarından səmərəli istifadə olunması, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün çayın məcrasına uyğun idarəolunan suqəbuledicilər tikilib. Eyni zamanda, təbii mühitin, flora və faunanın qorunması da aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış şəkildə xüsusi diqqətdə saxlanılıb.

Prezident İlham Əliyev "Qamışlı" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

İki hidroaqreqatdan ibarət "Qamışlı" stansiyasında 110 kilovoltluq yarımstansiya yaradılıb. Burada enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sistemi qurulub. Stansiyada Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir hidroturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb.

"Qamışlı" Kiçik Su Elektrik Stansiyasında ümumilikdə il ərzində 18,5 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsal edilməsi nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 27 may**

**Prezident İlham Əliyev Kəlbəcər rayonunda "Meydan" Kiçik Su Elektrik Stansiyasının açılışını edib**

*(27 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər rayonunda "Meydan" Kiçik Su Elektrik Stansiyasının açılışını edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsi, su ehtiyatlarından səmərəli istifadə olunması, işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Kəlbəcər rayonunun ərazisində Tərtərçayın sol qolu olan Meydan çayının üzərində 3,4 MVt-lıq kiçik su elektrik stansiyası tam yenidən qurulub. Ermənilər tərəfindən partladılaraq yandırılan və avadanlıqları daşınan bu stansiyanı "AzərEnerji" daha müasir və rəqəmsal qaydada yenidən qurub. Burada yeni maşın zalı tikilib, müasir hidroaqreqatlar, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. 1590 metr yüksəklikdə yerləşən baş suqəbuledici qurğu, eləcə də 4564 metr uzunluğunda derivasiya borusu tam yenidən qurulub.

"Meydan" Su Elektrik Stansiyası enerjisistemə inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sisteminə qoşulub. Bununla da stansiyanın idarəetmə sistemi avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılaraq müasir formaya keçirilib. Eləcə də ərazidə fors-major hallar üçün 45 kVA gücündə ehtiyat dizel generatoru quraşdırılıb. Yenidən qurulan "Meydan" Kiçik Su Elektrik Stansiyasında il ərzində 10 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Prezident İlham Əliyev "Meydan" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

Diqqətə çatdırıldı ki, işğaldan azad olunan ərazilərdə "AzərEnerji" ASC tərəfindən bu günə qədər 11 su elektrik stansiyası yenidən qurularaq bərpa edilib. Hazırda Kəlbəcər, Laçın və Zəngilanda 7 yerdə su elektrik stansiyalarının tikintisi davam edir. Eləcə də Kəlbəcər və Laçında daha 9 yerdə su elektrik stansiyalarının tikintisinə başlanılır. Ümumilikdə bu günə kimi yenidən qurulan və yaxın perspektivdə tikilərək istismara veriləcək bu su elektrik stansiyalarının ümumi gücü 200 MVt-a yaxın olacaq və nəticədə 600 milyon kilovat-saata yaxın ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal ediləcək.

**AZƏRTAC**
**2023, 27 may**

**Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərlə tanışlıq**
*(27 may 2023-cü il)*

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və 2021-ci ilin noyabrından 2023-cü ilin mayınadək ümumilikdə bu yolda və uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər haqqında məlumat verdi.

Bildirildi ki, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. I, II və III texniki dərəcəli yol iki, üç və dörd hərəkət zolağından ibarət olacaq. Bu yolun üzərindəki 5 tunelin ümumi uzunluğu 25,9 kilometrdir. Tunellərin 12,3 kilometrlik hissəsində qazma işləri tamamlanıb. Buradakı ən uzun tunel Murov dağının altından keçir. Həmin tunelin uzunluğu 11,6 kilometrdir.

Qeyd edək ki, Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişə imkan yaradacaq.

Məlumat verildi ki, uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu mövcud yoldan 33,1 kilometr qısadır. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Bu yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4,1 kilometr olan 23 körpü və ümumi uzunluğu 1076 metr təşkil edəcək 3 qovşaq inşa olunacaq.

**AZƏRTAC**
**2023, 27 may**

**Prezident İlham Əliyev Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak edib**
*(27 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Sonra Azərbaycan Prezidenti hərbi hospitalda yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, 3,6 hektar ərazidə salınan Kəlbəcər hərbi hospitalı sülh dövrü üçün 180 çarpayılıqdır. Döyüş vəziyyəti zamanı çarpayı sayını 300-dək artırmaq mümkündür. Müasir, tam rəqəmsal, süni intellektə əsaslanan tibbi cihaz və avadanlıqlarla təchiz olunan hərbi hospitalda poliklinika, terapiya, cərrahiyyə, anesteziologiya-reanimasiya bölmələrindən ibarət birinci müalicə korpusu, yoluxucu xəstəliklər və dəri xəstəlikləri bölmələrindən ibarət ikinci müalicə korpusu, qərargah binası, eləcə də daimi tibbi oksigen təminatı üçün stansiya, camaşırxana-qazanxana, nəzarət-buraxılış məntəqəsi və yeməkxana tikilib.

Poliklinika bölməsində ixtisaslar üzrə oftalmoloq, otorinolarinqoloq, kardioloq, stomatoloq, nevroloq, psixiatr, fizioterapevt və digər kabinetlər açılıb. Təcili yardım otağında ilkin yardım göstərmək üçün hər cür şərait mövcuddur.

Hospitalda iki əməliyyat otağı fəaliyyət göstərir. Müalicə korpuslarında hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, o cümlədən onların müayinə və müalicəsi üçün bütün şərait yaradılıb. Laboratoriya bölməsi ən yüksək standartlara cavab verir. Burada müasir laborator müayinə üsulları tətbiq edilməklə klinik, biokimyəvi və mikrobioloji analizlərin aparılması mümkündür.

Kəlbəcər hərbi hospitalı, həmçinin bioloji təmizləmə qurğusu, ehtiyat generator, cərrahi əməliyyatların fasiləsizliyi üçün UPS, mərkəzləşdirilmiş su, istilik və digər kommunikasiya sistemləri ilə tam təchiz olunub.

Bundan əlavə, hərbi hospitalın avtomobil parkında reanimobillər, yolsuzluq şəraitində təxliyə üçün ambulanslar, çöl şəraitində hərbi qulluqçulara tibbi xidmət göstərilməsi üçün avtomobillər var. Hərbi hospitalın ətrafındakı ərazidə yaşıllaşdırma və abadlıq işləri də görülüb.

**AZƏRTAC**
**2023, 27 may**

**Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub**
*(27 may 2023-cü il)*

Mayın 27-də Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhəllənin təməlinin qoyulması mərasimində iştirak edib.

Dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, yaşayış məhəlləsi 3,26 hektar ərazidə layihələndirilib. Yaşayış məhəlləsinin konsepsiyası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə icra olunan Baş plan layihəsi çərçivəsində hazırlanıb. Məhəllədə dördmərtəbəli 3 və ikimərtəbəli 10 yaşayış binasının inşası nəzərdə tutulur. Burada 112 mənzildə ümumilikdə 460 nəfərdən çox sakin yaşayacaq. Məhəllədəki məktəbin ətrafında salınacaq yaşıllıq ərazi ictimai məkan funksiyasını yerinə yetirməklə əhalinin asudə vaxtının səmərəli keçirilməsinə xidmət edəcək.

Diqqətə çatdırıldı ki, yaşayış binalarının memarlığı ərazinin relyef xüsusiyyətlərini əks etdirməklə Alp üslubunda işlənib.

Dövlətimizin başçısı yaşayış məhəlləsinin təməlini qoydu.

**AZƏRTAC**
**2023, 27 may**

**Prezident İlham Əliyev Kəlbəcər şəhərində məktəb binasının təməlini qoyub**
*(27 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər şəhərində 960 şagird yerlik məktəb binasının təməlqoyma mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin bərpası prosesində müasir təhsil infrastrukturunun qurulmasına xüsusi diqqət yetirilir. Kəlbəcərdə təməli qoyulan məktəb binası ən müasir standartlara uyğun inşa olunacaq.

Qeyd edildi ki, 41 sinifdən ibarət olacaq məktəb binasında fizika, kimya, biologiya, informatika kabinetləri, müxtəlif təyinatlı səkkiz laboratoriya, akt və idman zalları, yeməkxana və digər zəruri otaqlar yaradılacaq.

Dövlətimizin başçısı Kəlbəcər şəhərində 960 şagird yerlik məktəb binasının təməlini qoydu.

**AZƏRTAC**
**2023, 27 may**

**Azərbaycan Prezidenti: Laçın və Kəlbəcərin Ermənistanın əlində həmişəlik qalması ilə heç vaxt razılaşa bilməzdik**

Siz də, bütün Azərbaycan xalqı da, bütün dünya ictimaiyyəti də yaxşı bilirdi və bilir ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmaq istəmirdi, işğal edilmiş torpaqlardan çıxmaq istəmirdi.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçında bu rayondan olan sakinlərlə görüşdə söyləyib.

Ermənistanın, sadəcə olaraq, görüntü naminə, beynəlxalq vasitəçiləri aldatmaq, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün beş rayonu qaytarmağa hazırdır olduqları, Laçın və Kəlbəcərin isə onların əlində həmişəlik qalması ilə bağlı təklif irəli sürdüyünü xatırladan dövlətimizin başçısı qeyd edib: “Biz isə heç vaxt bununla razılaşa bilməzdik. Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq. Biz düşməni döyüş meydanında məğlub etmişik”.

**AZƏRTAC**
**2023, 28 may**

**Müdafiə Nazirliyi: Mövqelərimiz atəşə tutulub**

İyunun 28-i saat 22:35-dən 23:15-dək Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu, Basarkeçər rayonunun Yuxarı Şorca, Vedi rayonunun Arazdəyən yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Zəylik və İstisu, Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən bildirilib.

Bundan başqa, iyunun 28-i saat 23:55-dən iyunun 29-u saat 00:50-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Ordumuzun Şuşa rayonu istiqamətində yerləşən mövqeləri də atıcı silahlardan atəşə tutulub.

Bölmələrimiz tərəfindən cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2023, 29 iyun**

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub**

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Sənədə əsasən, 26 avqust – Laçın şəhəri günü, 4 oktyabr – Cəbrayıl şəhəri günü, 17 oktyabr – Füzuli şəhəri günü, 20 oktyabr – Zəngilan şəhəri günü, 25 oktyabr – Qubadlı şəhəri günü, 8 noyabr – Şuşa şəhəri günü, 20 noyabr – Ağdam şəhəri günü, 25 noyabr – Kəlbəcər şəhəri günü kimi hər il təntənəli şəkildə qeyd olunacaq.

Sərəncamda vurğulanır ki, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

"Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı", - deyə sənəddə qeyd olunub.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun hazırda yenidən qurulduğunun, ərazilərin minalardan təmizləndiyinin, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparıldığının vurğulandığı Sərəncamda deyilir: "Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir".

**AZƏRTAC**
**2023, 31 iyul**

**Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutulub**

Avqustun 19-u saat 16:45-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Əzizli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**2023, 19 avqust**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər**
**Kəlbəcərdə "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışı olub**
*(25 avqust 2023-cü il)*

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak ediblər.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər rayonunun ərazisindən keçən bol sulu Tərtər çayı üzərində yerləşən "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyası "AzərEnerji" tərəfindən tamamilə yenidən qurulub. Ərazini tərk edən düşmən tərəfindən tamamilə dağıdılan bu stansiyada bütün avadanlıq və yararlı hissələr sökülərək daşınıb, daşınması mümkün olmayan hissələr isə məhv edilib. İşğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, əsasən "AzərEnerji" tərəfindən su elektrik stansiyasının baş suqəbuledici qurğusu, 6 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı, iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün uzunluğu 6 kilometr olan 6 kV-luq kabel xətti çəkilib və eyni zamanda, optik kabel xətti ilə də əlaqələndirilib. Ərazidə fors-major hallar üçün ehtiyat dizel generatoru da quraşdırılıb.

Dövlətimizin başçısı "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edildi ki, "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyası enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Stansiyada il ərzində 15,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

**AZƏRTAC**
**2023, 25 avqust**

**“İstisu” mineral sudoldurma zavodunun tikintisi və “İstisu” Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanışlıq**
*(25 avqust 2023-cü il)*

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda “İstisu” mineral sudoldurma zavodunun tikintisi və “İstisu” Müalicə-İstirahət Kompleksində görülən işlər ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər “İstisu” mineral sudoldurma zavodu 1981-ci ildə inşa edilib. Zavod 1991-ci ilin sonlarında fəaliyyətini dayandırıb. Yeni tikiləcək “İstisu” zavodu 7,8 min kvadratmetr ərazini əhatə edəcək. Müəssisədə ikinövbəli əsasda təxminən 100 nəfər işlə təmin olunacaq. Zavodda Almaniya şirkəti tərəfindən təchiz olunan şüşə və plastik qablaşdırma istehsal xətləri fəaliyyət göstərəcək. Şüşə dolum xəttinin nominal gücü saatda 16 min, plastik dolum xəttinin nominal gücü isə saatda 8 min ədəd təşkil edəcək. Aylıq istehsal gücü isə 8 milyon ədədə yaxın olacaq.

“İstisu” Müalicə-İstirahət Kompleksinin layihəsi barədə məlumat verilərkən bildirildi ki, 1927-ci ildə fəaliyyətə başlayan bu sanatoriya keçmiş Azərbaycan SSR-də müttəfiq əhəmiyyətli ikinci böyük kurort hesab edilirdi. Kompleksin ərazisində üç yataq korpusu, bir müalicəvi vanna xidməti binası, bir poliklinika korpusu fəaliyyət göstərirdi. Sovet dönəmində bu kurort-sanatoriya kompleksi ildə 50 min nəfəri qəbul etmək imkanına malik olub. Buraya əsasən həzm sistemi xəstəliklərinin müalicəsi üçün müraciətlər edilirdi.

Bərpa ediləcək “İstisu” Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq.

Kompleksdəki SPA Mərkəzində isə termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri - restoranlar, uşaq əyləncə mərkəzi, oyun otağı, sportskafe, karaoke otağı, kafeteriya da qonaqlara xidmət göstərəcək.

Qeyd olundu ki, “Aşağı İstisu” mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən, İstisu təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Bu isə mədə-bağırsaq traktının funksional pozğunluqlarının müalicəsi və həzm funksiyasının stimullaşdırılması, yaşlılarda natrium və maye çatışmazlığının, ortostatik tənzimləmə pozğunluqlarının, sidik yollarında infeksiyaların müalicəsi, kalsium oksalat, sistin və sidik turşusu daşlarının profilaktikası və metafilaksisi, uşaqlarda və yeniyetmələrdə diş kariyesinin profilaktikası, eləcə də böyüklər üçün dəstəkləyici təsir baxımından çox faydalıdır.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Kəlbəcər rayonunda "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışı olub**
*(25 qvqust 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Kəlbəcər rayonunda "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına stansiyalarda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Kəlbəcər rayonunun qərbində Tərtər çayı üzərində yerləşən 8,33 meqavat gücündə "Çıraq-1" və Qaraarxac çayı üzərində 3,6 meqavat gücündə "Çıraq-2" Kiçik Su Elektrik stansiyaları "AzərEnerji" ASC tərəfindən tamamilə yenidən qurulub.

Qeyd edək ki, 2022-ci ilin iyununda Prezident İlham Əliyevin tikinti işlərinin gedişinə baxış keçirdiyi bu elektrik stansiyaları ən müasir avadanlıqla təchiz olunub. Ərazidə iqlim və relyefin sərt olmağına baxmayaraq, tikinti işləri cədvəldən əvvəl başa çatdırılıb.

Burada çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları subasardan hündür hissədə quraşdırılıb. Həmçinin sel suları nəzərə alınaraq 1750 metr mütləq yüksəklikdə yerləşən idarəolunan baş suqəbuledici qurğu tikilib, eləcə də 7 kilometr uzunluğunda derivasiya boruları yenidən çəkilib.

"Çıraq-1" və "Çıraq-2" stansiyalarının hər biri üçün maşın zalı tikilib, Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir ekoturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasının ərazisində yeni 110 kV-luq açıq paylayıcı qurğu inşa edilib. 35 kilometr uzunluğunda 35 kV-luq "İstisu" elektrik verilişi xətti yenidən qurularaq yeni yarımstansiyaya qoşulub, optik kabel xətti çəkilib. Bu yarımstansiya "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su Elektrik stansiyalarında istehsal edilən elektrik enerjisinin ölkənin enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Eynilə 3,6 meqavat gücündə "Çıraq-2" Su Elektrik Stansiyasının da baş suqəbuledici qurğu, 3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada bir ədəd Avropa istehsalı olan yaşıl sertifikatlı müasir ekoturbin, generator, idarəetmə və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" və "Çıraq-2" stansiyaları enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Hər iki stansiyada ümumilikdə il ərzində 35 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunacaq.

Prezident İlham Əliyev "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyalarını işə saldı.

Qeyd edildi ki, "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su Elektrik stansiyalarından əlavə, bu günə kimi Kəlbəcər rayonunda 4,4 meqavat gücündə "Kəlbəcər-1", 6,3 meqavat gücündə "Qamışlı" və 3,4 meqavat gücündə "Meydan" Kiçik Su Elektrik stansiyaları yenidən qurularaq istismara verilib. Hazırda Kəlbəcər rayonunda beş yerdə ümumi gücü 48,3 meqavat olan kiçik su elektrik stansiyalarının tikintisinə başlanılıb. Bununla da 2024-cü ilin birinci rübündə Kəlbəcər rayonunda ümumi gücü 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat-saat olan 10 kiçik su elektrik stansiyası mövcud olacaq.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub**
*(25 qvqust 2023-cü il)*

Avqustun 25-də Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Zar kəndində ümumilikdə 855 ailənin məskunlaşması planlaşdırılıb. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 243 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 547 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 547 evin 131-i ikiotaqlı, 289-u üçotaqlı, 92-si dördotaqlı, 35-i beşotaqlı olacaq. Burada, həmçinin 528 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası tikiləcək.

Prezident İlham Əliyev Zar kəndinin təməlini qoydu.

Qeyd olundu ki, Zar kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında “yaşıl enerji”dən istifadə olunacaq. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sonra xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**
**2023, 25 avqust**

**Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl və Laçında yerquruluşu işləri yekunlaşaraq kadastr sisteminə miqrasiya olunub**

“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə dövlət torpaq kadastr uçotu işləri davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir bildirib ki, yerquruluşu işləri çərçivəsində indiyədək 718.406,5 hektar ərazidə çöl ölçmə işləri aparılıb. Zəngilan (70.860 hektar), Qubadlı (79.876 hektar), Kəlbəcər (195.406 hektar), Cəbrayıl (104.936,5 hektar) və Laçın (177.417 hektar) rayonları üzrə işlər yekunlaşdırılaraq müvafiq kadastr sisteminə miqrasiya olunub, Füzuli (45.636 hektar) və Ağdam (44.275 hektar) rayonları üzrə isə işlər aparılır.

**AZƏRTAC**
**2023, 18 oktyabr**

**Beynəlxalq səyyahlar Kəlbəcər və Laçın rayonlarında olublar**

Dünyaşöhrətli dörd əsas səyyahlar şəbəkəsindən biri olan “NomadMania” klubunun 26 ölkəni (ABŞ, Kanada, İsveçrə, Britaniya, Danimarka, Almaniya, Avstriya, Polşa, Finlandiya, Norveç, İspaniya, Macarıstan, Rumıniya, Portuqaliya, Sinqapur, Avstraliya və sair) təmsil edən 50-yə yaxın üzvdən ibarət heyəti Qarabağa və Şərqi Zəngəzura səfəri çərçivəsində Kəlbəcər və Laçın rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki, əcnəbi səyyahlar Ermənistan silahlı qüvvələrinin işğal dövründə digər ərazilərimizin kimi Kəlbəcər və Laçında da törətdikləri vandalizmin izləri ilə tanış olublar. Qonaqlar, həmçinin Azərbaycan dövlətinin burada həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar.

Kəlbəcərdə İstisuya baş çəkən səyyahlar bölgənin təbiətinə heyran qaldıqlarını ifadə ediblər. Onlar Kəlbəcərdə Ermənistan tərəfindən işğal dövründə dağıdılmış evlərə də baxış keçiriblər.

Kəlbəcərdən sonra Laçına səfər edən səyyahlara əvəlcə tanınmış fotojurnalist Reza Deqatinin şəkillərindən ibarət sərgiyə baş çəkib, Laçın seyrangahından şəhərə tamaşa ediblər.

Onlara Laçında görülən bərpa-quruculuq işləri ilə barədə ətraflı məlumat verilib.

Sonra xarici səyyahların sualları cavablandırılıb.

Dünyanın əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC, MTP, TCC, “NomadMania” və əksəriyyəti bu klubların üzvləri olan türklərin birləşdiyi Türkiyə Gəzginlər Klubunun, Böyük Britaniyanın “Piki Reels”, İsveçin “Club 100” klublarının geniş tərkibdə heyətləri ötən iki ildə Qarabağa və Şərqi Zəngəzura səkkiz dəfə səfər edib. Bu, sayca doqquzuncu analoji səfərdir. Onlardan biri 2021-ci ildə, dördü 2022-ci ildə, qalanları isə bu il reallaşıb.

Dünyanın səyyah elitasının Qarabağa və Şərqi Zəngəzura ardıcıl səfərləri, hər dəfə heyətin daha da genişlənməsi onu göstərir ki, Azərbaycan dövlətinin bölgədə qısa müddətdə apardığı nəhəng və genişmiqyaslı quruculuq işləri dünyada heyrətlə qarşılanır. Bu səfərlər işğaldan azad edilmiş ərazilərin “black tourism” çərçivəsində tanıdılması, Ermənistanın törətdiyi müharibə cinayətlərinin yerində nümayişi baxımından da müstəsna əhəmiyyət daşıyır.

**Loğman Kamranlı**

**AZƏRTAC**
**2023, 5 noyabr**

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunun Vəngli kəndində olublar**

*(7 noyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev noyabrın 7-də Kəlbəcər rayonunun Vəngli kəndində olublar.

Qeyd edək ki, işğal dövründə ermənilər növbəti vandallıq aktı nümayiş etdirərək, azərbaycanlıların şəxsi avtomobillərinin nömrələrindən lövhə düzəltmişdilər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev lövhənin sökülməsi ilə bağlı tapşırıq verdi.

**AZƏRTAC**
**2023, 7 noyabr**

**BDU-da Kəlbəcər Şəhəri Günü qeyd edilib**

Bakı Dövlət Universitetinin (BDU) Tələbə Gənclər Təşkilatının (TGT) Sosial elmlər və psixologiya, İnformasiya və sənəd menecmenti fakültələri üzrə fəallarının birgə təşəbbüsü ilə Kəlbəcər Şəhəri Günü qeyd edilib.

Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

BDU-dan AZƏRTAC-a bildirilib ki, Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini Nəzakət Kərimova 30 ilə yaxın müddətdə xalqımızın ürəyində düyün bağlamış yurd həsrətinin artıq başa çatdığını, işğal altında olan şəhər və kəndlərimizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, cəsur Azərbaycan əsgərlərinin əzm və iradəsi nəticəsində azad edildiyini, hazırda həmin ərazilərdə aparılan sürətli və genişmiqyaslı bərpa-quruculuq işlərinin bütün dünyaya örnək olduğunu vurğulayıb. Dekan müavini tələbə-gəncləri doğma Qarabağın dirçəlişi prosesində yaxından iştirak etməyə dəvət edib.

Sonra Kəlbəcər rayonunun tarix və mədəniyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Çıxış edən Sosial elmlər və psixologiya fakültəsinin TGT sədri Samir Quliyev hazırda Azərbaycan gənclərinin üzərinə düşən əsas vəzifənin birlik, bərabərlik və həmrəylik şəraitində ölkəmizin gələcəyini düşünmək olduğunu qeyd edib.

Tədbir tələbələrin hazırladığı bədii hissə ilə davam edib.

**AZƏRTAC**
**2023, 24 noyabr**

**Kəlbəcərə qayıdış arzusu**

Vətəni müqəddəsləşdirən onun uğrunda aparılan mübarizə, üzərinə tökülən qandır. Əbəs yerə demirlər ki, torpağın üstünə su töküləndə palçıq olur, qan töküləndə Vətən.

Bu sözləri AZƏRTAC-ın müxbiri ilə söhbətində hazırda Mingəçevirdə yaşayan Kəlbəcər sakini Mahir Cəfərov deyib.

Mahir doğma rayonun başı üzərini təhlükə alanda silaha ilk sarılanlardan olub. O, əvvəlcə Ağdaban kəndinin erməni yaraqlılarının hücumundan müdafiəsində iştirak edib. Onun komandiri Ülfət Kərimov kəndə hücum edən ermənilərin zirehli texnika və tankını məhv edərək şəhidlik zirvəsinə ucalıb. 1992-ci ilin aprelində düşmən hərbçiləri kəndə od vurub dinc sakinlərin başına olmazın müsibət gətirəndən sonra başsız qalan özünümüdafiə dəstəsi döyüş mövqeyini dəyişərək Başlıbelin müdafiəsində iştirak edib.

Keçmiş döyüşçü deyir: “Başlıbeldə baş verənlərdən indi artıq hamının xəbəri var. Biz bir neçə döyüşçü Kəlbəcərin işğalından sonra rayonu tərk etməyə imkan tapa bilməyən yerli sakinlərlə birlikdə Dəlidağdakı kahalara çəkilərək kəndin mərd oğlanları ilə birlikdə yaşamaq uğrunda mübarizə apardıq. Doğrudur, qışın iliyə işləyən sazaqlı havasında təpədən dırnağa qədər silahlanmış erməni yaraqlılarına qarşı bir neçə avtomat və tüfənglə mübarizə aparmaq çox çətin idi, lakin heç nəyə məhəl qoymadan ölüm-dirim savaşına çıxdıq. Gücümüz dörd aya yaxın məhrumiyyətli həyat yaşayan sakinlərin yalnız bir hissəsini xilas etməyə çatdı. Ömrümün gənclik illərinə təsadüf edən həmin hadisələr heç vaxt unudulan deyil...”.

Bu gün hər bir Kəlbəcər sakini kimi Mahir də doğma rayonun işğaldan azad olunmasından böyük sevinc və qürur hissi keçirir: “Başımıza gələnlər, yaşadığımız çətinliklər heç vaxt yaddan çıxmaz, lakin bunlar bizim qan yaddaşımıza çevrilməlidir. Rayonumuzdan erməni yaraqlılarının ayağı kəsiləndən sonra bir neçə dəfə doğma yerləri ziyarət etmişəm. Mənim üçün, o ağır günləri yaşayan hər kəs üçün Kəlbəcərin hər qarışı çox qiymətlidir. İndiki günlərə, azad ata-baba ocağına, yurd yerlərimizə qovuşduğumuz üçün çox xoşbəxtik. Bu günü bizi yaşadanlara da özümüzü borclu bilirik. İndi hamı kimi məni də o yerlərə əbədi olaraq dönmək, orada yaşamaq və işləmək qayğıları düşündürür. Açığını deyim ki, çox gözəl hisslərdir. Bu hisslərlə yaşamaq və Kəlbəcərə dönüş gününü səbirsizliklə gözləmək də gözəldir. Elə bilirəm ki, əsl həyat oradan başlayacaq”.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**"AzərEnerji": Kəlbəcərdə 6 SES yenidən qurularaq istismara verilib**

Kəlbəcər rayonunda bu günədək "AzərEnerji" tərəfindən 6 yerdə kiçik su elektrik stansiyası yenidən qurularaq istismara verilib.

AZƏRTAC "AzərEnerji" ASC-nin məlumatına istinadla xəbər verir ki, 2022-ci ildə 4,4 meqavat gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının, cari ildə isə 8,33 meqavat gücündə "Çıraq-1", 3,6 meqavat gücündə "Çıraq-2", 6,33 meqavat gücündə "Qamışlı", 5,3 meqavat gücündə "Soyuqbulaq" və 3,4 meqavat gücündə "Meydan" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub.

Hazırda Kəlbəcər rayonunda "AzərEnerji" tərəfindən 4 yerdə kiçik su elektrik stansiyasının tikintisi aparılır. "Aşağı Vəng", "Yuxarı Vəng", "Nadirxanlı" və "Zar" adlanacaq kiçik su elektrik stansiyalarının 2024-cü ildə istismara verilməsi planlaşdırılıb.

Xatırladaq ki, Kəlbəcər rayonu azad ediləndən dərhal sonra Daşkəsən rayonundan Kəlbəcərə 3500 metr yüksəklikdəki Murov dağını keçməklə 70 km məsafədə yüksəkgərginlikli ikidövrəli ötürmə xətti çəkilib. Dağlar sıldırımlı, hava sərt şaxtalı, qarın qalınlığı 3-5 metrə çatan yolsuz ərazilərdə hündürlüyü 50 metr, çəkisi 10 ton olan anker dayaqlar quraşdırılaraq şəraitsiz vəziyyətdə vəzifə icra edilib. Paralel olaraq, sərt iqlim və çətin relyefdə yerləşən Kəlbəcərdə 110/35/10 kilovoltluq rəqəmsal yarımstansiya tikilib. 2021-ci ilin yayında yarımstansiyanın açılışı olub.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**Vətən müharibəsi iştirakçısı: Sevinirəm ki, Kəlbəcərdə yaşamaq mənə də nəsib olacaq**

Elvin Mamedov Kəlbəcər işğal olunan il dünyaya göz açıb. Amma sən demə onun taleyində Vətən müharibəsinin iştirakçısı olmaq, Qarabağ torpaqlarının azadlığı uğrunda qəhrəmanlıq göstərmək də varmış...

AZƏRTAC xəbər verir ki, Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olan Elvin cəbhənin bütün istiqamətlərində - Kəlbəcər, Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı, Xocavənd və Şuşada döyüşüb. Qubadlı döyüşləri zamanı yaralansa da, qısamüddətli müalicədən sonra yenidən cəbhəyə qayıdıb, Tuğ kəndinin azad olunmasında fəal iştirak edib.

“Bir kəlbəcərli və Vətən müharibəsinin döyüşçüsü kimi bu gün böyük iftixar hissi keçirirəm. İlk növbədə ona görə ki, Vətənimiz bütövdür, sərhədlərimiz etibarlı şəkildə qorunur. Bundan sonra bu torpağa düşmən ayağı dəyə bilməz. İkincisi, ona görə ki, bu Qələbənin qazanılmasında mənim də zəhmətim var. Azad Vətənimizin demək olar ki, işğal altında olan hər rayonu uğrunda döyüşlərdə iştirak etmişəm. Bu da başqa hissdir. Ən nəhayət bir də ona sevinirəm ki, xəyalımda yaşatdığım, gözəlliyi, füsunkarlığı haqqında valideynlərimdən eşitdiyim dağlar diyarı Kəlbəcərə dönmək, orada yaşamaq mənə də nəsib olacaq”.

Elvin Mamedov Zəfər müharibəsindən 7 medalla qayıdıb. Onun sinəsini “Kəlbəcərin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “İgidliyə görə” və “Şücaətə görə” medalları bəzəyir.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**Otuz bir il sonra doğma Kəlbəcərə qayıdan üç nəsil, yarım qalmış xatirələrlə "tanışlıq" - VİDEOREPORTAJ**

AZƏRTAC-ın müxbiri Fərid Səlimov 31 il sonra valideynlərinin doğulduğu doğma yurdu Kəlbəcərdə olub. Səfər zamanı nənəsi Gülzar Səlimovaya və atası İlham Səlimova bələdçilik edən gənc jurnalist onların yerlə-yeksan edilən yurd yerlərində yaşadıqları həyəcanlı anları kameraların yaddaşına həkk edib.

Kəlbəcərdə doğulmasa da, buranın ona çox doğma olduğunu bildirən gənc jurnalist həyəcanlı olduğunu gizlədə bilmir. Çünki indiyədək görmədiyi bu yolu ilk dəfə doğmaları ilə gedir.

Fərid Səlimov Kəlbəcər barədə ona nağıllar, hekayələr, əhvalatlar danışan, bu torpağı sevdirən atasının və nənəsinin də həyəcanlı olduqlarını söyləyir.

Atasının təhsil aldığı məktəbin önündə onun yaşadığı həyəcanın təsadüfi olmadığını deyən jurnalist qeyd edib: "Çünki o məktəbin xarabalıqları, uçulub dağılan divarları atama çox şey deyirdi... Əslində, bu məktəb mənə də tanışdı. Atam buranı mənə o qədər təsvir edib ki, qapısını, zəngini, həyətindəki çal-çağırı sanki özüm görmüşəm, sanki bu məktəbdə atam deyil, mən oxumuşam...".

Jurnalist nənəsi haqqında da danışıb. O deyib: "Ömrünün ən gözəl çağları Kəlbəcərdə keçən nənəm düz 31 il sonra - 66 yaşında doğma yurduna qayıtdı. Amma burada nə tikib qurduqlarını, nə də dolu qoyub getdikləri evini tapdı. 31 ilin o üzündə qalan ömrünü ona xatırladan, sadəcə, pas atmış qab-qacaqları, bir də qəlbində qoruyub yaşatdığı xatirələri...".

Xatırladaq ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ildə Vətən müharibəsində qazandığı Zəfərdən sonra işğal altındakı digər torpaqlarımız kimi, Kəlbəcər rayonu da erməni işğalçılarından təmizləndi. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, həmin il noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verildi. İndi digər ərazilərimiz kimi, Kəlbəcərə də yeni həyat qayıdır. Qarabağ və Şərqi Zəngəzurda aparılan işlərin miqyası və sürəti onu deməyə əsas verir ki, keçmiş məcburi köçkünlər tezliklə Kəlbəcərə də qayıdacaqlar.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**Adil Əliyev: Bu gün Kəlbəcərə yeni nəfəs gəlir, insanların doğma yurda qayıtmaq arzusu reallaşır**

Dövlətimizin başçısının bu ilin yayında imzaladığı Sərəncama əsasən, noyabrın 25-i uzun illər düşmən işğalında qalmış Kəlbəcər rayonunun azad edildiyi gün kimi xüsusi qeyd edilir. 1990-cı illərin əvvəllərində azərbaycanlılara qarşı kütləvi cinayətlər törədən Ermənistanın atdığı addımlar təəssüf ki, Kəlbəcər rayonundan da yan keçmədi. Qədim türk yurdu və Azərbaycanın ayrılmaz hissəsi olan Kəlbəcər 1993-cü ildə Ermənistan tərəfindən işğal olundu. 1993-cü il aprelin 2-də rayonunun işğalı zamanı 511 nəfər dinc həmvətənlimiz qəddarcasına öldürüldü, 321 nəfər isə əsir götürüldü.

AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

A.Əliyev qeyd edib ki, Kəlbəcərin Ermənistan tərəfindən işğalı ilə 50 mindən çox Azərbaycan vətəndaşı 30 il ərzində məcburi köçkün həyatı yaşamağa məcbur olub, məhz bu, erməni vandalizminin iç üzüdür. Kəlbəcər rayonundan olan məcburi köçkünlər əzizlərini itirməklə bərabər, uzun illər doğma Vətənin həsrətini çəkiblər. Bu məhrumiyyətlərlə yanaşı, məhz beynəlxalq ictimaiyyətin baş verənlərə səssiz qalması, reaksiya verməməsi ikili standartların əyani nəticəsi idi. Kəlbəcərin Ermənistan tərəfindən işğalı faktını təsdiqləyən, Ermənistan hərbi qulluqçularının işğal altındakı ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi 4 qətnamədən biri – 822 saylı qətnamə qəbul olunub. Lakin bu qətnamələr 27 il ərzində icra olunmadı və kağız üzərində qaldı. İcrası məcburi xarakter daşıyan qətnamələrin yerinə yetirilməməsi Ermənistanın beynəlxalq hüquqa və beynəlxalq ictimaiyyətə verdiyi "dəyər"in təzahürü idi. Məhz kəlbəcərlilər məruz qaldıqları ikili standartlara görə uzun illər doğma yurdlarına qovuşa bilmədilər.

2020-ci ilin sentyabrın 27-də başlanmış genişmiqyaslı hərbi əməliyyat Azərbaycan Ordusunun 44 gün davam edən Zəfər yürüşü ilə tamamlandı, qəhrəmanlarımız bizə tarixi Qələbə bəxş etdilər. Rəşadətli Azərbaycan Ordusuna rəhbərlik edən Prezident, Müzəffər Ali Baş Komandanın göstərişlərinə uyğun olaraq hərbi qulluqçularımız ilk günlərdən etibarən həm də Kəlbəcər istiqamətində hücum əməliyyatına keçdilər. Aparılan ardıcıl uğurlu əməliyyatlar nəticəsində bu istiqamətdə yüksəkliklər düşmən işğalından azad olundu. Eləcə də hərbi qulluqçularımız Basarkeçər-Kəlbəcər yolunu nəzarətdə saxlamaqla düşmənin Ermənistanla əlaqəsini kəsərək bu yoldan istifadənin qarşısını aldılar. Azərbaycan Silahlı Qüvvələrinin apardığı uğurlu əməliyyatlar nəticəsində tarixi Qələbə qazandıq və Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Üçtərəfli Bəyanat imzalanarkən Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biri də Kəlbəcər rayonunun təhvil verilməsi idi. Nəticədə noyabrın 25-də düşmən Kəlbəcər rayonunu birdəfəlik tərk etdi. Kəlbəcər rayonundan çıxanlar öz barbarlıqlarını, işğalçı, dağıdıcı mahiyyətlərini bir daha dünyaya nümayiş etdirdilər. Rayondan çıxarkən evlərini, məktəblərini və digər əmlaklarını yandırmaqla bərabər, meşələri də məhv etdilər.

**Kəlbəcər rayonunda quruculuq işləri yüksək sürətlə davam edir**

Dövlətimizin başçısının göstərişi ilə bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan abadlıq və quruculuq işləri çərçivəsində Kəlbəcərdə də genişmiqyaslı işlər həyata keçirilir. Prezident və Birinci vitse-prezident mütəmadi olaraq həmin ərazilərə səfərlər edərək görülən işlərlə yerindəcə tanış olur, yaşayış məntəqələrinin, xəstəxanaların və məktəblərin təməlqoyma mərasimlərində iştirak edirlər.

Bu sahədə görülən işlər keçmiş məcburi köçkünlərin yurdlarına dönmələrinin təmin olunması məqsədilə aparılır. Quruculuq işləri ilə yanaşı, növbəti mərhələdə kəlbəcərlilərin öz yurdlarına dönmələri də planlaşdırılır. Hazırda rayonda elektrik enerjisi istehsal edən müəssisələr, bütün infrastruktur yenidən qurulur, təsdiqlənmiş Baş plana uyğun olaraq sakinlər üçün evlər tikilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə başlamış "Böyük Qayıdış" prosesi çərçivəsində artıq Talış kəndinə, Füzuliyə, Laçına, Zəngilana və ayrı-ayrı kəndlərə qayıdış gerçəkləşir və bu proses uğurla davam edir. İşğaldan azad olunmuş ərazilərə qayıdan həmvətənlilərimizin rahat yaşaması üçün evlər tikilir, müasir infrastruktur yaradılır, nəticədə uzun illər yurd həsrəti çəkmiş vətəndaşlarımız geri qayıdırlar. Məhz görülən bu işlər nəticəsində Qarabağa və Şərqi Zəngəzura yeni nəfəs gəlir, insanlar doğma yurdlarındadır. Onların məşğulluq və digər məsələləri dövlətimiz üçün prioritetdir, habelə qarşıdakı müddətdə kəlbəcərlilər də növbəli şəkildə öz yurdlarına qayıdacaqlar.

"Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda görülən işlərlə bərabər, regionda sülhün təmin olunması istiqamətində bütün vacib addımları atır. Regionda sülhün bərqərar olunması məqsədilə bütün imkanlar səfərbər edilir. Biz uzunmüddətli sülh arzusundayıq. Ümid edirik ki, Ermənistan da uzun illər

törətdiyi qırğınlardan sonra işğalçılıq siyasətindən əl çəkəcək və sülhə öz töhfəsini verəcək”, - deyə A.Əliyev vurğulayıb.

**AZƏRTAC**
**2023, 25 noyabr**

### "Azərişıq" ASC Kəlbəcərdə gördüyü işləri açıqlayıb

Qırxgünlük Vətən müharibəsi zamanı azad olunan rayonlarımız arasında coğrafi quruluşuna görə ən çətin relyefə malik olanı Kəlbəcərdir. Ali Baş Komandan İlham Əliyevin düzgün siyasətinin nəticəsi olaraq Azərbaycan Ordusu Kəlbəcərə döyüşsüz daxil oldu. 2020-ci il 10 noyabr tarixli - üçtərəfli Bəyannaməyə əsasən Ermənistan noyabrın 25-də Kəlbəcəri Azərbaycana qaytardı.

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən "Azərişıq" ASC Kəlbəcərdə yenidənqurma işlərinə start verdi. 2021-ci il iyulun 18-də Kəlbəcər şəhəri elektrik enerjisi ilə təmin edildi. İlkin mərhələdə rayon ərazisindəki hərbi hissələrə, xüsusi dövlət əhəmiyyətli obyektlərə işıq verildi.

ASC-dən AZƏRTAC-a bildirilib ki, Kəlbəcər elektrik enerjisindən mənbə kimi Gəncədə yerləşən "Gəncə-2" yarımstansiyasından Daşkəsənə 110 kV-luq elektrik verilişi xətti, həmçinin Kəlbəcərdə bir neçə istiqamətdə 110 kV və 35 kV-luq elektrik xətləri çəkilib. Ümumilikdə rayon ərazisində çox sayda Komplekt Transformator Məntəqəsi (KTM) quraşdırılıb.

2022-ci il iyunun 26-da Prezident İlham Əliyev Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin təməlqoyma mərasimində iştirak edib. Ən müasir avadanlıqlarla təchiz edilən mərkəzdə tamamlama işləri görülür. Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzi gələcəkdə rayonun dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq.

Eyni zamanda, İstisu ərazisində "İstisu" 110-35 kV-luq yarımstansiyasının tikintisinə başlanılıb. Görülən işlərin yekununda Kəlbəcərlə Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

Alagöllər ərazisini çətin relyef, yüksəklik və keçilməz yollar səbəbi ilə sovet hökuməti zamanında belə elektrik enerjisi ilə təmin edə bilməyib. Bu gün həmin ərazilərdə Azərbaycan işığı yanır.

Eyni zamanda, Zar, Zəylik, İstisu, Ağqaya, Mərcimək və Yellicə istiqamətində işlər yekunlaşmaq üzrədir. Qeyd edilən kəndlərə elektrik enerjisini daşıyan yeni dayaqlar basdırılır, müasir tipli, izolyasiyalı kabel xətləri çəkilir. Bu növ izolyasiyalı kabel xətləri həm ekoloji cəhətdən əlverişli və təhlükəsizdir, həm də enerji itkisini minimuma endirir. Həmçinin yüksək dağlıq ərazilərdə kəskin hava şəraitində açıq naqillərdə buzlaşma və meşə zolağından keçən hissədə ağac budağının toxunması nəticəsində açılmalar olur. Belə qəzaların aradan qaldırılması kifayət qədər vaxt tələb edir. İzolyasiyalı kabellərdə isə bu növ problemlər yaranmır. Üstəlik açıq kabellərdə mühafizə sonası 30 metr olmalıdır. Xətlərin onlarla kilometr uzunluğunda çəkildiyini nəzərə alsaq nə qədər boş torpaq sahəsi itkisi olduğunu təsəvvür etmək çətin deyil. İzolyasiyalı kabellərdə isə mühafizə zonası cəmi 4-6 metrdir. Bu da qəza baş verəcəyi halda texnikaların işləyə bilməsi üçün nəzərdə tutulub.

Prezident İlham Əliyevin tapşırıqları əsasında hazırda "Azərişıq" ASC Kəlbəcərdə işləri davam etdirir.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**Böyük Qayıdış konsepsiyası Kəlbəcərdə də tezliklə uğurla yerinə yetiriləcək - RƏY**

Azərbaycan xalqı qüdrətli dövlətimizin sayəsində tarixi günlərini yaşayır. Biz işğala yalnız 30 il dözdük. Dözdük ki, möhkəmlənək və vaxtilə qucaq açdığımız, amma nankorluğuna tuş gəldiyimiz, bizə ərazi iddiası ilə savaş açan ermənilərin, onlara züy tutanların cavabını verək. Kimlərinsə köməyi, dəstəyi ilə torpaqlarımızı işğal edən Ermənistan fərqinə varmırdı ki, bu xəyanətin sonu onun üçün bu qədər ağır olacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Kəlbəcərdən olan deputatı Aqil Məmmədov səsləndirib.

Deputat qeyd edib ki, müdrik siyasi xadim, güclü sərkərdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında hədəfə doğru addım-addım və zərgər dəqiqliyi ilə bütün istiqamətlərdə işlər aparılır, hazırlıq görülürdü. Təbii ki, dövlətimiz münaqişənin sülh yolu ilə həllinə çox çalışdı, amma nəticənin olmadığını görəndə çıxış yolunu silahın, "Dəmir yumruğ"un gücündə gördü. Azərbaycan dövləti və ordusu 2020-ci ildə "mənəm-mənəm" deyən Ermənistanı diz çökdürdü, onu kapitulyasiya aktına imza atmağa məcbur etdi. 30 ildən sonra 20 faiz torpaqlarını düşməndən geri alan Azərbaycan tarix yazdı, həm ölkə tarixində, həm də dünya tarixində. Prezident İlham Əliyevin rəhbərliyi, siyasi iradəsi ilə tarixlər yazmağa davam edən ordumuz Zəfərimizdən 3 il sonra isə bizi illərdir həsrət qaldığımız Xankəndiyə, Xocalıya qovuşdurdu. Bax, əsl tarix, əsl qəhrəmanlıq budur! Artıq bütün dünya bu qəhrəmanın Azərbaycan və onun Lideri İlham Əliyev olduğunu qəbul edir.

Zəfər tariximizlə qürur duyduğunu, hər şeydən əvvəl bir vətəndaş kimi özünü çox xoşbəxt hiss etdiyini deyən A.Məmmədov doğulub boya-başa çatdığı Kəlbəcərlə bağlı xatirələrini bölüşüb: "Kəlbəcərin Ağdaban kəndində dünyaya göz açmışam. Bütün uşaqlığım, gəncliyim orada keçib. Uzun müddət bu rayona rəhbərlik etmişəm, Kəlbəcərin hər daşı, hər torpağı mənim üçün çox əzizdir. "Kəlbəcər" toponiminin mənşəyinin qədim türk dilində "çay üstündə qala" demək olduğunu diqqətə çatdıran deputatın sözlərinə görə, buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərdə yaradılıb.

Ulu Öndər Heydər Əliyevin işğal edilmiş rayonlarımızın gələcək taleyi ilə bağlı vaxtilə dediyi müdrik fikirlər artıq bu gün reallığa çevrilib. Ümummilli Lider hər zaman Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və oradan məcburi köçürülən insanların öz yurd-yuvalarına qayıdacaqlarını deyirdi. Ulu Öndər 1996-cı ildə kəlbəcərlilərlə görüşündə bildirmişdi ki, heç şübhəsiz, Kəlbəcər işğaldan azad olunacaq və kəlbəcərlilər öz doğma evlərinə qayıdacaqlar. İndi həmin vaxt gəlib çatıb".

Deputat bildirib ki, üçtərəfli Bəyanata əsasən Kəlbəcər rayonunun 2020-ci il noyabrın 15-də təhvil verilməsi qərarlaşdırılsa da, qarşı tərəfin xahişi ilə bu müddət noyabrın 25-dək uzadılıb.

"Dövlətimizin başçısının uzaqgörən siyasəti və siyasi iradəsi ilə Ağdam və Laçın rayonları kimi, Kəlbəcər də bir güllə belə atılmadan azad edildi. Noyabrın 25-dən cəmi bir ay yarım sonra, yəni, yanvarın 9-da doğma yurda, Ağdaban kəndinə getdim. Həmin an keçirdiyim hissləri, həyəcanımı sözlə ifadə etməkdə çətinlik çəkirəm. Kənd yox idi, ermənilər hər şeyi yerlə-yeksan etmişdilər. Bakıya qayıtdıqdan sonra hər şey mənə yuxu kimi gəlirdi. İnanmırdım ki, Kəlbəcərə, Ağdabana gedib-gəlmişəm. Yuxularımızı, xəyallarımızı həqiqətə çevirdiyi üçün Müzəffər Ali Baş Komandana, rəşadətli Ordumuza minnətdarıq, şəhidlərimizin ruhu qarşısında baş əyirik", - deyə A.Məmmədov vurğulayıb.

Erməni vəhşiliyindən söhbət açan deputat doğulduğu Ağdaban kəndində törədilmiş soyqırımı hadisəsindən danışıb. Bildirib ki, erməni separatçıları tərəfindən törədilmiş qırğın nəticəsində 130 evdən ibarət kənd tamamilə yandırılıb. Kəndin 779 dinc sakininə müxtəlif işgəncələr verilib, 67 nəfər isə amansızlıqla qətlə yetirilib. Yaralarımızı saran və onları sağaldan Ordumuza, Müzəffər Ali Baş Komandana təşəkkür edən A.Məmmədov şəhidlərimizə rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayıb.

Zəfəri ilə regionda yeni reallıq yaradan Azərbaycanı irəlidə hələ daha böyük uğurların gözlədiyini qeyd edən deputat deyib: "Hazırda Qarabağda və Şərqi Zəngəzurda nəhəng bərpa-yenidənqurma işləri aparılır, infrastruktur yenidən qurulur, insanlarımız mərhələli şəkildə evlərinə qayıdırlar. Azərbaycanın ən yüksək dağ rayonu olan, gözəl təbiəti və zəngin faydalı qazıntı yataqları ilə fərqlənən doğma Kəlbəcərdə də hazırda genişmiqyaslı bərpa və infrastruktur işləri aparılır. Böyük əhəmiyyətə malik Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində inşa olunan 11,6 kilometrlik tunel regionun ən böyük logistik layihələrindən

biridir. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun uzunluğu 81 kilometr təşkil edir. Kəlbəcərdə inşa edilən tunellərin çətin relyefi olan ərazilər üçün əhəmiyyəti böyükdür.

İcra olunan layihələr mülki əhali, hərbçilər üçün, həmçinin müdafiə nöqteyi-nəzərdən mühüm əhəmiyyətə malikdir. Çətin relyefə malik Kəlbəcərin elektrik enerjisi ilə təmin olunması istiqamətində mühüm işlər görülür. 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyası, "Kəlbəcər-1", həmçinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su Elektrik stansiyaları artıq istifadəyə verilib".

A.Məmmədov vurğulayıb ki, dövlətimizin başçısının bölgələrə vaxtaşırı səfərləri, eyni zamanda, quruculuq işlərinə özünün şəxsən nəzarət etməsi dövlətin işğaldan azad olunmuş ərazilərə diqqət və qayğısının təcəssümüdür. Prezident İlham Əliyevin dəfələrlə Kəlbəcərə səfər etdiyini və mühüm obyektlərin açılışlarını həyata keçirdiyini diqqətə çatdıran deputat Prezident İlham Əliyevin avqustun 25-də birinci xanım Mehriban Əliyeva ilə birlikdə Kəlbəcər rayonunda "İstisu" mineral sudoldurma zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər ilə yaxından tanış olduğunu bildirib. Onun sözlərinə görə, 1991-ci ildə fəaliyyətini dayandıran "İstisu" mineral sudoldurma zavodunun yenidən tikilməsi ölkəmizin turizm imkanlarını artırmaqla yanaşı, həm də insanların iş yerləri ilə təmin olunması deməkdir.

"Təsadüfi deyil ki, Kəlbəcəri Azərbaycanın "qərb qapısı" adlandırırlar. Turizmin inkişafı üçün Kəlbəcərin gözəl təbiəti, əlverişli relyefi, zəngin mineral suları ölkəmizin iqtisadiyyatı üçün böyük əhəmiyyət daşıyır. Dövlətimizin başçısı işğaldan azad edilən bölgələrin, o cümlədən Kəlbəcərin də bərpası, yenidən qurulması və gələcək inkişafı üçün lazımi göstəriş, tapşırıq və tövsiyələrini verir. İnşallah, torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüzün tam bərpası kimi, Böyük Qayıdış konsepsiyası da tezliklə uğurla yerinə yetiriləcək. Dövlətimizin gücü və qüdrəti sayəsində tezliklə Kəlbəcərdə də həyat öz axarına düşəcək, insanlarımız doğma evlərinə qayıdacaqlar", - deyə Aqil Məmmədov fikirlərini yekunlaşdırıb.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**25 Noyabr – Kəlbəcər Şəhəri Günü münasibətilə tədbir keçirilib**

Azərbaycan Respublikasının işğaldan azad olunmuş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 21 iyul tarixli Sərəncamına əsasən, 25 Noyabr – Kəlbəcər Şəhəri Günüdür.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki bölmələrindən birində bu münasibətlə tədbir keçirilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər bildiriblər ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və uzaqgörən siyasəti sayəsində tarixi torpaqlarımız işğaldan azad olunaraq ərazi bütövlüyümüz tam təmin edilib. Kəlbəcər Şəhəri Gününün ölkəmizin hər bir yerində, o cümlədən azad edilmiş ərazilərimizdə böyük qürur və iftixar hissi ilə qeyd olunduğu xüsusi vurğulanıb.

Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəni əbədiləşdirmək məqsədilə belə tədbirlərin keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Tədbirdə hərbi qulluqçular Azərbaycan Ordusunda, xüsusilə azad olunmuş ərazilərdəki bölmələrdə xidmət etməkdən qürur duyduqlarını bildiriblər.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**Qarabağ Zəfərinin əbədiləşən tarixi: noyabrın 25-i Kəlbəcər Şəhəri Günüdür**



2020-ci il noyabrın 25-i Azərbaycan tarixinə Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, bu şanlı tarix Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

AZƏRTAC xəbər verir ki, bu gün Azərbaycanın dilbər guşələrindən olan Kəlbəcərin işğaldan azad edilməsindən üç il ötür. Qırx dörd günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Ordumuzun şanlı Zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa və əraziləri boşaltmağa məcbur etdi. Beləliklə, Kəlbəcər və Laçın rayonları, Ağdam rayonunun işğal altında qalan hissəsi bir güllə atılmadan mərhələli şəkildə Azərbaycana təhvil verildi. Üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi.




**Kəlbəcərdə erməni vəhşiliyinin izləri**

Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal olunmuşdu. İşğal nəticəsində 511 dinc sakin öldürülmüş, 321 nəfər əsir götürülmüş və itkin düşmüşdü.

İşğalçılar onlarla tarixi-mədəniyyət abidəsini, 97 məktəbi, 9 uşaq bağçasını, 116 kitabxananı, 43 klubu, 42 mədəniyyət evini, tarix-diyarşünaslıq muzeyini, 9 xəstəxananı, 75 tibb məntəqəsini, 23 ambulatoriyanı, 9 apteki, yüzlərlə inzibati binanı, minlərlə evi, çoxlu sayda texnikanı talan edib, dağıdıb və rayonun milyardlarla manatlıq sərvətini Ermənistana daşıyıblar.



Kəlbəcərdə erməni vəhşiliyinin izləri hər addımda görünür. Dağıntı və talanlar həm işğal dövründə, həm də 2020-ci ildə ermənilər rayondan çıxarkən davam etdirilib. İşğaldan azad olunan Kəlbəcərə səfər edən Prezident İlham Əliyev bu barədə danışarkən deyib: "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".



**Kəlbəcərdə üçrəngli bayrağımızın ucaldığı tarixi gün**

İkinci Qarabağ müharibəsinin ilk günlərində Kəlbəcərin şimal hissəsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunmuşdu. Murov dağının ərazisində və ətraf yerlərdə şiddətli döyüşlər nəticəsində strateji yüksəkliklərin götürülməsi həmin istiqamətdə erməni silahlı qüvvələrinin hərəkətlərini böyük dərəcədə məhdudlaşdırmağa imkan yaratdı. Əks-hücum əməliyyatının tərkib hissəsi olan bu əməliyyatların gedişində Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edildi, amma əksər hissəsi Ermənistan kapitulyasiya aktına imza atandan sonra azadlığına qovuşdu.




2021-ci il avqustun 16-da Prezident İlham Əliyev Kəlbəcər şəhərində Dövlət Bayrağını ucaltdı və çıxışında bu tarixi hadisənin əhəmiyyətindən bəhs edərək dedi: “Ermənilər 30 il ərzində bizim torpaqlarımızı ancaq istismar edirdi, təbii sərvətləri talayırdı, evləri dağıdırdı, sökürdü. Sonra da deyirdi ki, bura erməni torpağıdır. Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq. Düşməni torpağımızdan qovaraq, düşmən ordusunu məhv edərək, qəhrəmanlıq, fədakarlıq göstərərək qayıtmışıq”.



Kəlbəcər zəngin təbii sərvətləri və gözəl təbiəti olan diyardır. Rayonun əlverişli relyefi, saf dağ iqlimi, mineral suları, o cümlədən Yuxarı İstisu, Aşağı İstisu kimi müalicəvi təsirə malik mineral su yataqları burada turizmin inkişafı üçün geniş imkanlar yaradır.



Kəlbəcər həm də turistlərdə maraq yarada biləcək bir çox tarixi abidələrlə zəngindir. Burada 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərin yadigarlarıdır.



**Kəlbəcərə yenidən həyat qayıdır**

Otuz il əvvəl məcburi köçkünə çevrilərək respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmış kəlbəcərlilər doğma yurda qayıdacaqları günü gözləyirlər. Bu məqsədlə işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də geniş miqyaslı bərpa-quruculuq işləri aparılır. Həmin layihələr sırasında Toğanalı-Kəlbəcər avtomobil yolunun inşası xüsusi əhəmiyyət kəsb edir. Göygöl

və Kəlbəcər rayonlarını birləşdirən bu yolunun layihə uzunluğu 80,7 kilometrdir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın 2021-ci ilin avqustun 16-da Kəlbəcər rayonuna səfəri zamanı Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində - Murovdağda inşa olunacaq tunelin təməli qoyulub. Səfər çərçivəsində 110/35/10 kilovoltluq “Kəlbəcər” yarımstansiyasının açılışı olub. Həmçinin Kəlbəcər-Laçın avtomobil yolu üzərində 3,4 kilometr uzunluğundakı tunelin tikintisinə start verilib.




Ötən il iyunun 26-da Azərbaycan Prezidenti Kəlbəcər rayonunda yeni tikilmiş “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasının və Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin açılışlarında iştirak edib, Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub.




Həmin gün Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, rayondakı su istehsalı zavodunun, İstisu sanatoriyasının təməli qoyulub.




Kəlbəcər rayonuna səfəri çərçivəsində komando hərbi hissəsinə döyüş bayrağının verilməsinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu tədbirin xüsusi məna daşıdığını vurğulayıb: “Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır”.





Kəlbəcər rayonunda tikintisi gedən mühüm infrastruktur obyektlərindən biri də "İstisu" sanatoriyasıdır. Təməlqoyma mərasimində Azərbaycan Prezidentinin də iştirak etdiyi İstisu qəsəbəsində yeni gözəl mehmanxana və müalicə mərkəzi yaradılır.



Azərbaycan Prezidenti İlham Əliyev bu il mayın 27-də Kəlbəcər rayonuna səfəri çərçivəsində hərbi hospitalın, "Qamışlı" və "Meydan" Kiçik Su Elektrik stansiyalarının açılışlarında, yaşayış məhəlləsinin və 960 şagird yerlik məktəbin, həmçinin Yanşaq və Zallar kəndlərinin təməlqoyma mərasimlərində iştirak edib.




Bu il avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna daha bir səfər ediblər. Səfər çərçivəsində bir neçə kiçik su elektrik stansiyasının açılışı olub, Zar kəndinin təməli qoyulub.



Göründüyü kimi, Kəlbəcər rayonunda aparılan nəhəng quruculuq işləri bu diyarın gözəl gələcəyindən, azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın uğurlu perspektivindən xəbər verir.

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük Zəfərlə ərazi bütövlüyümüzün bərpa olunması, işğaldan azad edilmiş torpaqlarımızın iqtisadiyyata reinteqrasiyası ümumilikdə ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün yeni üfüqlər açır.

**AZƏRTAC**
**2023, 25 noyabr**

**Suqovuşan–Kəlbəcər–Ağdərə–Ağdam avtomobil yolunun yenidən qurulmasına 4,5 milyon manat ayrılıb – SƏRƏNCAM**

Prezident İlham Əliyev “Suqovuşan–Kəlbəcər (9 km)–Ağdərə–Ağdam avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, otuz üç kilometr uzunluğu olan Suqovuşan–Kəlbəcər (9 km)–Ağdərə–Ağdam avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 4,5 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

**AZƏRTAC**
**2023, 29 noyabr**

**Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolunun yenidən qurulmasına 17 milyon manat ayrılıb – SƏRƏNCAM**

Prezident İlham Əliyev "Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 80 kilometr uzunluğu olan Suqovuşan–Sərsəng su anbarı–Qozlukörpü–Kəlbəcər avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 17 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

**AZƏRTAC**
**2023, 4 dekabr**

**Türk şirkəti Kəlbəcər və Laçında 5 KSES-in yenidən qurulmasını həyata keçirəcək**

Gələn həftə Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) ilə Türkiyənin "Dəmirörən" Holdinqi Kəlbəcər və Laçında 5 kiçik su elektrik stansiyasının yenidən qurulmasına dair saziş imzalayacaqlar.

AZƏRTAC xəbər verir ki, bu barədə AİŞ-in icraçı direktoru Ülvi Mansurov dekabrın 21-də Bakıda keçirilən Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Azərbaycan-Türkiyə İnvestisiya Forumu çərçivəsində baş tutan "Azərbaycan Respublikasında investisiya qoyuluşu imkanları" panelində çıxışı zamanı bildirib.

O bildirib ki, hazırda AİŞ türk şirkətləri ilə daha üç layihə hazırlayır.

**AZƏRTAC**
**21 dekabr,2023**

**Kəlbəcər və Laçında 5 KSES-in bərpası üçün Türkiyənin iki şirkəti ilə müqavilə imzalanıb**

İşğaldan azad edilmiş ərazilərimizdə “yaşıl” enerji zonasının yaradılması istiqamətində növbəti layihə olan Kəlbəcər və Laçın rayonlarında 5 kiçik su elektrik stansiyasının bərpası və istismarı məqsədilə "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Türkiyənin "Demirören Yatırım Holding A.Ş." Şirkətlər Qrupu və "Arges Enerji Team" MMC arasında Birgə İştirak Müqaviləsi imzalanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib.

Nazir bildirib ki, dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində həyata keçirilən layihə yeni iş yerləri yaratmaqla bərabər, əhalinin Böyük Qayıdışının sürətləndirilməsinə, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı iqtisadi inkişafa və bərpa olunan enerji sahəsində yeni təcrübə və bacarıqların ötürülməsinə töhfələr verəcək.

**AZƏRTAC**
**27 dekabr,2023**

**“Azərişıq” Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir**

“Azərişıq” ASC işğaldan azad edilən bütün ərazilərimizdə, o cümlədən coğrafi quruluşuna görə ən çətin relyefə malik Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir.

ASC-dən AZƏRTAC-a bildirilib ki, Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və İdarəetmə Mərkəzinin, İstisu ərazisində 110/35 kV-luq yarımstansiyanın inşası, eləcə də 35 kV-luq xətlərin çəkilişi sürətlə aparılır. Ağqaya, Qamışlı və Mərcimək istiqamətində yenidənqurma işləri gedir. Qeyd edilən kəndlərdə yeni dayaqlar basdırılır və müasir tipli, izolyasiyalı kabel xətləri çəkilir. Rayonun şəhər ərazisindəki Qospitalda, həmçinin Cermux, Yellicə, Zəylik, İstisu, Zod, Zar, Yanşaq, Keşdək kəndlərində yerləşən mühüm obyektlərin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilişi işləri tam yekunlaşıb. Kəlbəcər rayonunda 2024-cü il ərzində yeni 110/35 kV-luq 2x25 MVA gücündə “Şəhər” yarımstansiyasının tikintisi və mövcud 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi, 110/35/10 kV-luq “Qamışlı” yarımstansiyasından çıxan 110 kV-luq mövcud hava xəttinin Kəlbəcər şəhəri ərazisindən İstisuya qədər olan hissəsinin 110 kV-luq iki dövrəli hava xətti ilə yenidən qurulması və Şəhərsalma planına əsasən rayonun Zallar, Yanşaq, Zar kəndlərinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulur.

Laçında rayonunda da böyük ölçüdə işlər görülüb. Hazırda Qorçu və Tiğik istiqamətində elektrik şəbəkələri yenilənir. Laçın şəhəri daxilində yeraltı xətlərin çəkilişi davam edir. Rayonun Şəlvə, Malıbəyli, Qaragöl, Cağazur və Minkənd kəndlərində yerləşən mühüm obyektlərin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilişi işləri tam yekunlaşıb. Hazırda Tiğik kəndinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq hava xəttinin çəkilişi davam edir. Laçın rayonunda 2024-cü il ərzində şəhər ərazisində yeni 35 kV-luq, Minkənd ərazisində 1 ədəd 35 kV-luq yarımstansiyaların tikintisi, bu yarımstansiyalar istiqamətində 35 kV-luq ÖİN xəttinin çəkilməsi və Şəhərsalma Planına əsasən rayonun Güləbird, Şəlvə, Qorçu qəsəbəsinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulur.

Ümumilikdə, görülən işlərin yekununda Kəlbəcərlə Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

**AZƏRTAC**
**10 yanvar 2024**

**UNICEF-in Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Kəlbəcər məktəbində olub**

BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Regina de Dominicis Kəlbəcər rayonu Aşıq Şəmşir adına 12 nömrəli tam orta məktəbdə şagird və müəllimlərlə görüşüb.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, görüşün keçirilməsində əsas məqsəd təhsil müəssisəsinin müəllim-şagird heyətinin diqqətini baş verə biləcək fövqəladə hallar zamanı davranış qaydalarının mənimsənilməsinə yönəltmək, onların partlayıcı hərbi sursat və mina təhlükəsinə qarşı bilik və bacarıqlarını təkmilləşdirməkdən ibarətdir.

Görüşdə Regina De Dominicis şagirdlərlə maarifləndirici söhbət aparıb, partlayıcı qurğuların törədə biləcəyi təhlükədən danışıb və onlara tövsiyələrini verib.

Şərqi Zəngəzur Regional Təhsil İdarəsinin müdiri Fuad Bədəlov "Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə" proqramı çərçivəsində görülmüş işlərdən danışıb.

Görüşdə "Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə" mövzusunda təqdimat da olub.

**AZƏRTAC**
**12 yanvar 2024**

**Kəlbəcər - qarlı və şaxtalı havaya baxmayaraq tikinti işləri davam edir - VİDEO**

Ölkəmizin bir çox bölgələri kimi Kəlbəcər rayonu da ağ örpəyə bürünüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, havanın qarlı və şaxtalı olmasına baxmayaraq rayonda tikinti-quruculuq işləri davam edir.

Kəlbəcərdən fotoları təqdim edirik.

**Tahir Ağaməmmədov**

**AZƏRTAC**
**14 yanvar 2024**

**https://video.azertag.az/site/video/197494**

**Toğanalı-Kəlbəcər avtomobil yolu qardan təmizlənir**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Toğanalı-Kəlbəcər avtomobil yolu və Ömər aşırımında yolların qardan təmizlənməsi işləri davam etdirilir.

AZƏRTAC agentliyə istinadla xəbər verir ki, xüsusi texnikalar vasitəsi ilə yol açıq saxlanılır, hərəkətin fasiləsizliyi və təhlükəsizliyi təmin olunur.

Sürücülərə yollarda diqqətli olmaları, şinləri zəncirlənmmiş nəqliyyat vasitələrindən istifadə etmələri tövsiyə olunur.

**AZƏRTAC**
**23 yanvar 2024**

**"Azərişiq" Kəlbəcərdə yenidənqurma işlərini davam etdirir**

"Azərişıq" ASC işğaldan azad edilən bütün ərazilərdə, o cümlədən Kəlbəcər rayonunda güclü yağan qar və şaxtaya baxmayaraq dəniz səviyyəsindən 3000 m-dən çox yüksəklikdə yenidənqurma işlərini və fasiləsiz xidməti davam etdirir.

ASC-dən AZƏRTAC-a verilən məlumata görə, qurumun əməkdaşları yağan qarın hündürlüyünün insan boyunu ötən ərazilərdə belə elektrik şəbəkəsinin transformatorlarını qardan təmizləyir, yeni quraşdırılan güc transformatorlarının işə salınması üçün tədbirlər görürlər.

Kəlbəcər rayonunun Zar-Zəylik kəndi ərazisində yerləşən 160 KVA-lıq transformatora gərginlik verilib, uçot komplekt qurulub və 0.4 kV-luq kabel çəkilib. Həmçinin Qarabağ RETSİ (Regional Enerji Təchizatı və Satışı idarəsi) Kəlbəcər elektrik şəbəkəsinin xidməti ərazisində yerləşən İstisu istiqamətində yeni çəkilmiş 35 kV-luq ÖİN (Özünüdaşıyan İzolyasiyalı Naqil) kabel xəttinə gərginlik verilib. Quraşdırılmış 160 KVA-lıq transformator montaj olunub və 0.4 kV-luq kabel xətti çəkilərək uçot komplekti quraşdırılıb.

"Azərişıq" ASC elektrik təsərrüfatının yenidən qurulması ilə bağlı işləri ölkənin bütün regionlarında paralel olaraq davam etdirir. Yaranan problemlərin mümkün qədər tez vaxtda aradan qaldırmağa çalışır.

**AZƏRTAC**
**26 yanvar 2024**

**Kəlbəcərdə silah-sursat tapılıb**

İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədilə profilaktiki tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Kəlbəcər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər zamanı rayon ərazisindəki müxtəlif yerlərdən 1 "RPQ" markalı pulemyot, 2 "Kalaşnikov" markalı avtomat, 3 avtomat darağı, 26 "F1" markalı əl qumbarası və 19 əl qumbarasının alışqanı aşkar edilib.

Tapılan silah-sursat aidiyyəti üzrə təhvil verilib.

**AZƏRTAC**
**26 yanvar 2024**

**Kəlbəcər, Laçın və Qubadlıda kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var**

Kəlbəcər, Laçın və Qubadlı rayonlarında kartof toxumçuluğunu inkişaf etdirmək üçün perspektivlər var. Düşünürük ki, yaxın gələcəkdə bu işləri həyata keçirmək üçün imkanlar yaranacaq.

Bunu AZƏRTAC-a açıqlamasında Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu Publik hüquqi şəxsin İdarə Heyətinin sədri Elmar Allahverdiyev deyib.

Onun sözlərinə görə, Arazboyu ərazilərdə bostançılıq, xüsusilə qarpız, yemiş əkinləri həyata keçirmək olar. Digər soyuq dağətəyi və dağlıq ərazilərdə isə tərəvəz bitkiləri - kələm, çuğundur və bu qəbilədən olan bitkilər əkmək məsləhətdir.

**AZƏRTAC**
**29 yanvar 2024**

**Kəlbəcərdə yollar qardan təmizlənib**

Qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq Kəlbəcər rayonuna yağan qar nəticəsində müxtəlif təyinatlı yollarda hərəkətin təhlükəsizliyi və fasiləsizliyində yaranan problemlərin aradan qaldırılması üçün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən tədbirlər görülüb, yollar qardan təmizlənib.

Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, bütün yolboyu təhlükəsiz və fasiləsiz hərəkət təmin olunub.

**AZƏRTAC**
**30 yanvar 2024**

**Kəlbəcər rayon məktəbinin şagirdlərinə mina və partlamamış hərbi sursatların təhlükəsi barədə məlumat verilib**

Kəlbəcər rayon 99 nömrəli tam orta məktəbinin müraciəti əsasında Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) təlimatçıları tərəfindən 23 nəfər şagird heyəti üçün partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə təlimi keçirilib. Orta məktəbin "Təhlükəsiz Böyük Qayıdış" layihəsi çərçivəsində həyata keçirilən təlimlərin məqsədi işğaldan azad edilmiş ərazilərə köçürülməsi nəzərdə tutulan məcburi köçkün olmuş ailələrdə yaşayan şagirdlərin mina və partlamamış hərbi sursatların təhlükəsi barədə məlumatlılığının təmin edilməsidir.

ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, maarifləndirmə proqramı çərçivəsində şagirdlərə mina təhlükəsinin izahı, müxtəlif növ hərbi sursat və minaların vizual olaraq tanınması, onların vurduğu ziyan, tanımadıqları ərazilərdə davranış qaydaları, eləcə də mina xəbərdaredici işarələrin göstəriciləri barədə məlumat verilib. Təlimlər zamanı iştirakçılara xəbərdaredici və maarifləndirici qaydalar əks olunan broşurlar paylanılıb.

Partlayıcı sursatların təhlükəsinə dair maarifləndirmə biliklərinə yiyələnən şagirdlər təlim zamanı əldə etdikləri bilikləri öz həmyaşıdları və yaxınları ilə bölüşərək, maarifləndirmə təbliğatına dəstək olacaq, mina hadisələrinin qarşısının alınmasında öz töhfələrini verəcəklər.

**AZƏRTAC**
**6 fevral 2024**

**Laçın və Kəlbəcərdə üç yaşayış məntəqəsinin yenidən qurulmasına başlanılır**

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda 1 qəsəbənin (Qorçu) və Kəlbəcər rayonunda 2 kəndin (Çaykənd, Qamışlı) yenidənqurma layihəsi üzrə müqavilələr imzalanıb.

Bu barədə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-ın bölgə müxbirinə məlumat verilib.

Bildirilib ki, "Azərdövlətsənaye" Dövlət Layihə İnstitutu ilə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti arasında Kəlbəcər rayonunun Çaykənd və Qamışlı kəndlərinin yenidən qurulması işlərində layihələndirmə işinin hazırlanmasının satınalmasına dair müqavilələr bağlanıb. Həmçinin “Azərmemarlayihə” Dövlət Baş Layihə İnstitutu ilə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti arasında Laçın rayonunun Qorçu qəsəbəsinin tikintisi layihəsinin hazırlanması dair satınalma müqaviləsi bağlanılıb.

Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru vəzifəsini icra edən Fəxrəddin Verdiyevin sözlərinə görə, müqavilələr qeyd olunan yaşayış məntəqələrində minə yaxın fərdi evin, tam orta məktəblərin, uşaq bağçalarının və digər ictimai obyektlərin layihələndirmə işlərinin satınalınmasını əhatə edir.

**Aydın Yavərzadə**

**AZƏRTAC**
**13 fevral 2024**

**Ermənistan silahlı qüvvələrinin pilotsuz uçuş aparatı geri qayıtmağa məcbur edilib - VİDEO**

Fevralın 14-ü saat 12:25-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Milli Ordunun Kəlbəcər rayonunun İstibulaq yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kvadrokopterlə kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, bölmələrimizin sayıqlığı nəticəsində pilotsuz uçuş aparatı geri qayıtmağa məcbur edilib, təxribatın qarşısı alınıb.

**AZƏRTAC**
**14 fevral 2024**

https://video.azertag.az/site/video/200689

## İşğaldan azad edilmiş ərazilərdə müasir hidrometeoroloji stansiyalar qurulub

Hidrometeoroloji şəbəkənin bərpası üzrə işğaldan azad edilmiş ərazilərdə yerüstü su ehtiyatlarının qiymətləndirilməsi məqsədilə 10 çay (Araz, Bəsitçay, Oxçuçay, Həkəriçay, Barguşadçay, Zabuxçay, Tutqunçay, Tərtərçay, Kircələnçay, Quruçay) üzərində 11 avtomat hidroloji stansiya yaradılıb və həmin stansiyalardan mütəmadi qaydada məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

AZƏRTAC xəbər verir ki, bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Əkbər Əsgərov "Qarabağ bölgəsində su kanalizasiya infrastrukturunun yenidən qurulması" adlı tədbirdə çıxışı zamanı bildirib.

Rəis müavini qeyd edib ki, "İşğaldan azad edilmiş ərazilərdə meteoroloji müşahidələrin öyrənilməsi" layihəsi çərçivəsində Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında bütün lazımi sensorlarla təchiz edilmiş 5 avtomat meteoroloji stansiya quraşdırılıb və həmin stansiyalardan mütəmadi qaydada daxil olan məlumatlar Milli Hidrometeorologiya Xidmətinin Situasiya mərkəzinə ötürülərək təhlil olunur.

“Proqramın icrası çərçivəsində 1 dast dopler hava radarının və 1 dəst aeroloji stansiyanın quraşdırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə tədqiqat işləri aparılıb. Həmin stansiyaların 2024-cü ildə quraşdırılması nəzərdə tutulur. Bu stansiyaların fəaliyyət göstərməsi regionun iqlim şəraitinin qiymətləndirilməsinə, əldə olunan məlumatların kəmiyyət və keyfiyyətinin, meteoroloji proqnoz və xəbərdarlıqların dəqiqliyinin alınmasına və həmin ərazilərdə fəaliyyəti nəzərdə tutulan sahələrdə drometeoroloji xidmət səviyyəsinin artırılmasına imkan verir”, - deyə Əkbər Əsgərov vurğulayıb.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Direktor müavini: Azad edilən ərazilərdə 218 kilometr su xətti çəkilib**

İşğaldan azad edilən ərazilərdə 218 kilometr su xətti çəkilib. Bu il Ağdam, Cəbrayıl, Kəlbəcər şəhərində layihələrin icrasına başlanılacaq. Həkəriçay, Bərgüşadçay su anbarlarının layihə smeta sənədləri hazırlanacaq.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Tikilməkdə olan obyektlərin müdiriyyətinin direktor müavini Fuad Abışev “Qarabağ bölgəsində su və kanalizasiya infrastrukturunun yenidən qurulması” mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib.

O qeyd edib ki, hazırda işğaldan azad edilən ərazilərdə su ehtiyatlarının bərpası ilə bağlı təxirəsalınmaz tədbirlər görülür.

**AZƏRTAC**
**2024, 21 fevral**

**Kəlbəcər istiqamətində mövqelərimiz yenidən atəşə tutulub - VİDEO**

Kəlbəcər istiqamətində mövqelərimiz yenidən atəşə tutulub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 24-ü saat 12:45-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.

**AZƏRTAC**
**2024, 24 fevral**

https://video.azertag.az/site/video/201677

**Keçmiş məcburi köçkünlərin 95 faizi doğma yurd-yuvasına qayıtmaq niyyətindədir – Sorğu**

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan Diplomatiya Akademiyası İnkişaf və Diplomatiya İnstitutu, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu tərəfindən "Əhalinin geri qayıdışının və ərazilərə inteqrasiyasının təmin edilməsi məqsədilə məcburi köçkünlər arasında sosioloji sorğunun keçirilməsi və ilkin proqnozların hazırlanması" layihəsi həyata keçirilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mətbuat xidməti departamentindən AZƏRTAC-a bildiriblər ki, layihənin Dövlət Komitəsində təşkil olunmuş təqdimatında onun məqsəd və məramı barədə ətraflı məlumat verilib. Layihənin koordinatoru Rəsmiyyə Abdullayeva diqqətə çatdırıb ki, sorğu zamanı məcburi köçkünlərin qayıdışla bağlı arzu və təklifləri öyrənilib, onların doğma yurda dönüş barədə qərarlarına təsir edən amillər müəyyənləşdirilib, ilkin proqnozlar hazırlanıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramı Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma, iqtisadi dirçəliş üçün bütün zəruri şəraitin yaradılmasını nəzərdə tutur. Hazırda Dövlət Proqramının Tədbirlər Planı üzrə intensiv iş aparılır, qayıdış prosesi uğurla davam etdirilir.

Layihə çərçivəsində "fokus-qrup" sorğular tədqiqatın əsas metodu kimi seçilib. Sorğulara Şuşa, Qubadlı, Ağdam, Kəlbəcər, Laçın, Zəngilan, Cəbrayıl, Xocavənd, Xocalı və Füzulidən olan 170 respondent cəlb olunub.

Sorğu zamanı keçmiş məcburi köçkünlərin 95 faizinin öz doğma yurd-yuvasına qayıtmaq niyyətində olduğu bir daha təsdiqlənib.

Dövlət Komitəsinin məsul əməkdaşlarının iştirakı ilə keçirilən təqdimatda tədqiqatın nəticələri geniş müzakirə edilib, rəy və təkliflər bildirilib. Tədqiqata dair yekun hesabatda bunların nəzərə alınacağı bildirilib.

**AZƏRTAC**
**2024, 13 mart**

**Kəlbəcərdə silah-sursat aşkarlanıb**

Kəlbəcər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə rayon ərazisindən 2 avtomat, 1 ədəd “Karabin”, 1 ədəd tank əleyhinə raket, 12 ədəd minaatan mərmisinin başlığı, 1 ədəd əl qumbarası və çoxlu sayda müxtəlif çaplı patron aşkar olunub.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**
**2024, 21 mart**

**Kəlbəcərdə əl qumbaraları aşkarlanıb**

Kəlbəcər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə Kəlbəcər rayonu Qozlu kəndi ərazisindən 14 ədəd “F-1” əl qumbarası və partlayıcı başlıqlar aşkar olub.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, partlayıcı sursatlar təhlükəsizlik tədbirlər görülərək ərazidən götürülüb.

**AZƏRTAC**
**2024, 28 mart**

**Kəlbəcər və Ağdərədə ermənilərin tərk etdiyi mövqelərdə 8 ədəd zenit topu aşkarlanıb – VİDEO**

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinə məxsus döyüş texnikası, silah və sursatın aşkar edilərək ərazidən təxliyə edilməsi üzrə tədbirlər davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Kəlbəcər rayonunun Vəng və Ağdərə rayonunun Vəngli yaşayış məntəqələri ərazilərinə baxış zamanı düşmənə məxsus tərk edilmiş atəş mövqelərində 8 ədəd KS-19 zenit topu aşkarlanıb.

Döyüş texnikası təhlükəsizlik qaydalarına riayət olunmaqla toplama məntəqəsinə daşınıb.

**AZƏRTAC**
**2024, 30 mart**

**https://video.azertag.az/site/video/204121**

**DİN: Kəlbəcərdə artilleriya qurğuları və sursat aşkar edilib**

Kəlbəcər rayonunda artilleriya qurğuları və sursat aşkarlanıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, rayon polis şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlərlə Kəlbəcər rayonunun Çaparlı kəndi ərazisindən 2 ədəd “KS-19” zenit silahları və Həsənriz kəndi ərazisində çoxlu sayda müxtəlif çaplı patron və avtomat daraqları aşkar olub.

**AZƏRTAC**
**2024, 30 mart**

**Kəlbəcərin müdafiəsi zamanı hərbçilərin, helikopterçilərin və kəlbəcərli igidlərin qəhrəmanlığı mülki əhalini soyqırımı təhlükəsindən xilas etmişdi**

Aprelin 2-də Azərbaycan Hərb Tarixi Muzeyində “1993-cü ilin mart-aprel aylarında 701 saylı hərbi hissənin helekopterçiləri və könüllüləri Kəlbəcərin müdafiəsində" adlı elmi seminar keçirilib.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, veteran təşkilatlarının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olan qəhrəmanlarımızın ruhu bir dəqiqəlik sükutla anılıb.

Vətən Müharibəsi İctimai Birliyinin Kəlbəcər rayon şöbəsinin sədri Ramiz Əliyevin, Xüsusi təyinatlı şəhid kapitan Türkay Hüseynlinin atası şair Nizami Hüseynovun, Abşeron rayon Veteranlar Şurasının sədr müavini Sahib Əsgərovun, Daxili İşlər Nazirliyinin əməkdaşı Mehriban Abdullayevanın, Şəhid Ailələrinə Qayğı Cəmiyyətinin sədr müavini Nizami Abbasovun, 701 saylı hərbi hissənin sabiq qərargah rəisi Aydın Şiriyevin və digərlərinin çıxışları dinlənilib, mövzu ətrafında müzakirələr aparılıb.

Muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qəni-zadə tədbirdə çıxış edərək 701 saylı hərbi hissənin helekopterçiləri və könüllülərinin Kəlbəcərin müdafiəsi zamanı göstərdikləri qəhrəmanlıqlar və döyüş yolundan bəhs edib. O bildirib ki, 1993-cü ildə ermənilər tərəfindən Kəlbəcər rayonunun işğalı daha əvvəllər olduğu kimi ağrılarla yad edilmir. Şanlı Ordumuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində tutarlı Zəfər çaldı. 1993-cü ildə Kəlbəcərin müdafiəsi zamanı mərd hərbçilərin, cəsur helikopterçilərin və kəlbəcərli igidlərin göstərdiyi qəhrəmanlıq nümunələri mülki əhalini soyqırımı təhlükəsindən xilas etmişdi.

Diqqətə çatdırılıb ki, Kəlbəcərin işğalının obyektiv səbəblərinin təhlili əsl həqiqətləri ortaya qoyur. 1993-cü il mart-aprel aylarında Ermənistanla Dağlıq Qarabağ arasında mühasirə şəraitində düşmənlə üz-üzə qalan Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələri və Qarabağda olan separatçı qüvvələr tərəfindən işğal olundu. 60 min dinc əhali öz doğma torpağından didərgin salındı. Onlarla günahsız mülki şəxs öldürüldü, itkin düşdü. Kəlbəcərlilərin xilasına özünü çatdıran 701 saylı hərbi hissə və yerli könüllü döyüşçülər qeyri-bərabər savaşda qəhrəmanlıq göstərdilər.

Düşmən Kəlbəcərin mülki əhalisini ələ keçirsəydi, misilsiz qətliam baş verə bilərdi. Bəlkə də, Xocalı faciəsindən daha dəhşətli soyqırımına məruz qalardı. Laçın rayonundan Kəlbəcər rayonuna özünü çatdıran 701 saylı hərbi hissənin 2 taboru, Kəlbəcər könüllüləri, həmçinin ön atəş xəttinə gətirilən əsgərlər qəhrəmanlıq göstərərək yerli əhaliyə xilas olmaq imkanı yaratdılar.

Xatırladılıb ki, 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Prezidentinin diplomatik məharəti, prinsipiallığı, dəmir iradəsi və Ordumuzun şanlı Zəfəri Ermənistanı kapitulyasiya aktını imzalamağa və əraziləri boşaltmağa məcbur etdi. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin imzaladığı birgə Bəyanata əsasən 2020-ci il noyabrın 25-də Kəlbəcər rayonu Ermənistan ordusu tərəfindən boşaldıldı. Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi.

Tədbirin sonunda sənədli film və hərbi-vətənpərvərliklə bağlı mahnılar səsləndirilib.

**AZƏRTAC**
**2024, 2 aprel**

**İşğaldan azad edilmiş ərazilərin sakinləri üçün peşə hazırlığı kursları təşkil olunur**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün aktiv məşğulluq proqramlarını davam etdirir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, həmin proqramların bir istiqaməti olaraq, Agentlik:

- Laçın şəhəri və Laçının Zabux, Sus, Bəylik, Güləbird kəndləri,
- Şuşa şəhəri və Şuşanın Turşsu qəsəbəsi,
- Füzuli şəhəri və Füzulinin Dövlətyarlı kəndi,
- Zəngilan şəhəri və Zəngilanın Ağalı, Cahangirbəyli kəndləri,
- Cəbrayıl şəhəri və Cəbrayılın Horovlu, Şükürbəyli kəndləri,
- Kəlbəcər şəhəri,
- Xocalı şəhəri və Xocalının Malıbəyli kəndi,
- Xankəndinin Kərkicahan qəsəbəsi,
- Qubadlının Mahruzlu, Zilanlı kəndləri,
- Ağdərənin Talış, Suqovuşan, Umudlu kəndləri,
- Ağdamın Xıdırlı, Kəngərli, Sarıcalı kəndləri,
- Xocavəndin Xocavənd kəndi üzrə peşə hazırlığı kursları təşkil edir.

Peşə kurslarına həmin yaşayış məntəqələrinə artıq köçürülmüş, habelə bu il ərzində köçürülməsi nəzərdə tutulan işsiz və ya işaxtaran şəxslər müraciət edə bilərlər.

Kənd təsərrüfatı, tikinti, sənaye, xidmət sahələrinə aid peşələr üzrə təşkil olunan kurslarda iştirak etməklə əmək bazarının tələblərinə uyğun peşələrə yiyələnmək və həmin peşələr üzrə işlə təmin olunmaq imkanına yiyələnmək mümkündür.

Peşə hazırlığı kurslarına, DOST mərkəzlərinə, məşğulluq filiallarına müraciət edərək və ya "sosial.gov.az" saytındakı "Qarabağ və Şərqi Zəngəzurda peşə hazırlığı" bölməsindəki linkə daxil olaraq müvafiq formanı doldurmaqla qeydiyyatdan keçmək olar.

Kursların müddəti 6 aya qədərdir və iştirak ödənişsizdir.

Peşə hazırlığı kursları işğaldan azad edilmiş digər ərazilərin sakinləri üçün də təşkil olunacaq.

**AZƏRTAC**
**4 aprel, 2024**

**Ağdaban kəndinin qəbiristanlığında minalanmış sahə aşkarlanıb – VİDEO**

Azərbaycanın Qarabağ bölgəsində əraziyə baxış zamanı Kəlbəcər rayonunun Ağdaban kəndi ərazisindəki qəbiristanlıqda minalanmış sahə aşkarlanıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ərazidə POMZ-2M tipli piyada əleyhinə minaların məftil çəkmə üsulu ilə qurulduğu müəyyənləşdirilib.

Qeyd edək ki, bu tip minalar dairəvi şəkildə məhvetmə radiusuna malikdir və üzərindəki qəlpələrin parçalanması ilə ciddi fəsadlar yaradır.

Mülki şəxslərə və hərbi qulluqçulara qarşı təxribat törətmək məqsədilə qurulan minalar Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən təhlükəsizlik qaydalarına riayət edilməklə zərərsizləşdirilib və ərazidən müsadirə olunub.

Azad edilmiş ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə fəaliyyətlər davam etdirilir.

**AZƏRTAC**
**5 aprel, 2024**

**https://video.azertag.az/site/video/204579**

**İtaliya saytı Azərbaycanın işğaldan azad etdiyi ərazilərdəki mina problemindən yazıb**

İtaliyanın “Kmetro0” informasiya agentliyi Azərbaycanın işğaldan azad olunan ərazilərindəki mina problemi ilə bağlı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Mina Xəbərdarlığı və Minatəmizləmə Fəaliyyətinə Yardım Günü ilə əlaqədar yayımlanan materialda Azərbaycanın Ermənistanın 30 ilə yaxın müddət ərzindəki işğal dövründə və müharibədən sonrakı illərdə mina problemindən ən çox əziyyət çəkən ölkə olduğu bildirilir. Mina terrorunun çoxlu sayda azərbaycanlının ölümünə səbəb olduğu, münaqişədən sonrakı dövrdə 350-dək insanın mina və digər partlayıcı qurğuların qurbanına çevrildiyi bildirilir.

Yazıda hazırda Azərbaycanın Ermənistan tərəfindən minalarla çirkləndirilən ərazilərində bu təhlükə mənbəyi ilə ciddi mübarizə aparıldığı vurğulanır. Bildirilir ki, Qarabağdakı mina təhlükəsi münaqişədən sonrakı dövrdə də Azərbaycan vətəndaşlarının həyatı və sağlamlığı üçün böyük təhlükə mənbəyi olaraq qalır. Bu, həmçinin bölgədə bərpa və yenidənqurma işlərinə, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtmasına mane olur.

Qeyd olunur ki, 44 günlük Vətən Müharibəsi və münaqişə başa çatdıqdan sonra da Ermənistan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq Laçın yolundan qeyri-qanuni məqsədlər, o cümlədən mina təhlükəsini davam etdirmək üçün sui-istifadə edib. Bu fakt 2022-ci ildə, Laçın və Kəlbəcər rayonlarında Ermənistanda 2021-ci ildə istehsal olunmuş 2700-dən çox piyada əleyhinə mina aşkarlanarkən təsdiqini tapıb. 2023-cü ilin sentyabrında Azərbaycanın apardığı antiterror tədbirlərindən sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərdə və onun perimetrləri boyunca yerləşdirilmiş 500 mindən çox minanın aşkarlanması bu təhlükənin miqyasını nümayiş etdirən sübutlardandır. Bu, eyni zamanda, Ermənistanın son onilliklərdə guya mina istehsal və ixrac etməməsi ilə bağlı iddialarının da tamamilə əsassız olduğunu sübuta yetirib.

Vurğulanır ki, Azərbaycan Ermənistanı həmin təhlükəyə son qoymaq üçün mina xəritələri verməyə çağırsa da, bu ölkə uzun müddətdir ki, belə xəritələrin mövcudluğunu inkar edir. Bununla belə, beynəlxalq ictimaiyyətin təzyiqindən sonra verilən və minaların basdırıldığı ərazilərin kiçik hissəsini əhatə edən məlumatların etibarlılığı isə cəmi 25 faiz təşkil edib. Son mina hadisələrinin 55 faizdən çoxu verilən məlumatın əhatə etdiyi ərazilərdən kənarda baş verib. Ermənistanın mina təhlükəsi ilə bağlı davranışı regionda münaqişədən sonrakı dövrdə qəbul edilmiş sülh və etimadın möhkəmləndirilməsi tədbirlərinə növbəti maneədir. Azərbaycan bir daha beynəlxalq ictimaiyyəti Ermənistanın mina təhlükəsini pisləmək üçün ardıcıl tədbirlər görməyə, bu ölkə tərəfindən mina xəritələrini təqdim etməyə və mina təhlükəsinin aradan qaldırılmasına dəstək verməyə çağırır.

**Nihad Budaqov**
**AZƏRTAC-ın xüsusi müxbiri**

**Roma**

**AZƏRTAC**
**5 aprel, 2024**

**Müdafiə Nazirliyi: Ötən sutka ərzində mövqelərimiz 30 dəfə atəşə tutulub – VİDEO**

Aprelin 5-i saat 21:55-dən 23:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsürskənd, Basarkeçər rayonunun Aşağı Şorca, Yuxarı Şorca, Günəşli və Gorus rayonunun Ərəvus yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Əlibəyli, Daşkəsən rayonunun Xoşbulaq, Kəlbəcər rayonunun Yellicə, Zəylik və Laçın rayonunun Çağazur yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bu barədə AZƏRTAC-a Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, ötən sutka ərzində Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri ümumilikdə 30 dəfə atəşə tutulub.

**AZƏRTAC**
**6 aprel, 2024**

https://video.azertag.az/site/video/204619

**Azad olunmuş rayonlarda quduzluğa qarşı peyvəndləmə tədbirləri görülüb**

Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş Qubadlı, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazisində quduzluğa qarşı vəhşi ətyeyən heyvanlar və sahibsiz itlərdə oral immunizasiya tədbirləri həyata keçirib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, əməkdaşlar birdəfəlik geyim, fərdi mühafizə dəstləri və avadanlıqlarla təmin olunublar. Oral immunizasiyanın aparılmasında əsas məqsəd xəstəliyin yayılmasının qarşısının alınması, epizootoloji sabitliyin qorunması məqsədilə xəstəliyin təbii rezervuarında yayılma zənciri qırılmasıdır. Proses çərçivəsində meşəlik və dağlıq ərazilərə tərkibində quduzluq xəstəliyinə qarşı peyvənd vasitəsi olan aldadıcı yemlər atılıb. Aldadıcı yem ətyeyən heyvanlar üçün cəlbedici iyə malik olan xüsusi tərkibə malik briketlərdir. Heyvanlar onu yedikdə onlarda quduzluq xəstəliyinə qarşı immunitet yaranır.

Oral immunizasiyanın ölkə ərazisində yaz və qış mövsümləri olmaqla ildə iki dəfə keçirilməsi nəzərdə tutulur. Növbəti tədbir Ağdam, Xocalı, Xocavənd, Ağdərə, Zəngilan rayonları ərazisində həyata keçiriləcək.

Hazırda ölkədə epizootoloji sabitliyin qorunması istiqamətində "Epizootiya əleyhinə profilaktika və diaqnostika tədbirlər planı"na uyğun olaraq profilaktiki tədbirlər davam etdirilir.

Qeyd edək ki, peyvənd ev heyvanları, kənd təsərrüfatı və vəhşi heyvanlar üçün zərərsizdir. Bir neçə ədəd aldadıcı yemin yeyilməsi ağırlaşmalara səbəb olmur. Peyvəndin müalicəvi xüsusiyyəti yoxdur və yalnız immunitet yaradır. Briketlər vəhşi heyvanların yaşayış areallarına yaxın hərəkət çığırlarına, sahibsiz itlər üçün isə onların populyasiyalarına uyğun yerlərə atılır.

Xatırladaq ki, quduzluq xəstəliyinə bütün növ ev və kənd təsərrüfatı heyvanları, vəhşi heyvanlar, eləcə də insanlar həssasdır. İnsanlar əsasən xəstə heyvanlarla təmas nəticəsində (dişləmə, tüpürcək, nadir hallarda göz və burunun selikli qişası) yoluxurlar. Xəstəliyin simptomları göründükdən sonra həm heyvanlar, həm də insanlar üçün ölümcül olur. Virusun təbiətdə daima vəhşi heyvanlar arasında mövcudluğu, xəstəliyin əlamətsiz keçməsi onların rezervuar kimi təhlükəliliyinin əsas əlamətlərini təzahür edir. Bu xəstəlik Ümumi Dünya Heyvan Sağlamlığı Təşkilatının zoonoz xəstəliklər siyahısında ilk onluqda yerləşir.

**AZƏRTAC**
**6 aprel, 2024**

**Azərbaycan Ordusunun mövqeləri 16 dəfə atəşə tutulub**

Aprelin 6-sı saat 18:30-dan 22:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək, Basarkeçər və Gorus rayonlarının Cil, Günəşli və Xoznavar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Gədəbəy, Kəlbəcər və Laçın rayonlarının Əyrivəng, Cəmilli və Hacılar yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini ümumilikdə 16 dəfə olmaqla, müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qeyd olunan bütün istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

**AZƏRTAC**
**7 aprel, 2024**

**Ağdaban ictimaiyyəti və Azərbaycanın QHT təmsilçiləri beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb**

Ağdaban ictimaiyyəti və Azərbaycanın QHT təmsilçiləri beynəlxalq ictimaiyyətə açıq məktubla müraciət ediblər.

AZƏRTAC xəbər verir ki, məktubda deyilir:

"Biz - 1992-ci il aprelin 7-8-də Kəlbəcərin Ağdaban kəndində Ermənistanın hərbi birləşmələrinin soyqırımına məruz qalan dinc azərbaycanlı sakinlər, kütləvi qırğının canlı şahidləri, həmin hadisədə ailə üzvlərini, doğmalarını, evlərini itirən şəxslər və Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri olaraq, sizə Açıq Məktubla müraciət edərək ədalət tələb edirik!

Xocalı soyqırımının ardınca – 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Kəlbəcərin Ağdaban kəndində Ermənistan tərəfindən dinc əhaliyə qarşı törədilən kütləvi qırğın zamanı 130-dan çox ev yandırılıb, 779 nəfər kənd sakininə divan tutulub. Faciə zamanı 32 nəfər amansızcasına qətlə yetirilib, 8 nəfər qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılıb. 2 nəfər itkin düşüb, 5 nəfər isə girov götürülüb.

Faciə zamanı Azərbaycan aşıq yaradıcılığının görkəmli nümayəndələri - Aşıq Şəmşirin və onun atası Ağdabanlı şair Qurbanın əlyazmaları, külliyyatı məhv edilib, Aşıq Şəmşirin nəvəsi diri-diri tonqalda yandırılıb.

Bu gün biz doğma torpağımızda – Ağdabandayıq. Biz Sizə işğal dövründə Ermənistan tərəfindən tamam viran edilmiş, dağıdılmış kənddən müraciət edirik. Burada Aşıq Şəmşirin məzarı daxil olmaqla, kənd qəbiristanlığındakı məzarlar dağıdılıb, qəbiristanlıqlar minalanıb. İşğal dövründə Ermənistan Azərbaycan ərazisində məscidləri uçurub, içərisində donuz, mal-qara saxlayıb, onlarla məscidi yerlə-yeksan edib. Bu, heç bir dinə, mənəviyyata sığmayan vandalizm aktıdır.

Azərbaycanın işğal edilmiş ərazilərində törədilən soyqırımı aktları, cinayətlərin nəticəsidir ki, bu gün azad edilmiş ərazilərdə onlarla kütləvi məzarlıqlar aşkarlanmaqdadır.

Fransanın, Avropa İttifaqının Avropa sülh mexanizmi adı altında Ermənistanı silahlandırması, revanşizmin baş qaldırmasına hər cür dəstək verməsi bizi hiddətləndirir. Biz bu hərəkətləri, ərazi bütövlüyü məsələsinə ikili standartlarla yanaşmaları qəbul etmir, bu addımları Azərbaycan xalqına və dövlətinə qarşı fəaliyyət hesab edirik!

Biz yaxşı bilirik ki, Ağdaban soyqırımı da Xocalıda, Meşəlidə, Quşçularda, Malıbəylidə, Qaradağlıda, Ballıqayada, Başlıbeldə olduğu kimi Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü zamanı doğma torpağının müdafiəsinə qalxmış xalqımızı sarsıtmaq, onun mübarizə əzmini qırmaq, etnik təmizləmə aparmaq məqsədilə törədilib.

Ötən dövr, 2020-ci ildəki 44 günlük müharibə, 2023-cü ilin 19-20 sentyabr antiterror əməliyyatı da göstərdi ki, bütün bunlar Azərbaycan xalqının mətin iradəsini sındıra bilmədi.

Biz Ağdaban icması və Azərbaycanın vətəndaş cəmiyyətinin təmsilçiləri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevlə qürur duyuruq. Onun qətiyyətli siyasəti, müdrik liderliyi nəticəsində Azərbaycan BMT qətnamələrini təkbaşına icra etdi, respublikasının ərazi bütövlüyü və suverenliyi tam təmin olundu, Azərbaycan xalqı ən böyük arzusuna çatdı. Biz Prezident İlham Əliyevin siyasətini tam müdafiə edir və alqışlayırıq!

İmzalar:

Xəlifə Hüseynov - Ağdaban sakini
Dürrə Qurbanova - Ağdaban sakini
Əliqulu Alıyev - Ağdaban sakini
Bəhman Bağırov - Ağdaban sakini
Rafiq Məhərrəmov - Ağdaban sakini
Zahid Hümbətov - Ağdaban sakini
Nəsimi Səfərov - Ağdaban sakini
Şahin Əhmədov - Ağdaban sakini
Saləddin Kərimov - Ağdaban sakini
Reyhan Qasımova - Ağdaban sakini

Təbriz Alıyev - Ağdaban sakini
Leyla Hüseynova - Ağdaban sakini
Sabay Orucov - Ağdaban sakini
Əzim Hüseynov - Ağdaban sakini
Sərvan Səfərov - Ağdaban sakini
Eyvaz Orucov - Ağdaban sakini
Tapdıq Qasımov - Ağdaban sakini
Yaşar Məmmədov - Ağdaban sakini
Ərşad Qaraşov - Ağdaban sakini
Qiyas Alıyev - Ağdaban sakini
Azər Bayramov - Ağdaban sakini
Gülarə Hüseynova - Ağdaban sakini
Qabil Məmmədov - Ağdaban sakini
Saməddin Vəliyev - Ağdaban sakini
Sevinc Alızadə - "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi
Ramil İskəndərli - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai birliyi
Könül Behbudova - "Qarabağ İtkin Ailələri" İctimai Birliyi
Ayşən Hüseynova - "Soyqırımı Həqiqətlərinin Tanıdılması" İctimai Birliyi
Səriyyə Cəfərova - "Erməni təcavüzünün tanıdılması" İctimai Birliyi
Xalid Kazımov - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyi
Ceyran Əzizova - "Xocalı Soyqırımını Tanıtma" İctimai Birliyi
Naibə Behbudova - "Qürur" Şəhid Ailələri Xeyriyyə İctimai Birliyi
Tünzalə Abduləlimova - "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi
Ceyran Həsənova - "Şəhid Analarına Dəstək" İctimai Birliyi
Rəşad Mehdiyev - "Gilavar Foto Klubu" İctimai Birliyi".

**AZƏRTAC**
**7 aprel, 2024**

**Ağdaban faciəsindən 32 il ötür**

Bu gün Ağdaban faciəsindən 32 il ötür.

AZƏRTAC faciə ilə bağlı bəzi məqamlara nəzər salır.

1992-ci il aprelin 7-dən 8-nə keçən gecə erməni silahlıları tərəfindən Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə yandırılıb və yer üzündən silinib. Kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilib, 67 nəfər qətlə yetirilib, 8 nəfər 90 -100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri yandırılıb.

Ermənilərin mədəni irsimizə qarşı törətdikləri vandalizm siyasətinin davamının daha bir təzahürü kimi şair Ağdabanlı Qurbanın və klassik aşıq şeirinin ustadlarından olan Dədə Şəmşirin əlyazmaları məhv edilib.

Ağdaban kəndində törədilən faciə, əslində, bir günün hadisəsi deyil, iki yüz ilə yaxın müddətdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı davamlı olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı idi.

Ağdaban faciəsi Ermənistan silahlı qüvvələrinin bundan əvvəl Xocavəndin Qaradağlı kəndində, Xocalıda, Goranboy rayonunun Ballıqaya kəndində və digər yerlərdə azərbaycanlı əhalini kompakt şəkildə məhv etmək niyyəti ilə törədilmiş silsilə kütləvi qırğın aktlarından biridir. Bu qətliam zamanı beynəlxalq humanitar hüquq normaları kobud şəkildə pozulub.

Bu faciəyə ilk hüquqi-siyasi qiymət verən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Ağdabanda baş verənləri bəşəriyyətə qarşı törədilən ən böyük cinayət adlandırıb, bunu bütün insanlıq adına utanc kimi səciyyələndirib.

2020-ci ilin Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı azad etməsi ilə ermənilərin xalqımıza qarşı törətdiyi bütün qətliamların qurbanları kimi, Ağdaban şəhidlərinin də qisası alınıb və bu gün onların ruhları şaddır.

**AZƏRTAC**
**8 aprel, 2024**

**Ermənistan müxtəlif təxribatlar törətməklə Azərbaycanı cavab tədbirləri görməyə təhrik etməyə çalışır**

Ermənistan mütəmadi olaraq şərti sərhəddə atəşkəsi pozur və təxribata əl atır. Bu proses Tovuz, Naxçıvan, Kəlbəcər, Laçın və digər istiqamətlərdə müəyyən müddətdir davam edir.

Bunu AZƏRTAC-a açıqlamasında ehtiyatda olan polkovnik, Qarabağ müharibəsi və Silahlı Qüvvələrin veteranı, hərbi ekspert Şair Ramaldanov deyib.

O, Ermənistanın sülh müqaviləsinin imzalanmasında maraqlı tərəf olmamadığını deyir: “Ermənistan müxtəlif dövlətlərin təzyiqləri altında sülh müqaviləsinin imzalanmasından yayınmaqla Azərbaycanla şərti sərhəddə atəşkəsin pozulması üçün zəmin yaradır. Əgər belə olmasaydı, artıq sülh sazişi bağlanardı, müqavilə imzalanmırsa, müharibə şəraitində də istər təxribatlar, istərsə də atəşkəsin pozulmasını normal vəziyyət hesab etmək olar.

**Ermənistan sülh müqaviləsinin imzalanmasından yayınmaqla Azərbaycanla sərhəddə atəşkəsin pozulması üçün zəmin yaradır**

Ona görə də düşünürəm ki, burada Ermənistanın niyyəti məlumdur. Xüsusən də həm müəyyən beynəlxalq səviyyəli danışıqlar ərəfəsində, həm də Azərbaycanda hər hansı tədbirin keçirilməsi zamanı atəşkəsin pozulması halları baş verir. Əgər biz torpaqlarımızın Ermənistan ordusu tərəfindən işğalı dövrünü xatırlasaq, danışıqlar dövründə ya atəşkəs pozulur ya da ki, hər hansı təxribat törədilirdi”.

Hərbi ekspertin sözlərinə görə, aprelin 5-də Brüsseldə ABŞ, Avropa İttifaqı və Ermənistan arasında keçirilən görüş regionda sabitliyə xidmət etmir: “Biz bilirik ki, ABŞ və Avropa İttifaqının bəzi ölkələri Cənubi Qafqaz regionunda öz maraqlarını təmin etmək üçün fəallaşıblar. Onların məqsədlərindən biri Rusiyanın regionda maraqlarını məhdudlaşdırmaqdır. Bu da iki güc mərkəzinin bölgədə maraqlarının toqquşması deməkdir. Bu halda isə Azərbaycan və Ermənistanın müharibə şəraitində olması vəziyyətindən istifadə olunur. Yəni Azərbaycan-Ermənistan şərti sərhədində düşmən tərəfin mütəmadi atəşkəsi pozması, yaxud müəyyən təxribatlar törətməsi beynəlxalq təşkilatların aktivləşməsinə səbəb olur və onların nəzərləri Cənubi Qafqaz regionuna yönəlir. Sonra həmin təşkilatlar tərəfindən onları idarə edən Avropa İttifaqının və ABŞ-ın maraqlarına uyğun müəyyən qətnamələr qəbul olunur. Beləliklə o qətnamələrin əsasında Cənubi Qafqaz regionundan kənar qüvvələrin və ölkələrin bölgəyə müdaxilə etməsi üçün hüquqi əsas yaranır. Belə olduğu halda burada onların öz maraqlarını təmin etmək üçün platforma yaradılır. Ona görə də Brüssel görüşünün arxasında başqa niyyətlər dayanır. Ermənistan ərazisindən Cənubi Qafqaz regionunda Orta Dəhliz adlanan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu yaradılacaq. Orta Dəhlizə də kimin nəzarət etməsi isə indi gündəmdə olan məsələdir. Brüsseldə daha çox Ermənistandan keçən Zəngəzur dəhlizi məsələsinin müzakirə edilməsi istisna olunmur. Ancaq gec-tez Zəngəzur dəhlizi açılacaq və Orta Dəhliz layihəsi bu regiondan keçəcək”.

**Təxribat törədilərsə, Silahlı Qüvvələrimiz adekvat cavabı verməyə, öz vəzifəsini yerinə yetirməyə hazırdır**

Qarabağ müharibəsi veteranı bildirib ki, digər tərəfdən Ermənistan Azərbaycanla sərhədə qoşun yığmasının məqsədi var. Məqsəd Azərbaycan Ordusunu da həmin istiqamətdə qarşılıqlı olaraq qoşun yığmaqla müəyyən addımlar atmağa təhrik etmək və sərhəddəki vəziyyəti eskalasiya kimi qələmə verərək Avropa müşahidəçilərinin vasitəsilə bu məsələni şişirtmək. Hər halda təxribat yönlü addımlar atıla, atəşkəs tez-tez pozula bilər. Bu müəyyən qüvvələrin regionda istədiyi maraqlarını təmin etmək üçün yeganə vasitədir. Ona görə ki, ssenari bu şəkildə inkişaf edərsə və vəziyyət gərginləşərsə, beynəlxalq təşkilatlar fəallaşmağa başlaya və həmin dövlətlərin marağına xidmət edən qərəzli qərarlar qəbul oluna bilər. Həmin qərarların əsasında onlar bu regionda öz maraqlarını təmin etmək üçün plasdarm yarada bilərlər. Beləliklə, Azərbaycan-Ermənistan sərhədində Avropa İttifaqının müşahidə missiyasının sayını artıra bilərlər. Azərbaycan Ordusu isə bütün bu prosesləri izləyir və hər hansı təxribatın qarşısını almaq məqsədilə qabaqlayıcı lazımi tədbirlər görür. Əgər hər hansı təxribat törədilərsə, Silahlı Qüvvələrimiz bunun adekvat cavabını verməyə, öz vəzifəsini yerinə yetirməyə, torpaqlarını qorumağa qadirdir.

“Ona görə də düşünürəm ki, hazırda Ermənistanın həm silahlandırılması, həm də Cənubi Qafqaz regionunda gedən digər proseslər bölgə üçün yaxşı gələcək vəd etmir. Ona görə ki, qonşu ölkəyə dörd il

müddətində maliyyə vəsaiti ayrılacaq. Ermənistan isə həmin vəsaitin bu ölkəyə ayrılması üçün hansısa öhdəçilik götürüb sifarişləri yerinə yetirməlidir. Düşünürəm ki, sülh müqaviləsi imzalanmadığı üçün gələcəkdə Ermənistan atəşkəsi pozmağa və təxribatlar törətməyə, hətta müəyyən şəkildə Azərbaycanı da qarşılıqlı tədbirlər görməyə təhrik etməyə çalışır. Belə ki, aprelin 5-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti təxribatlarına zəmin yaratmaq məqsədilə Azərbaycan Ordusunun müəyyən yaşayış məntəqələrimiz istiqamətlərindəki mövqelərinin qarşısında səngərlərin mühəndis cəhətdən təkmilləşdirilməsi işlərini görməyə cəhd göstəriblər. Ordumuzun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb. Hesab edirəm ki, Ermənistan tərəfindən sərhədi möhkəmləndirmək üçün görülən hər hansı işlər qəbuledilməzdir. Çünki şərti sərhəd o deməkdir ki, sərhəd yoxdur və hələ tam müəyyənləşdirilməyib. Ermənistan silahlı qüvvələrinin bölmələri orada mühəndis işləri apardıqda Azərbaycan Ordusu onun qarşısını almaq üçün əvvəlcə xəbərdarlıq etdi, sonra başqa tədbirlər gördü. Ona görə də düşünürəm ki, son zamanlar Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdəki bölmələrinin mövqelərinin sutka ərzində 30 dəfəyədək atəşə tutulması Brüssel görüşündən sonra proseslərin hansı istiqamətdə getməsindən xəbər verir. Buna baxmayaraq bölmələrimiz şərti sərhəddə bütün əməliyyat şəraitini nəzarət altında saxlayaraq təxribatların qarşısını almaq üçün bundan sonra da lazımi tədbirləri görəcəklər", - deyə Şair Ramaldanov vurğulayıb.

**Azərbaycanın Müdafiə Nazirliyi və dövlətimizin başçısı Xankəndidə qarşı tərəfə xəbərdarlıq mesajları verib**

Ehtiyatda olan polkovnik əlavə edib ki, Azərbaycanın Müdafiə Nazirliyi və dövlətimizin başçısı Xankəndidə çıxışında lazımi cavab tədbirləri görüləcəyi barədə qarşı tərəfə artıq xəbərdarlıq mesajları da verib: "Bütün prosesləri sərhəddə vəziyyətin gərginləşməyə doğru getdiyi kimi qiymətləndirmək olar. Hazırda sərhəddəki bütün təxribatları aprelin 5-dəki Brüssel görüşü ilə əlaqələndirmək olar. Avropa İttifaqı və ABŞ tərəfi Cənubi Qafqazda öz maraqlarını təmin etmək üçün müəyyən şərait yaratmaq istəyirlər. Çünki onlar bu region üçün kənar aktorlardır. Regionda Azərbaycanın təşəbbüskarı olduğu 3+3 formatı mövcuddur. Qərbin isə burada məqsədi Rusiyanın, Türkiyənin müəyyən şəkildə regionda təsirini azaltmaqdır. Odur ki, bunun üçün Azərbaycan və Ermənistan arasındakı müharibə şəraitindən istifadə etmək istəyirlər.

Bundan başqa, coğrafiyaya baxsaq Ermənistan silahlı qüvvələrinin əsasən Naxçıvan, Şərqi Zəngəzur, Kəlbəcər, Laçın və digər istiqamətlərdə ordumuzun mövqelərini daha çox atəşə tutmasını görərik. Bununla düşmən tərəf öz havadarlarına göstərmək istəyir ki, Azərbaycan-Ermənistan şərti sərhədinin bütün istiqamətlərində vəziyyət gərgindir. Ona görə düşünürəm ki, Avropa İttifaqının müşahidə missiyası həmin istiqamətləri izləyərək müəyyən məlumat toplayıb Azərbaycan əleyhinə qətnamələr qəbul olunması üçün öz tabeliyindəki təşkilatlara göndərirlər. Son zamanlar Azərbaycan tərəfi Ermənistanın ölkəmizlə şərti sərhədə Şərqi Zəngəzurda qoşun yığması barədə görüntülər yaymışdı. Lakin bütün bunlara baxmayaraq, düşünürəm ki, Azərbaycan Ordusu istənilən istiqamətdə hər hansı təxribatın qarşısını almağa hazır vəziyyətdədir".

**AZƏRTAC**
**9 aprel, 2024**

**Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun inşasına başlanılıb**

Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun inşasına başlanılıb.

Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) AZƏRTAC-a bildirilib ki, uzunluğu 80 kilometr, hərəkət hissəsinin eni 9 metr, torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir. Layihənin çətin relyefə malik dağlıq ərazidən keçən hissələrində torpaq yatağının genişləndirməsi üçün qaya tipli süxurların mexanizmlə kəsilməsi, layihə eninin alınması üçün qayaların partladılması üsulundan istifadə olunacaq. Yeni inşa edilən yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır.

Bundan başqa, yolboyu 6 körpünün, lazımi yerlərdə istinad divarının inşası da nəzərdə tutulub. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub. Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

**AZƏRTAC**
**9 aprel, 2024**

**“Azərişıq”: Kəlbəcərdə 35 kV-luq elektrik xətlərinin çəkilişi sürətlə aparılır**

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən “Azərişıq” ASC işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, coğrafi relyefinə görə mürəkkəb quruluşa malik Kəlbəcərdə də yenidənqurma işlərini davam etdirir. Yaz aylarında belə qarın ərimədiyi yüksəkliklərdə elektrik təsərrüfatı yenidən qurulur.

“Azərişıq”dan AZƏRTAC-a bildirilib ki, hazırda Kəlbəcər rayonu ərazisində 35 kV-luq elektrik xətlərinin çəkilişi sürətlə aparılır. İstisu, Zod, Zar, Zəylik və Yellicə istiqamətində yenidənqurma işləri başa çatıb. Ağqaya, Qamışlı və Mərcimək istiqamətində isə elektrik təsərrüfatının yenilənməsi işləri davam etdirilir. Qeyd edilən kəndlərdə yeni metal dayaqlar basdırılır və müasir tipli, izolyasiyalı kabel xətləri çəkilir.

Yenidənqurma işləri çərçivəsində Kəlbəcər rayonu İstisu qəsəbəsində yerləşən 110/35 kV-luq yarımstansiyanın tikinti işləri və 110/35/10 kV-luq “Kəlbəcər” yarımstansiyasından çıxan 110 kV-luq hava xəttinin Kəlbəcərdən İstisuya qədər olan hissəsinin çəkilişi davam etdirilir. Həmçinin Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzinin tikinti işləri başa çatıb. Ümumilikdə görülən işlərin yekununda Kəlbəcərlə Laçın rayonlarının elektrik şəbəkələrini birləşdirən dairəvi elektrik təchizat sxemi yaradılacaq.

Qeyd edək ki, “Azərişıq” ASC işğaldan azad edilən ərazilərlə yanaşı, ölkənin bütün regionlarında, bəzi kənd və qəsəbələrdə elektrik şəbəkələrinin yenilənməsi prosesini paralel şəkildə davam etdirir.

**AZƏRTAC**
**12 aprel, 2024**

**Kəlbəcərdə əl qumbaraları və sursat aşkarlanıb**

Kəlbəcər Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində Qozlukörpü kəndi ərazisindən 9 ədəd "F-1" əl qumbarası və partlayıcı başlıqlar aşkar olub.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Bundan başqa, rayonun Çələkdar kəndi ərazisində 16 ədəd "F-1" əl qumbarası, 2 ədəd partlayıcı başlığı, 2 ədəd "M-75" əl qumbarası, 4 ədəd avtomat darağı və çoxlu sayda patron aşkarlanıb.

Partlayıcı sursatlar təhlükəsizlik tədbirləri görülərək ərazidən götürülüb.

**AZƏRTAC**
**12 aprel, 2024**

**ANAMA: Ötən həftə 725 partlamamış hərbi sursat zərərsizləşdirilib – VİDEO**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 8-dən 14-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 1, tank əleyhinə 5 mina və 725 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 476.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**AZƏRTAC**
**15 aprel, 2024**

https://video.azertag.az/site/video/205023

**Tariximizin qanlı səhifələrindən biri olan Başlıbel faciəsindən 31 il ötür**

Son 200 ildə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti tariximizin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, əzəli Azərbaycan ərazilərində uydurma "böyük Ermənistan" dövləti yaratmaq olub. Ermənilərin xalqımıza qarşı vəhşiliklərindən biri də 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində törədilib. Bu gün həmin faciədən artıq 31 il ötür.

AZƏRTAC Başlıbel faciəsi ilə bağlı bəzi məqamlara nəzər salır.

1993-cü il aprelin əvvəllərində Kəlbəcərin ermənilər tərəfindən işğalından sonra 2 minə yaxın əhalisi olan rayonun Başlıbel kəndinin 62 sakini evlərini vaxtında tərk edə bilməmiş və düşməndən qorunmaq üçün dağlara çəkilmişdi. Onlar burada kahalarda cəmi 18 gün gizlənə bilmişdilər. Aprelin 18-də ermənilər sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə silahlı hücuma keçərək 18 nəfəri qətlə yetirdilər, 14 nəfəri isə girov götürdülər.

Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini tez-tez dəyişərək, yalnız gecələr hərəkət etməklə 113 gündən sonra gizli dağ yolları ilə Ermənistan ordusunun mühasirəsindən çıxa bildilər. Kəlbəcər rayonunun ən qədim və böyük kəndlərindən biri olan Başlıbelin tarixi, mədəni və dini obyektləri işğal zamanı dağıdılaraq məhv edildi.

Ötən müddət ərzində Başlıbel faciəsinin araşdırılması, tədqiqi dövlətimiz tərəfindən diqqətdə saxlanılıb. 2017-ci ildə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Başlıbel faciəsi: erməni vəhşilikləri şahidlərin dili ilə" layihəsi əsasında eyniadlı kitab nəşr edilib. Azərbaycan və ingilis dillərində buraxılan nəşrdə Başlıbel kəndində törədilmiş qırğın haqqında canlı şahidlərin, mühasirədə qalanları xilas etmək üçün böyük fədakarlıq göstərmiş şəxslərin xatirələri yer alıb. Başlıbel faciəsi ilə bağlı məlumatlar ABŞ Dövlət Departamentinin Demokratiya, İnsan Hüquqları və Əmək Bürosunun 2021-ci il dünya ölkələrində insan hüquqlarının vəziyyətinə dair illik hesabatına da daxil edilib.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini, ermənilərin öz havadarlarının köməyi ilə iki yüz il ərzində xalqımıza qarşı törədilmiş genosid siyasətinin ağır nəticələrini üzə çıxarmaq imkanı yarandı. Soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atmağa başladı. Bu sahədə məqsədyönlü fəaliyyət Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlandı. Xalqımıza qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" Prezident Fərmanı imzalandı. Bununla da dəhşətli soyqırımlarına, faciələrə hüquqi-siyasi qiymət verilmiş oldu.

Bu siyasətini uğurla davam və inkişaf etdirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində xalqımız böyük Zəfər qazandı. Ermənilərin tarix boyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı məhz 44 gün davam edən Vətən müharibəsində və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatında verildi. Soyqırımı qurbanlarının, şəhidlərimizin qısasını Azərbaycan Ordusu döyüş meydanında alaraq düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Beləliklə, Kəlbəcər rayonu bir güllə atılmadan, şəhid vermədən düşmən tapdağından azad edildi. Baş Planı təsdiq olunmuş Kəlbəcərdə hazırda geniş tikinti-quruculuq işləri həyata keçirilməkdədir.

Faşist ideologiyasına xidmət edən erməni şovinistləri Azərbaycan və türk xalqına qarşı hər zaman düşmən mövqedə olublar. Onlar müxtəlif dövrlərdə xalqımıza qarşı kütləvi qətliamlar törədib, soyqırımı aktları həyata keçiriblər. Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpərdən səhnələri üzə çıxır. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir, təkzibolunmaz arxiv sənədləri, soyqırımları və ermənilərin digər cinayətlərini təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır. Belə ki, 2021-ci il fevralında Şuşa rayonunun Daşaltı kəndində 7 nəfərin basdırıldığı kütləvi məzarlıq tapılıb. 2021-ci ilin aprelində Başlıbeldə də belə məzarlıq, 2022-ci ilin martında Xocalı rayonunun Fərrux kəndində meyit qalıqları aşkar edilib. Həmin ilin sentyabrında Xocavənd rayonunun

Edilli kəndində 18 nəfərə aid meyit qalıqları aşkar edilərək kütləvi məzarlıqdan çıxarılıb. Bu il fevralın 21-də isə Xocalı şəhərinin mərkəzində (keçmiş xalça fabrikinin yaxınlığında) bərpa-quruculuq işləri çərçivəsində aparılan qazıntı işləri zamanı kütləvi şəkildə basdırılmış insan qalıqları aşkarlanıb.

Bütün bu faktlar, həmçinin Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyindən hələ də xəbər olmaması ermənilərin insanlıq əleyhinə ağır cinayətlərindən xəbər verir. Bu cinayətlərə görə erməni vandalları və terrorçuları mütləq beynəlxalq hüquq və ədalət məhkəməsi qarşısında cavab verməli olacaqlar.

**AZƏRTAC**
**18 aprel, 2024**

## Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb - VİDEO

Ağdərə-Ağdam avtomobil yolunun inşasına başlanılıb.

Avtomobil Yolları Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, Suqovuşan-Kəlbəcər avtomobil yolunun 9-cu kilometrindən ayrılan və 33,5 kilometr uzunluğa malik Ağdərə-Ağdam avtomobil yolunun hərəkət hissəsinin eni 9 metrdir. Torpaq yatağının eni 15 metr təşkil edəcək yol 2 hərəkət zolaqlı II texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir.

Yolboyu layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif diametrlərə malik dairəvi boru, düzbucaqlı su keçidlərinin tikintisi aparılır. Bundan başqa, layihə üzrə Ağdam ərazisində Xaçınçay çayı üzərində 5 aşırımlı körpü də inşa edilir. Hazırda körpü dayaqlarının tikintisi icra olunur.

**AZƏRTAC**
**19 aprel, 2024**

https://video.azertag.az/site/video/205261